Çar Rusiyası ilə İran arasında 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsindən sonra məğlub ölkədə yaşayan erməni millətindən olan əhalinin bir hissəsi Qarabağa, o cümlədən Azərbaycan mədəniyyətinin beşiyi sayılan Şuşaya köçürülür. Azərbaycanın bu cənnət məkanında məskunlaşan ermənilər çox keçmir ki, çirkin xislətlərini göstərərək yerli əhaliyə qarşı fitnələr, qətl-qırğınlar törətməyə başlayır. Bədxah ermənilərin XX yüzilliyinin başlarında – 1905-1906-cı illərdə Şuşada yerli camaata qarşı törətdiyi cinayətkar əməllərin – qanlı qırğınların birbaşa şahidi olmuş dövrüm tanınmış ziyalısı, yazıçı və rəssamı Mir Möhsün Nəvvab (1833-1918) bütün bu hadisələri "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı kitabında qələmə almışdır. Həmin illərdə ermənilərin yerli müsəlman əhalisinə - Azərbaycan türklərinə qarşı törətdikləri cinayətlər, məkrli əməllər o dövrün ən məşhur mətbuat orqanlarından olan "Həyat" və "İrşad" qəzetlərinin səhifələrində obyektiv şəkildə işıqlandırılmışdır. Məlum olduğu kimi, "Həyat" qəzetinin (1905-1906) redaktorları Əli bəy Hüseynzadə (1864-1940) və Əhməd bəy Ağayev – Ağaoğlu (1869-1939) olmuşlar. 1906-1907-ci illərdə isə Bakıda nəşr olunmuş "İrşad" qəzetinə Əhməd bəy Ağayev rəhbərlik etmişdir. Məlum olduğu kimi, Əhməd bəy Ağayev eyni zamanda erməni cinayətkar dəstələrinə qarşı yaradılmış "Difai" gizli təşkilatının (1906) qurucusu olmuşdur.

"Həyat" qəzetində Şuşada ermənilərin törətdiyi cinayətlər haqqında məlumatlar, əsasən, "Qarabağ xəbərləri" başlığı altında dərc olunmuşdur. Bu məlumatların bir hissəsi dövrün erməni qəzetlərində Şuşada baş vermiş hadisələrin mənfur qonşularımıza xas olan xüsusi bir saxtakarlıqla işıqlandırılması və "Həyat" qəzetinin bu cür yalan xəbərlərə yazdığı şərh və təkziblərdən ibarətdir. "Həyatın ilk belə yazısına 18 avqust 1905-ci il tarixli nömrəsində rast gəlirik. "Qarabağ xəbərləri" başlıqlı kiçikhəcmli bu yazıda Şuşa hadisələri haqqında ümumi bilgilər verilir. Yazıda bu "qəmavər hadisənin" avqustun 15-də başlanması və iki gün ərzində 45 nəfərin öldürülməsi, onlardan 11 nəfərin erməni millətindən, 34 nəfərin isə müsəlman olması göstərilir. Müəllifi göstərilməyən həmin məqalə bu cümlə ilə bitir: "Bu günə (*cür – M.N.*) bizim torpağımızda olan hadisələr bizim təvarixlərə (*tarixlərə – M.N.*) tazə qara sütunlar daxil edib". Sözügüdən yazıda qəzet rəhbərliyinin "təftiş olunmamız xəbərləri yazmaqdan" çəkinilməsi də diqqətə çatdırılır.

"Həyat" qəzetinin 9 sentyabr 1905-ci il tarixli yazısı isə Müslim adlı bir şəxsin qələmindən çıxmışdır. "Qarabağ xəbərləri" başlıqlı nisbətən irihəcmli məqalədə Müslim Şuşada baş vermiş qanlı hadisələr haqqında ətraflı məlumat verir və onları təhlil süzgəcimdən keçirir. Məqalə müəllifi öncə "Qarabağda neçə illərdən bəri ermənilərin kəmali-sürətlə gələcəkdə gözlənilən bir böyük müharibəyə, bir əzim müqatiləyə (*qətlə – M.N.*)" hazırlaşmaları, müsəlmanların isə buna əhəmiyyət verməmələrini özünəməxsus bir şəkildə qeyd edir. Müəllifin fikrincə, müsəlmanlar ağıllarına belə gətirmirdilər ki, "arşun və tərazudan qeyr bir şey tanımayan millət", yəni erməni birdən-birə əlinə tüfəng götürüb müsəlmanla dava edə bilər. Məqalədə göstərilir ki, bu məsələni yaxşı bilən ermənilər öz işlərində idilər: açıq-aşkar bir şəkildə silah toplayır və könüllü dəstələr yaradırdılar. Bunu görən müsəlmanlar bir qədər şübhələnsələr də, ermənilər onlara: "Bu hazırlaşmaq sizin üçün deyil", – deyib müsəlmanları qəflət yuxusuna saldılar. Müəllif onu da qeyd edir ki, Bakı, Naxçıvan, İrəvan hadisələrindən sonra ermənilərin əsl məqsədi müsəlmanlara bir növ bəlli olsa da, ermənilər onları aldadaraq dedilər: "Bizim yerin əhalisi sair yerlərin əhalisinə bənzəməz: bizlər qədimdən dost-qonşuyuq , hətta bir-birimizlə qohum da olmuşuq". Sadəlövh müsəlmanlar yenə bu hiyləyə inanıb sakitcə öz yerlərində oturdular. Ermənilər isə altdan-altdan öz işlərini görürdülər. Avqustun 15-də gecə saat 2-də 4 nəfər erməni bir nəfər biçarə iranlını xəncərlə doğrayır. Yazıq iranlı can verməmişdən qabaq bircə bunu deyə bilir ki, onu 4 nəfər erməni heç bir səbəb olmadan öldürdülər. Daha sonra məqalədə göstərilir ki, avqust ayının 16-da bir kazak bir erməninin silahını almaq istəyir, lakin erməni əmrə tabe olmur. Bu halda kazak ermənini öldürür. Ermənilər bu hadisədən məharətlə istifadə edərək şayiə yayırlar ki, ermənini müsəlmanlar

öldürüb. Alovu daha da qızışdıran erməni diş həkimi Maşuryan isə deyir ki, yaxınlıqdakı Zarıslı kəndində müsəlmanlar dörd erməni öldürüblər. Ermənilər bu uydurma yalandan istifadə edərək onların bazarında olan müsəlmanların çoxunu öldürdülər. Müsəlmanlar da öz bazarında olan bir neçə ermənini öldürsələr də, şəhərin müsəlman ağsaqqalları 60-dan çox ermənini öz evlərində gizlədib saxlayırlar.

Şuşada baş vermiş bu hadisə bir tərəfdən ermənilərin nə qədər zalım və qəddar, məkrli və hiyləgər olduğunu göstərir, digər tərəfdən isə müsəlmanların bir o qədər ürəyiyumşaqlığına və hədsiz sadəlövhlüyünə dəlalət edir.

Bütün məqalə boyu hiss olunur ki, onun müəllifi ermənilərin riyakar xislətinə yaxşı bələd olan yüksəksavadlı və dərin təhlil qabiliyyətli bir şəxsdir. Məqalə müəllifi ermənilərə fitva verən başlıca təşkilatçı qurumun kilsə olmasını da vurğulayır. O yazır ki, erməni diş həkimi Maşuryan yuxarıdakı xəbəri yaydıqdan sonra kilsədən nazik naqus (zəng) səsi eşidilir və bütün ermənilər özlərini kilsəyə salır. Çox keçmir ki, ermənilər bir növ "teatr" çıxarırlar: bir nəfər yaralını ata mindirib yarasından qan axa-axa bazarlarına tərəf gedir və ermənilərə deyirlər: "Müsəlmanlar bizi qırır". Bunu görən ermənilər onların bazarının yanından ötən müsəlmanların çoxunu öldürür. Sonra isə səngərlərdən və uca yerlərdən şəhərin müsəlmanlar yaşayan hissəsinə güllə yağdırırlar. Ermənilərin "bu növ bihəyalığını görən müsəlmanlar ağsaqqallarının əlindən çıxıb düşmənə hücum etdilər və onları geri oturtdular". Müəllif yazır ki, "ermənilər qoyun sürüsü kimi qaçıb özlərin kazarmaya salmağı qənimət bildilər". Məqalə müəllifi bununla ermənilərin havadarlarının ruslar, kazaklar olduğuna işarə edir. Müslim burada bir diqqətçəkici məqamı da xüsusi olaraq qeyd edir: "Dava bitəndən sonra məlum oldu ki, şəhərin müsəlmanlar yaşadığı hissəsində olan erməni dükan və mağazalarının hamısı salamat və şeylərinə əl vurulmamış qalır. Amma erməni bazarında olan müsəlman dükanlarını ermənilər öylə dağıdıb ki, heç bir asar (*əlamət – M.N.*) qalmayıb". Məqalənin sonunda müsəlmanlar və ermənilərin bu davada verdikləri itkilər də göstərilir: "Müsəlmanlar tərəfindən qətl olunan və yaralanan cümlətan yüzdən əksikdir. Erməni tərəfdən isə neçə yüzlərə baliğ (*çox – M.N.*) olmağı yəqindir, amma özləri nədən isə ölənlərin hesabın gizlədirlər". Bi məlumat bir tərəfdən Şuşada yaşayan əhalinin çoxunun müsəlmanlar olduğunu müəyyən mənada sübut etməklə yanaşı, digər tərəfdən, bizcə, məqalə müəllifinin müsəlmanların igid və şücaətli olmasını qabartmaq niyyətindən irəli gəlir.

Məqalənin sonunda yazının davamının olması da göstərilir. Məqalənin davamı "Həyat" qəzetinin 29 sentyabr 1905-ci il tarixli nömrəsində "Mşaqın iftirasına cavab" başlığı altında dərc olunmuşdur. Məqalə müəllifi Müslim öncə qeyd edir ki, "Mşaq" və başqa erməni qəzetləri yenə də əvvəlki kimi yalan yazmaqda davam edirlər, çünki həmin mətbuat orqanlarında çalışaların niyyəti yalan üzərində qurulub. Müəllif sonra əsl mətləbə keçərək "Mşaq"ın 177-ci nömrəsində "Şuşadan gələn məktub" başlıqlı məqalədəki yazılanların cəfəngiyyat olduğunu diqqətə çatdırır. Müslim sözügedən məqaləyə münasibət bildirərək yazır ki, avqust ayının 26-da (*1905-ci ildə - M.N.*) yenə erməni və müsəlmanın nüfuzlu şəxsləri general-qubernator Taqayşvilinin hüzuruna gələrək baş vermiş hadisələr ətrafında söhbət edirdilər. "Müsəlman bəgləri bu barədə ermənilərə müqəssir sayaraq dedilər: "Ermənilərin komitələri var, hansılar ki, Qafqazda erməni-müsəlman tayfasının arasında dəhşətli və xunriz (*qanlı – M.N.*) hadisələr törədiyorlar, həmçinin də Şuşada. Əgər bu komitələr olmasa, erməni-müsəlman qırğını ola bilməz. O komitələri tərk (*ləğv – M.N.*) etmək lazımdır". Müslim yazır ki, general-qubernator onlara belə cavab verdi: "Cənablar, Rusiyanın hansı tayfasının (*xalqının – M.N.*) komiteti, ya inki firqəsi (*qrupu, partiyası – M.N.*) yoxdur?" Məqalə müəllifi buraya kimi yazılanlar doğru olduğunu, amma general-qubernatorun bu sözlərinin ermənilər tərəfindən quraşdırıldığını diqqətə çatdırır: "Sizin də komitəniz var, bizə məlumdur. Ermənıyə sataşan olmasa, o, hərəkət eləməz". Məqalə müəllifi burada incə bir məqama toxunaraq Taqayşvilinin dilindən yazır ki, Avropaya gedən bəzi ermənilər haray-həşir salıb buradakı bəzi insanların tövsiyəsi ilə özləri üçün müstəqil bir dövlət qurmaq fikrinə düşdülər. Ermənilər bu xam xəyala inanıb qayıtdılar öz yaşadıqları yerə. Onlar gördülər ki, bu iş üçün pul lazımdır. Pulu əldə etmək üçün isə komitə yaratmaq lazımdır. Komitə üçün pul yığmaq xatirinə onlar bir neçə tüccar ermənini öldürdülər. Komitə başçıları özlərini iş görən kimi göstərmək üçün bir neçə rus hakimini də qətlə yetirdilər. Müslim məqalənin sonunda onu da vurğulayır ki, "Taqayşvili onun dilindən qayrılıb "Mşaq" ruznaməsinə (*qəzetinə – M.N.*) dərc olan iftiraları ozü rədd eləsin".

Dövrün digər erməni qəzetləri də həmin vaxt böhtan və iftira yazmaqda geri qalmayıblar. Belə erməni qəzetlərindən biri "Taraz" adlı mətbuat orqanı olmuşdur. Həmin qəzetin 1905-ci il 15-16 avqust tarixlərində Şuşa şəhərində baş vermiş erməni-müsəlman davası ilə bağlı yazısında iddia edilir ki, guya

bu hadisədə müsəlmanlara "Həyat" qəzetinin redaktoru Əhməd bəy Ağayev başçılıq etmişdir. Əhməd bəy Ağayev bu yazıdan xəbər tutan kimi "Taraz" qəzetinin rəhbərliyinə təkzib məktubu yazaraq bildirir: "Özümə lazım bilirəm sizə izhar edim ki, budur üç ildir ki, mən Şuşaya getmirəm və bu müddətin ərzində bir dəfə də Şuşada olmamışam. Və əlavə diqqətinizi buna cəlb ediyoram ki, "Mşaq" qəzetəsində dəxi bir öylə mənim barəmdə böhtan yazılmasına görə "Mşaq"ın mühərriri Tiflisdə sülh və islah verən məclis iniqadı vəqtində mənim özümdən üzr istəyib, əfv etməsini istida (*xahiş – M.N.*) etmişdi." Əhməd bəy Ağayev məktubunun sonunda "Taraz"dan təcili surətdə bu böhtanın təkzibini tələb edir. Qeyd edək ki, Ə.Ağayev Şuşada doğulmuşdur.

"Həyat" qəzetində sözügedən hadisə ilə bağlı dərc olunan yazılardan o da məlum olur ki, erməni yalanlarını yayanlar sırasında din xadimləri daha canfəşanlıq edirmiş. Məsələn, həmin günlərdə yepiskop Aşotun erməni qəzetlərində dərc olunmuş yazısına görə, 26 avqustda keşiş Ter-Voskanyan Hadrutdan yazır ki, "İran tərəfdən hədsiz-hesabsız silahpuş (*silah geyinmiş – M.N.*) olmuş müsəlmanlar ermənilərin üstə basqu etmək niyyəti ilə Aras çayının bu tərəfinə keçiblər". Keşişin yazdığına görə, onlar Hadrutdaki erməni evlərini odlayıblar. Qeyd edək ki, tarixi qaynaqlarda belə bir hadisə haqqında heç bir məlumata rast gəlmirik.

"Həyat" qəzetinin 13 sentyabr 1905-ci il tarixli nömrəsindəki məqalə ermənilərin "Arşaloys" qəzetində Şuşa hadisələri ilə bağlı dərc olunmuş yazının materialları əsasında hazırlanmışdır. Həmin qəzetin yazdığına görə, avqust ayının 16-da "müsəlman bazarında 2 nəfər erməni və 1 nəfər rus qətlə yetişdilər və bu səbəbdən qırğın od kimi alışdı..." Müsəlmanlar ermənileri qırmağa şüru etdilər (*başladılar – M.N.*). Qeyd edək ki, bütün mötəbər mənbələrdə Şuşada sözügedən qanlı hadisənin avqustun 15-i gecə başlaması və bunun kökündə 4 erməninin bir iranlı zavallını öldürməsinin dayandığı göstərilir. Erməni qəzeti bu hadisəni özlərinə sərf edən şəkildə təsvir etdikdən sonra qeyd edir ki, "erməni tərəfindən qırılanlar yüzdən yuxarı degil, likən müsəlmanların tərəfindən tələf olanların ədədi mindən yuxarıdır". Qeyd edək ki, ermənilərin müştəbehliyini, özlərini tərifləməsini bir daha sübut edən bu məlumat hadisə şahidlərinin yazdıqlarının tam əksinədir, ağ ylandan ibarətdir.

Qeyd edək ki, "Həyat" qəzeti "Arşaloys"dakı bu yazını dərc etdikdən sonra ona şərh də yazır. "İdarədən" başlıqlı bu şərhdə Əhməd bəy Ağayev yazır: " Əcəba, erməni mətbuatının "sadiq", "arif" vəkilləri "doğru" məqalələr yazıyorlar?" Sözügedən şərhdə daha sonra qeyd edilir ki, ermənilr Şuşanın müsəlman mərhəllərinin məscidlərini odladıqları halda, müsəlmanlar yaşayan yerdə erməni mağazalarının salamat qalmağı hamıya məlumdur. Bundan əlavə sözügedən erməni mətbuatının biri digərini təkzib edən bu qəbildən olan yazıları onların ikisinin də yalan olduğunu aşkara çıxarır.

Əhməd bəy Ağayevin redaktorluğu ilə 1906-1907-ci illərdə Bakıda nəşr olunmuş "İrşad" qəzetində də ermənilərin Qarabağda, o cümlədən Şuşada törətdikləri qətl-qırğınlar haqqında bir sıra məqalələr dərc olunmuşdur. Həmin məqalələrdən biri qəzetin 28 fevral 1907-ci il tarixli nömrəsində dərc olunmuş "Xüsusi müxbirimizdən. Şuşa uyezdindən" başlıqlı yazıdır. Məqalə "Şuşa uyezdində sakin olan Gülablı camaatının (*indi Ağdam rayonuna tabedir – M.N.*) rişsefidləri (*ağsaqqalları – M.N.*) Rza Həsən oğlu, Məşədi Abbas Mustafa oğlu, Məşədi Tağı, Kərbəlayi Məhərrəm oğlu və qeyriləri" tərəfindən yazılmışdır. Kiçikhəcmli bu yazıda göstərilir ki, ətraf "erməni camaatları bizi kəndlərimizdən çıxarıb, evlərimizi yandurub və olan-qalanlarımızı qarət edib aparublar və özümüz qaçub hər on ev, igirmi ev, bir kəndin küncündə, hava altında qalmışıq. Aclıq bir tərəfdən, soyuq bir tərəfdən. Allahi-əzimüşşən heç bir müsəlman qardaşlara bu günü göstərməsün ki, biz çəkirik". Məqalədə maraq doğuran məqamlardan biri də sapı özümüzdən olan baltaların kasıblara etdiyi zülmün vurğulanmasıdır. Məqalə müəllifləri diqqəti bu məsələyə çəkərək yazırlar: "Təəccüb burasıdır ki, bizim bu erməni **kirvələrimiz** (*seçdirmə bizimdir – M.N.*) bizim üstümüzə tökülüb bizləri bu günə salan zamanlarda bizim bu igidlərimiz nərəyə girmişdilər?!" Verilmiş nümunədən göründüyü kimi, Şuşa şəhəri və ətrafının yerli sakinləri ermənilərə mehriban davranırmış və onları kirvə adlandırırmışlar. "İrşad" qəzetinin 30 aprel 1906-cı il tarixli nömrəsində "Qafqaz xəbərli: Şuşadan" başlıqlı yazıda da erməni zülmündən danışılır. Kiçikhəcmli bu məqalədə göstərilir ki, Malıbəyli ağsaqqallarından Məşədi Nəcəfqulu və Məşədi Nərimanı Xankəndindən qayıdarkən yolda ermənilər boğub öldürüb, Balahacı Məmmədi isə qılçasından yaralayıblar.

Qəzetin 18 iyul 1906-cı il tarixli nömrəsində "Şuşa əhvalatı" başlıqlı yazıda göstərilir: "Şuşa müsəlmanları naçar qalubdurlar. Müsəlman hissəsinin yarısı yanubdur. Qoloşçapov (*Şuşanın general-*

qubernatoru – M.N.) ermənilər ilə bir yerdə iş görür. Atışma bir-iki saat kəsilib sonra təkrar başlandı. Qoloşçapov dünən yüzdən artıq top atdurdı. Səsi aydın eşidilirdi. Bu topların hamısı müsəlman hissəsinə atulubdur". Məqalədə daha sonra ermənilərin Şuşanın müsəlman hissəsinə od vurmaları, yolları bağlamaları qeyd olunur.

Qəzetin həmin tarixli nömrəsində dövrün tanınmış ictimai xadimi, görkəmli dilçi alimi, Fərhad Ağazadənin (1882-1931) "Ağlar günümüz" adlı məqaləsi də dərc olunmuşdur. F.Ağazadə məqalənin əvvəlində yazır: "Məmməd şaha (*Ağa Məhəmməd xan Qacar – M.N.*), Abbas Mirzəyə basılmayan biçarə Şuşa imdi nə günlərə qalıbdur? Kimlərin ayaqlarunun altında dağılıyor? Arvad-uşaqların ahü nalələri, qəbirlərdə yatan Qarabağ banilərinə rahatlik verirmi?...Şuşa imdi kimlərin əlində xar və zəlil olubdur?... Rus generalı Qoloşçapov hansı günahi-kəbirün (*böyük günahın – M.N.*) üstə binəva Şuşa müsəlmanlarını erməni bədəfkarlarına mühasirə etdirub topların ağzını məzlumların evlərinə bağlatdurublar? Qazarov gibi erməni əfsərlərinə (*zabitlərinə – M.N.*) ixtiyar verüb şəhərin bir yarısını odlara dutdurur?" F.Ağazadə çox dəyərli bu publisistik yazısında Qoloşçapovu "vicdansız general" adlandıraraq yazır: "Yolları bağlayub da şəhəri mühasirə edüb də mənzurunuz (*məqsədiniz – M.N.*) müsəlmanları qətli-am etməkdirmi?" Müəllif daha sonra Qoloşçapovu " daşnaksyonun, aşotların, komissiyonların rəsmi pişxidməti (*baş xidmətçisi – M.N.*) adlandıraraq yazır: "Cənab Qoloşçapov bir şəxsin qəbahəti üstində on iki min müsəlmanı qətlə yetirmək mümkünmidir?"

Şuşada doğulmuş, məşhur Qori Müəllimlər Seminariyasını bitirmiş görkəmli ictimai xadim və dilçi alim sözügedən məqaləsini bu sözlərlə bitirir:

"Ey mənim anam və bacılarım! Sizə bir çarə qalmayıbdır. Şan və namusunuzu müdafiə etmək üçün Dəlikdaş adanlı qayadan atın özünizi üzi aşağa!!"

Maraqlıdır ki, "İrşad" qəzetinin sözügedən nömrəsində dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin (1885-1948) "Filankəs" imzalı "Oradan-buradan" başlıqlı məqaləsi dərc olunmuşdur. Məqalə bu sözlərlə başlanır: "Qarabağda – Şuşa şəhərində "sülh" olubdur: hər kəs öz "işinə" məşğuldur. Məsələn, hakimin "işi" odur ki, hökm edüb camaatı qırdırsun. Şuşa hakimi haman bu "işə" məşğuldur. Qoşunun "işi" odur ki, top və tüfəng atub evləri darbadağın etsün. Şuşa qoşunu haman bu "işə" məşğuldur". 1906-cı ildə ermənlərlə müsəlmanlar arasında bağlanmış sülhə istehza ilə yanaşan müəllif məqaləsini bu sözlərlə bitirir: "Qərəz şəhərdə "sülh"dür: hər kəs öz işində, öz gücində və hər yerdə tamam sakitlik və bərqərardır. Görünür ki, general Qoloşçapovu Qarabağa "sülh" içün göndərən həriflər çox arif və gələcəgi nəzərdə dutan adamlar imişlər ki, bu gunə (*cür – M.N.*) təcrübəli iş dutublar. Həqiqət, rəvayət edirlər ki, Şuşa şəhərində bu gün "sülh", "qayda", "sakitlig"in davamı yalğuz bir generaldan asılıdır. Odur ki, onun Qarabağdan çıxıb sair yerlərə getməsini "sülh" tərəfdarları heç bir vəqt arzu etmiyorlar".

Məsələ ilə bağlı qeyd edək ki, məqalədə adı çəkilən Qoloşçapov açıq-aşkar bir şəkildə ermənilərin tərəfini saxlayır və müsəlmanları qırmaqda onlara hər cür kömək etmişdir. Bu məqamda onu da qeyd etmək lazımdır ki, 1988-ci ildə mənfur ermənilər Xankəndində məlum hərəkətə başladıqdan və onlar tərəfindən çoxlu qırğınlar törədildikdən sonra keçmiş SSRİ-nin ovaxtkı rəhbərliyi Qarabağda sülh yaratmaq üçün Volskinin başçılığı ilə bir komitə yaratmışdı. Volski də eyni ilə sələfi Qoloşçapovun yolunu davam etdirərək ermənilərə əlindən gələn köməyi edirmiş.

"İrşad" qəzetinin 20 iyul 1907-ci il tarixli nömrəsində dərc olunmuş Məmmədağa Şaxtaxtinskinin məqaləsində də Qoloşçapovun Şuşadakı ermənilərə açıq-aşkar dəstək göstərməsindən danışılır. Müəllif yazır: "Qafqaz əyalətinin hamı müsəlman əhalisinin adından ehtirami-tamam ilə təvəqqe edirik ki,...mirqəzəb Qoloşçapov həmin dəqiqə Şuşadan qovulsun".

Beləliklə, "Həyat" və "İrşad" qəzetindəki Şuşa hadisələri ilə bağlı yazılar ermənilərin müsəlmanlara qarşı qəddarlığını və bu işdə rusların onlara havadarlıq etdiklərini açıq-aşkar sübut edir.

P.S. "Həyat" qəzetində Müslim imzalı məqalə müəllifinin kimliyi ilə maraqlandıq. Məlum oldu ki, dövrünün görkəmli publisisti olmuş Haşım bəy Vəzirov (1868-1916) bir sıra məqalələrini bu imza ilə yazmışdır. H.Vəzirov Şuşada doğulmuş, Bakıda vəfat etmişdir.

LİSELERDE TÜRK DİLİ VE EDEBİYATI EĞİTİMİNE ÖĞRETMENLERİN GÖZÜNDEN BİR BAKIŞ

Şükrü OLCAY

Doktora Öğrencisi, Marmara Üniversitesi, Eğitim Bilimleri Enstitüsü, Türk Dili ve Edebiyatı Öğretmenliği, İstanbul, Türkiye

ORCID ID: https://orcid.org/0000-0002-2068-3289

ÖZET

Bu çalışmada liselerdeki Türk dili ve edebiyatı eğitimine öğretmenlerin gözünden bakılmaya çalışılmıştır. Bu amaçla bir anket çalışması yapılmıştır. Bu anket çevirim içi ortamda gerçekleştirilmiştir. 550 kişinin katıldığı bu ankette, pandemi koşullarından dolayı, katılımcılara sosyal medya ve whatsapp uygulaması üzerinden ulaşılmıştır.

Bu ankette öğretmenlerin aldıkları ücretten memnun olup olmadıkları, üniversitede aldıkları eğitimin yeterlilik derecesi, kendilerini MEB'e ve okul yönetimine karşı özgür hissedip hissetmedikleri sorulmuştur. Bununla birlikte öğretmenlerin müfredata bağlı kalma sıklıkları, edebiyat eğitiminde tür odaklı bir eğitimin mi yoksa dönem odaklı bir eğitimin mi daha faydalı olacağı ve öğretmenlerin anlatmakta en zorlandıkları dil ve edebiyat konuları anketteki belli başlı sorular olmuştur.

Bu çalışmada ulaşılan sonuçlar kısaca şöyle özetlenebilir: Katılımcıların %64,9'unu kadınlar oluşturmuştur. %89,6 gibi ezici bir çoğunluk, öğretmenlerinin maaşının yetersiz düzeyde kaldığını düşünürken maaş konusundaki memnuniyetin ders anlatımına yansıyacağını düşünenler %83,8 olmuştur. Katılımcıların çoğunluğu üniversitede aldıkları eğitimin öğretmenlik için yeterli olmadığını düşünürken (%58,6) liselerde ezberci bir eğitim verildiği iddiasına katılanların oranı %57,5 olmuştur. Ders anlatırken müfredat dışına çıkarım diyenlerin oranı %77 olurken olurken müfredat dışına çıkma sıklığı sorusuna "ara sıra çıkarım" diyenler %59,3 ile çoğunluğu oluşturmuştur. Katılımcıların %69'u kendini MEB'e ve okul yönetimine karşı özgür hissetmediklerini belirtirken %56,6'sı kendini öğrencilerine karşı özgür ve rahat hissetiğini söylemiştir. Edebiyat öğretiminin dönem merkezli olması gerektiğini düşünenler %74,7 ile çoğunluktadır. Katılımcıların %82,8'i edebiyat öğretmeninin diğer öğretmenlere kıyasla daha yaratıcı olması gerektiğini düşünürken lise öğrencilerinin hazırbulunuşluklarının yeterli düzeyde bulanların oranı küçük bir farkla (%54,6) çoğunlukta kalmıştır. Türk dili ve edebiyatı dersine ayrılan haftalık ders sayısının yeterliliğinde %68'lik bir ortak görüş söz konusudur. Öğretmenlerin dil bilgisi dersinde anlatmakta en çok zorlandıkları konular: anlatım bozuklukları, yazım ve noktalama ve fiilde çatı olmuşken edebiyatta: divan edebiyatı, cumhuriyet devri Türk edebiyatı ve servet-i fünûn olmuştur.

Anahtar Kelimleler: Türk Dili ve Edebiyatı, Lise, Öğretmen, Anket.

ABSTRACT

In this study, it has been tried to look at the teaching of Turkish language and literature in high schools from the perspective of teachers. For this purpose, a survey study was conducted. This survey was conducted online. Participation in this study, in which 550 people participated, was ensured through social media. In this study, in which 550 people participated, due to the pandemic conditions, the participants were reached via social media and whatsapp application.

In this survey, it was asked whether the teachers were satisfied with their wages, the degree of sufficiency of the education they received at the university, and whether they felt free against the Ministry of National Education and the school administration. However, the frequency of teachers' adherence to the curriculum, whether a genre-oriented or a period-oriented education would be more beneficial in literature education, and the language and literature subjects that teachers had the most difficulty in explaining were some of the questions in the survey.

The results obtained in this study can be briefly summarized as follows: The majority of the participants (64.9%) were women. While an overwhelming majority of 89.6% thought that their teachers' salary was insufficient, those who thought that their satisfaction with the salary would be reflected in the lectures were in the majority with 83.8%. While the majority of the participants thought that the education they received at the university was not sufficient for teaching (58.6%), the rate of those who agreed with the claim that a rote education was given in high schools was 57.5%. The rate of those who went out of the curriculum while teaching was 77%. While 69% of the participants stated that they did not feel free towards the Ministry of National Education and the school administration, the majority (56.6%) stated that they felt free and comfortable with their students. Those who think that literature education should be term-centered are in the majority with 74.7%.While the majority of the participants (82.8%) thought that the literature teacher should be more creative compared to other teachers, the rate of those who found the readiness of high school students at a sufficient level remained in the majority (54.6%) with a small difference. There is a common opinion of 68% on the adequacy of the number of weekly lessons allocated to the Turkish language and literature course. While the subjects that the teachers had the most difficulty in explaining in the grammar lesson were: expression disorders, spelling and punctuation and voiceof verb, in literature: divan literature, Turkish literature of the republican era, and servet-i funun.

Keywords: Turkish Language and Literature, High School, Teacher, Questionnaire.

NARRATİV (ÖYKÜSEL) AİLE PSİKOTERAPİSİ TEORİSİ - PRATİK SORUNLAR VE ANA GÖREVLER

GESTALT APPROACH TO FAMILY CONSULTATION THE ROLE OF K. LEVIN'S THEORY

Teacher of Shamakhi branch Teyba Efendiyeva

Azerbaijan State Pedagogical University

ORCID ID: 0000-0003-3898-9566

Anahtar Sözcükler: psikoloji, terapi, uygulamalı, kuramsal, öykü, olay, aile, kurallar, düzenleme.

Aile psikoterapisi, ailedeki sosyo-psikolojik kalıpları incelemeye hizmet eden ana psikoterapi alanıdır. Amerikan Psikolog ve eğitimci, bilişsel süreçlerin araştırılmasında önde gelen uzmanlardan biri olan ve Amerikan Psikoloji Derneği'nin ilk başkanı olan Jerome Bruner, psikolojide "narrativ (öyküsel) psikoterapisi" terimini ortaya attı ve aile psikoterapisinde kullanılan hikaye anlatımı, aile psikoterapisinde büyük bir etkiye sahipti. kavram. Anlatı (İngilizce ve Fransızca anlatı - Latince "açıklamak, tanımlamak") - birbiriyle ilişkili olaylar hakkında özgürce oluşturulmuş, okuyucuya veya dinleyiciye kelimeler veya görüntüler şeklinde sunulan bir hikaye. Genellikle, deneyimlerini yorumlama biçimleri ve yaşamlarındaki olaylarla ilişki kurma biçimleriyle insanların yaşamları üzerinde önemli bir etkiye sahiptirler. [1; 4].

Anlatı metaforu, psikoterapistin şunları yapmasına izin verir: (1) danışanın hikayesine açık bir ilgiyle empatik bir işbirliği pozisyonu almak; (2) danışanın güçlü olduğunu kanıtladığı ve iç kaynaklarının zenginliğini keşfettiği bölümleri arayın; (3) müşteriye pozisyonlarını empoze etmeden yeni hikaye anlatımına saygılı bir yaklaşım bulmak için soruları kullanın; (4) bir kişiyi benzersiz bir geçmişi olan, asla etiket takmayan biri olarak görmek; (5) insanların yaşamları hakkında alternatif hikayelere yer açmak için benimsedikleri baskın kültürel normdan farklılaşmalarına yardımcı olmak (White, 1995; Freedman, Combs, 1996) [2; 6].

Anlatı yaklaşımının savunucuları, sorunların, kültürümüzün insanları kendilerine ve dünyaya dar, kendi kendini yok eden kısıtlamalarla bakmaya zorlamasından kaynaklandığına inanıyordu. Bir anlamda anlatı psikoterapisi, problemin sorumluluğunun kapsamını genişletir. Psikanalistler bireyleri suçladılar, sistematik psikoterapistler bireyi ve aileyi savundular, ancak şimdi anlatı psikoterapisinin savunucuları bireyi ve aileyi savunuyor ve tüm sorunlar için toplumu suçluyor.

Anlatı yaklaşımının savunucuları davranışsal sonuçlara odaklanmazlar. Bunun yerine, anlatıcılar insanların hikayelerini nasıl paylaştığına odaklanır. Sadece gördüklerini (gecikmeler, kınamalar) değil, aynı zamanda gözlemlerini nasıl yorumladıklarını da anlatan hikayelerdir ("beni sevmiyorlar", "bende kusur buluyorlar"). Anlatı yaklaşımının savunucuları, bu dar görüşlü görsel kalıpları, bir kez kurulduktan sonra, her bir tarafı soruna tutarlı ve tutarlı yanıtlarla yanıt vermeye zorlayan "soruna doymuş" anlatılar olarak adlandırır.

Anlatı psikoterapisinin savunucuları, bir kişi veya ailede patoloji arayışının, kültürel anlatıların yaşamlarımız üzerindeki zararlı etkilerine odaklanması gerektiğini öne sürüyorlar.

Öyküsel psikoterapistler sorunları çözmezler. Tercihlerini genişletebilmeleri için insanları tercih ettikleri kültürel esinli hipnozdan uyandırmakla ilgileniyorlar. Ve anlatı psikoterapistlerinin dediği gibi, işleri, kendileri hakkında yeni hikayeler yaratmak için danışanlarla birlikte yazarlık yapmaktır.

Öyküsel aile psikoterapisinin sosyo-yapıcı temeli, tüm yaklaşıma politik bir gölge sağlar ve ailenin dinamiklerini ve çatışmaların doğasını azaltır. Aile içinde işlevsiz biçimler aramak yerine, anlatı ailesindeki psikoterapistler bazı yıkıcı (dış) kültürel değerlerin etkilerini ararlar. Aile üyeleri bir araya gelip bu değerlere ve dış etkilere karşı savaşmaya davet edilir. Tarafsızlık yerine koruma sağlarlar.

EDEBİYAT

1. Браун Дж., Кристенсон Д., Теория и практика семейной психотерапии. СПб.: Питер, 2001, 352 с.

2. Варга А.Я., Введение в системную семейную психотерапию. М.: Когнито-центр, 2009, 182 с.

3. Николс М., Шварц Р., Семейная терапия. Концепции и методы. М.: Эксмо, 2004, 960 с.

4. Пэпп П., Семейная терапия и её парадоксы. М.: Независ. фирма «Класс», 1998. 288 с.

5. Семейная психотерапия, СПб.: Питер, 2000, 512 с.

6. Хамитова И.Ю., Теория семейных систем Мюррея Боуэна /Журн. практ. Психологии и психоанализа. 2001. No3, с. 34-45.

Keywords: counseling, development, psychology, problem, family, social, relationships, theory, internal, role.

Kurt Zadek Levin is a German and American psychologist whose ideas have greatly influenced American social psychology and many other schools and areas of psychotherapy. Many of the scientific issues he dealt with were basic theories for psychologists - claim level, group dynamics, social perception, game situations, success and avoidance of failure, and so on.

In Kurt Levi's theory, the idea a living space can be found. Habitat is the sum of possible events that can affect human behavior. It covers everything you need to know to explain and understand the behavior of a particular person in a given psychological environment at a given time [1; 2].

Kurt Levy's ideas were used by Frederick Salomon Perls (also known as Fritz Perls) in his counseling practice. Although F. Perls has a negative attitude to the theory, his approach is based on the main ideas about the process of self-regulation of the organism and the ways of contact with the environment. The process of self-regulation leads to the formation of a figure (gestalt) [3; 4].

Gestalt is a systemic concept that can be defined as a specific organization of parts that cannot be changed without destroying it, forming a certain whole, as a form, structure, and configuration.

Unlike a family psychotherapist who works in a systematic approach that prefers to talk to the family in person, the family gestalt psychotherapist invites family members to talk to each other about their concerns. The psychotherapist observes the interaction of the family, noting not only some obvious manifestations, but also those that are sometimes more difficult to feel - for example, "pronounced absence" such as the lack of interaction in the subsystem of any family. At the same time, he is not interested in the content of conversations, but in the contact process itself: who interacts more closely with whom, who listens or does not listen, who joins, who is not in contact with whom at all, when energy decreases and energy comes, where slowing occurs, etc. . ... Based on the information obtained in this way, it creates a psychological picture of the "good form" of the family and builds psychotherapeutic interventions based on it. In the first stage, the positive qualities of the family - should serve to realize the potential to play roles; second, to be aware of non-symptomatic roles "showing themselves"; and finally, the third is that the family gains a new experience of communication [2; 5].

LITERATURE

7. 1 Qurbanova L., Ailənin psixoloji problemləri və həlli yolları, Bakı, 2018, 256 s.

8. Hüseynov E.A., Ailənin psixoterapiyası, Bakı, 2021, 242 s.

9. Перлз Фредерик Саломон, Гештальт-подход. Свидетель терапии, (пер. Папуш М.П.), Изд.: Психотерапия, М., 2007.

10. Хейли Дж., Эриксон М., Стратегии семейной терапии. М.: Ин-т Общегуманит. исслед., 2001. 448 с.

11. Фридрих С., Перлз Гудмен, Ральф Хефферлайн, Практикум по гештальт-терапии, М., Изд.: Психотерапия, 2007, 240 с

ŞƏKİ QƏZASI XX ƏSRİN 20-30 CU İLLƏRİNDƏ. ŞƏKİ ÜSYANI

SHEKI UYEZD IN THE 20-30S OF THE XX CENTURY. SHEKI UPRISING

Rahim Həsənov

AMEA Şəki Regional Elmi Mərkəzi

Şöbə müdiri

Açar sözlər: Şəki, sovet, kollektivləşmə, üsyan

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə milli dövlətçiliyimizə yenidən son qoyuldu. Ölkə Sovet Rusiyası tərəfindən işğal edildi. Şəkiyə 11-ci "Qızıl ordu" hissələri may ayının əvvəlində daxil oldu. Bundan sonra əvvəlki hökümətdə vəzifədə çalışan dövlət məmurları, sahibkarlar, ruhanilər və ümumiyyətlə zadəgan təbəqəsi təqiblərə məruz qaldı.

Şəki XIX əsrdən böyük kapitalist şəhəri olduğundan , Sovetlərin milliləşdirmə siyasəti, özəl müəssisələrə son qoymaları xalqın müqaviməti ilə rastlaşırdı. Yeni iqtisadi siyasət dövründə müəyyən qədər dirçəliş baş versə də Şəkinin əsasə sənaye sahəsi olan ipək sənayesi dərin tənəzzül dövrünü keçirirdi. Bolşeviklərin yalançı vədlərinə inanmış müəyyən təbəqə də, 20-ci illərin ikinci yarısında hökümətə qarşı öz narazılığını bildirirdi. 1929-cu ildən başlanmış kollektivləşdirmə siyasəti isə xalqın səbr kasasını daşdırdı. Fərdi əndli təsərrüfatlarının ləğv edilməsi məsələsi ölkənin başqa yerlərində olduğu imi Şəkidə də narazılıqla qarşıladı. Xalqın ziyalı təbəqəsinın bir hissəsi Sovet qurululuşuna qarşı üsyan etmək üçün təliğatlara başladılar. Hətta əhali arasında sayələr yayılmışdı ki, Türkiyədən kömək gələcək və Azərbaycan bolşevik işğalından azad ediləcək .

XX əsrin 30-cu illərində Sovet hakimiyyətinə qarşı baş vermiş Şəki-Zaqatala üsyanı nəyinki Azərbaycanda hətta ittifaqın mərkəzi olan Moskavada da ciddi müzəkirələrə səbəb olmuşdur. Azərbaycan müstəqillik ldə etdikdən sonra üsyanla bağlı müxtəli tədqiqatlar aparılsa da üsyana aparan yol, üsyandan əvvəl din xadimlərinin təşkil etdikləri " Şeyx" hərəkatı ilə bağlı tədqatlar aparlımamışdır. Halbuki, üsyandan əvvəl və sonra baş verən hadisələr vətən tarixinin araşdırıması aspektindən olduqca önəmlidir.

Key words: Sheki, soviet, collectivization, uprising

It was again ended to our national statehood with decline of Azerbaijan Democratic Republic. The country was occupied by Soviet Russia. The parts of "Golden Horde" entered to Sheki in early of May. After that working state office bearers in the previous government such as employers, chlergymen and generally aristocratic layer was persecuted to chases.

Although there was some revival during the new economic policy, silk industry, which was the main industry of Sheki, was in deep decline. In the second half of the 1920s, a certain class who believed in the false promises of the Bolsheviks also expressed their dissatisfaction with the government. The policy of collectivization, which began in 1929, exhausted the patience of the people. The abolition of individual farms was met with dissatisfaction in Sheki, as elsewhere in the country. Part of intelligentsia of people began to propagandize for to rebel against the Soviet system. There were even rumors that help would come from Turkey and that Azerbaijan would be liberated from Bolshevik occupation. The Sheki-Zagatala rebellion against the Soviet government in the 1930s had been caused serious debate not only in Azerbaijan but also in Moscow which was the center of the union. Although various studies have been conducted on the uprising after Azerbaijan gained independence, no research has been conducted the "Shaikh" movement organized by churchmen before the uprising. Although the events took place before and after the uprising are very important from the viewpoint of studying the history of the homeland.

CÜMLƏ MƏTN DİLÇİLİYİNİN OBYEKTİ KİMİ

Rəhimova Gulnara Sahib qizi

Azərbaijan Tibb Universiteti

XÜLASƏ

Təqdim edilən bu məqalə çərçivəsindəki elmi araşdırmada cümlə mətn dilçiliyinin tədqiqat obyekti kimi nəzərdən keçirilir, cümlənin daxili və səthi quruluşa malik olması haqqında elmi mülahizələr təhlil edilir. Araşdırma zamanı dilçiliyin təsviri və müqayisəli-təsviri metodlarından istifadə edilir. Mətn dilçiliyi müasir dilçilikdə inkişaf etməkdə olan yeni sahələrdən biri hesab edildiyindən bu sahə ilə bağlı tədqiqatlar, xüsusiilə cümlə anlayışına yeni yanaşmaların sərgiləndiyi tədqiqatlara ehtiyac duyulduğundan bu mövzu xüsusi aktuallıq kəsb edir. Məlum olduğu kimi, ənənəvi dilçilikdə cümlənin qrammatik xüsusiyyətlərinin ən ümumi və özəl cəhətləri təsvir olunur, kontekstdə olmayan, ayrılıqda, müstəqil işlənən cümlənin struktur, semantik və kommunikativ xüsusiyyətləri öyrənilir. Mətn dilçiliyi müxtəlif paradiqmalarda tədqiqat aparan və müxtəlif dil və nitq hadisələrini öyrənən dilçilərin maraqlarının müasir inteqrasiyası sahəsidir. Mətn dilçiliyinin obyekti kimi cümlənin kontekstual məna baxımından araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Cümlədə mənanın təşəkkülü, formalaşması və genişlənməsində dilin ən kiçik mənalı vahidləri hesab olunan morfemlər də həlledici rol oynayır. Bu tədqiqat çərçivəsində bu kimi məsələlərin arşdırılması nəzərdə tutulmuşdur. Burada müxtəlif dilçi-tədqiqatçıların mətn dilçiliyi çərçivəsində cümlə ilə bağlı fikir və mülahizələri müqayisəli şəkildə təhlil edilir, onlara münasibət bildirilir. Tədqiqat zamanı əldə edilən elmi nəticələr sonda müddəalar şəklində təqdim edilir. Burada qeyd edilir ki, bəzən ünsiyyət prosesində açıq-aşkar deyilməyən eyham, ehtimal hesab oluna biləcək fikir mənanın açılmasına xidmət göstərə bilər. Ünsiyyət prosesində ilk baxışdan vacib hesab olunmayan kiçik bir işarə və eyham da mənanın izahında həlledici ola bilər.

Kontekstdən kənar cümlə ilə mətn vahidi olan cümlə arasında əsaslı fərq mövcuddur.

Cümlə mətn dilçiliyinin əsas tədqiqat obyekti kimi ikili quruluşa: dərin və səthi quruluşa malik kontekstual səciyyəli mətn elementidir.

Açar sözlər: cümlə, mətn, mətn dilçiliyi, kontekstual məna, daxili struktur.

ABSTRACT

In the scientific research within the framework of this article, the sentence is considered as the object of research of text linguistics, the scientific considerations about the internal and superficial structure of the sentence are analyzed. Descriptive and comparative-descriptive methods of linguistics are used in the research. Since textual linguistics is considered to be one of the emerging new fields in modern linguistics, this topic is especially relevant because of the need for research in this field, especially in which new approaches to sentence understanding are exhibited. As it is known, traditional linguistics describes the most general and specific features of the grammatical features of a sentence, studies the structural, semantic and communicative features of a sentence that is not contextual, developed separately. Text linguistics is a field of modern integration of the interests of linguists who conduct research in different paradigms and study different language and speech phenomena. The study of the sentence in terms of contextual meaning as an object of text linguistics is of particular importance. Morphemes, which are the smallest semantic units of language, also play a decisive role in the formation, formation and expansion of meaning in a sentence. This study aims to investigate such issues. Here, the views and opinions of different linguists-researchers on the context of the sentence within the framework of textual linguistics are compared and commented on. The scientific results obtained during the research are presented in the form of provisions at the end. It is noted that sometimes hints that are not clearly expressed in the communication process can serve to reveal the meaning, which can be considered probable. In the process of communication, even a small gesture or hint that is not important at first glance can be decisive in explaining the meaning.

There is a fundamental difference between a sentence that is out of context and a sentence that is a unit of text.

A sentence is a contextual text element with a dual structure: deep and superficial structure, as the main object of study of text linguistics.

Keywords: sentence, text, text linguistics, contextual meaning, internal structure.

GİRİŞ

Cümlənin kontekstual mənası, əsasən, fonetik, leksik, qrammatik vasitələrin köməyi ilə formalaşır. Morfoloji vasitələrə həmçinin köməkçi nitq hissələri, bağlayıcı və bağlayıcılı sözlər, ədatlar,modal sözlər və s daxildir. Cümlənin baş və ikinci dərəcəli üzvlərinin aktuallaşması məsələsinin öyrənilməsi və informativliklə aktuallaşma arasında əlaqənin təhlili də olduqca əhəmiyyətlidir. Əgər cümlədə təyin aktuallaşırsa, artıq o yeni mahiyyət kəsb edir. Aktuallaşmış təyin məzmununda təyin anlayışı olan məlumatın daşıyıcısı və ötürücüsü vasitəsi funksiyası daşımış olur. Bu funksiyanı qazanmış təyin ənənəvi dilçilikdəki təyinlə eyniləşdirilə bilməz. Başqa sözlə, aktuallaşma təyinin məzmun və mahiyyətinə yeni funksiyalar əlavə edir. Bu müddəa cümlənin başqa üzvlərinə də aid edilə bilər.

Ayrılıqda götürülmüş, kontekst təşkil etməyən, kontekstdənkənar cümlərdə məna məsələsi də daha geniş aspektdə tədqiq olunmalıdır. Bu məsələnin konkret izahına keçməzdən əvvəl bütövlükdə dildə mənanın təşəkkülü və dialektikası məsələsini araşdıraq. Məlum olduğu kim, dildə ən kiçik struktur vahid fonem hesab olunur. Fonemə münasibətdə dilçilər belə bir yekdil fikirdədirlər ki, onun mənası yoxdur, belə ki, dilin ən kiçik mənalı vahidi morfemlər hesab olunur. “Fonem dilin ən kiçik vahidi olub, müəyyən fərqləndirici əlamətlər məcmuyudur” [3, s. 118].

“İzahlı dilçilik terminləri” lüğətində fonem dilin mənalı ünsürlərinin (morfem, söz, söz birləşməsi) əmələ gəlməsində və onların fərqləndirilməsində əsas rol oynayan ən kiçik dil vahidi kimi səciyyələndirilir [2, s. 309].

Əsas hissə

Mətnin kommunikativ dərk edilməsinin əsasını mətn dilçiliyinin linqvistik ünsiyyət formaları arasında ən son istiqaməti təşkil edir. “Bu anlayışda mətnlər cümlələrin “nəticələri” kimi deyil, ünsiyyət vahidləri və ya insanların ünsiyyəti ilə bağlı vahidlər kimi başa düşülür: bu vahidlər linqvistik ünsiyyətin zaman ardıcıllığından ibarətdir” [7, s. 25] ki, bu zaman ən fərqli dil elementləri, hətta moremlər belə, müəyyən semantik funksiya daçıyıcısı kimi çıxış edir.

A.Axundov morfemləri dilin ən kiçik mənalı vahidi hesab edir. Azərbaycan dilində feilin şühudi keçmişini göstərməkdən ötrü *–dı/-di/-du/-dü* şəkilçisindən istifadə edilir. Bu dörd şəkilçi eyni qrammatik mənanı ifadə etdiyindən yalnız bir morfem hesab olunur. Deməli, fonemlər müxtəlif təzahür formalarına , variant və variasiyalara, allofonlara malik olduğu kimi, morfemlərin mövcudluğu da allomorflar vasitəsi ilə olur. Kök morfemlər qrammatik mənadan başqa, potensial halda olsa da, həm də leksik anlayışlar ifadə edir. Şəkilçi morfemlər isə yalnız qrammatik anlayışlar bildirir[3, s.139].

Cümlənin təşkilində mühüm vasitə olan sözlər danışıq səslərindən, fonemlərdən yaranır. Məlum olduğu kimi, dilçilik ədəbiyyatında fonemlər, bir qayda olaraq, dilin mənası olmayan ən kiçik mənası hesab olunur. Deməli, hesab olunur ki, söz təsadüfi, mənasız səslər ardıcıllığıdır. Burada belə bir paradoksla razılaşmalı oluruq ki, mənasız səslər ardıcıllığı əsasında mənalı dil vahidi yaranmış olur. Bu məsələ əvvəllər də bir çox dilçi – alimləri narahat etmiş və bu sahədə araşdırmalar aparılmışdır.

Fonemlər dilin xüsusi mənaya malik olan ən kiçik hissəsidir və fonosemantika sahəsində aparılan tədqqatlarda qeyd edilən “fonemlər mənası olmayan dil vahidləridir” fikri praktik olaraq öz təsdiqini tapmır.

Cümlənin məna baxımından formalaşması iyerarxik bir proses olub aşağıdan yuxarıya doğru istiqamətlənmişdir: *fonem—morfem—söz—söz birləşməsi—sadə cümlə, mürəkkəb cümlə—mətn.* Qeyd etmək lazımdır ki, cümlənin mənası bəzən dilxarici situasiya nəzərə alınmadan , yalnız tədqiq olunan dil materialına əsasən araşdırılır. Konseptual asılılıq nəzəriyyəsi bu baxımdan formal – sintaktik

semantikanın əksi hesab oluna bilər. Bu nəzəriyyədə cümlənin mənası konseptual strukturla əlaqələndirilir.

Bu məsələlərdən bəhs edən V.Sultanov yazır ki, cümlənin məna tərəfini öyrənən konsepsiyaların əksəriyyəti həm dildaxili, həm də dilxarici amilləri nəzərə alır. Semantik sintaksisə aid müxtəlif modellərdə dilxarici amillərdən, əsas etibarilə, ya obyektiv gerçəkliyin hadisə və faktları, ya müxtəlif məntiqi əməliyyatlar, ya da söylənən faktların danışan tərəfindən qiymətləndirilməsi, başa düşülməsi ön plana çəkilir [6, s. 8].

Cümlənin məna baxımından öyrənilməsinə müxtəlif yanaşmalar məsələnin tədqiqatçıların maraq dairəsində olduğunu bir daha sübuta yetirir. Aydındır ki, ayrılıqda kontekstdənkənar götürülmüş cümlənin mənası ilə mətn vahidi olan cümlə eyni məna tutumuna malik ola bilməz. Cümlənin mənası tam olaraq kontekstdə, digər cümlələrlə əlaqə və münasibətdə müəyyənləşə, tam izahını tapa bilər. Yuxarıda qeyd etdiyimiz kimi, istənilən ayrılıqda götürülmüş cümlədə fikrin, mənanın bitkinliyindən söz gedə bilməz. Söhbət nisbi məna bitkinliyindən gedə bilər. Lakin digər tərəfdən cümlənin mətn dilçiliyi obyekti kimi tədqiqindən əvvəl ayrılıqda, kontekstdən kənar statusda da məna baxımından tədqiqi əhəmiyyətlidir.

Transformativ qrammatika nəzəriyyəsi baxımından hər bir cümlənin dərin (kontekstual) və səthi quruluşu qarşılaşdırılır. N.Xomskinin sintaktik struktur nəzəriyyəsi baxımından hər bir cümlənin dərindəki strukturu onun mənasını, təfəkkür formasını əks etdirir. Səthi struktur isə həmin dərin strukturun cümlə şəklində ifadə formasıdır. Bu iki qat bir-birindən fərqləndirilir. Dərin struktur (mənanın təfəkkür forması, əsas ideya) üzdəki strukturda müxtəlif formalarda, transformasiya variantlarında verilə bilər. Beləliklə, dərin struktur cümlənin ümumi, mücərrəd, abstrakt mənası hesab olunur. Səthi strukturda isə həmin məna müxtəlif səslərlə, səs birləşmələri, sözlərlə ifadə olunur. Dərin struktur, cümlənin, fikrin hamı üçün ümumi olan hissəsi transformasiya qaydaları və vahidləri əsasında reallaşmış olur [5].

“Mətnlərə münasibətdə daxili forma ideyası danışanların niyyətinin şifahi ifadəsində böyük kommunikativ vahidlərin imkanlarının böyük dəyişkənliyi ilə əlaqədar idrak əhəmiyyətinə malikdir. Nitq əsərlərinin zahiri və daxili formaları arasındakı əlaqə məsələsi mətni məlumatın saxlanması üsulu və yeni mənalar yaratmaq vasitəsi kimi öyrənilməsi üçün əsas təşkil edir. Mətnin qavranılması zamanı onun əsas xüsusiyyətlərinin və şərh oluna bilmə dərəcəsinin qorunması problemi həm nəzəri, həm də praktiki baxımdan aktualdır” [8, s. 15].

Cümlədə ifadə olunan mənanın dəqiqləşməsi və genişlənməsi prosesində mühüm rol oynayan amillərdən biri də presuppozisiyadır. Qeyd etmək lazımdır ki, presuppozisiya daha çox mətnin semantikasının açılmasına, onun məna cəhətlərinin müəyyənləşməsinə və izahına xidmət edir. Bu məsələ ilə bağlı M.Hacıyevanın fikirləri maraqlıdır: “Presuppozisiya dilçilik termini kimi cümlənin kontekstdən kənar , gizli mənası kimi izah oluna bilər. Presuppozisional mənanın linqvistik izahı yoxdur. Presupozisional məna kontekst və situasiya ilə müəyyənləşir. Presuppozisiya mənanı daha ümumi şəkildə , məntiqi və fəlsəfi baxımdan ifadə edir. Burada mənanın açıq, formal-qrammatik ifadə vasitələri olmasa da, məna yükü böyük olur [4, s. 11].

Presuppozisiyanın fəlsəfi-məntiqi mahiyyəti onun linqvistik funksiyasının izahında da nəzərə alınmalıdır. Bu məsələlərin üzərində çox dayanmadan ünsiyyət prosesində, söylənilən fikirlərdə, hətta ilk nəzərdən əhəmiyyətsiz hesab oluna biləcək replikalara, gizlin, üstüörtülü eyhamlara diqqət yetirilməsi zərurətini ön plana cəkmək lazımdır.

Məlum olduğu kimi, presuppozisiya həm məntiqi-fəlsəfi, həm də sırf linqvistik anlayış kimi səciyyəlndirilə bilər. Tədqiqatçıların qeyd etdiyi kimi, məntiq elmində bu anlayış mühakimələrin təhlili prosesində, hökmlərin doğru və yalan olması ehtimalının müəyyənləşdirilməsi prosesində istifadə olunursa, dilçilikdə onun rolu və funksiyası fərqli mahiyyət kəsb edir. Dilçilikdə presuppozisiya söyləmlərin linqvistik təhlil vasitəsi kimi səciyyələndirilə bilər. Əslində, məntiqi-fəlsəfi problemlərin məna ilə bağlı aspektlərində presuppozusiyadan istifadə olunur. Bu da onların linqvistika ilə təmas nöqtələrində baş verir.

K.Abdullayev aktuallaşma hadisəsinin elmi – nəzəri köklərinin, mahiyyətinin aşkarlanmasının vacibliyini xüsusi olaraq qeyd etmişdir. O, belə hesab edir ki, Azərbaycan dilində bu və ya digər cümlə

komponentinin , cümlənin hər hansı üzvünün aktuallaşmasına şərait yaradan , səbəb olan müxtəlif üsulları sistemləşdirmək, təhlil etmək, dərindən araşdırmaq yeni sintaksisin vacib məsələlərindəndir [1, s. 20].

Nəticə

Nəzərdən keçirilən elmi-nəzəri məlumatı təhlil etdikdə belə bir qənaətə gəlmək olar ki, bəzən ünsiyyət prosesində açıq-aşkar deyilməyən eyham, ehtimal hesab oluna biləcək fikir mənanın açılmasına xidmət göstərə bilər. Ünsiyyət prosesində ilk baxışdan vacib hesab olunmayan kiçik bir işarə və eyham da mənanın izahında həlledici ola bilər.

Kontekstdən kənar cümlə ilə mətn vahidi olan cümlə arasında əsaslı fərq mövcuddur.

Cümlə mətn dilçiliyinin əsas tədqiqat obyekti kimi ikili quruluşa: dərin və səthi quruluşa malik kontekstual səciyyəli mətn elementidir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif. 1999, 281 s.

2. Adilov M.İ. və b. İzahlı dilçilik terminləri. Bakı: Maarif. 1989, 364 s.

3. Axundov A. Ümumi dilçilik. Bakı: Maarif. 1988, 263 s.

4. Hacıyeva M. Sadə cümlələrdə propozitiv və presuppozitiv əlaqələrin praqmatikası. Bakı: Mütəcim. 2021, 133 s.

5. Xomski N. Dil və təfəkkür. Bakı: Kitab aləmi. 2006, 152 s.

6. Sultanov V. Azərbaycan dilində valentlik dəyişən kateqoriyalar. Bakı: Elm. 1997, 97 s.

7. Галло Я., Алефиренко Н. Лингвистика текста: традиции и преспективы // Филологический класс. 2020. Т. 26, № 3, С. 23-38

8. Ионова С.В. Актуальные проблемы современной лингвистики текста // Вестник Северо-Осетинского государственного университета имени К. Л. Хетагурова. 2008. № 4. С. 15-19.

ABOUT THE WORD FORMATION IN TURKIC LANGUAGES

Qadaşova Aybəniz Azik Qizi

Azərbaycan Tibb Universiteti

XÜLASƏ

Keywords: Azerbaijan, Samad Sardariniya, time, Karabakh, "Karabakhname", culturology.

Otuz illik işğaldan sonra müzəffər ordumuz tərəfindən çox qısa bir müddətdə-44 gün ərzində Qarabağın azad edilməsindən sonra burada həyata keçirilən geniş miqyaslı quruculuq-bərpa işləri böyük sürətlə davam etməkdədir. Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən 2022-ci ilin "Şuşa ili" elan edilməsi görülən işlərə yeni bir impuls vermişdir.

Heç şübhəsiz ki, "Şuşa ili", Qarabağla bağlı aparılan elmi-tədqiqat işlərinin kəmiyyət və keyfiyyətlərinin yeni bir mərhələyə daxil olmasında əhəmiyyətli rol oynamaqdadır. Bu konteksdə Qarabağın tarixinin milli və umumbəşəri dəyərlər zəmində daha dərindən və müfəssəl öyrənilməsi və tədqiqi çox önəmlidir. Bu işdə "Qarabağnamə"lərin olduqca böyük əhəmiyyəti vardır. Qarabağ regionu ilə bağlı müxtəlif adlarla 20-yə qədər "Qarabağnamə" qələmə alınmışdır. Onlardan bir neçəsi (Mirzə Yusif Əhəri. Əhərnamə-Qarabağ xanlığının tarixinin bir sıra prinsipal əhəmiyyətli məsələlərini də işıqlandırır; Məhəmməd Hafizzadə. Qərəbağ; Əlirza Rahvər İqvan və Pərviz Zore Şahmers. Tarixi-Qərəbağ; Səməd Sərdariniya. Qərəbağ dər qozərqahi-tarix) cənublu soydaşlarımız tərəfindən (fars dilində) qələmə alınmışdır.

Ş.Pənahoğlu yazır: "Bundan başqa, çarizm Qafqazı, o cümlədən, Qarabağı ələ keçirəndən sonra, dövlətin tələbi ilə P.Butkov, H.Dubrovin, İ.Şopen, Şavrov, A.Qriboyedov və başqaları tərəfindən bu yerlərin, əsasən, iqtisadiyyat və təsərrüfat həyatına, o cümlədən, tarixinə dair bir sıra əsərlər yazılmışdır. Əlavə olaraq, Qarabağla bağlı çoxlu arxiv sənədləri, xülasə və məcmuələr də mövcuddur. Təbii ki, qeyd olunan əsər və materiallarda ictimai-iqtisadi, sosial-siyasi həyatın müxtəlif sahələrinə dair çox geniş məlumatlar vardır. Qeyd olunanların Azərbaycan dilinə tərcümə edilməsi və araşdırılması vacibdir" (2, s. 343).

"Qarabağnamə"lərdən Səməd Sərdariniyanın "قره باغ در گذرگاه تاریخ" ("Qarabağ tarixin gedişində") əsəri (4) öz mükəmməlliyi və müfəssəlliyi ilə diqqəti cəlb edir. Bu əsər dövrümüzün məhsuldar şərqşünaslarından biri, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitunun aparıcı elmi işçisi Ş.Pənahoğlu tərəfindən fars dilindən ana dilimizə tərcümə olunmuşdur (3).

Məlumat üçün deyək ki, Səməd Sərdariniya (1947-2008) olduqca məhsuldar işləmişdir Onun Azərbaycan ədəbiyyatı, mədəniyyəti, tarixi, ümumiyyətlə, kulturalogiyasının müxtəlif sahələrinə həsr olunmuş elmi mirası aşağıdakılardan ibarətdir:

1. "Yaddaşti bər tarixçe-ye teatr-e Azərbaycan" ("*Azərbaycan teatr tarixinə dair bir qeyd"*);
2. "Əli Müsyö: rəhbər-e mərkəz-e qeybi-ye Təbriz" ("*Əli Müsyö; Təbriz gizli mərkəzinin rəhbəri"*);
3. "Tarix-e ruzname və məcəlleha-ye Azərbaycan, celd-e əvvəl" ("*Azərbaycan qəzet və jurnallarının tarixi, 1-ci cild"*);
4. "Nəqş-e mərkəz-e qeybi-ye Təbriz dər enqelab-e məşrutiyyət-e İran" ("*İran Məşrutə inqilabında Təbriz gizli mərkəzinin rolu"*);
5. "Baqer xan salar-e melli" ("*Salari-milli Bağırxan"*);
6. "Məşahir-e Azərbaycan, celd-e əvvəl" ("*Azərbaycan məşhurları, 1-ci cild"*);
7. "Məşahir-e Azərbaycan, celd-e dovvom" ("*Azərbaycan məşhurları, 2-ci cild"*);
8. "Molla Nəsrəddin dər Təbriz" ("*Molla Nəsrəddin Təbrizdə"*);
9. "Təbriz dər nehzət-e tənbaku" ("*Təbriz tənbəki hərəkatında"*);
10. "Azərbaycan pişqam-e camee-ye mədəni" ("*Azərbaycan mədəni cəmiyyətin öncülüdür"*);
11. "İrəvan yek vilayət-e mosəlman neşin bud" ("*İrəvan müsəlman sakinli vilayət olmuşdur"*);

12. “Təbriz şəhr-e əvvəlinha” (“*Təbriz birincilər şəhəri”*);

13. “Darolfonun-e Təbriz, dovvomin mərkəz-e amuzeş-e ali-ye İran” (“*Təbriz Darülfününu İranın ikinci ali təhsil mərkəzidir”*);

14. “Qətl-e am-e mosəlmanan dər do su-ye Ərəs” (“*Arazın hər iki tayında müsəlmanların soyqırımı”*);

15. “Təbriz məhd-e sənət-e çap dər İran” (“*Təbriz İranın çap sənətinin beşiyidir”*);

16. “Qərebağ dər qozərqah-e tarix” (“*Qarabağ tarixin gedişində”*);

17. “Bələdiye-ye Təbriz: nəxostin şəhrdari-ye İran” (“*Təbriz bələdiyyəsi: İranın ilk şəhər bələdiyyəsi”*);

18. “Seyri dər tarix-e Azərbaycan” (“*Azərbaycan tarixinə bir baxış”*);

19. “Əmir Heşmət Neysari qəhrəman-e Məşrute” *(“Məşrutə qəhrəmanı Əmir Hişmət Neysari”)*;

20. Ziyəddin Sultanov. “Cəng-e Qərebağ” (“*Qarabağ müharibəsi”*)-tərcümə;

21. Manaf Süleymanov. “Baku şəhr-e nəft və musiqi” (“*Bakı neft və musiqi şəhəridir”*)-tərcümə;

22. Məmməd Səid Ordubadi. “Salha-ye xunin” (“*Qanlı illər”*)-tərcümə;

23. “Tarix-e səd sale-ye bələdiyye-ye Təbriz” (“*Təbriz bələdiyyəsinin 100 illik tarixi”*);

24. “Neqargəran-e bozorg-e Azərbaycan” (“*Azərbaycanın böyük rəssamları”*);

25. “Təbriz dər douran-e xan neşini” (“*Tərbiz xanlıqlar dövründə”*);

26. “Tarix-e mətbuat-e Azərbaycan” (“*Azərbaycanın mətbuat tarixi”*);

27. “Məşahir-e Azərbaycan, celd-e sevvom” (“*Azərbaycan məşhurları, 3-cü cild”*);

28. “Azərbaycan sərzəmin-e əyyaran” (“*Azərbaycan igidlər diyarıdır”*);

29. Mustafa Çəmənli. “Mar-e xaldar” (“*Xallı gürzə”*)-tərcümə;

30. “Nameha-ye Nəriman Nərimanof” (“*Nəriman Nərimanovun məktubları”*)-tərcümə (1).

S.Sərdariniyan "قره باغ در گذرگاه تاریخ" (“Qarabağ tarixin gedişində”) əsəri, Qarabağ tarixinin ən qədim dövrlərindən erməni işğalı da daxil geniş bir dövrünü əhatə edir. Əsərdə, xüsusən, Pənahəli xan tərəfindən bir neçə qalanın bərpası və yenidən qurulması, Şuşa şəhərinin salınması, Qarabağ xanlığının yaradılması, fəaliyyəti və onun tarixi, ermənilərin İrandan Qarabağa köçürülməsi, onların, Rusiyanın məkrli planları və hərtərəfli dəstəyi ilə Azərbaycanda törətdikləri faciələr, Qarabağın tarixən Azərbaycan ədəbiyyatı və incəsənətinin beşiyi olması və digər məsələlər, tarixi mənbələr və faktlar əsasında geniş işıqlandırılır.

NƏTİCƏ

Strateji bir məsələ olduğundan, başqa dillərdə, xüsusən, fars dilində Qarabağa dair bütün mənbə və əsərlərin Azərbaycan dilinə tərcüməsi, nəşri və tədqiqi vacib bir məsələ kimi qarşımızda durur.

ƏDƏBİYYAT

1. Bayramzadə Səməd. Səməd Sərdariniya. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə. IX c., Bakı: Eım. 2022, 1220 s.

2. Pənahoğlu Şəmsi. “Qarabağnamə”lərin geniş tədqiqi zamanın tələbidir. “IV Uluslararası Nevruz İlmi Araşdırmalar” konqresi. 18-21 mart 2021, Qarabağ, s. 339-345.

3. Səməd Sərdariniya. Qarabağ tarixin gedişində (fars dilindən tərcümə). Tərcümə, qeyd və şərhlərin müəllifi Ş.Pəhahoğludur. 400 s. Əlyazması hüququnda.

4. صمد سرداری نیا. قره باغ در گذرگاه تاریخ. تبریز: ندای شمس. 2006 . 547 ص.

KİÇİK ÜRƏKLƏRİN BÖYÜK DƏRDLƏRİ...

THE GREAT SUFFERINGS OF SMALL HEARTS..

İbrahimova Leyla

Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxana

Açar sözlər: erməni terroru**,** müharibənin günahsız qurbanları, böyüməyən uşaqlar

XÜLASƏ

Dünyanın ən məsum, ən saf varlıqlarıdır uşaqlar. Bu məsumluq, təmizlik onların baxışlarında düşüncələrində özünü aydın surətdə əks etdirir. Lakin çox təəssüf ki, bəzən bu məsumiyyətin üzərindən qəddar, sevgisiz insanlar soyuqqanlıqla xətt çəkirlər. Bu qəddarlıq, amansızlıq dünyada qarşıdurmalara, müharibələrə səbəb olur. Və bu müharibələrdə də ən çox əziyyət çəkən günahsız uşaqlar olur.

Tarixə nəzər saldıqda Azərbaycanımızın başından bir çox müharibələrin keçdiyini görürük. Dünya tarixində zaman-zaman soyqırımlara məruz qalan da Azərbaycan xalqı olmuşdur. Azərbaycanlılara qarşı törədilən soyqırımlar Bakıda, Şamaxıda, Qubada, Zəngəzurda, Qarabağda və digər yerdlərdə xüsusi qəddarlıqla həyata keçirilmişdir. Həmin ərazilərdə dinc əhali kütləvi şəkildə məhv edilmiş, kəndlər yandırılmış, millli abidələr dağıdılmışdır.

1994-cü ildə Tovuz rayonu ərazisindən axan çaya ermənilər tərəfindən buraxılan uşaq oyuncağında partlayıcı maddə olduğundan, Əlibəyli kəndində iki uşağın ölümünə və birinin yaralanmasına səbəb olmuşdur. Həmin hadisə 2011-ci ildə həmin yerdə yenidən baş vermiş, 13 yaşlı Aygün Şahmalıyeva həyatını itirmişdir.

Erməni faşizmi dinc əhaliyə qarşı təxribatlarını genişləndirməyə davam edirdilər.Və yenə günahsız uşaqlar...2004-cü ilin fevral ayında Füzuli rayon Qazaxlar kənd sakinləri 11 və 12 yaşlarında iki qardaş Məmmədli Elgün və Məmmədli Elvin Lələtəpə yaxınlığında minaya düşərək həyatlarını itirdilər.

Hər bir uşaq sülh şəraitində yaşamalı,müharibə və hərbi cinayətlərin təsirindən qorunmalıdır.Lakin düşmənçiliyin ən pis üzü olan Ermənistan mülki əhaliyə ,xüsusilədə körpə uşaqlara qarşı terror hücumların bitirmək niyyətində deyildi.2011-ci ildə Ağdamın Orta Qışlaq kəndində həyətlərində dostları ilə oynayan, ailənin tək övladı olan 9 yaşlı Fariz Bədəlov erməni snayperinin gülləsinə tuş gələrək həlak oldu

Azərbaycan xalqının tarixinə müqəddəs şəhid qanıyla yazılan 27 sentyabr 2020-ci il tarixi həm də bizim böyük Zəfər yolumuz oldu. Həmin gün Ali Baş Komandanın əmriylə əks-hücuma keçən Azərbaycan Ordusu 30 illik həsrətimizə son qoydu. Günübəgün torpaqlarımızın azad olunmasından hiddətlənən Ermənistan, cəbhə boyu uğradıqları uğursuzluğun acısın dinc əhalidən çıxmağa başlasdı.

Erməni cinayətlərinin şahidi olan, əzizləri qətlə yetirilən uşaqlar həyatları boyu gözlərində, könüllərində daşıyacaqları nisgillə daha da mətin, güclü oldular. Çünki onlar mərd Azərbaycan xalqının övladlarıdırlar. Torpaqlarımızı itirdiyimiz vaxtlarda yaşları kiçik olan uşaqlar böyüyüb yaşa doldular, amma doğulduqları yerləri unutmadılar. Onlar hər an torpaqları düşməndən azad etməyə hazır oldular.

Key words: armenian terror**,** innocent victims of war, not-growing children

ABSTRACT

Children are the most innocent, purest beings in the world. This innocence and purity are clearly reflected in their looks and thoughts. But, unfortunately, sometimes cruel, loveless people draw a cold line over this innocence. This cruelty and ruthlessness cause conflicts and wars in the world. And innocent children suffer the most in these wars.

When we look at history, we see that our Azerbaijan has experienced many wars. The Azerbaijani people have been subjected to genocides from time to time in the world history. The genocides committed against Azerbaijanis were carried out with intense cruelty in Baku, Shamakhi, Guba, Zangazur, Karabakh and other places. In those areas, civilians were massacred, villages were burned, and national monuments were destroyed.

In 1994, a children's toy released by Armenians into a river flowing through the Tovuz region contained explosives, killing two children and injuring one in the village of Alibeyli. The same incident happened again in 2011, when 13-year-old Aygun Shahmaliyeva died.

Armenian fascism continued to expand its provocations against the civilian population. And again, innocent children ... In February 2004, two brothers at the ages of 11 and 12 from the village of Gazakhlar, Fizuli region, Mammadli Elgun and Mammadli Elvin, were killed by a mine near Lalatapa.

Every child must live in peace and be protected from the effects of war and war crimes. However, Armenia, the worst face of hostility, did not intend to end terrorist attacks on civilians, especially infants. In 2011, 9-year-old Fariz Badalov was shot dead by an Armenian sniper while playing in their backyard in Aghdam Orta Qishlaq village.

The date of September 27, 2020, written in the history of the Azerbaijani people with the blood of the holy martyr, was also our great path to victory. On the same day, the Azerbaijani Army counterattacked on the orders of the Supreme Commander-in-Chief, ending our 30-year of longing. Day by day, Armenia, outraged by the liberation of our lands, began to mourn their failure along the frontline by terrorizing innocent people.

The children who witnessed the Armenian crimes and whose loved ones were killed became stronger and stronger with the genealogy they will carry in their eyes and hearts throughout their lives. Because they are the children of the brave Azerbaijani people. Young children grew up since the time we lost our lands, but they did not forget where they were born. They were always ready to liberate the lands from the enemy.

Dünyanın ən məsum, ən saf varlıqlarıdır uşaqlar. Bu məsumluq, təmizlik onların baxışlarında düşüncələrində özünü aydın surətdə əks etdirir. Lakin çox təssüf ki, bəzən bu məsumiyyətin üzərindən qəddar, sevgisiz insanlar soyuqqanlılıqla xətt çəkirlər. Bu qəddarlıq, amansızlıq dünyada qarşıdurmalara, müharibələrə səbəb olur. Və bu müharibələrdə də ən çox əziyyət çəkən kin, nifrət nədir bilməyən uşaqlar olur. Bir çox böyük dövlətlərin maraqları, məqsədləri, ambisiyalarının nəticəsi olaraq Suriyada, İraqda, Əfqanıstanda, Qarabağda, Ukraynada və s. bölgələrdə münaqişələr , müharibələr nəticəsində milyonlarla uşaqların həyatı alt üst olub .. - olmağa da davam edir. UNİCEF-in məlumatlarına əsasən müharibələrdən zərər görən ölkələrdə yaşayan 250 milyondan çox uşaq var. YUNESKO-ya görə isə 37 milyon uşaq bu savaşlar üzündən məktəbə getmir, təhsil ala bilmirlər.

Ailə münaqişəsində baş verən kiçik mübahisələr uşaqlara mənfi təsir edərkən, ölkəsində gedən müharibələrin uşaqlara təsirinin nə qədər böyük olduğunu təssəvvür etmək o qədərdə çətin deyildir.Uşaqlar müharibə ilə müxtəlif yaşlarda qarşılaşdılar. Kimisi körpə ikən, kimisi yeniyetmə dövründə, bəziləri də erkən gənclik çağında. Müharibənin bütün acıları, qorxu və həyəcanları ağ vərəqə köçürülən yazı kimi qəlbimizə yazıldı. Uşaq yaşlarımızdan böyüklərdən eşitdiyimiz”ermənilər çox xain millətdir”, ”ömrü boyu çörəyimizi yeyib, indi torpaqlarımıza göz dikiblər” və s ifadələrin canlı şahidi olaraq böyüdük. Ermənilər təkcə bizim torpaqlarımızı deyil, ömrümüzün heç vaxt geri qaytarılmayacaq, yaşanacaq çox gözəl günlərini də işğal etmişdilər...Çox şeylərdən məhrum qaldıq... müharibə nəticəsində həyatımızın istiqaməti 180 dərəcə dəyişdi...

İllər boyu tarix kitablarından oxuduğumuz, kinolarda gördüyümüz müharibənin canlı şahidlərindən biri də mən özüm oldum. Doğulub, yeniyetməlik yaşına çatdığım Füzuli rayonu da mənfur qonşularımız ermənilərin göz dikdiyi torpaqlardan idi. Vətən torpağı müqəddəsdir. İnsan dünyaya göz açdığı bir gündən havası ilə nəfəs aldığı, boya-başa çatdığı vətən torpağına müqəddəs tellərlə bağlanır. İnsanın varlığına hakim olan bu hiss ana məhəbbəti qədər güclü olur. Öyrəşdiyin mühitdən, yaşayış yerindən, insanlardan ayrı düşməkdə anadan ayrı qalmağa bərabərdir. Uşaqlığın, ərköyünlüyün, şıltaqlığın da qalır

sanki tərk etdiyin o elində ,evində. Hələ 3 yaşında olarkən doğulduğu Füzuli elindən qaçqın düşmüş, 2020 -ci il Vətən müharibəsi şəhidi Ziyad Muradov duyğularını şeirində qələmə alaraq yazırdı :

Qarabağda nəyim qaldı?

Nakam qalmış saf arzular.

Qarabağda nəyim qaldı?

Bir ovuc torpağım deyil,

Sanki dünyam, canım qaldı

Qarabağda nəyim qaldı?

Yarımçıq yellənən boş yüyürük.

Yaylası yarımçıq qalan ulduzlu gecəm,

Nakam qalan arzularım (Türksoy, 2022, s. 12)

Baş verən bütün müharibələrdə ən çox əziyyəti uşaqların çəkdiyinin şahidi oluruq. Ancaq əslində qocalar, qadınlar və uşaqlar hər cür müharibədən, münaqişədən kənarda qalmaqlıdırlar. Fərq qoymadan müharibə edən hər iki tərəf onları qorumalıdır. Bu bütün müharibələrin müqəddəs qanunudur. Erməni kimi vəhşi bir millət və onların havadarları isə nə qanun tanıyır, nə vicdan nədir bilir, nədə ürəklərində mərhəmət hissi var. İşğalçı Ermənistan ordusu təkcə Azərbaycanın kişiləri ilə deyil, həm də körpə uşaqlarla da müharibə aparmışdır.

Əsrlər boyu Azərbaycanımızın başından bir çox müharibələr keçmişdir. Tarixə nəzər saldıqda bunu əyani surətdə görmək olur. Dünya tarixində ən çox soyqırımlara məruz qalan da Azərbaycan xalqı olmuşdur. Azərbaycanlılara qarşı törədilən soyqırımlar Bakıda, Şamaxıda, Qubada, Zəngəzurda, Qarabağda və digər yerdlərdə xüsusi qəddarlıqla,amansızlıqla həyata keçirilmişdir. Həmin ərazilərdə dinc əhali kütləvi şəkildə məhv edilmiş, kəndlər yandırılmış, millli abidələr dağıdılmışdır. (Əliyev, 2005, s. 101)

Və bəşər tarixində heç bir vəhşiliklə müqayisə olunmayan Xocalı faciəsi... XX əsrin faciəsi hesab edilən, XX əsrdə 2-ci dəfə belə ağlasığmaz etnik təmizləməyə məruz qalan Azərbaycan xalqı... Xocalı soyqırımı nəticəsində 63 azyaşlı uşaq qətlə yetirilib, insan ağlına sığmayan qəddarlıqla üzləşiblər. Qarabağ hadisələrinin iştirakçısı, yazıçı-şair Zori Balayan 26 fevral Xocalıda törətdikləri soyqırımda, azərbaycanlı uşaqlara necə ağlasığmaz işgəncə verərək öldürdüyün etiraf etmişdir. İncə ruha sahib olurlar yaradıcı insanlar. Ermənilərin "incə ruha sahib"şairinin etdiyi və sonrada qələmə aldığı bu qəddarlıqdan sonra bu millət haqqında fikir artıq formalaşır. Bu uşaqlar Xocalı dəhşəti yaşayanda onun acısını hələ tam dərk etmirdilər . Çünki bu ağırlığı məsum uşaq qəlblərində yaşatmağa, körpə çiyinlərində daşımağa hazır deyildilər.1992-ci ildə baş verən o ağrılı, dəhşətli gecənin qaranlığında avtomatın ölüm saçan güllələrinin atəşi altında ayaqyalın,başıaçıq qarın üstü ilə qaçaraq erməni faşistlərindən canını qutarmağa çalışan körpələrin acı taleyi Azərbaycanın kəşməkəşli çağdaş tarixinin acı səhifəsidir (Eyvazlı, 2014, s. 16). Bu faciənin konkret talelərdə yaşantıları, qırılmış insan ömürlərindən qalan izləri yaddaşlarda bitməyən ağrısı heç bir ölçüyə sığmaz, hesaba gəlməz. Onların həyat hekayəsi qan donduracaq qədər ağrıdıcıdır. Xocalı sakini Mehdi Əliyevin acı uşaqlıq xatirəsi:

"Xocalı soyqırımından sağ çıxmış, hər iki valideynini və iki qardaşını itirmiş biriyəm. Onda 4 yaşım vardı,uşaq ağlımla müharibənin nə olduğunu anlamırdım.Amma çəkdiyim əzab -əziyyət,gözümlə gördüyüm zillətlər,ürəyimə çəkilən dağ mənə müharibənin nə demək olduğunu dünyada hamıdan yaxşı anlatdı.Həmin gecə Xocalıdan ailəlikcə çıxmışdıq.Yadımdadı, ermənilər bizi gülləyə tutanda yerə

yıxıldım. Ağlaşma və qışqırıq səslərindən qulaqlarım batdı.O təlaşda, qaçaqaçda meşədə demək olar ki,tam tək qaldım.4 yaşlı uşaq və meşədə tək tənha.Qışqıra-qışqıra ağlayırdım.Səsimə ermənilər gəldi və məni əsir götürdülər.Təsəvvür edin, 4 yaşlı uşaq - əsir! Məni digər əsirlərin yanına apardılar.Vahimə içində olan adamlar arasında dolaşır, valideyinlərimi, qardaşlarımı axtarırdım.Axı onların öldüyünü hardan biləydim,necə dərk eləyəydim?Elə bilirdik həmin dəqiqə dünya külə dönəcək ,həyat bitəcək. Bu yaşda ölümlə üz-üzə dayanmağı kimsəyə arzulamazdım.İndi bəzən mənə deyirlər sən böyümüsən, yekə kişisən möhkəm ol!Ancaq anlamırlar ki, mən böyüməmişəm , 4 yaşında olan Mehdiyəm.Anamı, atamı, qardaşlarımı axtarıram-mənə onlar lazımdı! Əclaf müharibə!Onu yer üzünə gətirənə Allah lənət eləsin! " (Eyvazlı, 2014, ss. 19-23) .

Ermənistanın Azərbaycana qarşı başlatdığı Qarabağ müharibəsində atəşkəs rejimi zamanı 34 uşaq erməni terrorunun qurbanı olmuşdur. Onlardan 14-ü həlak olub, 20-si yaralanıb. Ümumilikdə isə Qarabağ münaqişəsində 195 azərbaycanlı uşaq qətlə yetirilib. Həmçinin respublikamızda olan 700 min məcburi köçkündən 200 min nəfərini uşaqlar təşkil edir, 260 min uşaq məcburi köçkün kimi dünyaya göz açmışdır.

Ermənilər öz həqiqi simalarını, xislətlərini bir daha göstərərək, dinc əhaliyə, günahsız uşaqlara qarşı qəddarlıqlarını nümayiş etdirdilər.Onlar beynəlxalq qanunvericiliyin bütün tələblərin pozmağa davam edərək, 1994-cü ildə Tovuz rayonu ərazisindən axan çaya buraxılan uşaq oyuncağına partlayıcı maddə yerləşdirərək, Əlibəyli kəndindən iki uşağın ölümünə və birinin yaralanmasına səbəb olmuşdular. Həmin hadisə 2011-ci ildə həmin yerdə yenidən baş vermiş, 13 yaşlı Aygün Şahmalıyeva həyatını itirmişdir (13 yaşlı qızın faciəvi ölümü, 2011). Erməni faşizmi dinc əhaliyə qarşı təxribatlarını genişləndirməyə davam edirdilər.Və yenə də günahsız uşaqlar... 2004-cü ilin fevral ayında Füzuli rayon Qazaxlar kənd sakinləri 11 və 12 yaşlarında iki qardaş Məmmədli Elgün və Məmmədli Elvin Lələtəpə yaxınlığında minaya düşərək həyatlarını itirdilər. Axı nə idi onların günahı?! Niyə onlar öz torpaqlarında bu qəddar düşmənçiliyin qurbanları olamalı idilər? . Hər bir uşaq sülh şəraitində yaşamalı, müharibə və hərbi cinayətlərin təsirindən qorunmalıdır. Lakin düşmənçiliyin ən pis üzü olan Ermənistan mülki əhaliyə,xüsusilədə körpə uşaqlara qarşı terror hücumların bitirmək niyyətində deyildi: 2011-ci ildə Ağdamın Orta Qışlaq kəndində həyətlərində dostları ilə oynayan, ailənin tək övladı olan 9 yaşlı Fariz Bədəlov erməni snayperinin gülləsinə tuş gələrək həlak olmuşdur. Yaşıdları ilə şən,dünyadan məmnun halda öz uşaq oyunlarını oynayan günahsız Fariz, səni bir neçə saniyə sora nələr gözlədiyini hardan biləydin?!.. Yenədə beynəlxalq humanitar hüququn və insan haqqlarının ciddi şəkildə pozulması. Məkrli düşmənimizin dinc soydaşlarımıza qarşı qəddar planları və yenə bir ailədə sağalmaz yara!

2017-ci il 4 iyul tarixində Ermənistan faşizmi bir daha özünün çirkin sifətini dünyaya göstərdi. Füzuli rayonunun Alxanlı kəndinin ağır silahlardan hədəfli şəkildə atəşə tutulması nəticəsində 2 yaşlı Quliyeva Zəhra Elnur qızı və nənəsi Sahibə Allahverdiyeva qətlə yetirildi. Erməni mərmisinə tuş gələn 18 aylıq zavallı qızcığaz evin yeganə övladı, sevinci idi.Öz kəndlərində,evlərinin həyətində nənəsinin əlindən tutub gəzişən Zəhranın ölümü bütün uşaqsevərləri, insan həyatına ehtiramla yanaşan hər kəsi sarsıtdı.

Müharibə qəddardır, ancaq onun da yazılmamış qanunları var. Onlara dəqiq riyaətə görə hətta nifrət etdiyin düşmənə də hörmət etmək olar. Bu qanunlar dinc əhalini məqsədli surətdə öldürməyi və əzab verməyi qadağan edir. Bu qanunları pozanlar öz üzərilərinə "Domokl qılıncı"kimi əbədi lənəti götürürlər. Bu dəhşətlidir, ancaq bu belədir, ona görə ki, dünyada Ali ədalət və Ali qisas vardır (Ermənistanın Azərbaycana hərbi təcavüzünün yaşyarımlıq Zəhra Quliyeva faciəsi, 2017, s. 72).

Və biz o qisası nəhayət ki aldıq – döyüş meydanında...O mələk simalı körpələrin qanları yerdə qalmadı.

Tarixə xalqımızın qəhrəman şəhid övladlarının müqəddəs qanlarıyla əbədi yazılan, 27 sentyabr 2020-ci il. Bu tarix bizim böyük Zəfər yolumuzun başlanğıcı oldu. Həmin gün Azərbaycan Ordusu, Ali Baş Komandanın əmriylə əks-hücuma keçərək 30 illik həsrətimizə son qoydular. Cəbhə xəttində əldə etdiyimiz uğurlardan hiddətlənən Ermənistan, məruz qaldıqları bu uğursuzluğun acısın dinc əhalidən çıxmaqla öz simalarını bir daha göstərdi. 27 sentyabr 2020-ci il tarixdən Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan şəhər və rayonlarımıza raket və ağır artilleriya zərbələri endirdilər (iki sahil qazeti, 2020).Nəticədə mülki əhali

və məsum uşaqlar arasında ölənlər və yaralananlar oldu. Ümumilikdə erməni vandallığı nəticəsində 65 mülki vətəndaş həlak oldu ki, onlardan 10 -u uşaqlar oldu. 31 uşaq isə yaralandı. 2007 -ci il təvəllüdlü Mayakov Artur 17 oktyabr tarixində Gəncəyə atılan raket nəticəsində yaralanaraq xəstəxanaya aparılmış, lakin 7 gündən sonra xəstəxanada dünyasını dəyişmişdi. Eyni qətliam nəticəsində 15 yaşlı Nigar Əsgərova da həlak oldu. Nigarla yanaşı, onun 10 aylıq xalası qızı Narin Xalıqova və anası Sevil Əsgərova da qətliamın qurbanlarından oldular. Ana ilə körpə eyni məzarda dəfn edildilər. Gəncə bombalanmasının qurbanlarından olan, yuxuda ikən həlak olan körpələrdən biridə 1 yaşlı Mədinədir...Bacı-qardaş 6 yaşlı Xəlilli Məryəm və 11 yaşlı Xəlilli Orxan da 17 oktyabr terrorunun qurbanları olub ("Nə evim qalıb, nə də uşaqlarım", 2020). Ermənilərin Gəncəyə atdıqları raket atəşi zamanı dağıntılar arasında qalan, xəsarət alaraq yaralanan nə qədər uşaq oldu.Onlardan biri Ömər Nəsirov o körpə məsumluğu ilə dilə gətirdiyi- "Daşın altında qaldım. Qorxdum... Bu, heç vaxt yadımdan çıxmayacaq..." sözləri nəinki onun özünün, heç bir azərbaycanlının yaddaşından silinməyəcək...

Uşaqlara qarşı erməni vəhşiliyi bununla bitmir. Bərdə rayonu, Yeni Əyricə kəndində fərdi yaşayış evinə mərmi düşməsi nəticəsində 2004-cü il təvəllüdlü **Rəhimov Şahmalı Ətraf oğlu** həlak oldu. Goranboy rayonunun Qızılhacılı kənd sakini 9 yaşlı Həsənov Elcan Elgün oğlu və Ağcabədi şəhərindən olan 5 yaşlı İbrahimova Ayan Rövşən qızı da yaralanaraq erməni terrorunun qurbanlarından oldular. Bundan əlavə, erməni terroru nəticəsində Ağcabədi rayonunun Taynaq kənd sakini 14 yaşlı **İsgəndərov Fərid Dilafət oğlu,** Naftalan rayonunun Qaşaltı kənd sakinləri **13 yaşlı Şəhriyar Qurbanov 14 yaşlı Fidan Qurbanova da** həlak oldular (Azərbaycanlı uşaqlara qarşı erməni terroru, 2022). Bu uşaqların hər biri yaşlarının ən gözəl, saf, məsum çağlarında qəddar düşmənin dinc əhalini hədəfə almasının qurbanları oldular.

Günahsız dinc adamların, xüsusən məsum körpələrin vəhşicəsinə qətlə yetirilməsi həm müharibə qayda-qanunlarına, həmdə bütün bəşəri prinsiplərə zidd hərəkətdir. Heç bir prinsiplərə riayət etməyən işğalçı Ermənistan isə, insanlığa qarşı hər cür zalımlığı etməkdən çəkinməyiblər.Əsrlər boyu Azərbaycan xalqı, onun torpaqlarında dövlət quran, onun maddi sərvətlərini istədiyi kimi çapıb talayan, onun xoş münasibətinə və ehtiramına yalnız xəyanət və pisliklərlə cavab verən erməni şovinist və revanşistlərindən hər cür əzab çəkmiş, hər cür zülm görmüşdür (Azərbaycanda erməni zülmü, 2001, s. 5).

Erməni terrorunu öz gözləri ilə görən, əzizləri, doğmaları bu cinayətlərdə qurban olan uşaqların həyatları boyu gözlərində, qəlblərində daşıdıqları nisgil onları daha da mətin, daha da güclü etdi. Axı onlar qəhrəman Azərbaycan xalqının məğrur övladlarıdırlar. Torpaqlarımızın erməni işğalında olduğu vaxtlarda yaşları kiçik olan uşaqlar böyüdülər, onlara doğma olan yerləri əsla unutmadılar. Onlar, hər zaman düşmən tapdağı altında olan torpaqlarımızın azad edilməsi uğrunda mübarizə aparmağa hazır oldular. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə tarixdə bənzəri olmayan qələbə oldu. Və biz bu qələbəyə layiq idik. Biz qələbə əldə edərək düşməni öz doğma torpaqlarımızdan qovduq və o məsum körpələrin qanın yerdə qoymadıq! Ümid edirəm ki, bir gün bütün dünyada heç bir körpənin qulaqları güllə səsi eşitməyəcək, dilləri müharibə kəlməsi səsləndirməyəcək! Arzu edirəm onlar qayğıyla əhatə olunmuş, sağlam, hərtərəfli, hüquqları tam qorunacaq halda böyüsünlər. Axı uşaqlar bizim gələcəyimizdir!

İSTINADLAR

Azərbaycanda erməni zülmü. (2001). In V. Quliyev. Bakı: Ozan.

Ermənistanın Azərbaycana hərbi təcavüzünün yaşyarımlıq Zəhra Quliyeva faciəsi. (2017). Bakı.

Eyvazlı, E. (2014). Böyüməyən uşaqlar. Bakı: Nurlan.

Əliyev, H. (2005). Dağlıq Qarabağ həqiqətləri. In *Terror aktları.* Bakı.

iki sahil qazeti. (2020, oktyabr 28).

Türksoy, Z. Q. (2022). "Vətən məni çağırdı". In *"Qarabağda nəyim qaldı".* Bakı.

iki sahil qazeti. (2020, oktyabr 28).

Azərbaycanlı uşaqlara qarşı erməni terroru. (2022, may 13). Retrieved from Azvizion.az: https://azvision.az/news/233500/-azerbaycanli-usaqlara-qarsi-ermeni-terroru--fotolar--.html

"Nə evim qalıb, nə də uşaqlarım". (2020, oktyabr 25). Retrieved from karabakhmemorial: https://story.karabakhmemorial.com/az/ermeni-tecavuzunun-azyashli-qurbanlari-orxan-ve-meryem-xelilli

13 yaşlı qızın faciəvi ölümü. (2011). Retrieved from BBC: https://www.bbc.com/azeri/azerbaijan/2011/08/110804_girl_death_un_letter

AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNƏ QARŞI CƏHD: DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNİN YARADILMASI

ATTEMPT AGAINST THE TERRITORIAL INTEGRITY OF AZERBAIJAN: CREATION OF MOUNTAIN KARABAKH AUTONOMOUS REGION

Məmmədli Xəyalə İlham qızı

Bakı şəhəri, AMEA, Mərkəzi Elmi Kitabxana

1920-ci ildə Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Sovet hökuməti burada yeni iqtisadi, siyasi tədbirləri ilə yanaşı inzibati işlərdə həyata keçirməyə başladılar. Sovet hökumətinin bu siyasətini görən ermənilər öz məkirli siyasətlərini Azərbaycan ərazisindən torpaq qoparmaq siyasətini yenidən canlandırdılar. Mərkəzi hökümət isə onların bu istəyinə nəinki qarşı getmir, hətta onları təşviq də edirdi. Məqalədə Ermənistan tərəfinin Azərbaycan torpaq iddiası və bu fəaliyyətdə göstərdikləri cəhdlər barədə məlumat verilir. Ermənistanın sovetləşməsindən sonra 1921-ci ildə qurulmuş Ermənistan İnqilab Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi məsələsində Dağlıq Qarabağa iddia etməsi göstərilir. Mərkəzi hökümətə tabe olan Qafqaz Bürosunun 3 iyun 1921-ci ildə Dağlıq Qarabağın Ermənistana məxsus olmasının Ermənistan hökumət Bəyannaməsində göstərilməsi barədə qərarı təhlil edilərək Sovet hökümətinin erməni tərəfinə dəstək göstərməsi sübut edilir.

Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması və ona muxtariyyət verilməsi məsələsində Ermənistanın mövqeyi araşdırılır. Ermənistan sərhəd məsələnin həlli ilə razılaşmaq istəməmiş, Dağlıq Qarabağa muxtariyyət verilməsini məqsədə uyğun saymamışdır. Əsas məqsəd Qarabağın Azərbaycandan qoparılması olduğunu gizlətməmişdilər. Sovet hökuməti isə məsələnin tam həllində maraqlı olmamış Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməklə onu Qarabağın digər hissəsindən ayırmışdır.

Nəhayyət ,1923-cü il iyulun 7-də Azərbaycan SSR Sovetləri Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmasının Sovet hökümətini məkirli siyasəti olduğu qeyd olunur. Bu siyasətin sonlar necə acı nəticələrə səbəb olduğu faktlarla göstərilir.

Açar sözlər: muxtariyyət, ərazi iddiaları, Sovet hökuməti

ABSTRACT

After the occupation of Azerbaijan by Soviet Russia in 1920, the Soviet government began to carry out administrative work here, along with new economic and political measures. Seeing this policy of the Soviet government, the Armenians revived their insidious policy of snatching land from the territory of Azerbaijan. The central government not only oppose their wishes, but even encouraged them. The article provides information about the Azerbaijani land claim of the Armenian side and their efforts in this activity. It is stated that the Armenian Revolution, founded in 1921 after the Sovietization of Armenia, claimed Nagorno-Karabakh on the issue of defining the borders between Azerbaijan and Armenia. The decision of the Caucasus Bureau, which was subordinate to the central government, on June 3, 1921, to include Nagorno-Karabakh in the Armenian Government Declaration, proves that the Soviet government supported the Armenia.

Armenia's position on keeping Nagorno-Karabakh as part of Azerbaijan and giving it autonomy is being investigated. Armenia did not want to agree on the settlement of the border issue and did not consider it expedient to grant autonomy to Nagorno-Karabakh. They did not hide the fact that the main goal was to separate Karabakh from Azerbaijan. The Soviet government, which was not interested in a complete solution to the problem, gave autonomy to the mountainous part of Karabakh, an integral part of Azerbaijan, and separated it from the rest of Karabakh. Finally, on July 7, 1923, the decree of the Central Executive Committee of the Soviets of the Azerbaijan SSR stated that the establishment of the Nagorno-

Karabakh Autonomous Region within the Azerbaijan Soviet Socialist Republic was an insidious policy of the Soviet government. The end is illustrated by the bitter consequences of this policy.

Keywords: autonomy, territorial claims, Soviet government

QARŞILIQLI İNNOVASİYALAR ƏSASINDA DİLLƏRİN BİRLƏŞMƏSİNƏ DAİR

ON THE CONNECTION OF LANGUAGES ON THE BASIS OF MUTUAL INNOVATIONS

İsmayılova Aybaniz Arif

Lecturer

ORCID ID:0000-0001-9931-9254

Odlar Yurdu University

XÜLASƏ

Məqalədə dil innovasiyaları, onların yaranma və yayılma üsullarından, dil kontaktı və onun zəruriliyindən, həmçinin qarşılıqlı innovasiyalar əsasında dillərin birləşməsindən bəhs edilir.

Ümumlinqvistik kontekstdə dil fərdlərarası verbal kommunikasiyanın dinamik sistemi kimi başa düşülür. Dilin funksiyası dil dəyişmələri prosesi ilə sinxron mövqedə dayanır. Dil innovasiyaları dil mühitində fərdi kodlarlla yaranır və individual nitq ünsiyyətləri ilə yayılır. Dil kontaktı iki və daha artıq dillərin kommunikativ sahələrinin kəsiyində meydana gəlir. Dil kontaktının daha maraqlı özünəməxsusluğu isə tipoloji cəhətdən fərqli mövqelərdə dayanan dillərin qarşılıqlı təsiri zamanı meydana çıxır. Dil dəyişmələrinin zərurilik səviyyəsi – dil zamanının inteqral ölçü dərəcəsidir, yəni, ritm, dövr, funksionallaşma səviyyəsi və dilin inkişafıdır.

Məlumdur ki, hər bir xalqın dilində dayanıqlı bədii ifadələr var ki, nitqdə söz birləşmələri və cümlələr kimi tələffüz edilirlər. Belə ifadələr frazeoloqizm adlanırlar. Bütöv frazeologizmin mənası onun tərkibinə daxil olan sözlərin mənasından yaranmır. Bu gün linqvistikada koqnitivizmin hökmranlıq etdiyi bir dövrdə insan faktoru frazeologiyanın da əsasında dayanır. Məqalənin məqsədi də frazeoloji materialın öyrənilməsinə koqnitivizmin ümumi prinsiplərinin tətbiq edilməsidir. Frazeologiya öz xarakterinə görə milli-mədəni xarakterə malikdir, buna görə də müasir linqvistika etnik düşüncə və psixologiyanı əks etdirən frazeoloji vahidlərin, atalar sözləri və məsəllərin öyrənilməsinə xüsusi diqqət yetirir. Yəni, məntiqi cəhətdən də dil vahidlərini nə qədər unikal hesab etsək də frazeologiyada dil sisteminin ümumi xüsusiyyətləri və milli-mental xüsusiyyətləri hökmranlıq edir. Tərkib hissələri səviyyəsində frazeologiya milli mətbəxi, geyimi, musiqini, fauna və floranı əhatə edən anlayışları əks etdirir. Bir şey məlumdur ki, frazeologiyanın konseptual əsasını dünyanın dil mənzərəsinin fraqmentləri təşkil edir. Bu məqamda frazeologizmlərin semantik strukturunun quruluşu tam anlaşıqlı olur.

Açar sözlər: inteqral ölçü, koqnisiya, antroposentrik dilçilik

ABSTRACT

The article discusses language innovations, methods of their emergence and dissemination, language contact and its necessity, as well as the combination of languages on the basis of mutual innovations.

In the general linguistic context, language is understood as a dynamic system of interpersonal verbal communication. The function of language is simultaneous with the process of language change. Language innovations arise in the language environment with individual codes and spread through individual speech communication. Language contact occurs at the intersection of the communicative areas of two or more languages. A more interesting feature of language contact is that it occurs when languages interact in typologically different positions. The level of necessity of language change is an integral measure of language time, in other wods, rhythm, period, level of functionalization and language development.

It is known that in the language of every nation there are fixed expressions that are pronounced in speech as phrases and sentences. Such expressions are called phraseological units or idioms. The meaning of the whole phraseological unit does not arise from the meaning of the words included in it. Today, at a

time when linguistics is dominated by cognitivism, the human factor is at the heart of phraseology. The purpose of the article is to apply the general principles of cognition to the study of phraseological material. Phraseology has a national-cultural character, so modern linguistics pays special attention to the study of phraseological units, proverbs and parables that reflect ethnic thought and psychology. That is, no matter how unique our language units are logically, the general features and national-mental features of the language system dominate in phraseology. At the level of components, phraseology reflects the concepts of national cuisine, clothing, music, fauna and flora. It is known that the conceptual basis of phraseology consists of fragments of the linguistic picture of the world. At this point, the semantic structure of phraseological units becomes clear.

Key words: integral measurement, cognition, anthropocentric linguistics

Dil innovasiyalarının tədqiqi zamanı, yəni dil dəyişmələrində bir çox alimlər dili fərdlərarası kommunikativ fəaliyyətin dinamikliyini danışma prosesi (kodlaşdırma) və anlama (koddan çıxarma) ilə vəhdətdə göstərən L.V.Şerbanın linqvistik konsepsiyasına əsaslanırlar.[7,s.54] Təqdim edilən ümumlinqvistik kontekstdə dil fərdlərarası verbal kommunikasiyanın dinamik sistemi kimi başa düşülür. Dilin fəaliyyət üsulu – zaman və məkan kəsiyində dövr edən yaranma aktı və dil kollektivində kommunikativ əlaqələrlə birləşmiş və nəsil dəyişmələri zamanı dəyişən dil şəxsiyyətləri tərəfindən fərdi kodlarla interpretasiya olunmuş nitq kontekstidir. Belə mövcudiyyat üsulunda dil funksiallaşdırılaraq təkcə tələffüz edilmir, həm də mütləq və fasiləsiz olaraq dəyişir. Bu səbəbdən dilin funksiyası dil dəyişmələri prosesi ilə sinxron mövqedə dayanır.Dil innovasiyaları dil mühitində fərdi kodlarlla yaranır və individual nitq ünsiyyətləri ilə yayılır.

Dil kontaktı iki və daha artıq dillərin kommunikativ sahələrinin kəsiyində meydana gəlir. Təbii ki, bilinqvistlərin fərdi kodlarında dil kontaktı mövcud olur, lakin bu bütövlükdə iki dilli kollektivlərin və ya qrupların daxilində nitq mübadiləsi zamanı həyata keçə bilir. Dil kontaktının daha maraqlı özünəməxsusluğu isə tipoloji cəhətdən fərqli mövqelərdə dayanan dillərin qarşılıqlı təsiri zamanı meydana çıxır. Bu zaman birdilli və ikidilli kommunikativ proseslərdə özünü göstərən dil dəyişmələrinin fərqli mexanizmləri daha da qabarıq şəkildə özünü göstərir. Dil əlaqələrinin innovasiyalarında bilinqvistlərin ünsiyyəti zamanı nəinki dildaxili analoji hadisələr, həmçinin dilxarici analoji hadisələrdə iştirak edirlər.[3, s.224]

Dil dəyişmələrinin zərurilik səviyyəsi – dil zamanının inteqral ölçü dərəcəsidir, yəni, ritm, dövr, funksionallaşma səviyyəsi və dilin inkişafıdır. Məsələn; tamtəsnifatlı qrammatik dəyişmələri dilin yeni bir zaman ölçüsünə keçidi, keyfiyyətcə fərqli sinxronizmə keçidi kimi şərh etmək olar. Hər bir xalqın dilində dayanıqlı bədii ifadələr var ki, nitqdə söz birləşmələri və cümlələr kimi tələffüz edilirlər. Belə ifadələr frazeoloqizm adlanırlar. Bütöv frazeologizmin mənası onun tərkibinə daxil olan sözlərin mənasından yaranmır, məsələn; "biti-bitdən seçmək" – "ayıq olmaq" mənasını ifadə edir və bu mənanın birləşmənin tərkibinə daxil olan sözlərin mənası ilə heç bir əlaqəsi yoxdur.

Bu gün linqvistikada koqnitivizmin hökmranlıq etdiyi bir dövrdə insan faktoru frazeologiyanın da əsasında dayanır. Bu tezisdə də əsas məqsəd frazeoloji materialın öyrənilməsinə koqnitivizmin ümumi prinsiplərinin tətbiq edilməsidir. Məlumdur ki, koqnisiya dedikdə, insan təfəkkürünün özünəməxsusluğu nəzərdə tutulur. Belə ki, koqnisiya dil cildində təfəkkürü nəzərdə tutur, cünki məhz dil dünyanı dərketmənin etnik əsasının başa düşülməsi üçün açar verir. İnsan dünyanı mövcud ölçülər prizmasının içindən görür. Koqnitivliyin əsas anlayışları bunlardır: "konsept", "mentallıq", "konseptuallıq", "koqnitiv baza", "konseptual mühit", "milli-mədəni mühit".

Konsept termini əşya və hadisələr haqqında təsəvvürləri bildirir. V.A. Maslova yazır: "Milli konseptlər – abstrakt anlayışların adlarıdır, buna görə də, mədəni məlumat burada siqnifikata, və yaxud da məna nüvəsinə təhkim olunur[12, c. 48].

A.Vejbitskaya təsdiq edir ki, lüğət tərkibi etnofəlsəfəyə, tarixə və siyasətə bir açardır. Alim göstəriri ki, " filosoflar, politoloqlar və hüquqşünaslar'bail' [zamin], 'warrant' [order], 'custody' [qəyyum], 'solipsism' [solipsizm], 'determinism' [determinizm], 'parliament' [parlament], 'oath' [andiçmə] и 'democracy' [demokratiya], kimi terminlər sadəcə tərcümə oluna bilmirlər. Bundan əlavə xüsusi

xarakterə malik olmayan və ingilis dilində *freedom* 'azadlıq', *justice* 'ədalət' и *truth* 'həqiqət' sözlərində toplanan konseptlər linqvospesifikdirlər [6, c. 416].

A. Vejbitskaya hesab edir ki, müxtəlif avropa dillərində bu sözlərin ekvivalentləri eyni mənanı ifadə etmir. Alim belə nəticəyə gəlir ki, semantik metadilin yaradılması vacibdir, cünki saxta ekvivalentlik başqa bir dildən alınma ekvivalentlərin mənasını dəqiq müəyyənləşdirməyə imkan vermir.

Müasir antroposentrik dilçiliyin və koqnitiv linqvistikanın kontekstində daxili forma və fon məlumatı kimi anlayışlar xüsusi aktuallıq qazanır. Daxili forma dedikdə, sözün və frazeologizmlərin hərfi mənası başa düşülür. Koqnitiv linqvistika isə sözün və frazeologizmlərin daxili formasının xarakterinə xüsusi diqqət yetirir, belə ki, məhz daxili forma xalqın dünyanı dərketməsini əks etdirir. Koqnitiv linqvistika dilin göstərilən istiqamətdə tədqiqinə xüsusi diqqət yetirir, daha dəqiq desək, daxili formada nəzərə çarpan fərqliliklər baxımından. Müasir linqvistikanın xüsusi diqqət yetirdiyi məsələlərdən biri də fon məlumatıdır. Fon məlumatı anlayışı altında onsuz mətnin dərk edilməsi mümkün olmayan sözün leksik mənası daxil olmayan biliklər toplusu dərk edilir.

Beləliklə, tədqiqatçılar qeyd edirlər ki, "Dil kommunikativ imkanlara malik olmaqla yanaşı, dil ünsiyyətinin əsası kimi mövcud olan, bu səbəbdən də müxtəlif dövrlərdə danışanın və dinləyənin qarşılıqlı bilik realiləri kimi müəyyənləşdirilən birrəngli biliklərin məcmusunun dilin nəzəri biliklərində inikasının" vacib olmasıdır .

Amerika linqvisti Linn Visson ABŞ- da yaşayan rusların ingilis dilində danışarkən etdikləri küllü miqdarda səhvlərdən bəhs edərək bunları qeyd edir: " Mən Moskvada keçirilən konfransların birində çox maraqlı bir münaqişənin şahidi oldum. Dünyanın müasir vəziyyətində qərbin iqtisadi siyasətinin müzakirəsi zamanı amerikalı professor sərt bir şəkildə öz həmkarına dedi: *Get your finger out of my face!* O, öz fikrini təsdiqləmək məqsədi ilə şəhadət barmağını ona tərəf yönəltdi və sanki həmişə yalnız özlərinin tam haqlı olduqlarına əmin olan ruslara qarşı öz qərbli etirazını bildirdi". (3, c. 186). Bu konteksdə "insanların nitq davranışlarının spesifik- mədəni qaydaları hesab edilən" nitq etiketidə xüsusi bir məna qazanır [11, c. 152]. Müxtəlif xalqların nitq etiketlərini formulları həm eyni, həm də fərqli ola bilər

Əgər oxşarlıqlar etiketin ümuminsani mahiyyətini əks etdirirsə , o zaman milli özünəməxsusluqlardakı fərqlərin mədəni şəkildə göstərilməsi şərtidir. Bununla yanaşı mədəni şərtiliyi sadəcə milli-spesifik şərtilik kimi deyil, mentalitetin özünəməxsusluğu kimi başa düşmək lazımdır.

Bu gün linqvistikanın qarşısında duran əsas vəzifələrdən biri milli mentalitetin müəyyənləşdirilməsi və izahıdır. Görünür, milli təcrübənin ifadə formaları arasındakı fərqlər ətraf aləmin dərk edilməsi üsullarındakı fərqləri ifadə edir ki, bu da ümumilikdə milli xarakterlərdə və davranış stereotiplərindəki fərqləri göstərir. Dilə belə münasibət və dil ilə mədəniyyət arasındakı əlaqənin başa düşülməsi ilk növbədə xalqın etnik düşüncəsini və psixologiyasını, tarix və mədəniyyətini əks etdirən dil vahidlərinin öyrənilməsini vacibliyini göstərir. Frazeologiya öz xarakterinə görə milli-mədəni xarakterə malikdir, buna görə də müasir linqvistika etnik düşüncə və psixologiyanı əks etdirən frazeoloji vahidlərin, atalar sözləri və məsəllərin öyrənilməsinə xüsusi diqqət yetirir. Təbii ki, bu sırada ilk dayanan mənadəyişmənin mexanizminin öyrənilməsidir. Əgər alimlər frazeologizmlərdə ifadə olunan dünyagörüşünün milli özünəməxsusluqlarını aşkarlaya bilsələr, o zaman dilin semantik sisteminin özünəməxsusluğuna da bütövlükdə bir işıq sala bilərlər. Ola bilər ki, frazeoloji semantikanın formalaşmasının qanunauyğunluqları müəyyən mənada dilin semantik sisteminin qurulma qanunauyğunluğunu əks etdirir. Başqa sözlə, məntiqi cəhətdən vahidlərini nə qədər də unikal hesab etsək də frazeologiya dil sisteminin ümumi xüsusiyyətlər və milli-mental xüsusiyyətlər hökmranlıq edir. Hamıya məlumdur ki, tərkib hissələri səviyyəsində frazeologiya milli mətbəxi, geyimi, musiqini, fauna və floranı əhatə edən anlayışları əks etdirir. Əsas məsələ tərkib hissələri səviyyəsi nə dərəcədə frazeologiyanın milli-mədəni xüsusiyyətləri təsdiqləyə bilir. [15,s.250]

Bir şey məlumdur, frazeologiyanın konseptual əsasını dünyanın dil mənzərəsinin fraqmentləri təşkil edir. Bu məqamda frazeologizmlərin semantik strukturunun quruluşu tam anlaşıqlı olur. Lakin bu aydın quruluşun bütöv və tam şəkildə izahı hər hansı bir xalqın mentalitetini müəyyənləşdirən dünyanın dil mənzərəsinə uyğun gəlir. Beləliklə də, struktural təhlil qanunauyğun şəkildə koqnitiv təhlillə tamamlanır.

REFERENCES

1. Арутюнова Н.Д. Феномен молчания // Язык о языке: Сб. статей Под общ. Рук. И ред. Н.Д. Арутюновой. – М.: Языки русской культуры, 2000. – 624 с. – С. 417–436.

2. https://www.google.com/url?sa=t&rct=j&q=&esrc=s&source=web&cd=&ved=2ahUKEwim1eSZirf2AhXlsIsKHYv4DloQFnoECAcQAQ&url=https%3A%2F%%

3. Алефиренко, Н.Ф. Лингвокультурология. Ценностно-смысловое пространство языка/ Н.Ф.Алефиренко. - Москва: Флинта: Наука, - 2010. - 224 с.

4.Аскольдов, С.А. Концепт и слово // Русская словесность. От теории словесности к структуре текста. Антология. – Москва, -1997. - с. 267-279.

5. Баранов, А.Н. Введение в прикладную лингвистику/А.Н.Баранов. -Москва: Книжный дом «ЛИБРОКОМ», -2013. -368 с.

6.Вежбицка, А. Язык. Культура. Познание/ А.Вежбицка. -Москва: Русские словари, - 1996. - 416 с.

7.Владимирович Л.Ш. Как надо изучать иностранные языки.-Москва,-1929.-с 54

8. Гумбольдт В. Характер языка и характер народа // Гумбольдт В. Язык и философия культуры. М.: Прогресс, 1985. –С. 370–381.

9. Демьянков, В.З. Англо-русские термины по прикладной лингвистике и автоматической переработке текста/ В.З.Демьянков. -Москва: Всесоюзный центр переводов ГКНТ и АН СССР, -1982. -288 с.

10. Карасик, В.И. Языковой круг: личность, концепты, дискурс/ В.И.Карасик. -Волгоград: Перемена, -2002. -477 с.

11. Lynn Visson What Mean?: Where Russians Go Wrong in English Paperback — November 8, 2013. -152 с (Author).[8] //Amazon.com https://www.amazon.com/What-Mean-Where-Russians-English/dp/0781813220

12. Маслова В.А. Поэт и культура: Концептосфера Марины Цветаевой/ В.А.Маслова. – Москва: Флинта: Наука, -2004. - 256 с.

13.Маслова, В.А. Лингвокультурология/ В.А.Маслова. -Москва: Академия, -2001. - 208 с.

14. Пименова, М.В. Концептуальные исследования и национальная ментальность // Гуманитарный вектор, -2011, №4. - с. 126-132

15.Bolinger, D. Language. The Loaded Weapon: The Use and Abus of Language Todey/ D.Bolinger. - London; New-York: Longman, -1980. - 214 p.

QARABAĞIN DÖYÜNƏN QƏLBİ MƏDƏNİYYƏT MƏRKƏZİ ŞUŞA

Zülfiyyə Vəliyeva

ADPU ETM-nin elmi əməkdaşı

Respublikanın Əməkdar Müəllimi

Şuşa Azərbaycan üçün milli qururdur, milli mənlikdir, mədəniyyətdir, incəsənətdir, tarixdir.2022-ci il Azərbaycan Respublikasında "Şuşa ilı" elan olunmuşdur! Şüşa Qarabağın baş taçı, müqəddəs ruhlar evi! Qələbəmizdir:-Vətən, İnsan, yurd sevgimiz! Şəhid olan, qazi olan oğullara hörmət və ehtiramımız sonzusuzdur!!!

XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilib. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırılıblar. Azərbaycan musiqisinin beşiyi Qarabağ bizimdir!

Rəşadətli Ordumuzun Şuşaya bayraq sancması və bu xəbərin müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən xalqa çatdırılması 28 ildən sonra milli qururumuzun da, mənliyimizin də, mədəniyyətimizin də, incəsənətimizin də, tariximizin də azad edilməsini, hətta yeni yüksəliş mərhələsinə daxil olmasını sübut etdi. Şuşanın işğaldan azad olunması Qarabağın döyünən ürəyinin xilas edilməsi demək oldu".

Mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın, muğam sənətimizin beşiyi, qeyrətimizin, milli kimliyimizin simvolu Şuşanın, Şuşa qalasının işğaldan azad olunması xəbəri o qədər möhtəşəm, o qədər şanlı, o qədər qururlu bir xəbərdir ki, dünya dillərinin bütün söz və ifadələri, bədii təsvir vasitələri, metaforalar, təşbehlər bu hissi, bu duyğunu ifadə etməyə acizdir. Bu xəbərin gətirdiyi əhval-ruhiyyə, yaratdığı izaholunmaz ovqat o qədər böyük, o qədər möcüzəvi və eyni zamanda qutsaldır ki, bütün bunları yazıya almaq, vərəqlərə köçürmək ya mümkün deyil, ya da olduqca çətindir.

"Şuşasız bizim işimiz yarımçıq qalar" - deyən və bu haqq işini qeyrətlə, cəsarətlə, əzmlə başa çatdıran Ali Baş Komandanım!Azərbaycan Bayrağı Şuşada dalğalanır! Şuşa şəhərində "Xarıbülbül" musiqi festivalı keçirilir.

Biz verilləni qorumaq üçün məsuliyyət daşıyırıq! Şükür uğur, Qələbə qazanıldı qorumaq və möhkəmləndirmək gərəkdir! Allaha sınıb gücünə güvənmək, bir yumruquq olmaq gərəkdir! Vətənin qorunmasından önəmli heç nə yox və ola bilməz!!! Qədrini bilmək,uğuruna imza atmaq hər bir kəsin namus işidir! Dünya dəyişir.Haqq işi uğrunda can verən Oğullar var! Vətəni canı və qanı bahasına qoruyanlar! Şərəf, qürur yeri, son mənzil olan Vətən naminə məsuliyyətli olaq! Azərbaycan məktəbi, Azərbaycan müəllimi fəxr edib, qürur duyur. Onun yetirmələri müstəqil dövlətimizin tarixi torpaqlarını düşmən tapdağından təmizlənməsinə imza atmışlar! Torpağında Şəhid yatan Qarabağımız var! Bayrağımız Şusada Dalğalanır! Şuşa Azərbaycanın ürəyidir .. Şuşa Vətən deməkdir! Şuşa Qarabağın açarıdır. Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan ola bilməz! Deməyək Vətən bizim üçün nə edib, deyək ki, biz Vətən üçün nə etmişik! Vətəni yaşadan da, onu ucaldan da, şərəfləndirən də, qoruyan da bizik. Vətən torpağı bizim üçün toxunulmazdır, müqəddəsdir.

MATEMATİK ÖĞRETMEN ADAYLARI TARAFINDAN OLUŞTURULAN ZİHİN HARİTASI DEĞERLENDİRME RUBRİKLERİNİN İNCELENMESİ

EXAMINATION OF MIND MAP EVALUATION RUBRICS CREATED BY PROSPECTIVE MATHEMATIC TEACHERS

***Tuba YENİL*[1]**

[1]*Bursa Uludağ Üniversitesi, Eğitim Bilimleri Enstitüsü, Matematik Eğitimi Anabilim Dalı, Bursa, Türkiye.*

[1]*ORCID ID: 0000-0003-3457-9586*

***Çiğdem ARSLAN*[2]**

[2]*Bursa Uludağ Üniversitesi Eğitim Fakültesi, Eğitim Fakültesi, Matematik ve Fen Bilimleri Eğitimi Bölümü, Bursa, Türkiye.*

[2]*ORCID ID: https://orcid.org/0000-0001-7354-8155*

ÖZET

The idea that "babies in their arms returned to the tank in 1992" that has been on the minds of every Azerbaijani in recent history makes it necessary to look at the period when "these children" grew up and formed, the history of national education of our independent statehood. Because the history of Victory is a special stage in the history of our national education, an event of special importance in the education, upbringing and development of the young generation.

On the other hand, in the legacy of Heydar Aliyev, the great patron of Azerbaijani education, which opens wide opportunities for assessment from different angles, the Karabakh issue opens as a new page after the 44-day Patriotic War.

The victory of our people in Karabakh is one of the unique events of our national statehood, which, by mobilizing our national historical memory as a whole, makes it necessary to re-examine and study the development of our independent statehood, built on the basic principles of Azerbaijani ideology.

Yes, the vast majority of young people who wrote the history of our victory - our martyrs, veterans, national heroes - are students of national education, formed and developed on the basis of the ideology of Azerbaijanism, and at the same time one of the goals of far-sighted national education policy. From this point of view, the subject of Karabakh is a strategy in the legacy of Heydar Aliyev, which opens a wide horizon of analysis to be analyzed from several aspects.

Analyzing an analysis of Heydar Aliyev's Karabakh strategy in the context of the potential of Azerbaijani ideology, we see that his socio-political activity is history, literature, language, literary and historical memory of Karabakh, including the unity, stability, courage, sustainable development of national statehood, etc. , "Kitabi-Dada Gorgud" is a means of gathering the people around a single idea, the unity of the Turkic peoples, religion, faith, the cradle of different cultures. The ideology of independence, which he authored, is the source of the philosophy of Azerbaijanism. The Karabakh issue is the main criterion in the national leader's domestic and foreign policy, socio-economic development strategies, his position on science and culture, national and spiritual values, and his immeasurable legacy in the field of literature and art.

It is no coincidence that in academic scientific approaches, Heydar Aliyev is analyzed not only as a person who sees the future, but also as a person who creates the future. His return to political power in 1993, the political-social, socio-economic, cultural and other aspects of national statehood. When you analyze the numerous speeches, meetings and opinions in various directions, you see that the goal of all his activities is the liberation of Karabakh, and thus the self-assertion, prestige and invincible position of a state and people in the international arena.

He got acquainted with Heydar Aliyev's activities related to the construction of national education - the views expressed in his principled position in educational institutions, kindergartens, secondary schools, universities, meetings with scientists and educators on continuing education. A comparative analysis of the results shows that Heydar Aliyev's ideas are the basis of all national successes.

According to Heydar Aliyev, the main task facing Azerbaijani education is to form the future, the basis for the liberation of Karabakh: "Now one of the biggest tasks facing the independent Azerbaijani state is to restore the violated territorial integrity of the republic."

One of the self-evident truths is that Heydar Aliyev sees the "greatest task" facing the Azerbaijani state - the liberation of Karabakh, the inviolability of our lands, the lasting protection of our independence - with political superiority, economic power, the creation of military resources and education. builds in this direction.

In his meeting with teachers and scientists in 1996, in the third year of our independence, our national leader expressed hope for the young people of Azerbaijan to overcome the great, difficult and difficult path ahead of them. "Our task is to better prepare and educate the youth," he said.

Heydar Aliyev's recommendation to our teachers, intellectuals and scientists: “Do not reduce your attention to the work of education and upbringing of our youth. On the contrary, in such a situation, attention and care should be increased. I am sure that most of you think and live like this, and in spite of all these difficulties, they fulfill their duties with honor and will continue to do so with honor. " is also valuable in terms of understanding and is the subject of research.

In short, in the legacy of Heydar Aliyev, the Karabakh issue serves as a component of the ideology of Azerbaijanism, as a means of expressing the identity of the Azerbaijani state.

According to the philosopher, educator S. Khalilov, every year Heydar Aliyev once again reveals the greatness and grandeur of his genius. Time gives a deeper meaning to Heydar Aliyev's political views, more clearly shows that he is connected to the present and future of our country by very strong ties.

Keywords: Heydar Aliyev and Karabakh, ideology of Azerbaijanism, building national education, national-ideological basis, Heydar Aliyev's ideas

İBTİDAİ SİNİFDƏ VƏTƏNPƏRVƏRLİK RUHUNUN AŞILANMASI

(2-ci sinif Azərbaycan dili dərsliyi əsasında)

INCREASING THE SPIRIT OF PATRIOTISM IN PRIMARY SCHOOL

(Based on the 2nd grade Azerbaijani language textbook)

Mehdizadə Gülşən Kamal qızı

ADPU-nun kiçik elmi işçisi

XÜLASƏ

Açar sözlər: Ümummilli Lider, dəmir yumruq, atribut, vətənpərvərlik, mənəvi dəyərlər

Vətən daşını sevməyəndən vətəndaş olmaz! – deyiblər. Məhz, vətən nisgili yurdumuzun 20% zəbt olduğu müddətdə hər il işğal təqvim günlərində deyil, ürəyi Azərbaycanla döyünən hər kəsin qəlbində 28 il xalqın dualarında, xidmətində yaşamışdır. Çox sevindirici haldır ki, Ümummilli liderin uzaqgörən siyasətinin, məktəbinin davamçısı Azərbaycan Respublikasının Ali Baş Komandanı, xalqının sevgisini, etimadını qazanan prezidenti, sərkərdəsi İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı, şəhidlərimizin, qazilərimizin, vətən təəssübkeşli xalqımızın birliyi, əzmi sayəsində işğal tarixlərimizin qarşısında zəfər günlərimiz fəxarətlə həkk olundu! Bu prossesin həyata keçməsində hər bir generalın, zabitin, əsgərin, könüllünün ərsəyə gəlməsi ailə və cəmiyyət vəhdətinin inikasıdır. Döyüş meydanında ədaləti bərpa edərək Azərbaycanın dilbər guşəsi, Qarabağın gözəllik simvolu Şuşa işğaldan azad olunması münasibəti ilə Prezidentimiz 8 noyabr 2020-ci ildə xalqa təbrikində demişdir: *"Biz canlarını fəda edən atalarımızı, gözü yaşlı analarımızı, düşmən təcavüzü ilə işğal olunan torpaqlarımızı heç vaxt unutmadıq. Qarabağdan qucaqda gələn körpələr, tank belində əsgər kimi geri döndülər!"* Güclü, ağıllı, savadlı, sağlam vətəndaş, şəxsiyyət yetişdirmək təlim-tədris müəssisələrinin üzərinə düşən əsas vəzifədir. Sinif otağındakı mühit və şagirdlərin qarşısındakı dərslik şagirdlərin vətəninə layiq övlad olmasına zəmin yaradır.

Kurikulum dövlət sənədinin tələblərinə cavab verən ümumtəhsil məktəbləri üçün nəzərdə tutulan Azərbaycan dili dərsliklərinə daxil edilmiş özündə vətən, yurd sevgisi ehtiva edən hekayə və şeirlər yetişməkdə olan gənc nəsli vətənpərvər ruhda formalaşdırır. Belə ki, Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün nəzərdə tutulan "Azərbaycan dili" dərsliyinin "Dəyərlərimiz" bölməsində Rafiq Yusifoğlunun "Üçrəngli bayraq" şeirində kiçikyaşlı məktəblilərdə dövlətə, onun atributuna hörmət və sevgi tərənnüm olunur.

Dərslikdə *Əhməd Cəmilin "Vətən" şeirində mövzulararası inteqrasiya şərti gözlənilərək vətənpərvərlik, dövlətçilik ideyaları aşılanır.*

Həmçinin, dərslikdəki mənəvi dəyərlərimizə edilən ehtiram, mədəniyyət mərkəzi Şuşamızın yetişdirdiyi şairə, rəssam, maarifpərvər, el-obasına canıyanan humanist Xan qızı Xurşudbanu Natavanın tanınması Dilrüba Cəfərovanın qələmə aldığı "Qədim xalça" hekayəsində şagirdlərin nəzərinə çatdırılır. Hekayədə nənənin dilindən danışılan hadisə Gülərin timsalında mənəvi dəyərlərimizə sahib çıxma, adət ənənələrimizi qoruyub saxlama kimi yüksək dəyərlərimiz kiçikyaşlı məktəblilərin təfəkküründə kök salır.

30 il ərzində bir gün də olsun qəlbimiz Şuşasız, Xocavəndsiz, Xocalısız, Laçınsız, Kəlbəcərsiz, Ağdamsız, Cəbrayılsız, Qubadlısız, Füzulisiz, Zəngilansız döyünmədi. Hər şad günümüzdə "gün o gün olsun bu şadyanalığı Qarabağda qeyd edək" dualarımız,əzmimiz bizi Qarabağa qovuşdurdu!

ABSTRACT

Keywords: National Leader, iron fist, attribute, patriotism, moral values

He who does not love his homeland will not be a citizen! They said. Namely, during the occupation of 20% of our homeland, not every year on the calendar days of occupation, but in the hearts of everyone whose heart beats with Azerbaijan, lived in the prayers and service of the people for 30 years. It is very gratifying that the successor of the far-sighted policy and school of the national leader, the Supreme Commander-in-Chief of the Republic of Azerbaijan, President Ilham Aliyev's "Iron Fist" operation, the unity and determination of our martyrs, veterans and patriotic people was engraved with pride!

The emergence of every general, officer, soldier and volunteer in the implementation of this process is a reflection of the unity of the family and society. Restoring justice on the battlefield a symbol of beauty Karabakh on the occasion of liberation from occupation Shusha in his congratulatory message to the people on November 8, 2020, our President said: "We have never forgotten our fathers who sacrificed their lives, our mothers in tears, our lands occupied by the enemy. The babies who came from Karabakh in their arms returned like soldiers in a tank! " The main task of educational institutions is to cultivate a strong, intelligent, educated, healthy citizen and personality. The environment in the classroom and the textbook in front of the students create the basis for the students to become children worthy of their homeland. The curriculum forms a patriotic spirit of the young generation, which includes stories and poems about the motherland and patriotism, included in the textbooks of the Azerbaijani language for secondary schools that meet the requirements of the state document. Thus, in the "Our Values" section of the "Azerbaijani language" textbook for the 2nd grade of secondary schools, Rafig Yusifoglu's poem "Tricolor Flag" glorifies respect and love for the state and its attributes in young schoolchildren. The textbook instills the ideas of patriotism and statehood in Ahmad Jamil's poem "Vatan" with the expectation of interdisciplinary integration. Also, the respect for our moral values in the textbook, the recognition of the poet, artist, educator, humanist Khan gizi Khurshudbanu Natava, nurtured by the Shusha cultural center, is brought to the attention of students in the story "Ancient carpet" written by Dilruba Jafarova. The story is told in the language of a grandmother. In the example of Guler, our high values, such as owning our moral values and preserving our traditions, are rooted in the minds of young schoolchildren. For 28 years, not a single day has our heart beat without Shusha, Khojavend, Khojaly, Lachin, Kalbajar, Aghdam, Jabrayil, Gubadli, Fizuli, Zangilan. Every happy day, our prayers and determination "Let this day be the day to celebrate this joy in Karabakh" brought us to Karabakh!

Vətən mənə oğul desə nə dərdim,

Mamır olub qayasında bitərdim

Məmməd Araz

Vətən daşını sevməyəndən vətəndaş olmaz! – deyiblər. Məhz, vətən nisgili yurdumuzun 20% zəbt olduğu müddətdə hər il işğal təqvim günlərində deyil, ürəyi Azərbaycanla döyünən hər kəsin qəlbində 30 il xalqın dualarında, xidmətində yaşamışdır. Çox sevindirici haldır ki, Ümummilli liderin uzaqgörən siyasətinin, məktəbinin davamçısı Azərbaycan Respublikasının Ali Baş Komandanı, xalqının sevgisini, etimadını qazanan prezidenti, sərkərdəsi İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı, şəhidlərimizin, qazilərimizin, vətən təəssübkeşli xalqımızın birliyi, əzmi sayəsində işğal tarixlərimizin qarşısında zəfər günlərimiz fəxarətlə həkk olundu! Bu prossesin həyata keçməsində hər bir generalın, zabitin, əsgərin, könüllünün ərsəyə gəlməsi ailə və cəmiyyət vəhdətinin inikasıdır. Döyüş meydanında ədaləti bərpa edərək Azərbaycanın dilbər guşəsi, Qarabağın gözəllik simvolu Şuşa işğaldan azad olunması münasibəti ilə Prezidentimiz 8 noyabr 2020-ci ildə xalqa təbrikində demişdir: *"Biz canlarını fəda edən atalarımızı, gözü yaşlı analarımızı, düşmən təcavüzü ilə işğal olunan torpaqlarımızı heç vaxt unutmadıq. Qarabağdan qucaqda gələn körpələr, tank belində əsgər kimi geri döndülər!"* Güclü, ağıllı, savadlı, sağlam vətəndaş, şəxsiyyət yetişdirmək təlim-tədris müəssisələrinin üzərinə düşən əsas vəzifədir. Sinif otağındakı mühit və şagirdlərin qarşısındakı dərslik şagirdlərin vətəninə layiq övlad olmasına zəmin yaradır.

Kurikulum dövlət sənədinin tələblərinə cavab verən ümumtəhsil məktəbləri üçün nəzərdə tutulan Azərbaycan dili dərsliklərinə daxil edilmiş özündə vətən, yurd sevgisi ehtiva edən hekayə və şeirlər yetişməkdə olan gənc nəsli vətənpərvər ruhda formalaşdırır. Belə ki, Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün nəzərdə tutulan "Azərbaycan dili" dərsliyinin "Dəyərlərimiz" bölməsində Rafiq Yusifoğlunun "Üçrəngli bayraq" şeirində kiçikyaşlı məktəblilərdə dövlətə, onun atributuna hörmət və sevgi tərənnüm olunur:

Üçrəngli bayraq bizə
Təsəllidir, dayaqdır,
Yolumuzun üstünə
İşıq saçan mayakdır.

[1.,s.65]

Dərslikdə *Əhməd Cəmilin "Vətən" şeirində mövzulararası inteqrasiya şərti gözlənilərək vətənpərvərlik, dövlətçilik ideyaları aşılanır:*

Sən dünyanın gözüsən,
Taleyimin özüsən.
Sevirəm bayrağını,
Öpürəm torpağını!

[1.,S.68]

Həmçinin, dərslikdəki mənəvi dəyərlərimizə edilən ehtiram, mədəniyyət mərkəzi Şuşamızın yetişdirdiyi şairə, rəssam, maarifpərvər, el-obasına canıyanan humanist Xan qızı Xurşudbanu Natavanın tanınması Dilrüba Cəfərovanın qələmə aldığı "Qədim xalça" hekayəsində şagirdlərin nəzərinə çatdırılır. Hekayədə nənənin dilindən danışılan hadisə Gülərin timsalında mənəvi dəyərlərimizə sahib çıxma, adət ənənələrimizi qoruyub saxlama kimi yüksək dəyərlərimiz kiçikyaşlı məktəblilərin təfəkküründə kök salır:

Gülər birinci sinfi bitirəndə nənəsi ona bir xalça bağışladı. Balaca qız nənəsinə təşəkkür etsə də, bu hədiyyəyə çox da sevinmədi. Çünki xalça köhnə idi. Gülər onu öz otağına yaraşdırmırdı. Nənə bunu hiss edib nəvəsinə xalçanın tarixini danışdı: "Bu xalçanı nənəmin nənəsi toxuyub. Onun adı Sayalı idi. Şuşanın ən mahir xalçaçılarından sayılırdı. Evləri də xalqımızın böyük şairi Xurşidbanu Natəvanın qonşuluğunda idi. Şuşada Natəvanı hamı "Xan qızı" deyə çağırırdı.

Bir gün Sayalı həyətdə hana qurub xalça toxumağa hazırlaşır. Bu zaman Xan qızı onu görüb yanına gəlir. Hanadakı əlvan rəngli iplərə baxıb heyran olur. Qız utana-utana deyir:

– Bu boyalar dağlarımızın çiçəklərindən, otlarından hazırlanıb.

– Çox gözəldir. Gəl mən bir naxış çəkim. Onu xalçaya sal.

Hə, Gülər bala, onu da deyim ki, Xan qızı təkcə şair deyildi, həm də yaxşı rəssam idi. Xalçada gördüyün bu naxışları o çəkib. Odur ki, qızım, bu xalça doğma Şuşamızdan, gözəl şairimiz Natəvandan yadigardır".

Bu söhbətdən sonra Gülər evlərinə gələn qonaqlara xalçanın tarixini danışaraq qürurla deyir:

– Onu nənəmin nənəsinin nənəsi toxuyub [1.,s.76].

Əsası XVIII əsrdə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş Şuşa şəhəri 17 məhəlləsi, hər məhəlləsində hamam,məscid, bulağı olan mədəniyyət mərkəzimiz, muğam beşiyimiz 8 may 1992-ci ildə erməni işğalçıları tərəfindən zəbt edilərək talan edilmişdir. 30 il ərzində bir gün də olsun qəlbimiz Şuşasız, Xocavəndsiz, Xocalısız, Laçınsız, Kəlbəcərsiz, Ağdamsız, Cəbrayılsız, Qubadlısız, Füzulisiz, Zəngilansız döyünmədi. Hər şad günümüzdə "gün o gün olsun bu şadyanalığı Qarabağda qeyd edək" dualarımız,əzmimiz bizi Qarabağa qovuşdurdu! 27 sentyabr 2020-ci ildə 44 günlük haqq savaşımızın Zəfər günü də məhz, Şuşanın işğaldan azad olunma gününə - 8 noyabr 2020-ci il tarixinə təyin edildi! Qayıdışımızı Ali Baş Komandana, şəhidlərimizə, qazilərimizə, bütövlüyümüzü qoruyan hərbiçilərimizə borcluyuq!

Sonda fikrimi Cənab İlham Əliyevin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbiçilər qarşısında çıxışı zamanı bildirdiyi fikirlə tamamlamaq istərdim:

Dövlət başçısı bildirib:

"Əziz hərbçilər, sizi, Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm. İlk növbədə, xahiş edirəm ki, Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilsin.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzindəki bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir.

İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirmişdir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə, öz əməli ilə yaxınlaşdırmalıdır. Mən demişdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və biz işğala son qoymaq üçün bütün gücümüzü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduq".

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün “Azərbaycan dili” (tədris dili kimi) fənni üzrə dərslik. Altun kitab. Bakı-2018.

ALTINCI SINIF ÖĞRENCİLERİN PARALELKENAR ALANI BİLGİSİNİ OLUŞTURMA SÜRECİNİN RBC+C MODELİNE GÖRE İNCELENMESİ: BİR ÖĞRETİM DENEYİ*

EXAMINATION OF SIXTH-GRADE STUDENTS' PROCESS OF CREATING THE KNOWLEDGE OF THE PARALLELING FIELD ACCORDING TO THE RBC+C MODEL: A TEACHING EXPERIMENT*

Nurgül BÜTÜNER [1]

[1] *Uludağ Üniversitesi, Eğitim Bilim Enstitüsü, Yüksek Lisans Öğrencisi, Bursa, Türkiye.*

[1]*ORCID ID: https://orcid.org/0000-0002-6546-24631*

Jale İPEK [2]

[2] *Doç. Dr., Ege Üniversitesi Eğitim Fakültesi Bilgisayar ve Öğretim Teknolojileri Eğitimi Bölümü, İzmir, Türkiye*

[2]*ORCID ID: https://orcid.org/0000-0003-3088-193X*

ÖZET

Matematik yığılmalı bir bilimdir (Bingölbali & Coşkun, 2016). Alan yazında matematiksel bilginin soyut olduğu (Altun, 2013; Baykul, 2014) belirtmekte ve bu nedenle öğrencilerin matematiksel bilgiyi yapılandırmakta zorlandıklarına dikkat çekmektedir. Bu bağlamda öğrencilerin matematiksel bilgiyi soyutlamaları önemli bir araştırma sorusudur. Bu çalışma ortaokul 6.Sınıf düzeyindeki öğrencilerin paralelkenar alan formülüne geçiş sürecindeki soyutlamalarını RBC modeli ile ortaya çıkarmak amacıyla yapılmıştır. Çalışmada ortaya konan bilgi oluşturma süreci, nitel araştırmada yer alan yorumlayıcı yaklaşıma dayalı öğretim deneyi yöntemi ile incelenmiştir. Çalışmanın katılımcılarını 2021-2022 öğretim yılında İstanbul'da bir ortaokulda öğrenim gören maksimum örnekleme yöntemine göre matematik başarı düzeyleri; yüksek, orta ve düşük olacak şekilde seçilmiş 9 altıncı sınıf öğrencisi oluşturmaktadır.Öğrenci gruplarının paralelkenar alan formülünü nasıl soyutladıklarını ortaya çıkarmak için RBC modeline uygun ve sınıf düzeyinin gerektirdiği öğrenmeleri ve ön alan öğrenmeleri içeren kazanımları da dikkate alarak araştırmacı tarafından hazırlanmış alan sorularından oluşan "Üçgen Alanı","Dikdörtgen Alanı" ve "Paralelkenar Alanı" etkinlikleri matematik başarı düzeylerine göre homojen belirlenmiş öğrenci gruplarına 2 ders saati sürecinde uygulanmış, öğrenci gruplarıyla gerçekleştirilen etkinlikler video kayıt altına alınmış ve daha sonra yazılı metne çevrilmiştir. Elde edilen veriler RBC+C modeli analitik araç olarak kullanılarak betimsel analizi yapılmıştır.Araştırmanın sonunda öğrenci gruplarının hemen hemen hepsinin paralelkenar alanı formülünü oluşturdukları görülmüştür.Bu oluşturma eyleminin süresi her gruba göre değişiklik göstermektedir ve gruplarda başarı düzeyi yüksek-yüksek olan öğrencilerin süreci daha iyi içselleştirildiği gözlemlenmiştir. Diğer başarı düzeyindekilerin paralelkenar alan formülünü daha geç oluşturmasının ise gerekli ön bilgilerin eksikliğinden kaynaklanıyor olabileceği düşünülmektedir. Öğrencilere uygulama esnasında tüm paralelkenarlar için geçerli paralelkenar alan formülü sorulduğunda çoğunun alanı doğru bulduğu halde öğrencilerin yaptıkları işlemleri ifade etmede zorlandıkları, ezbere işlem yaptıkları, işlemleri neden gerçekleştirildiğini bilmedikleri ve mantıksal-matematiksel bilgiyi kullanamadıkları görülmüştür. Bu bağlamda matematiksel bilginin öğretim durumlarında (özelde alan kavramında) tasarlanacak öğretim durumlarında öğrencilerin matematiksel bilgiyi soyutlamasına olanak sağlayacak deneyimlere daha fazla yer verilmesi önerilebilir.

Anahtar Kelimeler: Matematik öğretimi, paralelkenar alanı, soyutlama, yapılandırmacı yaklaşım, öğretim deneyi

ABSTRACT

Mathematics is a cumulative science (Bingölbali & Coşkun, 2016). In the literature, he states that mathematical knowledge is abstract (Altun, 2013; Baykul, 2014) and draws attention to the fact that students have difficulties structuring mathematical knowledge. In this context, students' abstraction of mathematical knowledge is an important research question. This study was carried out in order to reveal the abstractions of the 6th-grade students in the transition process to the parallelogram area formula with the RBC model. The knowledge creation process revealed in the study was examined with the teaching experiment method based on the interpretive approach in qualitative.The study participants were educated in a secondary school in Istanbul in the 2021-2022 academic year, according to the maximum sampling method, consisting of 9 sixth grade students selected as high, medium, and low. The study was carried out in 2 class hours with three groups of 3 students, each homogeneously determined according to their mathematics achievement levels. "Triangle Area," "Rectangle Area," and "Parallelogram Area" activities consist of field questions prepared by the researcher in accordance with the RBC model and taking into account the learnings required by the grade level and the acquisitions, including pre-field learning, in order to reveal how the student groups abstracted the parallelogram area formula. It was applied to the homogeneous student groups according to their level of education in 2 lesson hours, and the activities carried out with the student groups were recorded on video and then translated into written text.Descriptive analysis of the obtained data was made using the RBC+C model as an analytical tool. At the end of the research, it was seen that almost all of the student groups formed the rule for the edge times the height of the edge for the parallelogram area. The duration of this creation action varies according to each group, and it has been observed that students with high-high success levels in the groups internalize the process better. It is thought that the later development of the parallelogram area formula by those with other success levels may be due to the lack of necessary preliminary information. When the students were asked about the parallelogram area formula valid for all parallelograms during the application, it was seen that although most of them found the area correct, the students had difficulty in expressing the operations they did; they did the operations by heart, they did not know why the operations were performed, and they could not use the logical-mathematical knowledge. In this context, it can be suggested to include more experiences that will allow students to abstract mathematical knowledge in teaching situations to be designed in mathematical knowledge teaching situations (especially in the field concept).

Keywords: Mathematics teaching, parallelogram area, abstraction, constructivist approach, teaching experiment

QARABAĞ XANLIĞININ SƏRHƏDLƏRİ VƏ ƏRAZİSİNDƏN KEÇƏN TİCARƏT YOLLARI RUSİYA DÖVLƏT HƏRBİ TARİX ARXİVİNİN MATERİALLARI ƏSASINDA

BORDERS AND TRADE ROUTES THROUGH THE KARABAKH KHANATE RUSSIAN STATE MILITARY HISTORY BASED ON THE MATERIALS OF THE ARCHIVE

PhD. Mammadli Rovshan Ulduz oglu

Central Scientific Library of ANAS

ORCID 0000-0001-9431-8084

XÜLASƏ

Konfransa təqdim edilən məqalə Qarabağ xanlığının daxili və xarici ticarət yollarının tarixşünaslığına həsr edilib. Məqalədə Qarabağ xanlığının ərazisindən keçən ticarət yolları barədə müxtəlif mənbələrdə olan məlumatlar tədqiq edilərək nəticələr çıxarılıb. Xanlığın nəqliyyat infrastrukturu və onun Azərbaycan tarixində ki, rolu araşdırılıb. Nəqliyyat yolları barədə müxtəlif mənbələrdə olan məlumatlar təhlil olunub, ümumiləşdirmələr edilib. Xüsusən "Qarabağnamə"lərdə bu haqda yazılan qeydlər təhlil olunub. Həmçinin Qarabağ xanlığı coğrafiyasının tədqiqində yerli mənbələrlə yanaşı, xarici mənbələrin də vacibliyi qeyd edilib. Bu mənbələrdən Rusiya dövlət arxivlərində qorunan sənədlərin müstəsna məlumat bazasına malik olduğu bildirilib. Bu arxivlərdən dövrün rəsmi sənədlərinin qorunduğu Rusiya dövlət hərbi tarix arxivində saxlanılan məlumatların bu istiqamətdə mühüm mənbə olduğu göstərilib. Bu mühüm sənədlərdən biri 1806-cı ildə mayor Matuşeviç tərəfindən tərtib edilmiş "Ərtikdən Təbrizə yolun təsviri" adlı hesabatdır. Hesabatda Azərbaycanın Şimal xanlıqlarından Təbrizə gedən yol təsvir edilib. Bu hesabatda həmçinin Qarabağ xanlığı ərazisindən keçən yollarda əksini tapıb. Hesabat xarakterli yazıya daxil olan "Yelizavetpoldan Qarabağ dağlarını yan keçməklə İnci çayına qədər, Çəbrayıl bağlarına və ordan Sisianov vilayəti ilə Naxçıvana olan yolun təsviri" hissəsi Qarabağ xanlığının daxili yolları və müvafiq nəqliyyat infrastrukturu təsvir edilmişdir. Məqalədə bu təsvirdən doğan nəticələr qeyd edilib, təhlillər aparılmışdır. Məqalənin nəticəsində isə Qarabağ xanlığı ərazisinin mühüm təbii-coğrafi şəraitə malik olması ilə əlaqədar, onun hərbi və nəqliyyat baxımından Rusiya imperiyasının diqqətini çəkdiyi göstərilmişdir.

Açar sözlər: nəqliyyat, yol, sərhəd, körpü, istiqamət, məsafə

ABSTRACT

The article presented at the conference is dedicated to the history of domestic and foreign trade routes of the Karabakh khanate. The article examines the information in various sources about trade routes passing through the territory of the Karabakh khanate. The transport infrastructure of the khanate and its role in the history of Azerbaijan were studied. Information on transport routes from various sources was analyzed and summarized. In particular, the notes written in the "Karabakh" were analyzed. The importance of foreign sources as well as local sources in the study of the geography of the Karabakh khanate was also noted. These sources indicate that Russia has an exclusive database of documents protected in the state archives. These archives show that the information stored in the Russian State Military History Archive, where the official documents of the period are preserved, is an important source in this direction. One of these important documents is the report "Description of the road from Artik to Tabriz" compiled by Major Matushevich in 1806. The report describes the road from the northern khanates of Azerbaijan to Tabriz. This report is also reflected in the roads passing through the territory of the Karabakh khanate. The report includes a description of the internal roads and relevant transport infrastructure of the Karabakh khanate in the section "Description of the road from Yelizavetpol to the Pearl River, bypassing the Karabakh mountains, to the Jabrayil gardens and from there to Nakhchivan through Sisianov province". The article notes the results of this description and analyzes them. As a result of the article, it was noted that due to the important natural and geographical

conditions of the territory of the Karabakh khanate, it attracted the attention of the Russian Empire in terms of military and transport.

Keywords: transport, road, border, bridge, direction, distance

GİRİŞ

1947-ci ildə Nadir şah Əfşar sui-qəsd nəticəsində qətlə yetirildi. Şahın ölümündən az sonra onun qurduğu Əfşar imperiyası dağıldı. İmperiyanın əsas bölgələrindən olan Azərbaycan ərazisində bu parçalanma nəticəsində 20 xanlıq yarandı. Araz çayından şimalda 9 müstəqil xanlıq elan edildi. Yeni yaranmış dövlətlər arasında ən strateji əraziyə malik Qarabağ xanlığı idi. O, coğrafi mövqeyinə və maddi, o cümlədən insan ehtiyatlarma görə digər xanlıqlardan xeyli fərqlənirdi. Belə ki, onun ərazisindən şimal ilə cənubu bağlayan strateji yol keçirdi. Üstəlik, Araz çayının üzərində olan xudafərin körpüsü də Qarabağ xanlığının tabeliyində idi,

Səfəvilər imperiyası (1501-1736) dövründən ərazidə mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyi mövcud olmuşdur. Bəylərbəylik Səfəvilər dövründə ən zəngin vilayətlərdən idi. O, şimal və şərqdə Kür çayı, cənubda Araz çayı, qərbdə Samxet dağları və Göyçə gölünə kimi geniş bir ərazini əhatə edirdi. Qarabağ xanlığı da Gəncə şəhəri və ətraf əraziləri istisna olmaqla Qarabağ bəyliyinin ərazisində yaranmışdı. [15, 26] Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın sələfləri və onun mənsub olduğu Sarıcalı oymağı Qarabağın qədim sakinlərindən olub. Sarıcalı oymağı Otuzikilər tayfa ittifaqına aid olan Cavanşir tayfasına mənsub idi.

Qarabağ xanlığı coğrafi və strateji əhəmiyyətinə görə Cənubi Qafqazın mühüm bölgələrindən sayılırdı. Belə ki, onun ərazisindən şimaldan cənuba gedən mühüm ticarət yollarının ən əlverişli marşrutu yerləşirdi. Bu ticarət yolları qonşu ölkələrin diqqətini çəkirdi. Xüsusilə Rusiya İranla ticarətdə bu yolların əla keçirilməsində maraqlı idi. XIX əsrin sonlarlndan Cənubi Qafqazda açıq hərbi ekspansiyaya başlayan Rusiya burda həm kəşfiyyat, həm də iqtisadi maraqlarını əhatə edən məlumatlar toplamaqla məşğul idi. Bu məlumatları peşəkar hərbçilər və casuslar toplayırdı. Toplanan məlumatlar və bölgə haqda təsvir və hesabatlar Rusiya İmperiyası Hərbi Nazirliyinə ötürülürdü. Sonradan bu məlumatlar Rusiya dövlət hərbi tarix arxivinə verilmişdir. Hazırda bu sənədlər arxivin fondlarında saxlanılır. Bu sənədlərdən biz Qarabağ xanlığının sərhədləri, şəhərləri və ticarət yolları barədə məlumat əldə edirik. Arxivdən əldə etdiyimiz məlumatlar bizə digər mənbələrlə yanaşı Qarabağ xanlığının coğrafi mövqeyi, ticarət yolları barədə müfəssəl nəticələr çıxarmağa kömək edir.

XANLIĞIN SƏRHƏDLƏRİ BARƏDƏ MƏNBƏLƏRDƏ MƏLUMATLAR

Qarabağ xanlığı bəylərbəylik kimi əlveişli coğrafi mövqedə yerləşirdi. Xanlıq ərazisi bəylikdən nisbətən kiçik olsa da, yenə də coğrafi mövqeyi şimaldan cənuba gedən yollara nəzarət etmək imkanı verirdi. Xanlığın sərhədləri haqda ilk məlumat onun tarixinin əks olunduğu "Qarabağnamələr"dən almaq olur. "Qarabağnamələr" müəllifləri Qarabağ xanlığı tarixindən danışarkən onun təbii-coğrafi mövqeyi və sərhədləri barədə yazırlar.

Mirzə Adıgözəl bəyin əsərində Qarabağın coğrafi mövqeyi səlnamə şəkildə təsvir edilsə də, müəyyən məlumatlar əldə etmək mümkündür. Lakin Bu məlumatlar xanlığın tarixi-coğrafi mövqeyi haqqında kiçik də olsa təsəvvür yaratsa da, onun bütün istiqamətlərdən sərhədlərini müəyyən etməyə imkan vermir. Mirzə Adığözəl bəy əsərində yazır ki, Qarabağ xanı "Gəncə hakimlərinə aid və Xudafərin körpüsündən Kürək çayına qədər olan yerləri də öz əlinə keçirdi". [2, 35-36] Bu məlumat bizə xanlığın şimal və cənub istiqamətində sərhədlərinin çaylar vasitəsilə müəyyən edildiyini ehtimal etməyə imkan verir.

Daha bir "Qarabağnamə" müəllifi Mirzə Camal Cavanşir əsərində xanlığın ərazisini, sərhədlərinin coğrafi hüdudlarını ətraflı təsvi edir. Əsərdə xanlığın sərhədləri belə verilib "...Cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər - Araz çayıdır. Şərq tərəfdən Kür çayıdır... Şimal tərəfdən Qarabağın Yelizavetopolla sərhədi Goran çayıdır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır...". [3, 107-108, 113, 114] Rzaqulu bəy Mirzə Camal oğlunun "Qarabağnamə"sində də xanlığın sərhədləri barədə məlumatlar verilir. [15, 206] Rzaqulu bəy əsərində Mirzə Camalın sərhədlər barədə verdiyi məlumatları təsdiq edir.

Xanlıq ərazisinin sərhədlərini müəyyənləşdirərkən belə qənaətə gəlmək olur ki, "Qarabağnamələr"in müəllifləri təxmini də olsa bu sərhədləri verirlər. Beləliklə Qarabağ xanlığı ərazisi Kürəkçay və Qaraçay çayları boyunca şimal-qərbdə Gəncə, cənub-qərbdə Naxçıvan, qərbdə İrəvan, şimalqərbdə Şəki (Kür çayı boyunca), həmçinin Kür çayı boyunca Şirvan xanlıqları ilə həmsərhəd idi. Bunlardan əlavə Qarabağ xanlığının cənub-şərqində Təbriz və Ərdəbil xanlıqları yerləşirdi. Müxtəlif qaynaqların müqayisəli təhlili göstərir ki, xanlığın sərhədləri haqqında danışarkən salnamə müəlliflərinin göstərdikləri sərhədləri əsas götürmək mümkündür. [7, 100]

Qarabağ xanlığının sərhədləri barədə məlumatı Rusiya mənbələrindən də almaq olur. Rusiya dövlət arxivlərində saxlanılan sənədlərdə bu barədə geniş məlumatlar mövcuddur. Belə sənədlərdən biri Rusiya dövlət hərbi tarix arxivində qorunur. Sənəd arxivdə 846-cı fondda qorunur. Bu sənəd çar ordusu polkovniki və casusu Stepan Burnaşevin 1793-cü ildə Kurska nəşr olunmuş 23 səhifəlik qısa həcmli əsəridir. Onun bu əsəri "Persiyada Azərbaycan vilayətlərinin təsviri və onların siyasi vəziyyəti" adlanır. Əsərdə Azərbaycan xanlıqları barədə qısa məlumat verilir. Şuşa (Qarabağ) xanlığı bölümündə onun sərhədləri də göstərilir. Sənəddə xanlığın şimaldan Gəncə xanlığı, Nuxa (Şəki) xanlığı ilə sərhədlərin Kür çayı boyunca keçdiyi, cənub-şərq tərəfdən Araz çayının onu Muğançöldən və Qaradağ xanlığından ayırdığını, qərbdən isə Naxçıvan xanlığı ilə sərhəd olunduğu yazılır. [13, 208]

A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi arxivində saxlanılar Rusiya dövlət hərbi tarix arxivinin sənədlərinin çıxarılmış surətlərində İbrahim xanın Rusiya imperiyası məmurları ilə yazışmalarında da Kür çayının Qarabağ xanlığını Şəki xanlığından ayırıldığı qeyd edilir. [11, 246] Tarix İnstitutunun elmi arxivində saxlanılar Rusiya dövlət hərbi tarix arxivinin sənədlərinin çıxarılmış daha bir surətində XVIII əsrin sonunda II İraklinin hakim olduğu Gürcü çarlığının şərq tərəfdən Gəncə yaxınlığında İbrahim xan Şuşalının torpaqları ilə sərhəd olduğunu yazır. [12, 272]

XANLIQ ƏRAZİSİNDƏ OLAN DAXİLİ VƏ BEYNƏLXALQ YOLLAR

Qarabağ xanlığı regional ticarətdə mühüm yer tuturdu. Onun ərazisindən mühüm ticarət yolları keçirdi. Lakin buna baxmayaraq, xanlıq ərazisində daxili nəqliyyat yollarının vəziyyəti olduqca bərbad idi. Bu sahədə Qarabağ xanlığı Azərbaycanda, bəlkə də axırıncı yeri tuturdu. Ərazinin dağlıq xarakteri yolların çəkilişini çətinləşdirirdi. [7, 106] Qarabağ xanlığının ərazisinin dağlıq relyefi, əlverişli yolların çətinliyi daxili iqtisadi münasibətlərin inkişafını ləngidən amillərdən idi. Xanlıqda əsasən natural təsərrüfat hökm sürürdü. [8, 160] O cümlədən köçəri maldarlıq inkişaf etdiyindən nəqliyyat yollarının vəaziyyətinə diqqət yetirilmirdi.

Mövcud yollar təmir olunmurdu. Onlar dar, əyri-üyrü və eniş-yoxuşlu idi. Yollar hərəkət üçün olduqca təhlükəli idi. Qış və yazda, habelə payızın yağışlı aylarında karvanlar yollarda olduqca çətin hərəkət edirdilər. Yollar torpaq olduğu üçün palçıq və su ilə dolan çalalarda hərəkət etmək olmurdu. Şuşa qalası və kəndlər bir-biri ilə çox vaxt əlaqə saxlaya bilmirdi. Bu səbəbdən də əmtəə-pul münasibətləri də zəif inkişaf edirdi. Daxili nəqliyyat xanlıq dövründə belə idi. [9, h.III, s.265, 266]

Qarabağ xanlığından Azərbaycanın digər xanlıqlarına gediş-gəliş üçün üç əsas yol mövcud idi. "Qarabağnamə" müəllifləri qısa da olsa bu barədə məlumat verirlər. Yollardan biri Gəncədən Şuşaya, digəri Şuşa qalasından Nuxaya, üçüncüsü isə Şuşadan Araz çayı vasitəsilə Xudafərin körpüsündən Cənubi Azərbaycan xanlıqlarına gedirdi. Bu yollar nisbətən yaxşı vəziyyətdə idilər. Bu üç böyük yoldan başqa bir yol Şuşadan Gorusu keçməklə Naxçıvana, digəri Şuşadan Vərəndə məlikliyinin ərazisini keçməklə Ordubad və İrəvana gedirdi. Sonuncu iki yol dağların dərin qar örtüyü ilə örtülməsi nəticəsində dekabrdan aprelin sonunadək keçilməz olurdu. Müxtəlif, eyni zamanda bəsit nəqliyyat vasitələrindən istifadə olunurdu. At, dəvə, eşşək və qatır başlıca nəqliyyat vasitələri idi. [6, 82-83]

Qeyd edək ki, bütün yollar başlanğıcını xanlığın paytaxtından götürürdü. Şuşa qalasının isə Gəncə, İrəvan və Ağoğlan qapıları vardı. [16, 32-35] Fikrimizcə Şuşa qalasının qapıları müvafiq olaraq, bu yolların getdikləri son məntəqələrinin adları ilə adlandırılmışdır.

Qarabağın ərazisindən keçən karvan yolları boyunca uzanıb gedən və hələ orta çağda inşa edilən karvansarayların, körpülərin, su quyularının və eləcə də bazar meydanlarının qalıqları vaxtilə burada qızğın ticarət aparılmasını təsdiq edən tarixi tanıqlardır. [1, 168]

Şuşada daxili ticarətdən fərqli olaraq xarici ticarət daha çox inkişaf etmişdi. Şuşa Cənubi Qafqazda Tiflisdən sonra ikinci böyük ticarət mərkəzinə çevrilmişdi. Xarici ticarət qonşu xanlıqlardan başqa, İran, Rusiya və digər şərq ölkələri ilə aparılırdı. Tiflisdən Şuşaya müxtəlif parçalar, boyaq, qənd, Bakı xanlığından dəmir, yazı kağızı, saxsı qablar, zəfəran gətirirdilər. Bakıdan dəvələrlə gətirilən neft xanlığın məişətində mühüm yer tuturdu. Belə misalları çox göstərmək olar. [4, 60]

Qarabağ xanlığı ərazisindən keçən əsas ticarət yolları: Təbriz-Gəncə, Gəncə-Şirvan, Şirvan-Naxçıvan nəqliyyat dəhlizləri idi. [1, 168] Əsas ticarət yolları xanlığın əsasən aran bölgələrdən keçdiyindən qış və yağışlı aylarda yararsız hala düşmürdülər. Sel və tufan olsuqdan sonra isə qısa müddətdə bərpa olunurdu. Azərbaycan xanlıqları daxili yolların bərpasında Rusiya imperiyası da maraqlı idi. Belə ki, 14 may 1805-ci il Kürəkçay müqaviləsinin 6-cı maddəsinə əsasən Rusiya imperiyası Gəncədən Şuşaya gedən yolun təmir olunmasını öz üzərinə götürmüşdü. Həsən bəy İxfa Əlizadə yazır: "Gəncədən Şuşaya gedən yol arabaların rahat getməsi üçün təmir olunmalıdır". O cümlədən "Cavad tərəfə yol lazım olsa, xan ücrəti ödənilməklə işçi verməli idi" [5, 245] Əlbəttə ki, Gəncədən Şuşaya gedən yolun bərpasına çalışan Rusiya bunu iqtisadi və yerli əhalinin maraqlı naminə etmirdi. Burda əsas məqsəd hərbi əməliyyatlar zamanı qoşunların keçidini və təhcizatını asanlaşdırmaq idi. Xüsusəndə Qacar ordusu ilə döyüşlərdə və qalaların alınmasında effektiv istifadə olunan ağır artileriyanın daşınmasını asannalşdırmaq məqsədi güdülürdü. Bu ehtimal Rusiya dövlət hərbi tarix arxivində saxlanılan casus və hərbçi hesabatları ilə də təsdiq olunur.

RUSİYA MƏNBƏLƏRİNDƏ YOLLAR HAQDA MƏLUMAT

Şərqin tranzit yollarının üstündə yerləşdiyindən xanlığın ərazisindən mühüm ticarət yolları keçirdi. Bu yollar qonşu ölkələrin bir-biri ilə sərbəst ticarət etməsi üçün mühüm əhəmiyyət kəsb edirdi. Rusiya imperiyası XIX əsrin əvvəllərində Qafqaza geniş hərbi ekspansiyaya başladığı zaman xanlıq ərazisindən keçən beynəlxalq və daxili ticarət yollarına xüsusi maraq göstərirdi. Bu maraq təkcə iqtisadi amillərlə bağlı deyildi. Rusiya tərəfi hərbi məqsəd üçün də yollara maraq göstərirdi.

Əlverişli coğrafi mövqeyinə baxmayaraq, Qarabağ xanlığının ərazisi əsasən dağlıq relyefdən ibarət idi. Dağlıq ərazi isə öz növbəsində əlverişli yolların çəkilməsinə maneçilik törədirdi. Belə ki, yolların əlverişsiz olması rus hərbçilərinin hesabatlarında da əksini tapmışdır. Belə ki, 1806-cı ildə bölgəyə hərbi kəşfiyyat üçün göndərilmiş Mayor Matuşeviç Azərbaycan xanlıqlarının daxili və xarici əsas yollarının təsvirini hazırlamışdır. Bu təsvirində o Qarabağ xanlığına gələn yollar və daxili yollar haqda məlumat verir. Matuşeviç hesabatında "Yelizavetpoldan Qarabağ dağlarını yan keçməklə İnci çayına qədər, Çəbrayıl bağlarına və ordan Sisianov vilayəti ilə Naxçıvana olan yol" barədə məlumat hazırlamışdır. [10, 373]

Təsvirdə göstərilir ki, Yelizavetpoldan Əsgərana qədər yol yaşayış olmayan çöl yerlərindən keçir. Yol boyu olan çaylar üzərində yaxşı keçidlər var. Üstəlik yolda atları yemləmək üçün hər cür şərait mövcuddur. Əsgərandan Qarakənd kəndinə 3,5 ağac, Qarakənddən Xaçın çayının yaxınlığındakı kəndə 3 ağac, Xaçın kəndindən Ağoğlan kəndinə 3 ağac, Kürəçay çayına 2 ağac, Qozluçay kəndinə və çayına qədər 3 agac məsafə var.

Köçəri ailələrin qışda qışlamaq üçün gəldiyi Təkkisan kəndinə 2 ağac, bu kənddən Cəbrayıl bağlarına 1 ağac, Cəbrayıl bağlarından İnci çayına qədər 4 ağac yol var. Ümumilikdə yolun bu hissəsi hamar, çox da natəmizliyə məruz qalmayan və keçidləri rahat olan yerdir. İnci çayından başlayaraq yol dağlıq ərazidən keçir. Bu hissəni yalnız yüngül silahlarla keçmək mümkündür. Burdan Həkəri çayı üzərində olan Maltəpə qışlağına qədər 2 ağac, Maltəpədən Ağsu çayına qədər 5 ağac məsafə var. Burdan isə Korus çayına 2 ağac, aşağı yol ilə Üçtəpə təpəsinin yanından keçib Bazar çaya qədər 5 ağac məsafə var. Bazar çayından Sisianov vilayətinin Pirnuut kəndinə düşmə və qalxma yoxuşu çox sərtdir. Burdan isə Qapan dərəsinə və Meğriyə gedən yol vardır.

Bazarçaydan və Pirnuut kəndindən Naxçıvan yolunun 2 ½ ağaca qədər hissəsi açıq çöllükdən keçir. 2 ½ ağac aşağı eniş yolla Naxçıvan çayına qədər məsafədir. Burdan isə 2 ağac məsafədə Cağara kəndi yerləşir. Cağara kəndindən Naxçıvana isə 2 ağac məsafə var. Ümumilikdə Naxçıvandan Qarabağa ordu yüngül silahlarla çətinlik çəkmədən irəliləyə bilər. Meşə ərazisi demək olar ki yoxdur. Yolboyu atların yemlənməsi və suvarılması üçün kifayyər qədər yem ehtiyatı mövcuddur.

Mayor Matuşeviç hesabatında Naxçıvan xanlığı ərazisindən Şuşa geən yolu da təsvir edir. O, yolun əlverişli olduğunu ağır silahlı ordunun keçə bilməyəcəyini bildirir. Yolun başlanğıcını Ordubad şəhərindən götürür ordan Meğri vasitəsilə Çuğundur kəndinə və çayına, Çuğundurdan isə Şuşa qalasına gedən atlı yolun tam təsvirini izah edir. Onu yazdığına görə Ordubaddan Meğriyə Araz çayı sahili boyunca 4 ağac məsafə var. Yol boyu 15 Güney kəndi var ki, orada 500-ə qədər tatar (azərbaycanlı) və erməni ailəsi yaşayır. Araz çayının sağ sahilində, bu məsafə ilə üzbəüz Qacarların çoxlu kəndləri var.

Meğriyə gedən yol atlı yoludur. Onu asanlıqla artilleriya daşımaq üçün təmizləmək mümkündür. Kəndin ərazisindən Meğri çayı keçir, mənsəbində dayazdır və sürətli deyil. Kənddən 1 vers məsafədə Araz çayına qovuşur. Meyvə və üzüm bağları Meğri çayı boyunca Araza qədər uzanır. [10, 373] Meğridən Çuğundur kəndinə və eyniadlı çaya 4 ağaclıq atlar üçün çətin keçilən yol vardır. Çuğundur kəndində 50 erməni və 150 tatar ailəsi yaşayır. Heç bir möhkəmləndirilmiş istehkam yoxdur. Əhalisi oturaq, əkin bəçinlə məşğuldur. Kənddə xeyli taxıl zəmiləri var. Əhali əsasən Naxçıvan və Qarabağdakı kimi bağçılıq və ipəkçiliklə məşğul olurlar. Çuğundurdan Bərguşat çayına və onun yaxınlığındakı Ağalı kəndlərinə 4 ağac məsafə var. Çuğundurdan Bərguşat çayına qədər və onun yaxınlığındakı Ağalı kəndlərində qədər 4 ağaclıq məsafədir. Yoldan yay aylarında silah-sursatla keçid heç bir çətinlik yaratmır. Yaz və payız aylarında isə ağır silahlar olmadan Xanzərək kəndinə doğru qalxmaq lazımdır. Burda kənddən aşağıda taxta körpü yerləşir. [10, 374]

Ağalı kəndindən Araz üzərindəki Xudafərin daş körpüsünə gedən yol var. Bu körpü ciddi zədələnib. Belə ki, onun dörd tağı dağılıb, lakin digər tağlar yerindədir və bütün dayaqları bütövdür. Xudafərindən Cəbrayıl bağlarına qədər yol yaxşı vəziyyətdədir. Ağalı kəndindən İncə çayına qədər 4 ağac və İncidən Cəbrayıl bağlarına qədər 4 ağac məsafə var. Cəbrayıl bağlarından Qozluçaya 3 ağac, Kürəçaya 3 ağac, Ağoğlan kəndinə 2 ağac, Ağoğlandan Xaçına 3 ağac, Qarakəndə 3 ağaç, Əskərana 3,5 ağac və Şuşaya 3,5 ağac məsafə var. Yol silah-sursatla keçərlidir. Kürəçaydan Şuşaya atlı yolu ilə Sarat və Molla qışlağından keçməklə 6 ağac məsafə var. Ağoğlandan Aslanduz keçidinə 5 ağac, Kəhriz su kəmərinə qədər 3 ağac məsafə var. Aslanduz keçidi dayazdır. Burda Araz 8 qola bölünür və axını sakitdir. Yay aylarında bu yerdən keçid çox rahatdır. Ağır silahları daşımaq şətin deyil, bu keçiddən Ərdəbilə yalnız bir yol var. Başqa bir yol Muğan çölü ilə xaraba qalmış Cavad qalasına gedir. Cavad qalasından aşağıda isə Kürün üzərindən körpü tikilib. Bu körpünün tikilməsində əsas məqsəd Bakı ilə əlaqə saxlamaqdır. [10, 374]

Göründüyü kimi Matuşeviç əraziyə kəşfiyyat məqsədilə göndərilib. O hesabatını da əsasən hərbi məqsədlərin həyata keçirilməsi planı üzrə qurub. Yolların keçilməzliyini ticarət və mülkü nəqliyyat vasitələri üçün deyil, ağır hərbi sialh-sursat keçidinə uyğun olub-olmadığını bildirir. Onun ətraflı təsviri təkcə yolların vəziyyəti ilə deyil, həmçinin kəndlər və onların arasındakı məsafələrin ölçüsünün verilməsi sarıdan da qiymətlidir. O cümlədən Matuşeviçin kəndlərin adlarını çəkməsi və onlarda yaşayan əhalinin milliyətini qeyd etməsi də maraq doğurur. Belə ki, Megridə adı çəkilən kəndlərin adı əsasən Azərbaycan dilindədir. Həmçinin qeyd olunan əhali sayının milli tərkibində də üstünlük azərbaycanlılardadır.

NƏTİCƏ

Beləliklə göründüyü kimi əlverişli təbii-coğrafi şəraitə malik olan Qarabağ xanlığı iqtisadi cəhətdən xeyli zəif inkişaf etdiyindən, onun ərazisində nəqliyyat infrastrukturu dövrün müasir tələblərinə cavab verməmişdir. Xanlığın daxili yolları, ərazinin relyefi dağlıq olduğu üçün yalnız yüngül nəqliyyat vasitələri üçün əlverilşi olmuşdur. Ağır qoşqular və iri arabalar xanlığın yollarında demək olar ki, istifadə edilməmişdir. Lakin bütün bunlara baxmayaraq, Qarabağ xanlığı qonşu ərazilərlə sız iqtisadi və ticari əlaqələrə malik olmuşdur. Bu səbəbdən Qarabağ xanlığında xarici ticarət daha çox inkişaf etmişdi. Şuşa Cənubi Qafqazın ən mühüm ticarət mərkəzlərindən biri idi. Şuşadan digər Azərbaycan xanlıqlarına, Gürcüstana, İrana, Türkiyəyə və Rusiyaya karvanlar gedirdi. Bu karvanlar xanlıq ərazisində olan üç əsas yol ilə hərəkət edirdilər. Birinci yol Şuşadan Gəncəyə, ikinci yol Şuşadan Şəkiyə, üçüncü yol Araz üzərində inşa edilmiş Xudafərin körpüsü vasitəsilə Cənubi Azərbaycan xanlıqlarına gedirdi.

Yollar haqqında "Qarabağnamə"lərdə müfəssəl məlumatlar verilir. Lakin onlar sənlamə xarakterli olduğundan dəqiqləşdirmələrə ehtiyac duyulur. Bu baxımdan Rusiya mənbələri daha etibarlıdır. Xüsusilə Rusiya dövlət hərbi tarix arxivində saxlanılan məlumatlar Qarabağ xanlığının yol

infrastrukturu barədə araşdırma aparan tədqiqatçılara böyük kömək olur. XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Azərbaycana hərbi ekspansiyadan əvvəl və onun müdəttində Rusiya hökuməti burda xeyli kəşfiyyat işləri ilə məşğul olan hərbçilər göndərmişdir. [13, 6] Onlar da öz növbəsində bütün Azərbaycan ərazisində olduğu kimi, Qarabağ xanlığının da yol infrastrukturu barədə hesabat və təsvirlər hazırlamışdılar. Bu hesabat və təsvirlər hazırki dövrdə Qarabağ xanlığının daxili və xarici yolları barədə dəqiq məlumat almağa imkan yaradır.

ƏDƏBİYYAT

1. Əmrahov Mais, Çingizoğlu Ənvər, Həsənov Habil. Qarabağ xanlığı. Dərs vəsaiti. Bakı, Mütərcim, 2008. – 208 s.

2. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr. Birinci kitab. Tərtib edəni və çapa hazırlayanı t.e.n. A.Fərzəliyev. Bakı, Yazıçı, 1989, s. 6-102.

3. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi // Qarabağnamələr. Birinci kitab, tərtib edəni və çapa hazırlayanı t.e.n. A.Fərzəliyev. Bakı, Yazıçı, 1989, s.104- 148.

4. N.Məmmədov. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Avropa nəşriyyatı, Bakı, 2016. 960.

5. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri // Qarabağnamələr. İkinci kitab, tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.204-246.

6. T.Mustafazadə. Qarabağ xanlığı. Bakı, Sabah – 2009, 333

7. Y.R.Hüseynov. Qarabağ tarixi mənbələrdə. Bakı. "Şuşa" nəşriyyatı, 2012. – 248 s.

8. Z.Hacıyeva. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı, Təhsil, 2007. 252 s.

9. Обозрение Российских владений за Кавказом в статическом, этнографическом и финансовом отношениях. СПб., Типография департамента внешней торговли, 1836, ч.3, 392 с.

10. Присоединение Восточной Армении к России. Сборник документов. I Том, (1801-1813). Редактор: академик АН Арм. ССР Ц.П.Агаяан. Издательство Академии Наук Армянской ССР. Ереван. 1972. 714 с.

11. Перевод писма Ибрагим хана Шушинского // A.A.Bakıxanov adına Tarix İnstititu, Elmi Arxivi, fond.1795. qovluq №2. s. 456.

12. Рапорт командуюущему воисками в Крыму генералу и кавалеру князю Григорью Александровичу Потемкину // A.A.Bakıxanov adına Tarix İnstititu, Elmi Arxivi, fond.1795. qovluq №2. s. 456.

13. Россия и Азербайджанские ханства во второй половине XVIII-XIX веков (Сборник документов) Т.1 (1751-1775 гг.). Составитель Т.Т.Мустафазаде. Баку, Турхан ИПО, 2018, с.

14. Россия и Азербайджанские ханства во второй половине XVIII-XIX веков (Сборник документов) Т.2 (1776-1800 гг.). Составитель Т.Т.Мустафазаде. Баку, Турхан ИПО, 2020, 568 с.

15. Ф.Абасов. Карабахское ханство. Баку, Тахсил, 2007, 252 с.

16. Э.В.Авалов. Архитектура города Шуши. Элм, Баку, 1977. с.111.

XIX-XX ƏSRİN ƏVVƏLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANIN ŞƏKİ BÖLGƏSİNDƏ DƏRİİŞLƏMƏNİN-DABBAĞLIĞIN İNKİŞAF DİNAMİKASI VƏ XÜSUSİYYƏTLƏRİ

DEVELOPMENT DYNAMICS AND CHARACTERISTICS OF LEATHER-DRESSING IN SHEKI DISTRICT OF NORTHERN AZERBAIJAN AT THE BEGINNING OF THE XIX-XX CENTURIES

Elşən Abdurahmanov

ORCID ID: https://orcid.org/0000-0001-7786-8391

AMEA-nın Şəki REM-nin Elmi katibi

Azərbaycanda ibtidai icma quruluşunun son mərhələlərindən etibarən müstəqil bir sənət sahəsi kimi meydana çıxan dəri işləmə-dabbaqlıq orta əsrlərdə inkişaf edərək, insanların məişət həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Azərbaycan xalqının etnogenezmində türkdilli tayfaların əsas yer tutması dəri işləmə sənətinin və onun bir çox sahələrinin inkişafında təsiredici amilərdən biri olmuşdur. Belə ki, əsas məşğuliyyəti heyvandarlıq olan qədim türk tayfalarının geyim ləvazimatları əsasən yun, dəri və kürk məmulatından idi. Dəridən qidaların saxlanması üçün qablar, su və digər maye vasitələr daşımaq üçün tuluğlar, həmçinin sandıq, yəhər hazırlanır, dəri üzərində işləmələr edilərək aksesuar və məişət əşyası kimi istifadə olunurdu. Dabbağlığın genişlənməsi cildçılık sahəsində də dəridən istifadə edilməsinə şərait yaratmış, XX əsrin əvvəllərinədək kitablar dəri örtüklərlə bəzədilmiş və mühafizə edilmişdir.

XIX əsrin II yarısı-XX əsrin əvvəllərində Şimali Azərbaycanda artıq sənaye mərhələsini və çiçəklənmə dövrünü yaşayan dəri sənayesi öz məhsulları ilə nəinki daxili tələbatı ödəyir, həm də ixrac edilən məhsullar içərisində önəmli yer tuturdu. Bu sahədə Azərbaycanın ikinci sənaye şəhəri olan Nuxanın özünəməxsus yeri var idi. Ancaq Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra, xüsusilə də 1920-ci illərin sonlarından etibarən dövlətin fərdi, kustar dabbağlara qarşı yeritdiyi radikal və düşmən münasibətin nəticəsində bu gərəkli və gəlirli sənaye sahəsi tənəzzülə uğramağa başladı.

Tədqiqat işində dərişələmə sənətinin inkişaf tarixi ilə bağlı faktoloji materiallar toplanaraq sistemləşdirilmiş, ilk dəfə olaraq Şəki bölgəsində dəriişləmə-dabbağlıq sənayesinin tarixi inkişaf mərhələləri izənilmişdir. Çar Rusiyası dönəmində və Sovet Rusiyasının ilk illərində Nuxa qəzasında qeyd edilən sənaye sahəsinin vəziyyəti, fərdi dabbağlara qarşı Sovet hakimiyyətinin yeritdiyi siyasət və onun nəticələri tədqiqata cəlb edilmişdir. Məqalənin hazırlanmasında Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivinin, onun Şəki filialının, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi arxivlərində mövzu ilə bağlı mövcud tarixi sənədlərdən, tarixi mənbə və elmi əsərlərdən, həmçinin etnoqrafik və arxeoloji materiallardan istifadə edilmişdir.

Açar sözlər: Dəriişləmə-dabbağlıq, Şəki bölgəsi, XIX-XX əsrlər.

ABSTRACT

In Azerbaijan from the last period of primitive community structure, leather dressing had developed in the Middle Ages and became an integral part of human life which emerging as an independent field of art. In the ethnogenesis of the Azerbaijani people being in the main place of Turkic-speaking tribes had been one of the influential factors in the development of leather-dressing art and its several fields. So, the clothings of the ancient Turkic tribes were mainly wool, leather and fur products whose main occupation was animal husbandry. It was made chests and saddles, as well as containers to store food, wineskins to carry water and other liquids from leather, and leather was used as an accessory and household item by working on it. The expansion of leather-dressing had made condition for using leather in bookbinding, untill the beginning of the XX century the books had been decorated with leather cover and protected.

In the second half of the XIX century and the beginning of the XX century, the leather industry not only met domestic demand with its products, but also occupied an important place among exported products,

which was already in its industrial stage and flourishing period in Northern Azerbaijan. The second industrial city of Azerbaijan – Nukha had a special place in this field. Especially in the late 1920s, as a result of the radical and hostile attitude of the state towards individual leather-dressers, this necessary and profitable industry began to decline after the establishment of the Soviet government in Azerbaijan.

In the research work factual materials were collected and systematized related to the development history of leather-dressing art, for the first time historical development stages of leather-dressing were followed in Sheki district. During the Tsarist period and in the first years of Soviet Russia in Nukha district the condition of this industrial field, the policy of the Soviet power against individual leather-dressers and its results were involved in the research. It was referred to existing historical documents, historical sources and scientific works as well as ethnographical and archeological materials in the scientific archives of the Central State Archive of the Republic of Azerbaijan, its Sheki branch, Institute of History named after A.A.Bakikhanov of ANAS, Institute of Manuscripts named after M.Fuzuli of ANAS in the preparation of the article.

Key words: leather-dressing, Sheki district, the XIX-XX centuries.

MESOPOTAMIAN MYTH OF CREATION IN ANDREW MATHEWS' *MARDUK THE*

Zahraa Muthana, Ansam Yaroub Khyoon
University of Wasit & University of Baghdad

Andrew Mathew is a well-known children's book author famous for retelling classical tales that revolve around his major; history. In this research ***Marduk the Mighty*** (1997) is studied in depth as a representative of creation myth adapted for children. The researchers provided an in depth account of the original Mesopotamian myth of creation; ***The Enuma Elish***. The myth was discovered written on seven tablets in Akkadian in Ashurbanipal's library in Nineveh about 1100 BCE. It narrates the tale of the creation of the cosmos, the Gods' hierarchy, the creation of humans, and how the Gods eventually departed to rest and rejoice. Mathew's adaptation of the myth is compared and contrasted to the original myth analyzing and discussing similarities as well as differences. The researchers concentrated on the depiction of Marduk, the Mesopotamian god, as a reflection of religious system and beliefs during the Mesopotamian civilization along with his many symbols that are apparent till this day like his creature the mushhushshu, the his triangle emblem, thunderbolt, calf, his fifty titles, his weapons to name some. The researchers concluded that although Andrew Mathews deleted and changed many details for justified reasons, the adaptation of Mesopotamian myth is successful in portraying the Mesopotamian civilization, its belief system and its great influence on World literature.

Keywords: Babylon, Constellation, Creation myth, Marduk, Mesopotamia.

COMPETENCY IMPROVEMENT NEEDS OF ENGLISH LANGUAGE TEACHERS FOR EFFECTIVE TEACHING AND PRODUCTION OF SECONDARY SCHOOL GRADUATES SKILLED IN WRITING

Uloh-Bethels, Annah C.; Mbegbu, Chekwube C.*; & Menakaya, Cherechi M.

Department of Arts Education, Faculty of Education, University of Nigeria Nsukka, Enugu State Nigeria

ABSTRACT

Writing is the skill that builds from all language skills to develop. Its mastery categorizes one as literate, productive and relevant to this text-oriented world. Reading and writing, of all the language skills, require deliberate assistance to develop. This assistance is basically offered by a teacher in a formal setting. To build writing skill in a second language situation can be more challenging. This is due to complexity in spelling, pronunciation, vocabulary, grammatical structures and the like, which all differ from one language to the other. English language teachers at the senior secondary school level could be the last thorough coach an average Nigerian student may have before embarking on any academic pursuit in tertiary institution or engaging in a career outside academics. This paper addresses the competence improvement needs of English language teachers for effective teaching of the writing skill in secondary schools especially in this era of technology boom and its attendant doom for the younger generation's misuse. For example, the use of symbols rather rob users the creativity and novelty of writing to convey feelings using words. Another is the use of text shortcuts (informal style of writing) which students are careless to export to formal writing since they are so used to them. These teacher competence needs can be in the form of academic, pedagogy and technology. Periodic in-service training for teachers' updates in academic, pedagogy and technology, the promotion of conscious study of adolescence peculiarities in writing and how best to reach out to them are some of the suggestions made.

Keywords: Competence, Needs, Teachers, Writing skills, English language

ŞUŞA BƏYANNAMƏSİ VƏ REGİONAL TƏHLÜKƏSİZLİK

SHUSHA DECLARATION AND REGIONAL SECURITY

Siyasi elmlər doktoru, professor İradə Tofiq qızı NURİYEVA

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan, Baku

ORCID ID: 0000-0002-5309-0009

XÜLASƏ

İşğalçı və terrorçu Ermənistan dövləti 30 ildir ki, "ərazi bütövlüyü", "sərhədlərin toxunulmazlığı" və "dövlətlərin daxili işlərinə qarışmamaq" kimi beynəlxalq prinsipləri pozaraq Azərbaycan Respublikasının 20 faizini zəbt etmişdi". Azərbaycan 30 il bu münaqişənin sülh yolu ilə həllini səbirlə gözləyirdi, lakin təəssüflər olsun ki, dünya birliyinin və beynəlxalq təşkilatların Ermənistanın cinayətkar əməllərinə biganəliyi və ikili standartlardan yanaşması heç vaxt beynəlxalq konvensiyalara məhəl qoymayan və beynəlxalq ictimaiyyət tərəfindən onları həyata keçirməyə məcbur edilməyən bu dövlətin cəzasız qalması onu yeni ərazilərin işğalına daha da ruhlandırırdı. 2020-ci ilin iyul, avqust və sentyabr aylarında Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərinə hücum etdi. Azərbaycan Ordusu əks hücuma keçərək torpaqlarımızı işğaldan azad etdi. Beləliklə, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Milli Ordumuz müharibəni başlatan işğalçı Ermənistanı məğlub edərək 2020-ci il 8 noyabrda Şuşa azad edildikdən sonra noyabrın 10-da onu Kapitulyasiya aktını imzalamağa məcbur etdi. Azərbaycan həm döyüş meydanında, həm də siyasi müstəvidə düşməni diz çökməyə məcbur etdi və ərazi bütövlüyünü bərpa etdi. İkinci Qarabağ müharibəsi zamanı prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə dövləti Azərbaycana "birmənalı, dəqiq və açıq dəstək" verdi. Prezident İlham Əliyev 2021-ci il iyunun 15-də Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi imzalandıqdan sonra mətbuata bəyanatla çıxışında dedi: "Bu gün Türkiyə və Azərbaycan bir-birinə dünya çapında ən yaxın olan ölkələrdir. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Şuşa Bəyannaməsi bir çox mühüm məsələləri: Azərbaycan və Türkiyə arasında beynəlxalq əməkdaşlıq, fəaliyyət, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələri əhatə edir. Bəyannamədə enerji təhlükəsizliyinin, Cənub Qaz Dəhlizinin, müdafiə sənayesi və qarşılıqlı hərbi yardımın, nəqliyyatın - böyük geosiyasi və iqtisadi əhəmiyyət kəsb edən Zəngəzur dəhlizinin açılmasının vacibliyi öz əksini tapıb. Şuşa Bəyannaməsi Cənub-Şərqi Avropa və Qafqazda iqtisadi artımın gücləndirilməsi, infrastrukturun inkişafı və regional təhlükəsizliyin qorunması üçün çox mühüm sənəddir. Beləliklə, 44 günlük Vətən Müharibəsindən sonra bütün dünyaya nümunə olan Azərbaycan-Türkiyə həmrəyliyi və strateji tərəfdaşlığı, xüsusilə də regional təhlükəsizlik üçün müstəsna əhəmiyyət kəsb edən Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması ilə daha da yüksək səviyyəyə çatmışdır.

Açar sözlər: Şuşa Bəyannaməsi, regional təhlükəsizlik, Türkiyə-Azərbaycan müttəfiqliyi, Zəngəzur dəhlizi, qarşılıqlı hərbi yardım

ABSTRACT

For 30 years, invader and terrorist Armenia has occupied 20 percent of territory of Azerbaijan Republic, violating international principles such as "territorial integrity", "inviolability of borders" and "non-interference in the internal affairs of states". Azerbaijan was patiently expecting for a peaceful solution to the conflict for 30 years, but unfortunately the indifference and double standards of the international community and international organizations to Armenia's criminal actions have left hostile country unpunished for violating international conventions and encouraged the occupation of new territories. In July, August and September 2020, the Armenian armed forces attacked the territories of Azerbaijan. The Azerbaijani Army counterattacked and liberated our lands from occupation. Thus, during the 44-day Patriotic War, under the leadership of Supreme Commander-in-Chief, President Ilham Aliyev, our

heroic National Army defeated the invading Armenia and after liberation of Shusha city on November 8, 2020 Armenia was forced to sign the Capitulation Act on November 10, 2020. Azerbaijan forced the enemy on its knees both on the battlefield and in the political arena and restored its territorial integrity. During the Second Karabakh War, under the leadership of President Recep Tayyip Erdogan Turkey provided "full, precise and open support" to Azerbaijan. Upon the signing of the Shusha Declaration of Alliance on June 15, 2021 President Ilham Aliyev made a declaration to the press : "Today, Turkey and Azerbaijan are the closest countries to each other in the world. Today, we are setting a unique example of cooperation, collaboration and alliance on a global scale. The Shusha Declaration covers many important issues: international cooperation between Azerbaijan and Turkey, activities, political relations, economic and trade relations, culture, education, sports, youth policy, and almost all areas. The declaration stressed the importance of opening energy security, the Southern Gas Corridor, the defense industry and mutual military assistance, and transport- the Zangazur Corridor, which is of great geopolitical and economic importance. The Shusha Declaration is a very important document for strengthening economic growth, infrastructure development and maintaining regional security in Southeast Europe and the Caucasus. Thus, after the 44-day Patriotic War, Azerbaijan-Turkey solidarity and strategic partnership, which is an example to the whole world, reached an even higher level with the signing of the Shusha Declaration on Allied Relations, which is of exceptional importance for regional security.

Key words: Shusha Declaration, regional security, Turkish-Azerbaijani alliance, Zangazur corridor, mutual military assistance.

GİRİŞ

30 ildən artıq idi ki, Azərbaycan Respublikasının ərazisinin 20%-nin Ermənistan və Dağlıq Qarabağın silahlı erməni dəstələri tərəfindən işğal edilməsinə beynəlxalq birliyin laqeyd və ikili standartlardan yanaşması dövlətimizi 2020-ci il 27 sentyabr-10 noyabr tarixlərində ərazi bütövlüyümüzü hərb yolu ilə həll etməyə vadar etdi. 30 il Azərbaycan bu münaqişənin sülh və danışıqlar yolu ilə həll olunmasına səy göstərdi, lakin 27 sentyabr 2020-ci il tarixində saat 06:00 radələrində cəzasız qalan Ermənistan dövlətinin silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Mülki əhali arasında, ordu sıralarında həlak olanlar və yaralananlar var idi, xalqımıza həm maddi, həm də mənəvi zərər vurulurdu. Əkshücum əməliyyatları keçirərək Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirdi.

Azərbaycan 30 ildən sonra 2020-ci il 27 sentyabr-10 noyabr tarixlərində 44 günlük İkinci Qarabağ müharibəsində həm döyüş meydanında hərb yolu ilə, həm də siyasi müstəvidə danışıqlar yolu ilə Ermənistan tərəfindən işğal olunmuş torpaqlarını azad edərək öz ərazi bütövlüyünün bərpasına nail oldu. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Milli Ordumuzun şücaəti, qəhrəmanlığı, yenilməzliyi nəticəsində zəfərlə yekunlaşdı. Azərbaycan mədəniyyətinin incisi, Qarabağın baş tacı olan Şuşanın müasir hərb elmində ən nadir və unikal əməliyyatlardan birinin həyata keçirilməsi nəticəsində terrorçu Ermənistanın işğalından azad olunduğu gün – 8 noyabr Zəfər günü xalqımızın qəhrəmanlıq salnaməsinin ən şanlı tarixidir. Sıldırım qayalar üzərində alınmaz qala olan Şuşanı azad etmək böyük qəhrəmanlıq, peşəkarlıq, şücaət və fədakarlıq tələb edirdi. Qəhrəman Azərbaycan əsgərləri yaralanaraq, şəhid olaraq, sıldırım qayalara dırmaşaraq, yüngül silahlarla döyüşərək, əliyalın Şuşanı düşmənin pəncəsindən xilas etdi və burada Azərbaycan bayrağını dalğalandırdı. Noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşinyanın imzaladığı üçtərəfli Bəyanat regionda mövcud olan uzunmüddətli münaqişənin hərbi mərhələsinə son qoydu və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiyası aktı oldu. 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər, 1 dekabrda Laçın rayonu bir güllə belə atılmadan, bir nəfər şəhid vermədən işğaldan azad edildi (Nuriyeva, 2021: s. 212). Ordumuzun tarixi qələbəsi heç bir halda təsadüfi deyildi və Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan inkişaf doktrinasının, o cümlədən hərbi quruculuq siyasətinin məntiqi nəticəsi kimi dəyərləndirilməlidir**.** Müzəffər Ali Baş Komandan, Respublika Prezidenti İlham Əliyev deyirdi: "... Ərazi bütövlüyümüzün bərpası,

torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq (Azərbaycan Prezidenti: "Ermənistan terror, faşist dövlətidir), ... artıq "Dağlıq Qarabağ münaqişəsi" termini arxada qalıb. Öz bayrağımızı Şuşada və bütün başqa şəhər və rayonlarımızda ucaltdıq. Hər kəs gücümüzü, ... qüdrətimizi gördü, iradəmizi gördü. ... Bu gün biz yeni reallıq yaratdıq. Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır. Noyabrın 10-da imzalanmış Bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" (İlham Əliyev xalqa müraciət edib. 01 dekabr 2020).

Bu qələbə Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan İlham Əliyevin adını Zəfər tarixinin memarı kimi Vətən tarixində qızıl hərflərlə əbədiləşdirdi. Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən sonra Cənubi Qafqazda gərginliyin aradan qaldırılması, sülhün və təhlükəsizliyin təmin edilməsi, Ermənistanla Azərbaycan arasında əməkdaşlığın inkişafı istiqamətində Azərbaycan dövlətinin xarici siyasəti Respublika Prezidenti tərəfindən uğurla həyata keçirilir. 44 günlük Vətən müharibəsindən sonra 2021-ci il iyunun 15-də Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında regional təhlükəsizlik baxımından müstəsna əhəmiyyət kəsb edən Müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin təcəssümüdür. Azərbaycan xalqının Milli Qurtuluş günü və Qarabağla Zəngəzur üçün çox mühüm olan Qars müqaviləsinin 100-cü ildönümü günü Şuşa Bəyannaməsinin imzalanması xüsusi rəmzi məna daşıyır. Həm o vaxt, həm də indi ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və İran açıq şəkildə Cənubi Qafqazda hegemonluq uğrunda mübarizə aparırlar. Amma bu dəfə fərq ondan ibarətdir ki, hadisələr Azərbaycanın maraqlarına uyğun cərəyan edir. Əgər o zaman hadisələr Ermənistanın və onun havadarlarının xeyrinə başa çatıbsa, bu gün Cənubi Qafqazda yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qələbəsi deməkdir. Şuşa Bəyannaməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə səciyyələnən Azərbaycan-Türkiyə münasibətlərini daha da möhkəmləndirərək yeni mərhələyə qədəm qoyur (Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. 15 iyun 2021). Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eyni zamanda region ölkələri arasında münasibətlərin normallaşdırılması və davamlı sülhün təmin edilməsi istiqamətində Azərbaycan və Türkiyə dövlətlərinin birgə təşəbbüsləri bu münasibətlərin daha da möhkəmləndirilməsinin və inkişaf etdirilməsinin zəruriliyini göstərən ən gözəl nümunəsidir (Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan Respublikasının müstəqillik tarixində ən önəmli hadisələrdən biridir. 14 iyul 2021). Ölkə başçısı İlham Əliyevin dediyi kimi: "...Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır" (Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. 15 iyun 2021). Şuşa Bəyannaməsi İlham Əliyevin sözlərinə istinada əsasən həm siyasi, həm də tarixi əhəmiyyət daşıyır. Türkiyə və Azərbaycan dövlətlərinin regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin əlaqələndirilməsinə yönəlmiş Müttəfiqlik Bəyannaməsi Bakı və Ankaranın rəhbərliyi ilə yeni regional geosiyasi konfiqurasiyanın başlanğıcıdır.

Bəyannamənin ən mühüm müddəalarından biri hərbi əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Bəyannamədə qeyd edilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır" (Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti – TƏHLİL. 16 iyun 2021). Bu

müddəa Cənubi Qafqazda əsrlər boyu erməni məsələsi adı altında öz siyasi maraqlarını reallaşdıran aktorlara və dövlətlərə ciddi bir mesaj idi. Bununla Müttəfiqlik Bəyannaməsi bütün qonşu dövlətlər və dünya ictimaiyyətinə bildirir ki, Azərbaycanın dövlət suverenliyinə və ərazi bütövlüyünə təhlükə törətmək niyyətində olanlar yeni regional hərbi-siyasi blokla üzləşəcəklər. İki dövlət arasında regional və beynəlxalq təhlükəsizliyin təminatı üçün tədbirlərin həyata keçirilməsi məsələlərinin müzakirəsi Azərbaycan və Türkiyə dövlətlərinin birgə fəaliyyətinin təmin edilməsini nəzərdə tutan Şuşa Bəyannaməsinin müstəsna siyasi və tarixi əhəmiyyətini vurğulayır.

Türkiyə ilə Azərbaycan arasında dəmir yolu və avtomobil yolu ilə həyata keçiriləcək Zəngəzur dəhlizinə dair Şuşa Bəyannaməsi həm danışıqları, həm də əməli işləri əks etdirir, regionda iqtisadi və nəqliyyat potensialının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir və İkinci Qarabağ müharibəsindən sonra yeni geosiyasi vəziyyətin nəticəsidir. Müttəfiqlik Bəyannaməsində Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələlər mühüm yer tutur (Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. 15 iyun 2021). Eyni zamanda, informasiya siyasəti və lobbiçilik məsələləri - Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, ardıcıl həmrəylik göstərilməsi müddəaları da öz əksini tapmışdır.

Müttəfiqlik haqqında Şuşa Bəyannaməsində qeyd olunurdu ki, beynəlxalq münasibətlərin inkişafı, yerli, regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli üçün birgə səylər göstəriləcək, xarici siyasət sahəsində koordinasiya və ikitərəfli siyasi məsləhətləşmələr aparılacaq. Bu istiqamətdə Türkiyə ilə Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətin əhəmiyyəti qeyd olunur (Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti – TƏHLİL. 16 iyun 2021).

2021-ci il 15 iyunda Türkiyə və Azərbaycan arasında Müttəfiqlik haqqında imzalanmış Şuşa Bəyannaməsi regional və beynəlxalq təhlükəsizliyin təminatı nöqteyi-nəzərdən böyük əhəmiyyətə malik olan mühüm sənəddir və bölgədə yeni gerçəkliyin əsasını qoydu. İyunun 15-də Şuşa Bəyannaməsinin imzalandıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata çıxışında dedi: "Bu gün Türkiyə və Azərbaycan bir-birinə dünya çapında ən yaxın olan ölkələrdir. Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk" (Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. 15 iyun 2021).

NƏTİCƏ

44 günlük Vətən müharibəsi zamanı Milli Ordumuzda döyüş ruhunun, hərbi-vətənpərvərlik hisslərinin ən yüksək səviyyədə olması təmin edilmişdir. Ordumuz Vətəni xilas etmək missiyasını yerinə yetirmək üçün intəhasız motivasiyaya malik olduğu halda, düşmən ordusu təcavüzkar xarakterinə görə bütün bunlardan məhrumdur. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını tarixə əbədi yazdırdı. Azərbaycan xalqının Qələbə salnaməsinin müəllifi İlham Əliyev Vətən Müharibəsi Qəhrəmanına çevrildi. İkinci Qarabağ müharibəsindən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin regional və beynəlxalq səviyyədə həyata keçirdiyi xarici siyasətin əsas istiqamətlərindən biri də regionda sülhün və sabitliyin əldə olunmasıdır. Bu nöqteyi-nəzərdən Türkiyə ilə Azərbaycanın 2021-ci il iyunun 15-də imzaladığı Müttəfiqlik haqqında imzaladıqları Şuşa Bəyannaməsi həm siyasi, həm də tarixi əhəmiyyətə malikdir. Bu Bəyannamə ilə qardaş Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin dünya çapında "nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi" olduğu bütün dünyaya bəyan edildi.

ƏDƏBİYYAT

1. Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. 15 iyun 2021.// https://president.az/az/articles/view/52116/print

2. Azərbaycan Prezidenti: "Ermənistan terror, faşist dövlətidir"//https://apa.az/az/dagliq_qarabag/Azrbaycan-Prezidenti-Ermnistan-terror-fasist-dovl tidir-609955

3. İlham Əliyev xalqa müraciət edib. 01 dekabr 2020// https://president.az/ articles/48205

4. Nuriyeva, İ.T. (2021). Ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərinə etnosiyasi yanaşma. Monoqrafiya. - Bakı: Mütərcim. - 352 s.

5. Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti – TƏHLİL. 16 iyun 2021.//https://ona.az/az/turizm/susa-beyannamesinin-tarixi-ehemiyyeti-tehlil-29117

6. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan Respublikasının müstəqillik tarixində ən önəmli hadisələrdən biridir. 14 iyul 2021// https://mod.gov.az/az/pre/36788.html

MICRO-SAVING BASED CO-OPERATIVE INVESTMENT TO ACCELERATE THE SMES AND IMPROVE THE POVERTY CONDITION IN BANGLADESH

Md. Nazmul Hossain

Dept. of International Business

RUDN University, Moscow, Russia

Abbas Raheem Salih

Dept. of International Business

RUDN University, Moscow, Russia

ABSTRACT

Bangladesh is one of the poorest countries in the world with low GDP/capita and minimum purchasing power. A fourth of the total population (24.3%) lives below the national poverty line ($2/day) while a half of them do live in extreme poverty level ($1.25). It's now a national issue as high rate of poverty is the cause of permanent economic downturn and socio-economic depression. The main purpose of the study is to examine the causes for high rate of poverty in Bangladesh and its impacts in socio-economic spheres and propose innovative approaches for growth of entrepreneurship to bring sustainable economic growth and improve the poverty condition. The study is based on structural and semi-structural questionnaires and face to face interview. A total of 60 structural and same numbers of semi-structural questionnaires were given to 100 recipients of various age, sex, education, profession, and economic levels regarding the factors to get feedback. In this research, a cooperative investment policy and a government action plan have been drawn up based on coordination between the various agencies, which allow the impoverished section of the population to save and invest collectively to involve themself in entrepreneurship to lift themselves out of the poverty cycle and bring sustainable development. The finding of the study will accelerate the entrepreneurship and economic growth, reduce unemployment rate and improve the poverty condition in Bangladesh.

RITUAL STUDIES AS A STRATEGY OF RESISTANCE TO THE CULTURE OF ATTENTION DEFICIT

***Rafael Lopes Batista*[1]**

[1] *Universidade Estadual de Mato Grosso do Sul (UEMS), Campo Grande, Brazil.*

[1]*ORCID ID: https://orcid.org/0000-0001-9346-2164*

***Marsiel Pacifico*[2]**

[2]*Universidade Estadual de Mato Grosso do Sul (UEMS), Campo Grande, Brazil.*

[2]*ORCID ID: https://orcid.org/0000-0002-2013-2073*

ABSTRACT

The present research, still in progress, will seek to investigate the hypothesis, raised by the German philosopher Christoph Türcke, that "Ritual Studies", as a pedagogical-methodological paradigm, constitute a strategy of resistance and neutralization of the negative effects caused by the excessive and indiscriminate use of new digital technologies. Using mainly bibliographic analysis as a methodological resource, the study will go through the book *Hiperativos!* and will also focus on *Excited Society: philosophy of sensation*, a substantial work by Türcke, as well as articles and interviews by the author himself, thus constituting the primary bibliography; as support we will use the philosophical literature of Frankfurt authors (especially Theodor Adorno) and the neuroscientific literature (specifically the North-American Maryanne Wolf). As a result, we highlight that, possibly, disorders such as Attention-Deficit/Hyperactivity Disorder (ADHD) have their genesis not in genetic or pathological factors, but in sociocultural factors, so that it becomes legitimate to establish as part of the causes of ADHD the contemporary modes of expression of the cultural industry. Thus, our partial conclusions consist in affirming that: i) a process of mental and cultural degradation is underway in contemporaneity that directly impacts the educational field, and; ii) derived from that, Ritual Studies can be configured as an important strategy for schools to face the "concentrated distraction" and the "culture of attention deficit", because they are a theoretical and practical reference that privileges the conditions for the development of the most elementary cognitive faculties of human beings.

Keywords: Ritual Studies. Education. ADHD. Christoph Türcke.

THE ROLE OF THE DEPARTMENT OF AZERBAIJAN STUDIES AND THE NATIONAL DIGITAL MEMORY IN THE DEVELOPMENT OF THE INFORMATION AND BIBLIOGRAPHIC APPARATUS OF AZERBAIJANI STUDIES

Ahadova Gunel Tofig Gizi

Master of "Librarianship and information" faculty of Baku State University

Chief specialist of the department "Azerbaijan studies and National Digital Memory" of ANAS CSL, Baku, Azerbaijan

ORCID ID: 0000-0001-9971-685

ABSTRACT

Valuable materials on Azerbaijani studies kept in the fund of all library systems and networks operating in Azerbaijan are of great importance in the study and promotion of the rich heritage of our people and country. In this regard, the Central Scientific Library of ANAS has a rich fund. An important factor for the development of Azerbaijani studies is the more efficient and correct organization of scientific information activities in this direction in the library. This work is carried out in the library by the Department of Azerbaijani Studies and National Digital Memory.

The Department of Azerbaijan Studies and the National Digital Memory regularly includes in the electronic catalog materials related to Azerbaijani studies, as well as retrospective materials of country studies from the current periodicals for the organization of the information-bibliographic apparatus on Azerbaijani studies. The department creates a database of Azerbaijani studies and the National Digital Memory, and organizes an information and bibliographic apparatus on Azerbaijani studies. In particular, in order to improve the bibliographic research of readers, he creates a bibliographic apparatus on Azerbaijani studies - a system of card indexes in the Azerbaijani and Russian languages.

According to the part of the inquiry-bibliographic fund of the Central Scientific Library of ANAS, the main and directive materials are included in the state documents, including materials of meetings, orders, decrees, state documents of the President of the Republic of Azerbaijan Ilham Aliyev, including Milli Majlis and the Cabinet of Ministers. Laws and decisions are reflected in the database. In this regard, the "Orders 2012-2021" separators were developed by the department in the Azerbaijani and Russian languages. "Azerbaijan Science and Culture" bibliographic card index includes "Nizami Ganjavi year - 2021", "Nizami Ganjavi - 880", "Ashig Alasgar", "Culture", "Theater", "Carpet weaving" dividers. It should be noted that over the past year, the department has contributed to the war in the Azerbaijani language "Karabakh is Azerbaijan", "Chronicle of 44 days", "Shusha Declaration", "Military Science", "Military Policy", "Azerbaijani Armed Forces", "Azerbaijani Army", "Martyrs' Families" and others. In russian language, the "Return of Karabakh", "Armenian Vandalism", "Armenian Terror", "Armenian Fascism", "Armed Forces", "Azerbaijani Army", "Military Science", etc. dividers have been developed.

As can be seen, since the establishment of the department, rich information on Azerbaijani studies has been placed in the bibliographic apparatus, and materials on these topics have been developed in the electronic catalog.

Key words: Central Scientific Library of ANAS, Azerbaijani studies, Department of Azerbaijani Studies and National Digital Memory, inquiry-bibliographic fund

44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN VƏ DÜNYA DÖVLƏTLƏRİNİN MÖVQEYİ

Babayeva Aytən İsmayıl qızı

AMEA Mərkəzi Elmi kitabxana

ÖZET

Birinci Qarabağ müharibəsindən 30 il keçməsinə baxmayaraq, Dağlıq Qarabağın mübahisəli statusu münaqişəyə səbəb olan əsas məqamlardan biri kimi danışıqlar masasında, diplomatik yolla öz həllini tapmadı. Birinci Qarabağ müharibəsi ölkənin milli kimliyində və siyasi-mədəni ənənələrində dərin izlər qoysa da, Azərbaycan münaqişəni Ermənistandan fərqli olaraq, məhz beynəlxalq hüquqla təsdiqlənmiş ərazi bütövlüyünün təminatı çərçivəsində həll etmək yolunu seçdi. Qarşı tərəf tarixi başlanğıcı yüz il əvvələ, qondarma soyqırım faktlarına söykənərək, davam edən münaqişəni hazırkı beynəlxalq siyasi arenanın "yeni dəbinə" çevrilmiş və həlli mümkün görünməyən etno-territoriyal və etno-siyasi münaqişələri kontekstində təqdim etməyə çalışdı.

44 günlük Vətən müharibəsi dövründə Beynəlxalq təşkilatlar həmişə olduğu kimi bitərəf mövqe göstərmiş və münaqişənin həlli istiqamətində heç bir ciddi addım atmamış, bunlarla yanaşı Ermənistanı işğalçı dövlət mövqeyindən təqsirləndirməmişdir. İstər ATƏT-in Minsk qrupu, istərsə də BMT-nin Təhlükəsizlik Şurasının münaqişəli məsələnin həll olunmasında fəaliyyətini və rolunu müsbət qiymətləndirmək olmaz. BMT Dağlıq Qarabağ münaqişəsinin həll edilməsinə hər zaman "ikili standart" yanaşmasını göstərmişdir. Sadə bir nümunə ilə bu məsələyə belə aydınlıq gətirilə bilər ki, Liviyada diktatora qarşı BMT TŞ-nin çıxardığı bir qətnamə dərhal və böyük iradə ilə icra olunduğu halda, BMT TŞ-nin Ermənistanla bağlı ayrı-ayrı vaxtlarda qəbul etdiyi 4 qətnamə 30 ildir ki, icra edilmirdi. Bu hal hər zaman dünya siyasətində ikili standartların mövcudluğundan, dünya siyasətinin formalaşmasında, millətlər və dövlətlərarası münasibətlərin inkişafında mühüm təsirə malik ölkələrin ikili siyasətindən xəbər vermişdir. Məlumdur ki, Minsk qrupu həmsədri olan üç ölkə məsələni həll etmək istəsəydi, Ermənistana sanksiyalar tətbiq edərdi. Minsk qrupu həmsədrləri BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir, 30 il ərzində istənilən məsələni həll edə bilərdilər. Beynəlxalq cinayət olmasına və Cenevrə konvensiyasına zidd olmasına baxmayaraq Minsk qrupu Ermənistanın qanunsuz məskunlaşma aparmasına etiraz etməmişdir. Minsk qrupunun uzun illər cinayətə susması torpaqlarımızı ermənileşdirməyə, Azərbaycan mədəni irsini silməyə təşviq mesajı olmuşdur.

NATO-nun münaqişənin həll edilməsinə təsir göstərəcəyi iddia edilsə də, Alyans zaman-zaman münaqişəli məsələdə neytral olduğunu bəyan etmişdir. Hələ ötən illərdə "NATO Cənubi Qafqazda sabitləşdirici qüvvə kimi: Bu günkü çağırışlar və bölgədə inkişaf" adlı seminardakı çıxışında NATO rəsmisi Maqnus Eycefson deyib ki, NATO Qarabağ münaqişəsinin həllində iştirak etmir və bu məsələyə münasibətdə dəfələrlə özünün neytral mövqeyini ortaya qoyub. Hələ 2016 cı il aprel döyüşləri zamanı Azərbaycan tərəfdən NATO üzvü olan Türkiyə hərbçilərinin də iştirak etməsi ilə bağlı özünə ünvanlanan suala cavabında deyib: "Mən bir daha qeyd etmək istəyirəm ki, alyansın hər bir üzvünün hər hansı məsələyə münasibətdə müstəqil qərar qəbul etmək hüququ var. Onların özlərinin xarici siyasətində hansı addımları atmasının NATO-ya hər hansı bir aidiyyatı yoxdur. Konkret olaraq NATO Qarabağ münaqişəsinə qarışmır və neytral mövqe nümayiş etdirməkdə davam edir". NATO tez-tez Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində fəqliyyət göstərən ATƏT in MİNSK qrupunun fəaliyyətini dəstəklədiyini bəyan etmişdir.

Müharibə dövründə Avropa Şurasının rəhbəri Şarl Mişel Avropa İttifaqı sammitinin ilk günkü iclasının nəticələri haqqında danışarkən, Dağlıq Qarabağda kəskinləşən vəziyyəti dərhal dayandırmağa, diplomatik danışıqlar və siyasi dialoqlara başlamağa çağırıb. AŞ-nın rəhbəri Şarl Mişel bildirmişdir ki, biz ATƏT-in Minsk qrupu daxilində siyasi dialoqu bərpa etmək üçün digır beynəlxalq qüvvələr ilə birlikdə əlimizdən gələn bütün səyləri göstəririk, bu zorakılığı dayandırmağın yeganə yoludur. Avropa İttifaqı Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali nümayəndəsi Cozef Borrellin bəyanatında ATƏT-

in Minsk qrupu həmsədrlərinin rəhbərliyi altında Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə heç bir ilkin şərt qoyulmadan danışıqlara dərhal qayıtmağın zəruriliyi vurğulanmışdır.

Azərbaycanın ən yaxın yoldaşı və qardaşı məhz güclü siyasi dəstək verən **Türkiyə** olmuşdur. Lakin döyüş meydanında nə etdiksə özümüz etdik, müasir silahlarla, avadanlıqlarla, ən əsası da vətənimizi azad edən Azərbaycan əsgəri və zabitləri oldu. Türkiyəyə gəldikdə isə, Cənubi Qafqazın hər üç ölkəsi - Azərbaycan, Gürcüstan və Ermənistanla sərhədi olan dünyada yeganə ölkə kimi bu prosesə cəlb edilmək üçün legitim hüququ var idi. Türkiyə Cumhuriyyəti bir qonşu olaraq, region üçün sabitliyi, təhlükəsizliyi təmin edə bilən və təmin edən, gündəliyi çox aydın ölkə olaraq o, beynəlxalq hüququ müdafiə etmişdir və hazırda da edir. Hazırda müharibədən sonra siyasi nizamlanmanın həyata keçirilməsində və sabitliyin qorunub saxlanmasında Türkiyənin rolu çox mühim və müsbətdir. Türkiyənin Müdafiə naziri Hulusi Akar Azərbaycanın tərəfində olduğunu vurğulayıb qeyd etmişdir ki, Ermənistanın mövqeyi Qafqazda sülh və sabitliyin ən böyük əngəlçisidir. Ədalət və İnkişaf Partiyasının sözçüsü Ömər Çelik rəsmi ‘‘Twitter” səhifəsində etdiyi paylaşım ilə Ermənistanın Azərbaycana qarşı təcavüzkar hücumlarını sərt qınayıb. Türkiyə prezidentinin sözçüsü İbrahim Kalın məsələ ilə bağlı bildirmişdir ki, bu hücumlara qarşı Türkiyə hər zaman Azərbaycanın yanında olacaq.

ATƏT-in Minsk Qrupu həmsədrlərindən ABŞ və Fransanın Cənubi Qafqaza təsir imkanları azdır. Fransa prezidenti Emmanuel Makronun Cənubi Qafqaz siyasəti hər zaman yanlış olmuşdur. Fransanın keçmiş prezidenti Nikola Sarkozinin həm Ermənistan, həm də Azərbaycanla yaxşı münasibətləri var idi. Sarkozi prezident olarkən həm Ermənistana, həm də Azərbaycana səfərlər etmişdi**. Ancaq Emmanuel Makron** isə prezident olduqdan sonra yalnız Ermənistana səfər etdi, Azərbaycana isə, gəlmədi. Makron bununla da Ermənistana üstünlük verdiyini göstərdi və qərəzli mövqeyini sona qədər dəyişmədi. Fransa Xarici İşlər Nazirliyinin sözçüsü etdiyi açıqlamada "Fransa qarşıdurmadan son dərəcə narahatdır" ifadəsini işlətmişdir. Makrondan fərqli olaraq ABŞ prezidenti Donald Tramp Azərbaycanla Ermənistan arasındakı müharibəyə qarışmaq istəmədi. ABŞ Dövlət katibinin birinci müavini Stiven Biqan Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramov və Ermənistan Xarici İşlər naziri Zöhrab Mnatsakanyanla əlaqə saxlayaraq hər iki tərəfi təcili hərbi əməliyyatları dayandırmağa, vəziyyəti daha da gərginləşməmək üçün aralarındakı mövcud birbaşa rabitə əlaqələrindən istifadə etməyə və regiondakı gərginliyi daha da artıran ritorika və hərəkətlərdən uzaq olmağa çağırıb.

Mövcud münaqişənin həll olunmasında regionun əsas güclü aktoru kimi Rusiyanın məhz Ermənistan hökümətinin maraqlarının təminatçısı kimi tirajlanmasına baxmayaraq, rəsmi Moskva Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşdığının şahidi olmuşuq. Əlbəttə ki, Rusiyanın Dağlıq Qarabağ da daxil olmaqla ermənilərin məskən saldığı “bütün erməni territoriyalarında” onların maraqlarının təminatçısı olması mümkünsüz idi. Münaqişənin həll olunmasında potensial çəkisinə, Minsk qrupunda həmsədr olmasına baxmayaraq, müxtəlif zamanlarda, həmçinin 2004-cü, 2010-cu illərdə rəsmi Moskva Rusiyanın Dağlıq Qarabağ münaqişəsində üzərinə birbaşa məsuliyyəti götürməyəcəyini və uzun illər davam edən qarşıdurmaya daxil olmayacağını elan edərək neytral bir mövqe bildirmişdir.

İranın mövqeyi də xeyli anlaşılmazsızlıqlar yaratmışdı. Məlum olduğu kimi virtual məkanda şəkillər və videolar yayılaraq, Şərqi Azərbaycan vilayətinin sərhəd-keçid məntəqələri vasitəsi ilə Rusiya hərbi texnikasının Ermənistana göndərildiyini iddia edirdilər. Lakin 2020-ci il 29 sentyabr tarixində İran rəsmisi vurğulayıb ki, bu avtomobillərlə heç bir hərbi texnika daşınmayıb.

İsrail rəsmiləri 44 günlük müharibə dövründə istər hərbi, istərsə də siyasi cəhətdən hər zaman Azərbaycanın dəstəkcisi olmuşdur. İsrailin keçmiş xarici işlər və müdafiə naziri Aviqdor Liberman öz açıqlamasında bildirmişdir ki, tarixə nəzər saldıqda da görünür ki, hələ Sovet İttifaqı yaranmamışdan əvvəl də Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağı olmuşdur. İsrail-Azərbaycan münasibətləri strateji xarakter daşıyır və ən yüksək səviyyədə – hökumətlərarası və dövlətlərarası etimad, daimi qarşılıqlı dialoq səviyyəsində dəstəklənir

Mövcud müharibə zamanı Pakistan Azərbaycanın yanında olub, 30 ildən bəri işğal altında qalan torpaqlarımızın azad edilməsi uğrunda Vətən müharibəsi günlərində daim Azərbaycanın haqq işini və ədalətli mübarizəsini dəstəkləyib. Pakistan Azərbaycana hər zaman siyasi dəstək vermişdir. Hindistan və bəzi ölkələrin mediasında Pakistan hərbçilərinin Azərbaycana göndərilməsi kimi xəbərlərin yayımlanması isə öz təsdiqini tapmayan əsassız iddia idi.

İNSAN TİCARETİ İLE MÜCADELE

FIGHT AGANIST WITH HUMAN TRAFFICKING

Zafer AKIN

Ağrı İbrahim Çeçen Üniversitesi, Sosyal bilimleri Estitüsü, İktisat Ana Bilim Dalı, İktisat Politikaları Bilim Dalı, Ağrı/Türkiye

ORCID ID:https://orcid.org/0000-0002-9894-4696

ÖZET

Çağımızın modern köleliği olarak adlandırılan insan ticareti, en yalın hali ile bir kişinin ticari bir meta haline dönüştürülmesini ifade eder. İnsan ticareti suçu bireylerin temel hak ve hürriyetlerini tehdit etmenin yanı sıra kamu düzenine, kamu güvenliğine ve kamu sağlığına karşı da ciddi bir tehdit oluşturmaktadır. Palermo Protokolüne göre İnsan ticareti; kuvvet kullanarak veya kuvvet kullanma tehdidi ile veya diğer bir biçimde zorlama, kaçırma, hile, aldatma, nüfuzu kötüye kullanma kişinin çaresizliğinden yararlanma veya başkası üzerinde denetim yetkisi olan kişilerin rızasını kazanmak için o kişiye veya başkalarına kazanç veya çıkar sağlama yoluyla kişilerin istismar amaçlı temini, bir yerden bir yere taşınması, devredilmesi, barındırılması veya teslim alınması anlamına gelir. Birleşmiş Milletler Uyuşturucu ve Suç Ofisi ve Uluslararası Çalışma Örgütü'nün Raporlarına Göre; Dünya genelinde 40,3 milyon insan ticareti mağduru olduğu tahmin edilmektedir. İnsan ticareti, silah kaçakçılığı ve uyuşturucu ticaretinden sonra suç örgütlerine en fazla gelir getiren 3. suç türüdür. İnsan ticaretinin, çoğunlukla göç ile ilgili bir konu olarak düşünülmesine karşın göç, insan ticaretinde bütünün yalnızca bir parçasıdır. Bu suçun mağdurları yalnızca yabancılar değil ülkelerin kendi vatandaşları da olabilmektedir. Türkiye'de insan ticareti ile mücadele konusunda en aktif çalışan kurumların başında Göç İdaresi Başkanlığı gelmektedir. Göç İdaresi Başkanlığı İnsan Ticareti Mağdurları için Mağdur Destek Hizmetleri uygulamaktadır. Mağdurlar bu destek programlarından yararlanabilmekte veya Gönüllü olarak ülkelerine dönebilmektedirler. Bu çalışmada Türkiye'de İnsan ticareti ile mücadelede yasal ve uluslararası mevzuat ile bu hususta yapılan çalışmalar hakkında bilgilendirme yapılacaktır.

Anahtar Kelimer: İnsan Ticareti, İnsan Ticareti Mağduru

ABSTRACT

Humman trafficking,which is called the modern slavery of our age in its simplest form refers to the transformationof a person into a commercial commodity. The crime of human traffiking not only threatensthe fundamental rights andfreedomsof individuals but also poses a serious threat to public order, public security and the public health. Human trafficking; accorrding to the Palermo protocol is the eexploitation of a person by force or threat to force or in any other way by coercion, kidnapping, deception,abuse or expliting the helplessness of the individual or gaining benefit from that person orothers to gain the consent of those who have control over another person, means to move,transfer,or receivefrom place to place. According to the reports Of The United Nations Office On Drugs and Crime and the International Labor Organization; It is estimated that there are 40.3 million victims of human trafficking worldwide. Human traffickingis the third type of crime that generates the highest income for criminal organizationz after arms smuggling and drug trafficking. Although trafficking in human beings is often thought of as a migration – related issue, migration is only one part of the whole of trafficking. Victims of this crime can be not only foreigners but also citizens of the countries themselves. The Directorate of Menagement is one of the most active institutions in the ageinst human trafficking in Turkey. The Directorate of Menagement implements Victim Support Services ffor Victims of Human Trafficking. Victims can benefit from these support program sor return to the their countries voluntarily. In this study, information will be given about the legal and international legislation in the fight against human trafficking in Turkey and the studies carried out in this regard.

Keywords: Human Trafficking, Human Trafficking Victims

MƏDƏNİYYƏT PAYTAXTI ŞUŞA

Ələkbərova Bahar Hacıağa Qızı

A.S.Makarenko Adına Humanitar Fənlər

Təmayüllü Gimnaziya

Azərbaycan Dili Və Ədəbiyyat Müəllimi

XÜLASƏ

Açar sözlər: Şuşa,Vətən, Mədəniyyət paytaxtı, Abidələr şəhəri

Keywords: Shusha, Motherland, Capital of Culture, City of Monuments

Ключевые слова: Шуша, Родина-мать, культурная столица, город памятников

Yazıda 270 illiyi qeyd olunacaq zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında böyük rolu olan Şuşa şəhərindən, onun qədim tarixindən, Azərbaycan xalqının otuz ilə yaxın müddət ərzində işğal altında olan Şuşanın həsrəti ilə yaşamağından, lakin bu ədalətsizliklə barışmamağından bəhs olunur. Şuşa sevgisi hər bir Azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır. Azərbaycan xalqı otuz ilə yaxın müddət ərzində işğal altında olan Şuşanın həsrəti ilə yaşadı, lakin bu ədalətsizliklə barışmadı. 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsi Azərbaycanın şanlı Qələbəsi ilə nəticələndi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində torpaqlarımız işğaldan azad edildi. Bu mövzular yazıda işıqlandırılıb. Eyni zamanda Ümummilli Lider Heydər Əliyevin İllər öncə Qarabağın tacı olan Şuşa şəhərinin hər bir azərbaycanlı üçün dəyərini qiymətləndirərkən söylədiyi "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" kəlamının Şuşanın bizim üçün nə dərəcədə dəyərli olduğunun böyük ifadəsi olduğu vurğulanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərancamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi üçün il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınması da yazıda öz əksini tapmışdır.

ABSTRACT

The article celebrates the 270th anniversary of the city of Shusha, which has a rich history and a great role in the cultural and socio-political life of Azerbaijan and the entire South Caucasus. are discussed. Love for Shusha is an integral part of the spiritual existence of every Azerbaijani. This city, which has always preserved its unique historical appearance and the unique environment it has formed, has written significant pages in our chronicle of literary, cultural, scientific and social thought with its great personalities. For nearly thirty years, the people of Azerbaijan have longed for occupied Shusha, but have not reconciled with this injustice. The 44-day Patriotic War, which began on September 27, 2020, resulted in the glorious victory of Azerbaijan. As a result of the heroism of the Azerbaijani Army under the leadership of Muzaffar Supreme Commander-in-Chief, President Ilham Aliyev, our lands were liberated from occupation. These topics are covered in the article. At the same time, it was stressed that the words of National Leader Heydar Aliyev years ago, when assessing the value of the city of Shusha, the crown of Karabakh, for every Azerbaijani, "Karabakh without Shusha, and without Karabakh, there is no Azerbaijan at all" is a great expression of how valuable Shusha is for us. The decision of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated December 3, 2020 to solemnly celebrate November 8 as Victory Day in the Republic of Azerbaijan in order to perpetuate this unique victory, which has become a celebration of the strength of our people and our national pride. reflected.

FUTURE OF COMPUTER SCIENCE

Aamna Saleem Khan

Irshad Ullah

Reviewer, Mentor at Publons Academy

Department of Education Abdul Wali Khan University Mardan

ABSTRACT

Computer Science is that of branch of science in which study is performed that how to help and facilitate human being to work with the help of computer. Rapid advancement take place in this field and now this is a very wide and researched area in which new fields and trends are developing each and every time. In this study an attempt was made to know that what will be the future of computer science study. Online documents were analyzed to know about the future trends in the said field. Suggestions and recommendations were made.

Key Words: Computer Science, Research, Online Documents, Data Analysis

QARABAĞDAN TOPLANMIŞ BAYATILARDA SİMVOLLAR

SYMBOLS IN BAYATS COLLECTED FROM KARABAKH

Fil.ü.f.d., dos.Ləman Vaqifqızı (Süleymanova)

ÖZET

Azərbaycan folklorunda simvollarla bağlı geniş və əhatəli araşdırmaya rast gəlmirik. Halbuki bu, aktual mövzulardan biridir. Bütün Azərbaycan bayatıları kimi, Qarabağdan qeydə alınaraq nəşr olunmuş bayatılar da simvollarla zəngindir. Bu bölgənin bayatılarında ən qabarıq şəkildə diqqəti cəlb edən simvollar ayrılıq, matəm, yurd, şikayət və narazılıq, bəxt və qismət simvollarıdır. Bayatıda fikir açıq şəkildə verilmir, üstörtülü formada deyilir. Üstüörtülü formada fikrin ifadəsi isə daha çox simvolların köməyi ilə mümkündür. Qarabağ bayatılarındakı simvolları araşdırdığmız zaman çox maraqlı detallarla üzləşirik. Eyni simvolun müxtəlif anlamlarda işlədilməsi daha çox diqqəti cəlb edir ki, bunun da səbəbi kimi çoxmənalılığı göstərə bilərik. Bəzən matəm simvolları ilə vüsal simvollarının qarışdığı məqamlar da vardır ki, bunları ancaq kontekstdə müəyyənləşdirmək mümkündür. Bu janrda işlənən simvollar birbaşa kontekst və funksiya ilə bağlıdır. Deməli, Qarabağ bayatılarının simvolikasını öyrənmək eyni zamanda onun kontekstinə və funksiyasına da işıq tuta bilər.

Açar sözlər: Qarabağ, bayatı, simvol, yurd, kontekst, funksiya

ABSTRACT

We do not find a comprehensive study of symbols in Azerbaijani folklore. However, this is one of the pressing is sues. Like all Azerbaijani bayats, bayat sregistered and published in Karabakh are rich in symbols. Them oststriking symbols in the bayats of this region are the symbols of separation, sorrow, homeland, complaints and dissatifaction, and good luck and fortune. In bayati opinion is not given openly, it is spoken in a veiled form. The expression of thought in a veiled form is possible with the help of more symbols. When we study the symbols in the Karabakh bayats, we come across very interesting details. The use of the same symbol in different senses attracts more attention, and ambiguity can becited as a reason for this. Sometimes, mourning symbols are mixed with reuniting symbols that can only be identified in context. The characters used in this genre are directly related to context and function. Thus, the study of the symbolism of the Karabakh bayats can also shed light on its context and functions.

Keywords: Karabakh, bayats, symbols, country, context, function

ENHANCING THE SOCIAL, SPIRITUAL AND MORAL CONCERNS OF THE COMMUNITY THROUGH RATIONALIZING MYRIADS OF BAPEDI MUSIC GENRES: THE CASE OF MAKGAKGASA MUSICAL ARTS

Prof. Dr. Dr. Morakeng Edward Kenneth Lebaka

University of Zululand – KwaDlangezwa Campus; Faculty of Humanities & Social Sciences, Department of Creative Arts, South Africa

ORCID NO: 0000-0002-4652-9490

ABSTRACT

The present study looks at *makgakgasa* music ensemble as one of the music genres found in the Bapedi society. The focus will be on the relevance of this music genre within Bapedi people's cultural context. The research examines how *makgakgasa* songs provide opportunities for the singers to express their interpretations of the society and seeks to interpret the efficacy and entertainment provided by these songs. The following primary research question therefore guided this study: What is the cultural significance of *makgakgasa* music within Bapedi people's cultural context? The study employed a contextual approach and data was collected through observations, face-to-face interviews and video recordings of rehearsals and performances during social ceremonies. Secondary sources included published books and Journal articles. The investigation has revealed that within Bapedi people's cultural context, *makgakgasa* music is used to reinforce old values and symbols and acknowledge new realities. During the study, it was also established that in the context of music-making, the singers participate in communion to celebrate the continuity of the community over time, affirm its vitality, and the integration and wholeness of life. It was concluded that in the Bapedi culture, the context of the performance is a natural way of combining enjoyment with education.

Keywords: social, spiritual, moral, *makgakgasa* music ensemble, Bapedi society.

TÜRK XALQLARI FOLKLORUNDA ÜLKƏR PERSONAJI

ULKER CHARACTER IN TURKIC NATION'S FOLKLORE

Elnarə Hüseynqızı (Əmirli)

AMEA Folklor İnstitutu, böyük elmi işçi

https://orcid.org/0000-0002-9050-9139

Türk xalqları folklorunun bir hissəsi olan türk mifologiyası kainatın və onun ayrı-ayrı hissələrinin yaranması haqqında bu xalqların ən qədim təsəvvürlərini əhatə edir. Göyün Yerdən uzaq olması, Ayın, Günəşin, ulduzların, Samanyolunun və s. yaranması ilə bağlı xeyli folklor örnəkləri vardır. Türkiyə, Azərbaycan, Orta Asiya və digər türk xalqlarından toplanmış şifahi örnəklər arasında Ülkər ulduzunun yaranışı, ona xas xüsusiyyətlərin meydana gəlməsi haqqındakı təsəvvürlər də mühüm yer tutur.

Ülkər ulduzu haqqındakı təsəvvürlərdə Ülkər personajı öz rəngarənliyi ilə diqqəti cəlb edir. Ülkər ulduzu ilə bağlı örnəklərin süjetində bu ulduzun əvvəllər insan olması, daha sonra hər hansı səbəbdən ulduza çevrilib göyə çəkilməsi əsas xətt təşkil edir. Bu örnəklərin bir çoxunda Ülkər aciz bir insan kimi təsvir edilir; həmin süjetlərə görə, Ülkər çətin vəziyyətdə qalması səbəbindən Allaha yalvararaq ulduza çevrilmişdir.

Bəzi süjetlərdə isə Ülkərlər böyük bir tayfa, bəzən isə ailə şəklində təqdim olunur: Ülkərlər adını daşıyan ailə qarşıdakı ailə ilə qarşıdurma vəziyyətindədir.

Digər bir süjetdə Ulkər quldurlar tərəfindən qaçırılmış bacısını xilas etməyə cəhd edən bir personaj – cəsarət rəmzi kimi göstərilir.

Türk xalqlarının folklorunda kosmoqonik təsəvvürləri arasında özünəxas çəkiyə malik olan Ülkər personajının öyrənilməsi kosmoqonik təsəvvürlərin digər yönlərdən təhlili baxımından faydalıdır.

Açar sözlər: kosmoqonik təsəvvürlər, Ülkər, personaj, çevrilmə

Turkic mythology, which is part of the folklore of the Turkic nations, embodies the most ancient ideas of these nations about the creation of the universe and its separate parts. There are many folk examples about distance of the sky from the Earth, creation of the Moon, the Sun, the stars, the Milky Way, etc. There are many examples of folklore associated with the emergence of among the oral examples collected from Turkey, Azerbaijan, Central Asia and other Turkic nations, the notion of the origin of the Star of Ulker and the emergence of its peculiarities also occupies an important place.

In the imagination about star of Ulker the character of the Ulker attracts attention with its diversity. The main line in the plot of the examples related to the star of Ulker is that this star was first human, and then for some reason turned into a star and ascended to the sky. In many of these examples, Ulker is described as a helpless man; According to these plots, Ulker became a star by praying to God because he was in a difficult situation.

In some plots, the Ulkers are presented as a large tribe, and sometimes as a family: The family named Ulkers is in conflict with the opposite family.

In another plot, Ulker is portrayed as a symbol of courage - a character trying to save his sister, who was abducted by robbers.

The study of the Ulker character, which has its own weight among the cosmogonic imaginations in the folklore of the Turkic nations, is useful in terms of analyzing cosmogonic imaginations from other angles.

Keywords: cosmogonic imaginations, Ulker, character, transformation

AZƏRBAYCAN IQTISADIYYATINDA BIZNES RISKLƏRI VƏ ONUN IDARƏ OLUNMASI MEXANIZMI

İsmayılova Ləman Rafiq qızı

Əliyeva Hafizə Zirəddin qızı

Odlar Yurdu Universitetinin müəllimi

ABSTRACT

Economic growth at all stages of the development of human society has been associated with the risk taking of farm managers, entreprenerurs and businessmen. Entrepreneur and manager who does not make risky decisions in a market economy is considered to be a person who aspires to stagnation and is afraid to manage.

Increases the risk of innovative development of the economy. İn modern times, risk management is one of the most important factors in business to minimize its negative consequences.

Risk management is a creative process and consists of several approaches.

Açar sözlər: İqtisadiyyat, biznes, risk, mənfəət, investisiya, maliyyə, sahibkar, idarəetmə, sığorta.

Keywords: Economic, business, risk, profit, investment, financial, owner, management,insurance.

Geniş mənada risk - dəyər kəsb edən hər hansı bir əmlakın, vəsaitin, vaxtın və s. itirilmə ehtimalıdır. Risk, arzuolunmaz bir hadisənin başvermə, yaxud gözlənilən bir hadisənin baş verməməsi ehtimalıdır. Risk, neqativ nəticələnə biləcək hər hansı hərəkət, yaxud hərəkətsizliklərdir. Risk hər hansı bir işin, hərəkətin nəticəsinə 100% dəqiqlə əmin olmadıqda meydana çıxır.

Riskin bir sıra xarakterik xüsusiyyətləri var:

1. Qeyri-müəyyənlik
2. Zərər
3. Analiz
4. Əhəmiyyətlilik

Biznesmenlər risk sözünü 2 mənada işlədir:

1.Müsbət mənada: uğur qazanmaq şansı olan risklər

2.Mənfi mənada: bir mənalı olaraq ziyan verən risklər

Biznesdə riskə aşağıdakılar aid edilir:

Rəqabət riski, iqtisadi risk, qanunvericilik riski, əməliyyat riski, hüquqi risk, strategiya ilə bağlı risklər, reputasiya riski, proqram təminatı riski, innovasiyalarla bağlı risk, lahiyə icrası ilə bağlı risk, ölkədə baş verən sosial-mədəni hadisələr, kredit riski, keyfiyyət ilə bağlı risklər,məzənnə riski, bank faizi riski, vergi riski, ifrat böyümə riski, resurs riski, siyasi risk və mövsümi risk

Biznes riskləri daxili və xarici ola bilər. Onlar iş qabiliyyətinə birbaşa və ya dolayısı yolla təsir göstərə bilər. Risklər təhlükə əsaslı (məsələn, kimyəvi dağıntılar), qeyri-müəyyən əsaslı (məsələn, təbii fəlakətlər) və ya imkanlar ilə bağlı ola bilər.

Biznesdə dolayı risklər: İnsanlar çox vaxt bizneslərinə birbaşa təsir etməyən şeyləri gözdən qaçırırlar və buna görə də, dəyişikliklərlə qarşılaşarkən səhvə yol verirlər. Məsəslən, təbii biznesə birbaşa təsir etməsə də, müştərilər və ümumi yerə təsir edərək biznesə ziyan gətirə bilər.

Biznes riski dedikdə, şirkətlərin mənfəətinin proqnozlaşdırılandan daha az olması və ya zərərlə üzləşməsi ehtimalı başa düşülür.İqtisadi ədəbiyyatda biznes riskləri kimi daha çox maliyyə riski, likvidlik riski, sistemli risk, valyuta riski və ölkəyə xas risklər fərqləndirilir. Azərbaycan iqtisadiyyatına xas olan bəzi biznes risklərini nəzərdən keçilərkən neft qiymətlərinin volatilliyi, protsiklik fiskal siyasət, iqtisadiyyatın və büdcə daxilolmalarının qiymət konyukturdan asılı olması iqtisadi qeyri-müəyyənliyi artırır ki, bu da Azərbaycanda biznes və investisiya mühitinə mənfi təsir edən, riskləri artıran əsas amillərdən biri kimi qymətləndirilməlidir **.** Bir çox digər təbii resurslarla zəngin ölkələrdə olduğu kimi, Azərbaycanda da son illər neft-qaz sektoru ixracın, valyuta daxilolmalarının və dövlət büdcəsi gəlirlərinin əsas mənbəyi olmaqla iqtisadi artımın və iqtisadi fəallığın başlıca determinantı kimi çıxış etmişdir. 2006-cı ildən başlayaraq artan neft gəlirləri dövlət xərclərini əhəmiyyətli dərəcədə artırmağa şərait yaratmış və dövlət investisiyaları vasitəsilə bir sıra infrastruktur layihələrinin maliyyələşdirilməsinə və iqtisadi artım tempinin sürətlənməsinə səbəb olmuşdur.

Ümumiyyətlə, iqtisadiyyatının əsasını təbii ehtiyatların istehsalı və ixracı təşkil edən ölkələrdə təbii sərvətlərdən əldə olunan gəlirlərin məhdudluğu, qeyri-müəyyənliyi və volatilliyi fiskal idarəetmə və büdcə planlaşdırmasını çətinləşdirir. Təbii ehtiyatların qiymətlərinin volatilliyi iqtisadiyyatın və büdcə daxilolmalarının qiymət konyukturdan asılı olmasına səbəb olur ki, bu da büdcə xərclərinin səviyyəsi və strukturu üçün qeyri-müəyyənliklər yaradır. Büdcə xərclərində yarana biləcək dövrülük də öz növbəsində iqtisadi artımın dayanıqlığı üçün, həmçinin özəl sektorda uzunmüddətli investisiya planlarının hazırlanması və qərarların qəbul edilməsində çətinliklər yaradır. 2014-cü ilin ortalarından başlayaraq neftin qiymətinin kəskin aşağı düşməsi bir sıra digər neft ixrac edən ölkələrdə olduğu kimi, Azərbaycanda da valyuta gəlirlərinin və tədiyyə balansının profisitinin əhəmiyyətli azalmasına gətirib çıxarmışdır. Valyuta daxilolmalarının və büdcə gəlirlərinin azalması da öz növbəsində büdcə xərclərinin və investisiyaların azalmasına və iqtisadi artım tempinin zəifləməsinə səbəb olmuş, iqtisadi fəallığın azalmasına səbəb olmuşdur. Xüsusilə də büdcə gəlirlərinin formalaşmasında xarici amillər əhəmiyyətli rol oynadıqda, büdcə sisteminin həssaslığı daha da yüksəlir. Bu nöqteyi-nəzərdən neft bazarındakı volatilliyə adekvat olaraq büdcə xərcləmələrinin dinamikasında müşahidə olunan kəskin dəyişikliklər heç şübhəsiz ölkədə biznes mühitinə təsir edir.Qeyd olunmalıdır ki, iqtisadiyyatın neftdən asılılığının azaldılması, o cümlədən fiskal qaydaların tətbiqi ilə fiskal siyasətin protsikilliyinin azaldılması və bununla da ölkədə makroqtisadi sabitliyin və maliyyə dayanıqlığının artırılması istiqamətində görülən tədbirlər ölkədə sahibkarlıq fəaliyyəti üçün yarana biləcək risklərin əhəmiyyətli dərəcədə azalmasına səbəb olacaqdır. Azərbaycanda sahibkarlığın inkişafına təsir edən və risk yaradan digər amil kimi maliyyə resurslarına çıxış imkanlarının məhdudluğunu qeyd etmək olar.

Kreditlər üzrə faiz dərəcələrinin yüksək olması biznesə, xüsusən də kiçik və orta sahibkarların kredit resurslarına əlçatanlığını azaldan amillərdəndir. Yüksək neft gəlirləri dövründə kredit faizlərinin yüksək olması ciddi fəsadlar törətməsə də, iqtisadi aktivliyin azaldığı və milli valyutanın qeyri-sabitliyi dövründə pul resurslarının baha olması sahibkarlığa ağır zərbə vurur. Maliyyə bazarlarının liberallaşdırılması, Ümumdünya Ticarət Təşkilatına üzvlük nəticəsində xarici bankların daxili bazara girişinin liberallaşdırılması sahibkarların ucuz kredit resurslarına çıxışını asanlaşdırmaqla, ölkədə biznesin inkişafını stimullaşdıra bilər.Həmçinin qeyd olunmalıdır ki, əsas ticarət partnyoru olan ölkələrdə makroiqtisadi vəziyyət və tendensiyalar da sahibkarlığın inkişafına təsir edən əsas vasitədir.

Risklərin idarə edilməsi - yaradıcı prosesdir, onu mahnının və ya hətta bütöv bir simfoniyanın yaradılması ilə müqayisə etmək olar. Musiqidə melodiyaların müxtəlifliyi yeddi notdan yarandığı kimi, risklərin idarə edilməsi üçün də bir neçə əsas yanaşmadan istifadə edirlər:

1. Riskin qəbul edilməsi.

2. Riskin məhdudlaşdırılması.

3. Riskin təmin edilməsi.

4. Riskin sığortası.

5. Riskin satışı.

6. Riskdən yayınma.

AVA Group Consulting" Azərbaycanda Risklərin idarə edilməsi üzrə konsaltinq xidmətini təklif edir. Risklərin idarə edilməsi prosesi üçün prinsipləri və qaydaları müəyyən edən ləvazimatlardan istifadə olunur. Müxtəlif növ risklərdə dövriyyədə kiçik dəyişikliklər mövcuddur. İSO 31000 başına (Risklərin İdarə edilməsi İcra prinsipləri və Təlimatları), risklərin idarə edilməsi prosesi aşağıdakı addımlardan və alt addımlardan ibarətdir:

Kontekstin yaradılması: Kontekstin yaradılması bütün mümkün risklərin müəyyənləşdirildiyini və mümkün təsvirlərin hərtərəfli təhlil olunduğunu bildirir. Müxtəlif strategiyalar müzakirə olunur və risklə mübarizə üçün qərarlar verilir.

Müəyyənləşdirmə: Kontekst uğurla qurulandan sonar növbəti addım təhdidlərin və ya potensial risklərin müəyyənləşdirilməsidir. Bu identifikasiya mənbənin səviyyəsində və ya problem səviyyəsində ola bilər.

Qiymətləndirmə: Risklər müəyyən edildikdən sonra,onların baş vermə ehtimalı və təsiri qiymətləndirilir. Bu qiymətləndirmə daha az və ya çox az bir təxmin oyunudur və ən yaxşı təxmin planın müvəffəq olmasına qərar verir.

Risklərin yaxşı idarə edilməsi planında riskləri azaltmaq üçün bir çox vasitə və strategiya mövcuddur. Strategiya, riskin qarşısını almaq və ya təsirini azaltmaq üçün onun bir hissəsini başqa bir layihəyə köçürmək ola bilər.

Dünyada, o cümlədən Azərbaycanda biznesdə risklərin minimuma endirilməsinin bir neçə yolu var:

-Sığortalamaq

-İş təkliflərini genişləndirmək

-Qısamüddətli öhdəliklərə sadiq qalmaq

-Təhlükəsizliyi hər zaman təmin etmək

-Mövcud daxili nəzarət sistemini nəzərdən keçirmək

-İdarəetmə planı yaratmaq

-Maliyyə

-Planlaşdırmaq

ƏDƏBİYYAT

1. http://mktg.az
2. http://az.m.wikipedia.org
3. http://www.unec.edu.az
4. http://iqtisadiislahat.org
5. http://adau.edu.az
6. http://www.ens.az

QARABAĞ XALÇALARINDA XALQ QƏHRƏMANLARI VƏ DÖVLƏT NÜMAYƏNDƏLƏRİNİN OBRAZLARI

IMAGES OF PEOPLE'S HEROES AND STATE REPRESENTATIVES ON KARABAKH CARPETS

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Arzu Zeynalova

Azərbaycan Dövlət Pedaqoji Universiteti,

İncəsənət və Fiziki Tərbiyə fakultəsi, Təsviri İncəsənət və Onun Tədrisi Texnologiyası kafedrası

Bakı, Azərbaycan

OCRID ID: 0000-0002-9554-6588

XÜLASƏ

Bildiyimiz kimi, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ bölgəsi əsrlər boyu diyarımızın ən inkişaf etmiş sənət mərkəzlərindən biri olmuşdur. Burada sənətin bütün sahələri, o cümlədən tikmə, ağac üzərində oyma, bədii metal sənəti, parça və xalça istehsalı geniş yayılmışdır. Təqdim olunan bu məqalə Qarabağın süjetli xalcalarına həsr olunub.

Qarabağda ən çox yayılan qəhrəmanlıq dastanlarından biri "Koroğlu", digəri isə "Qaçaq Nəbi"dir ki, onları da xalqımız öz qan yaddaşına köçürmüş, eyni zamanda dekorativ-tətbiqi sənət ustalarımız bu obrazları sənət əsərləri üzərində də əks etdirmişlər.

V.İ.Leninin Qarabağ xalçalarında tək və N.Nərimanovla olan bir neçə nümunəsini topladıq ki, bunlar da öz orijinallığı ilə digərlərindən seçilir.

Diqqətimizi çəkən və süjetli xalçalar siyahısına daxil olan "Türk komandanları" adlı Qarabağ xalçalarını da qeyd etmək istərdik.

Bu xalçaların üzərində sahəsinin boş yerlərində arasahə yarpaqlı qızılgül, qırmızı, sarı, ağ rəngli çəmən və qızılgüllərlə doldurulmuşdur. Hər ikisinin mərkəzində sanki üzərində təsvirlər olan bir tablo asılmışdır. Lakin bu, tablo deyil, xalça üzərində xalçadır. Birinci xalçanın ölçüsü 190x140 sm-dir. Onun üzərində hərbi geyimli, öngörünüşlü dörd kişi rəsmi vardır. Məlum olduğu kimi, hələ Osmanlı dövlətində Paşa adı yüksək hərbi rütbə hesab edilirdi. Dörd hərbi geyimli kişi təsvirlərinin başlarında qırmızı və qara türk fəsləri vardır. Bu xalçada onlar öngörünüşlü olub, ayaq üstə dayanıblar. Arasahənin açıq-yaşıl rəngli fonunda digər qeyri-müəyyən elementlər də görünür. Bu qeyri-müəyyən formalı qrafik elementlər ya suda üzən gəmiləri, ya şamdanı, ya da təhrif olunmuş tuğranı xatırladır (möhür, qol çəkmək üçün). Təbii ki, xalçaçı usta bu rəsmləri hansısa bir məlum sənəddən və ya məcmudan köçürmüşdür. Onlar sağ əllərini yana salıb, sol əlləri ilə silah tutublar. Qara geyimdədirlər. Xalçanın arasahəsi sarı yerli olan bu təsvirləri qırmızı yerli haşiyə əhatə edir. Qırmızı yerli enli haşiyənin sağ və solunda Türk bayrağının atributu olan ay və beşguşəli ulduzların bir-birinin yanına düzülmüş ritmik təkrarı ilə aşağı və yuxarı haşiyədə ərəb əlifbası ilə yazılmış yazılar var. Bu yazı eyni zamanda xalçanın ümumi ən son haşiyəsinin açıq-yaşıl rəngli yerliyi üzərində də başdan-ayağa təkrar edilmişdir.

Araşdırma prosesində Azərbaycan Milli Xalca Muzeyi, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan Qarabağın sujetli xalcaları ilə bərabər, eyni zamanda hazırda qacqın kimi müxtəlif bölgələrdə, o cümlədən Bərdə rayonu və ətraf kəndlərdə, Tərtər və onun kəndlərində, Qobustan və Ağcabədidə, həmcinin kohnə yaylaqlarda yaşayan məcburi köckünlərdən, Bakı və Sumqayıtda məskunlaşmış qarabağlılardan əldə edilmiş süjetli xalcaların fotolarından da istifadə olunub. Toplanılan materiallar bir daha sübuta yetirdi ki, Azərbaycanın digər xalca məktəblərindən fərqli olaraq, süjetli xalcaların istehsalı Qarabağda daha geniş yayılmışdır.

Açar sözlər: Azərbaycan, Qarabağ, Koroğlu, Qaçaq Nəbi, Türk Komandanları

ABSTRACT

In Karabakh the heroism epicsmainly spoken at weddings and funerals in Karabakh. It is widely speared among the people that the names in this epos, known by heart, were given to newborn children in Karabakh. The newborn boys in Karbakh also grow up in the spirit of the heroes of classical folk epos.

As you know, Azerbaijan has always been open to the peoples of the world. Friendship, political and cultural relations have always been in Karabakh.

As we know, the Karabakh region, which is an integral part of Azerbaijan, has been one of the most developed art centers in our country for centuries. All fields of art are widespread here, including embroidery,wood carving, artistic metal art, fabric and carpet production. This article is dedicated to the carpets of Karabakh.

Karabakh ashugs with a special brilliance performed heroic dastans at weddings, celebrations, and recited poetic legends to the accompaniment of saz. "**Koroglu**" and "**Gachag Nabi**" are the most popular heroic dastans both in Karabakh and in all of Azerbaijan. The heroic epos, preserved in the genetic memory of the nation, all great personages are reflected in decorative and applied art also.

We also collected samples of Karabakh carpets on which V. Lenin is depicted either alone or with N. Narimanov. These carpets are also distinguished by their originality.

We would also like to mention the Karabakh carpets called “Turkish commanders”, which attract special attention and are included in the list of plot carpets.

The free space of the middle field of these carpets is filled by roses with leaves, wild flowers of red, yellow white color, with grass and roses. In the center of both carpets it seems as if a panel with drawings is hung. However, this is not a panel, but “carpet on a carpet”. The size of the first carpet is 190x140 cm. on it four full-dressed men in military uniform are pictured. As you know, the title "Pasha" in the Ottoman state was considered a high military rank. All four men are dressed in military uniforms, and on the head the Turkish fezes of red and black color are put on. On this carpet, they are pictured full face, standing. On the light green carpet background some other vague elements are also seen. These graphic elements of an vague form resemble either floating ships, or candlesticks, or disfigured **tugras**. (**stamp**, **hand**). Certainly, the carpet weaver took this image from some painting or digest. The officers' right hand is thrown down, in their left hand they have weapons, their clothes are of black color. In the middle field of the carpet, these personages with a yellow background are surrounded by a border with a red background. On the left and right sides of the red border attributes of the Turkish flag - a half-moon and a five-pointed star are placed. These attributes repeat rhythmically one after the other, on the top and bottom of the border are inscriptions in Arabic, the inscriptions are repeated on a light green background along the entire length of the last border of the carpet.

In the process of preparing the article, along with the Karabakh carpets kept in the Azerbaijan National Carpet Museum, the National Museum of History of Azerbaijan, the Azerbaijan National Museum of Art, as well as in different regions, including Barda region and surrounding villages, Tartar and its villages, Gobustan and Agjabadi, Photos of thematic carpets from IDPs living in the old pastures and Karabakh people living in Baku and Sumgayit were also used. The collected materials proved once again that, unlike other carpet schools in Azerbaijan, the production of thematic carpets is more widespread in Karabakh.

Key words: Azerbaijan, Karabakh, Koroglu, Gachag Nabi, Turkish Commanders

UOT: 39.902.908(479.24)

AZƏRBAYCANIN CƏNUB-ŞƏRQ REGİONUNDA "UTE" TOPONİMİ İLƏ BAĞLI BƏZİ MÜLAHİZƏLƏR

SOME CONSIDERATIONS ABOUT UTEY TOPONIM

Sərraf Mirsəfər oğlu Talıbov

AMEA Lənkəran Regional Elmi Mərkəzinin

Folklor, etnoqrafiya və arxeologiya şöbəsinin müdiri

ABSTRACT

There are many historical monuments located in the south-east of Azerbaijan. However, many of these monuments have been little studied. One of them is the village of Sim in the Astara region, which dates back to prehistoric times and is famous for its numerous monuments, and its neighborhood called "Utey". The presence of more than 20 cemeteries, 7 mills, 3 stone bridges and other monuments in the village requires serious research. The presence of more than 20 cemeteries, 7 mills, 3 stone bridges, the historical "King nyshta sygon" (king outran stone - Talysh) and other monuments in this area requires serious research. In recent years, some versions have been put forward regarding the origin of the village and the etymology of the word "sim", but no unequivocal opinion has been obtained. According to some sources, these areas were once inhabited by "irons". As a result of various historical-geographical and socio-political processes, they left these places and migrated from the south to the north. Ancient signs on the stones in the neighborhood called "Ute" still remain today. The king's house is located in the same area. It is said that during the reign of kings, Ute was also the arena of wrestlers. I think that reading these signs can clarify many assumptions.

In order to shed light on the etymology of the name Utey (locals say "ute"), we once again consider the articles of many well-known scholars, possible phrases in Azerbaijani, Talysh, Persian, and many studies on the settlement of Utey in Azerbaijan. prominent orientalist I. We looked at the views of M. Dyakonov, the famous chronicle of the Albanian historian M. Kalankatli. The presence of ancient hearths in the Utey settlement, the presence of fireworks, and the presence of elements of fire sanctification in their customs show that the religious meetings of the people living here are connected with fire-worship. And we have tried to present to you some of our conclusions in this regard.

Keywords: Sim, utey, qutilar, "Podshoh nışta sıgon", sute, sin.

XÜLASƏ

Azərbaycanın cənub-şərqində yerləşən çoxsaylı tarixi abidələr mövcuddur. Lakin həmin abidələrin bir çoxu az tədqiq olunmuşdur. Onlardan biri də tarixi bizim eradan əvvələ gedən, çoxsaylı abidələri ilə məşhur olan Astara rayonun Sım kəndi və onun "Utey" deyilən məhəlləsidir. Kənddə 20-dən çox qəbiristanlığın, 7 dəyirmanın, 3 daş körpünün və digər abidələrin olması ciddi araşdırmalar tələb edir. Bu ərazidə 20-dən çox qəbiristanlıq, 7 dəyirman, 3 daş körpü, tarixi "Podşoh nışta sıqon" (padşah outran daş – Talışca) və digər abidələrin olması ciddi araşdırma tələb edir. Son illərdə kəndin mənşəyi və "sim" sözünün etimologiyası ilə bağlı bəzi versiyalar irəli sürülsə də, birmənalı rəy əldə olunmamışdır. Bəzi mülahizələrə görə, bu ərazilərdə vaxtilə "*ütilər"* məskən salıblar. Onlar müxtəlif tarixi-coğrafi və ictimai-siyasi proseslər nəticəsində bu yerləri tərk edərək cənubdan şimala köç ediblər. "Üte" adlanan məhəllədə daşların üzərində qədim nişanələr bu gün də qalmaqdadır. Padşahın evi də elə həmin ərazidə yerləşmişdir. Deyilənə görə, padşahların dövründə Ute həm də pəhləvanlar meydanı olmuşdur. Məncə, həmin işarələrin oxunması ilə bir çox fərziyyələrə aydınlıq gətirmək olar.

Biz, bu yazıda bir daha Utey (yerli sakinlər "ute" deyirlər) adının etimologiyasına işıq salmaq üçün bir çox tanınmış alimlərin məqalələrini, Azərbaycan, talış, fars dillərində mümkün söz vahidlərini, Utilərin

Azərbaycan ərazisində məskən salması haqda bir çox tədqiqatlara, o cümlədən bu haqda görkəmli şərqşünas alim İ. M. Dyakonovun fikirlərinə, Alban tarixçisi M.Kalankatlının məhşur səlnaməsinə nəzər yetirdik. Utey yaşayış yerində qədim ocaq yerlərinin olması, atəşfəşanlığın keçirilməsi, adətlərində odun müqəddəsləşdirilməsi elementlərinin mövcudluğu burada yaşayanların dini görüşlərinin atəşpərəstliklə bağlı olduğunu göstərməkdədir. Və bununla bağlı gəldiyimiz bəzi qənaətləri sizlərə təqdim etməyə çalışdıq.

Açar sözlər: Sım, utey, qutilər, "Podşoh nışta sığon", sute, sin.

Cənub bölgəsinin ən maraqlı, sirrli və az öyrənilmiş yaşayış məntəqələrindən biri də Astara rayonunun Sım kəndidir. Coğrafi mövqeyi təbii qalanı xatırladan kəndin yaşayış üçün təsadüfi seçilmədiyini göstərir. Kənd, demək olar ki, üç tərəfdən Talış dağları ilə əhatə olunub. İlk arxeoloji qazıntılar insanların burada bizim eramızdan əvvəl də yaşadıqlarını göstərmişdir. Daş oturacaqlar və masalar, daş hovuz, daş sarayın xarabalıqları, naməlum dildə və əlifbada daşlar üzərində yazılar, daş həbsxana, çoxsaylı mağara və zirzəmilər kəndin 2-3 min illik tarixindən xəbər verir. Kənddə 20-dən çox qəbiristanlığın, 7 dəyirmanın, 3 daş körpünün və digər abidələrin olması ciddi araşdırmalar tələb edir [1, 16-17]. Bu, bir daha göstərir ki, Sım kənd yox, çox-çox qədim zamanlarda şəhər səviyəsində yaşayış məskəni olmuş, burada indikindən qat-qat artıq əhali yaşamışdır. Maraq doğuran abidələrdən ən önəmlisi, bəlkə də birincisi, qədim yaşayış məskəni olan Utey deyilən ərazidir [2, 23-38].

Yerli sakinlərin "Ute" dediyi ərazidə dairəvi meydanda xüsusi tədbirlərin həyata keçirilməsi üçün yonulmuş daşlar vardır. Qədim daş abidəsi olan Çarhovuz haqqında kənd məktəbinin direktoru, tarix müəllimi Nəbi Xalıqov maraqlı məlumatlar verdi. O, dərinliyi 60, diametri 80 sm və 1000 litr su tutumlu bu daş abidənin Sasani hökmdarı Xosrov Ənuşirəvanın vaxtilə burada olan sarayının yaxınlığında yerləşdiyini diqqətə çatdırdı. Onun dediyinə görə, 1500 illik tarixə malik bu daş abidə onu sübut edir ki, Şərq mədəniyyəti Qərbə nisbətən daha əvvəl inkişaf ermişdir. "Düstəqxana" deyilən mağara keçmişdə "Üte"də yaşamış şah tərəfindən cəzalandırılmış məhbusların saxlandığı yer olub"[3].

Sım kəndi ucqar, dağlıq, çətin relyefə malik ərazidə yerləşir. Bura gedən yolda son illərdə müəyyən abadlıq işləri görülmüşdür. Əsrlər öncə utilərin, daha rahat düzəndə yox, məhz belə çətin bir dağlıq ərazidə məskən salması da maraq doğurur.

Kənddə tapılan və Astara Diyarşünaslıq muzeyində saxlanılan daş və tunc alətlər də çox qədim əsrlərin yadigarıdır. Astara rayon Mədəniyyət şöbəsindən aldığımız məlumata görə, Sımda IX-X əsrlərə aid Sım yaşayış yeri (inv: 828), orta əsrlərə aid Damğalı daşlar (inv: 5773), XIV-XVII əsrlərə aid Utey yaşayış yeri (inv:5774), XIV-XVII əsrlərə aid Çayu yaşayış yeri (inv: 5775) və nizə tutmuş atlının təsviri olan qəbir daşı (inv: 6109) abidələri dövlət qeydiyyatına alınmışdır. Sım yaşayış yeri ölkə, Damğalı daşlar, Ute və Çayu yaşayış yerləri yerli əhəmiyyətli arxeoloji abidə, nizə tutmuş atlının təsviri olan daş isə yerli əhəmiyyətli dekorativ-tətbiqi sənət nümunəsi hesab olunur. Qədim tarixli Sımın "Üte" ərazisində daşlar üzərindəki yazılar deyilənə görə IV-III minilliklərə aiddir. "Podşonışdəsığon" (padşah oturan daşın-talışca) üstündən "Şindan" qalası, 700 metr məsafədə ərazisi böyük olan "Əliürd" qayası görünür. Qayanın üstündəki yazılar, çəkilmiş rəsmlər Qobustanı xatırlatdı."[4]

Yuxarıda qeyd etdiyimiz "Ute" deyilən yer qədim dövrdə, görünür, həm də şahın istirahət yeri olmuşdur. Belə ki, üç tərəfi ağacla sıx örtülü dağlarla əhatə olunmuş kəndın bir tərəfi Cıdır düzü deyilən əraziyə açılır. Qədim ərazidə daş hovuz maraq doğuran abidələrdəndir. Yuxarıdakı bulaqlardan axan sular xüsusi olaraq bu məqsədlə yonulmuş daşların içi ilə daş hovuza axırmış. Digər maraqlı abidə kəndin yanından axan çayın əks tərəfində olan nəhəng Anqivənə hal-Ballı qayadır (anqivin talış dilində bal, hal isə qaya deməkdir). Çayın üstündə vaxtilə fəaliyyət göstərmiş daş körpünün qalıqlarına rast gəlmək mümkündür. Ballı qayadan yuxarıda Daş zindan(mağara) yerləşir. Həmin yerdə indi də insan sümüklərinə rast gəlmək mümkündür. Hər iki tərəfi daşlar olan çığır, cığır boyu yerləşən sal qayalarda həkk edilən müxtəlif işarələr diqqəti cəlb edir. İndiyə kimi bura gələn tədqiqatçılar, hələ ki, bu işarələri oxuya bilməyiblər.

Bəzi mülahizələrə görə(7) bu ərazilərdə vaxtilə "*ütilər*" məskən salıblar. Onlar müxtəlif tarixi-coğrafi və ictimai-siyasi proseslər nəticəsində bu yerləri tərk edərək cənubdan şimala köç ediblər. "Üte" adlanan

məhəllədə daşların üzərində qədim nişanələr bu gün də qalmaqdadır. Padşahın evi də elə həmin ərazidə yerləşmişdir. Deyilənə görə, padşahların dövründə Ute həm də pəhləvanlar meydanı olmuşdur. Məncə, həmin işarələrin oxunması ilə bir çox fərziyyələrə aydınlıq gətirmək olar.

Utilərin Azərbaycan ərazisində məskən salması haqda bir çox tədqiqatlar mövcuddur. Bu haqda görkəmli şərqşünas alim İ. M. Dyakonovun fikirləri diqqətəlayiqdir. O yazır ki, İran Azərbaycanındakı Zaqros dağlarında yaşayan kutilər (bəzi alimlər kutilərin utilərlə eyni tayfa olduğunu bildirir-müəllif) e. ə. 2228 – ci ildə Mesopotamiyanı işğal edib, burada yüz ildən artıq hökmranlıq etdilər. E. ə. 2104 – cü ildə Mesopotamiyada hakimiyyətlərinə son qoyulan kutilər yenidən Zaqros dağlarındakı doğma yerlərinə qayıtdıqda, lullubilər onlara əvvəllər yaşadıqları yerlərdə məskunlaşmağa imkan vermədilər. Belə olduqda kutilər yeni yurd axtarışı məqsədilə, şimala da doğru hərəkət etdilər və hətta Cənubi Qafqazda belə məskunlaşdılar. [c. 114 – 116, 5]. Alban tarixçisi M.Kalankatlı öz məhşur səlnaməsində xəbər verir ki, 1-ci yüzillikdə yaşamış qarqarlar, girdimanlar və utilər alban çarı Aranın nəslindəndirlər. Sonra o, Albaniyada bir neçə Uti əyalətinin adını çəkir. Bu məlumat "7-ci yüzillikdə erməni coğrafiyası" əsərində də təsdiq olunur. Moisey Kalankatlının – Alban ölkəsinin tarixi əsərində Albaniyada 5 mahalın Uti adlandığı göstərilir: Qarabağın dağlıq hissəsində – Artsakda, Bərdə zonasında, Girdimanın Xalxal şəhəri (indiki Qazax- Ağstafa rayonları ərazisində) zonasında və Azərbaycanın şimal – qərbində [6].

Bir çox tanınmış alimlər kuti və utilərin eyni tayfa olduğunu söyləsələr də, əks fikirlər də mövcuddur. Xüsusən də böyük tarixçi alim, dilçi, mərhum Yusif Yusifovun söylədikləri maraq doğurmaqdadır. O, kutilərlə utilərin fərqli tayfalar olduğunu bildirir: "Kutilərin dil və etnik mənsubiyyəti barədə müxtəlif fərziyyələr irəli sürülmüşdür. Q.Hüzinq və F.Borkun elam dilinə aid araşdırmalarında kuti dilinin elam dilinə qohum olması və bunların öz növbəsində Qafqaz dilləri ilə qohumluq təşkil etməsi barədə mülahizə irəli sürülmüşdür. Lakin bu qohumluğu göstərə biləcək dəlillər gətirilməmişdir. Əksinə, mixi qaynaqlar göstərir ki, kuti və utu // itu ("uti" adının ilkin forması) tayfa adları müxtəlif formalarda işlənirdilər." [s. 280, 7].

Professor Yusif Yusifov daha sonra qeyd edir: ,,Türk etnosu olan utilər qədim və erkən orta əsrlərdə geniş bir ərazidə - Şimali İkiçayarasından və Azərbaycandan tutmuş ta Şimali Qafqaza kimi geniş bir ərazidə baş vermiş siyasi hadisələrdə iştirak etmişlər". Bütün bu deyilənlərdən belə qənaətə gəlmək olur ki, Azərbaycanın şimal və qərb hissəsi vaxtilə təqibdən qaçan utilər üçün də yaşayış yeri olmuşdur. Lakin indiki Sım kəndinin yerləşdiyi cənub-şərqdə və yaxud yaxın ərazilərdə utilərin yaşadığı barədə heç bir fikrə rast gəlmirik. "Udin və Uti qədim Albaniyanın fərqli bölgələri, udinlər və utilər isə fərqli etnosları olmuşlar. Utilər Uti vilayətində saklarla (Sakasena ilə) qonşuluqda yaşamışlar və Bərdə şəhəri bu vilayətdə yerləşirdi. Bu vəziyyət Vll əsrdə qeydə alınmışdır. Həmin dövrdə albanlar aparıcı mövqedə idilər və bu üzdən də həm saklar, həm də utilər Albaniyanın digər soy və boyları kimi öz xüsusi adları ilə yanaşı, ümumiləşdirici "alban" adı ilə də tanınırdılar. Herodotun yazdıqlarından isə belə məlum olur ki, 1200 il öncə, yəni e.ə. V əsrdə də utilər eyni bölgədə yaşamışlar. Tarixin atası onların Araz çayı yaxınlarında yaşadıqlarını yazmışdır." [3, 8]

"Uti" adının mənasına gəldikdə isə, müxtəlif fikirlər mövcuddur. Yazılı mənbələrdəki ən çox yayılan məlumatlarda, Kuti (Quti) adının onlara qonşu etnoslardan xeyli ağbəniz (sarışın) və ucaboylu - dağ gövdəli olduqlarına, yəni fiziki görünüşlərinə görə verildiyi qeyd edilir. Digər mənbəyə görə isə, Ute (Utu) Şumerlərin günəş allahı olduğundan, bu ad utilərə günəşə sitayış etdiklərinə görə verilmişdir[s. 280, 8]. Hardasa bu fikirlərə qatılmaq olar. Belə ki, dağlıq ərazilərdə yaşayan sakinlərin əksəriyyətində bu əlamətləri görmək mümkündür. İndi də dağ sakinlərinin müəyyən hissəsi ağbəniz, sarışın, irigövdəli olurlar. Lakin bu sakinləri kutilərə aid etmək olarmı? Məncə, bu variant da geniş araşdırma tələb edir.

Sım kəndində qədim ocaq izləri göstərir ki, burada bayramlarda görünməmiş atəşfəşanlıq olarmış. Bu, bizə əsrlərdir son çərşənbə axşamı yandırdığımız tonqalları xatırladır. "Utu – Şumer mifologiyasında günəş tanrısıdır. Utu işıqlı, xeyirxah tanrıdır. Hər şeyi görən və bilən hakim kimi insanların fəaliyyətlərinə qiymət verib... Utu həyatın dörd əsas ünsüründən biri olan odu/işığı təmsil edir. İndi də işlətdiyimiz "Od" sözü də buradan gəlmişdir. "Utu" yazılışı mixi əlifbada "o" hərfinin olmaması ilə bağlıdır. "Od" o zaman "Ut" kimi yazılırdı. "T" samiti də sonradan "d"-ya keçib. [9].

Bu gün də talışlar, o cümlədən yerli sakinlər od-a "otəş" və ya "utəş", yanmış yerə "sutə vırə" və ya "sutə" deyirlər. Utey yaşayış yerində qədim ocaq yerlərinin olması, atəşfəşanlığın keçirilməsi, adətlərində odun müqəddəsləşdirilməsi elementləri də burada yaşayanların dini görüşlərinin atəşpərəstliklə bağlı olduğunu göstərməkdədir. Yuxarıda qeyd etdiyimiz Dustaqxana deyilən mağaranın yaxınlığında tapılan insan sümükləri inancı zərdüştülük olan adamların dəfn adətinə işarə ola bilər. Zərdüştülüyün mərkəzi sayılan İsfahandan kahinlərin şimala gedən yolun üstündə olan Sımda dayanması, müvəqqəti burada yaşaması və ölənlərini burada dağda zərdüştülüyə uyğun dəfn etməsi mümkün olan variantlardandır.

Görkəmli tarixçilərimizin tədqiqatlarına böyük hörmətlə yanaşmaqla, "ute" sözü ilə bağlı bəzi mülahizələrimi də bildirmək istəyirəm. Belə ki, talış dilində "od" sözü, yuxarıda qeyd etdiyimiz kimi, yerindən asılı olaraq "otəş", "utəş", yanmış sözü "sutə", "yandı" sözü-"sute", "kül" isə "mutə" kimi işlənir. Buradan belə nəticəyə gəlmək olar ki, o dövrdə dini görüşləri atəşpərəstlik olan yerli sakinlərin ayinlərinin əsas yeri əhali tərəfindən "sute", "sutey", "külət", yəni "yanan" və ya "yanmış, kül olmuş" yer kimi adlanmış, illər keçdikcə "s" hərfinin düşməsi nəticəsində hazırki "ute" sözünə çevrilmişdir. Əgər doğrudan da, burada utilər yaşasaydı, yerli sakinlər talış dilinin qrammatikasına uyğun olaraq bu ərazini "ute" yox, "uti-on", "utiin", yəni "utilər" və ya "utinməhlə" çağrırardılar. Gəldiyimiz nəticə budur ki, "ute" sözü "sute-yanmış" sözündən yaranmış və indiki "utey"-ə çevrilmişdir.

Buradan digər bir mülahizəyə keçmək istəyirəm. Məlumdur ki, "ute" şumerdə günəş allahına deyilir. Şumer mifologiyasına görə, günəş allahı Ute, yəni Şamaş ay allahı Sin-in oğludur. Buradakı Ute məhəlləsi də Sım kəndinin içindədir. Yəni Sımın övladı kimidir. Sin-in Sıma-a çerilməsində isə qeyri-adi bir hal yoxdur. Mənə elə gəlir ki, nə qədər uzaq görünsə də, qədim keçmişə malik Sım kəndinin adı ilə "Sin" sözünün oxşarlığı da diqqətdən qaçmamalıdır.

Bu yazıda möcüzələrlə dolu Sım kəndinin qədim məhəlləsi Ute toponimi barədə bəzi mülahizələrimizlə sizi tanış etməyə çalışdıq. İnşallah, növbəti yazılarımızda açılmamış xəzinə olan bu məkanda yerləşən digər abidələr haqqında da sizlərə daha ətraflı məlumat verməyə çalışacağıq.

ƏDƏBİYYAT

1. Sərraf Talıbov. Sım-daşlarda yaşayan tarix. "Yaşıl çay" jurnalı. N 02 (02), səh.16- 17, Bakı-2012,

2. Tar. elmləri doktoru Tufan Axundov "Astarada 20 gün" kitabı (B., 2009, səh. 23-38).

3. Gülnar Əsədli. Tarixi Zəngin və QədimAstara. https://astarainfo.az/2017/10/04

/tarixi-zəngin-və-qədim-astara).

4. https://az.wikipedia.org/wiki/Sım

5. И. М. Дьяконов. История Мидии от древнейших времен до конца ıv века до н. э. М - Л. 1956,114-116с, 486с.

6. Uti. https://az.wikipedia.org/wiki/Uti

7. Yusif Yusifov. Qədim Şərq tarixi. Bakı - 1993, s. 280, 536 səh

8. Bəxtiyar Tuncay. Azərbaycan imperatorluğu.Kutilər və Mahan (Manna) dövləti. Bakı 2012. http://genderi.org/bextiyar-tuncay-azerbaycan-imperatorlugu.html?page=3

9. İslam Sadıq**.** Şumer mifologiyası: şumer tanrılar panteonu - 7-ci yazı

http://www.xalqcebhesi.az/news/culture/38145.htmlİslam Sadıq, fil.elm.doktoru,).

REPRESENTATION OF SYRIAN REFUGEES IN THE TURKISH PRESS

SURİYELİ MÜLTECİLERİN TÜRK BASININDA TEMSİLİ

Halil KAYA

İstanbul Ticaret Üniversitesi

ORCID ID: https://orcid.org/0000-0002-0680-0354

ABSTRACT

The concept of migration emerges as a concept that started with the history of humanity and is frequently on the agenda in the ongoing process. Due to various reasons, people had to migrate in certain periods of history. Particularly, factors such as political pressures and war are seen as the most important reasons for migration. Media is expressed as a concept in which various events and developments are watched and interpreted, and individuals learn about what is happening in the world and develop attitudes. For this reason, the power and role of the media is very large in terms of individuals' understanding of events, developing an attitude towards these events and making a discourse. The aim of this study is to reveal the representation of Syrian refugees in the Turkish press through the news in national newspapers. Content analysis and critical discourse analysis approach were used in the research. In this context, the range of January 2016-February 2016 has been determined for the newspaper headlines to be examined. The reason for determining these dates is that refugees have just entered Turkey and are still considered as "guests". Three newspapers of the period with different views were selected as samples within the specified date range. These newspapers were determined as Hürriyet newspaper, Sözcü newspaper and Habertürk newspaper. While examining the newspapers, only the news on the headline page was taken as a basis..

Keywords: Syria, Migration, Press, Media

ÖZET

Göç kavramı insanlık tarihi ile başlayan ve süregelen süreç içerisinde sık sık gündem olan bir kavram olarak karşımıza çıkmaktadır. Çok çeşitli sebeplerden dolayı tarihin belirli dönemlerinde insanlar göç etmek durumunda kalmıştır. Özellikle siyasi baskılar ve savaş gibi unsurlar göçün en önemli nedenleri olarak görülmektedir. Medya, çeşitli olayların, gelişmelerin izlendiği, yorumlandığı ve bireylerin dünyada olup bitenleri öğrendiği, tutum geliştirdiği bir kavram olarak ifade edilmektedir. Bu nedenle bireylerin olayları kavrayışı, bu olaylara karşı bir tutum geliştirmesi ve söylemde bulunması açısından medyanın gücü ve rolü oldukça büyüktür. Bu çalışmanın amacı, Suriyeli mültecilerin Türk basınında temsilinin ulusal gazetelerde yer alan haberler aracığıyla ortaya koyulmasıdır. Araştırmada içerik analizi ve eleştirel söylem analizi yaklaşımından yararlanılmıştır. Bu bağlamda incelenecek olan gazete manşetleri için Ocak 2016- Şubat 2016 aralığı belirlenmiştir. Bu tarihler arasının belirlenme sebebi mültecilerin Türkiye'ye yeni giriş yaptıkları ve henüz "misafir" adı altında değerlendirilmeleridir. Belirtilen tarih aralığında örneklem olarak dönemin farklı görüşlere sahip üç gazetesi seçilmiştir. Bu gazeteler Hürriyet gazetesi, Sözcü gazetesi ve Habertürk gazetesi olarak belirlenmiştir. Gazeteler incelenirken yalnızca manşet sayfasında yer alan haberler baz alınmıştır.

Anahtar Kelimeler: Suriye, Göç, Basın, Medya

TÜRKDİLLİ XALQLARDA VƏ SAXURLARDA NİKAH FORMALARI

FORMS OF MARRIAGE OF THE TURKİC-SPEAKİNG PEOPLES AND TSAKHURS

Sahibə Musayeva

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun dissertantı,Bakı ş.,Azərbaycan

ORCID ID: 0000-0001-8091-925X

XÜLASƏ

Dünyada saysız-hesabsız millət, etnik qrup vardır ki, bu da onların sayı qədər psixologiyanın, etnik şüurun olması deməkdir. Hər bir xalqın özünüdərk prosesində milli adət-ənənələr əvəzolunmaz vasitədir. Azsaylı xalqların folkloru onların mənəvi-mədəni dünyasını əks etdirir. Təqdim olunan məqalədə türkdilli xalqlar, Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan saxurlar və digər etnik qruplar arasında mövcud olmuş nikah formaları, qaydaları, adətləri, üsulları və s. müqayisəli şəkildə təhlil edilir. Araşdırma nəticəsində məlum olur ki, türkdilli xalqlardakı kimi, saxurlarda da nikahın əsas forması təkkəbinlilik idi. Onların arasında əsasən endoqam nikaha üstünlük verilmişdir. Çox güman ki, qohumlar arasında nikahlar sərt qaydadan daha çox əxlaqi və etik norma olmuşdur. Bununla belə, sororat nikah adəti istisna olmaqla, saxurlarda nikahın bütün formalarına müəyyən dərəcədə rast gəlinmişdir. Araşdırma nəticəsində o da bəlli olmuşdur ki, azərbaycanlıların və digər türk xalqlarının, həmçinin də öyrənilən bölgədə yaşayan digər etnik qrupların ailə məişəti, xüsusilə də nikahla bağlı məsələləri saxurlar üçün də səciyyəvi sayılmışdır.Digər xalqlar kimi, müasir dövrdə onların arasında da qarışıq nikahlar mövcuddur. Bü cur qarışıq millətlərarası nikah münasibətləri formalaşması bütövlükdə Qafqaz xalqlarının və türkdilli xalqların mədəniyyətini inkişaf etdirir.

Lakin bir çox xarici, əsasən də ermənipərəst mənbələrdə Qarabağ sözünün etimoloji izahı Azərbaycanşünaslığıa zidd mövqedən "araşdırılmışdır". Və ya elə yerli alimlər də vardır ki, onların Qarabağ, eləcə də Azərbaycana məxsus qədim yer-yurd adlarının etimoloji, elmi izahında bolşevik cəmiyyətinin tələblərinə uyğun olaraq izahlar təqdim ediblər. Bütün bunlar Qarabağın tarixi, mədəniyəti və s. məqamlarla bağlı əsl həqiqətlərin gizlənməsinə və tədricən itirilməsinə xidmət edirdi. Üzərində araşdırma apardığımız "Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях: произведенное и изданное по высочайшему соизволению" kitabında bəhs etdiyimiz məqam qabarıq şəkildədir. Mənbədə yazılır: "Bu qəza, meşələrinin çoxluğu sayəsində Qarabağ adını qazanıb. Çox hissəsi dağlarla, düzənliklərlə və mahallarla əhatəolunub: Talış dağları, Xaçın, Hacısəlim, Qaraçorlu, Zəngəzur, Sisiyan, Qapan, Dizax, Vərənd. Ən hündür dağları, hansı ki köçəri tatarların əlavə köçlərinə xidmət edirdi: Cilalyar, Tozağac, Qızımbulax, Daşbulax,Çalbay, Çillix, Qırx qız, Sarılar, Sarıbaba, Xəlilcan, Qızıldaş və daha başqalarıdır. Bütün bunlar hamısı öz coğrafi mövqeyi və əsasən də meşələrlə zənginliyi ilə əhalinin yaşayış tərzinə müsbət təsir göstərirdi. Ən hündür dağ Sarıdərə Xəzər dənizinindən 5 000 fuş hündürlükdədir"[3, 256].

Verilən məlumatlarda, göründüyü kimi, o zamankı çar hökuməti tərəfindən azərbaycanlılara verilən tatar adının çəkilməsi və hallanmasında gözağrıdan qısqanclıq müşahidə olunur. Öncəliklə, Azərbaycan sözünün məhv edilməsi uğrunda aparılan mübarizə çoxşaxəli idi. Azərbaycan sözünün işlədilməsi artıq yad hala çevrilmişdi. Azərbaycanlıları adlandırmaq üçün qəsdən seçilmiş tatar sözündə də ifadə zamanı aqressyanı, nifrəti məlum etmək məqsədini büruzə verirdi, tatar, bir növ, vəhşilik, geri mədənilik kimi xüsusiyyətlərin daşıyıcısı kimi simvolizə olunurdu. Elə sözügedən mənbədə də bu məqamı izləyə bilirik. Haqqında bəhs olunan məkan – Qarabağın coğrafi mövqeyi haqqındakı təsvirlərdə Qarabağ əhalisinin yaşam və həyat tərzində müsbət funksiya daşıyan dağlar sadalandıqca, təsərrüfatçılıq üçün ən əlverişli dağlardan bəhs olunanda bu dağların köçəri həyat tərzi keçirən tatarların həyatındakı rolu da qeyd olunur. Burada, sanki, iki daşın arasında, "lazımsız köç edən tatarlar" ifadəsini də izləyirik.

Qarabağın torpaq örtüyünün rəngarəng olduğu haqqında da mənbədə qeydlərə rast gəlirik. Bəzi mahallara aid olan torpaqlar verimlidir. Lakin Mehrigüney mahalını istisna etmək şərtilə, torpaq isti iqlim şəraitindən irəli gələrək çox az məhsul vermək qabiliyyəti daşıyır. Buralarda ancaq buğda, arpa

və s. əkilir. Lakin suvarma məsələləri quraşdırılmış yerlərdə müxtəlif məhsullar əkilir və bol məhsul da əldə olunur. Ən çox verimli torpaqlar Xacın, Vərənd, Dizax, Zəngəzur, Sisiyana aiddir. Mehrigüney mahalı isə yüksək dağlığa malik olduğundan və dağların yazın sonlarınadək qarla örtüldüyündən yayda çox sərin iqlimə malikdir və torpaqları da olduqca verimlidir [3, 258].

Qarabağ əhalisininin tərkibindən bəhs edən müəllif Qarabağın dini cəmiyyətinin xristian və müsəlmanlardan təşkil olunduğunu yazır. Və haqsızca, üstəlik də qəsbkarlıq xislətinə malik olduğunu cümlələri ilə sübut edərək yazır ki, Qarabağda müqəddəs məkanların sayı 76-dır.Onların arasında Qarabağın qəqim sahibləri olan ermənilərə məxsus monastrların sayı daha çoxdur [3, 274]. Bəli, belə qondarma və uydurma fikirlər yazan müəllifin məqsədi aydındır. Qarabağın qədim sahibləri olan azərbaycanlıların bu torpaqdakı izlərini tamamilə məhv etmək məqsəd və arzuları artıq möhkəm və çox iyrənc siyasət kimi tərəddüdlə həyata keçirilirdi.

İkrah doğuran məqamlardan biri də müəllifin Qarabağın köklü əhalisinin tərkibi haqqında yazdığı saxta məlumatlardır. O yazır: "Qarabağın əhalisi ermənilər, tatarlar, kürdlər və nestoryanlardır. Ermənilər Asiyanın ən qədim xristianlığı ilk olaraq qəbul etmiş xalqlarıdır. Tatarlar, özlərini müsəlman adlandırırlar. Farslardan fərqli olaraq, onlar Qızılbaşlar, Qacarlar, Türklər idilər ki, müxtəlif tayfalardan təşkil olunmuşdular" [3, 275]. Buradakı qəzəbi açıqca duyuruq: əslində nə vaxtsa yalnızca tayfa şəklində mövcud olmuş ermənilər xalq kimi qələmə vermək, keçmişini, qədimliyini miladdan öncə ən qədim dövrlərlə bağlayan köklü türkləri, Azərbaycan türklərini – As ərləri (1) tatar adlandırmaq, türkləri yalnızca bir neçə tayfa məcmusu kimi qələmə vermək açıq-aşkar məkrli və qəsbkar erməni siyasətini ifadə edir. Daha sonra üzdəniraq müəllif kökü Osmanlılara dayanan bir neçə türk tayfasının adının sadalayır: Cavanşir, Teymurhəsənli, Təklə-Muğanlı, Cəbrailli, Sarıcalı, Sofulu, Qəqili, Xocal-Səhli, Cinli, Dəliharda, Kəngərli, İmirli və başqalarının varlığı haqqında candərdi məlumat verir. Bu adların da tarixini çox bəsitləşdirərək ya o tayfaların kökləri, ya da məşğuliyyətləri ilə bağlı olduğunu yazır. Lakin bu tayfalar haqqında məlumat verən üzdəniraq müəllif, qətidir ki, Azərbaycan türklərinin qədim tarixinə də bələddir. O yaxşı bilirdi ki, sadaladığı qədim türlərin çox az sayı olan bu tayfaların adları da türklərin çox qədim tarixi ilə bağlıdır. Gözdən pərdə asmaq üçün məlumatı belə iyrənc şəkildə bəsitləşdirərək "təqdim edir".

Qarabağ əhalisinin istifadə etdiyi dil barədə də sözügedən mənbədə məlumat verilir. Öz məkrli ənənəsinə sadiq qalaraq üzdəniraq müəllif ilk olaraq Qarabağın əhalisinin əsasən ermənilərdən təşkil olunduğun yazır, daha sonra digər xalqların adlarını çəkir. Yazır ki, burada əhali ermənicə, tatarca və kürdcə danışır. Lakin məkrli fikirlərlə izah verən bu üzdəniraq müəllif özündən biixtiyar təsdiq edir ki, burda istifadə olunan ən aktiv dil tatar (*Azərbaycan dili – L.H*) dilidir. Nestoryanlar (Naxçıvanda onlara nasranlılar da deyirlər) xüsusi dildən istifadə edirlər, hansı ki, əsası tatar dilinə məxsusdur [3, 278]. Burada müəllif, necə deyərlər, özünü ələ verir. Çünki digər məqamlarda təhriflərə, inkarlara ciddi cəhdlə çalışsa da dil baxımdan bunu edə bilmir. Dil hər bir xalqın tam kimliyidir. Və burada üzdəniraq müəllif öz məkrini, hiyləsini tam ifadə edə bilmir.

Ermənilərin xislətcə ən aşağı xüsusiyyətləri daşıdığını gizlətmək istəyən müəllif, "cəhənnəmə gedənin yoldaş axtarması" ənənəsini ifadə edən məqamlarla ermənini xarakterizə edir. Bu zaman tarixən yalnız şanlı qəhrəmanlıq nümayiş etdirən Azərbaycan türklərini, özlərinin dedikləri kimi tatarları da onlara "yoldaş edir". O yazır: "Qarabağ ermənileri yalana bürünüblər. tatarlar isə oğruluğa. Tatarlar da, ermənilər də qəhrəmanlıqla fərqlənmirlər. Lakin kürdlər cəsurdurlar" [3, 278]. Burada müəllif yenə də "özünü ələ verir": "Qarabağ ermənileri..". Bəli, təsvir etdiyi məkr dolu etnoqrafik, coğrafi, tarixi məlumatlarda ermənilərin Qarabağın köklü sakinləri olduğunu yazırdı. Lakin burada o həqiqəti təsdiq edir: "Qarabağ ermənileri". Yəni Qarabağa sonradan, zorla köçürülmüş ermənilər. Əgər bir xalq mənsub olduğu məkanın köklü sakinidirsə, onları heç vaxt belə adlandırmaq olmazdı.

Qarabağın təsərrüfat həyatı ilə bağlı olaraq burada məlumatlar öz əksini tapır. Məşhur Qarabağ atları Zaqafqaziyada öz gözəlliyi və sürəti ilə fərqlənir. Burada həmin atlar haqqında da məlumat verilir: "Onların böyük əksəriyyəti qızılı rəngdədir (sarılar). Burada 11 at zavodu fəaliyyət göstərir" [3, 296].

Qarabağ meşələri hər zaman müxtəlif heyvan növləri ilə zəngin olub. Meşələrin ətrafındakı kəndlərin əhalisi buradakı heyvanları ovlamaqda da fəal idilər. Ermənilərin isə ən çox ovladıqları ayı idi. Ayının piyindən sabun hazırlamaq üçün istifadə edirilər.

Qarabağ quberniyasının kəndlərində fabrik sənayesi bu dövrlərdə çox zəif idi, demək olar ki yox idi. Baxmayaraq ki, bəzi qadınlar, hərdən də kişilər ipək parçadan hazırlanmış geyimlərdən istifadə edirdilər.

Qarabağ quberniyasının əsrarəngiz gözəlliyə malik şəhərlərindən biri də Şuşadır. Bu şəhər haqqında sözügedən mənbədə təsvir olunur: "Şəhərin küçələri səliqəlidir. Evlərin demək olar ki, hamısı daşdandır. Əhalinin çoxu ticarətlə məşğul olur"[3,308]. Şuşanın əsrarəngiz təbiəti məlumdur. İstər iqlim şəraiti, istər coğrafi mövqeyi bu şəhərin gözəlliyini artırır. Və mənbədə bu barədə oxuyuruq: "Şuşanın gözəl və əlverişli iqlimi vardır. Burada həddən artıq isti olmur, amma payızda çoxlu yağış yağır, qatı duman olur" [3, 310].

Şuşada təhsil barədə də mənbədə məlumat öz əksini belə tapır: "Şuşada gənclərin təhsili üçün 10 məktəb fəaliyyət göstərir. Bu məktəblərin üçü erməni, qalan yeddisi isə tatar məktəbi idi... Tatar və erməni orta təhsil müəssisəsinin müəllimləri, valideynlərin maddi durumuna əsasən hər bir uşaqdan ay hesabı olaraq 20 qəpikdən 2 manatadək pul alırdılar. Ümumiyyətlə, Şuşa əhalisi gənclərin savadlanmasına çox böyük önəm verirdi " [3, 310]. Və buradakı məktəblərdəki tədrisin əsasən erməni dilində aparıldığı haqqında tam yalnış məlumatı da müşahidə edirik. Şuşa əhalisinin maddi rifahı yüksək olub. Burada əhali kənar dövlətlərlə ticarətə üstünlük verir. Onlar əsasən Təbriz və İsfahana daha çox meyil edirdilər. Və digər xarici tacirlər də bu şəhərə ticarətə gəlməyi sevirdilər. Bu baxımdan Şuşada müxtəlif pul vahidləri işlək vəziyyətdə idi.

Mənbədə tam şəkildətəhrif olunmuş, Qarabağın o dövrkü ictimai, siyasi, mədəni və məişət həyatındakı məqamların dəyişdirilərək ermənilərə xeyir verəcək şəkildə təqdim olunmuş məlumatlar yetərincədir. Lakin əsl həqiqət artıq dünyaya yayılmaq üzərində olduğunundan rastlaşdığımız bu acı yalanlar heç də könlümüzü bulandırmır. Çünki biz kökü qədimlərə dayanan qəhrəman yurdun qəhrəman övladlarıyıq. Tariximiz qədər mədəniyyətimiz, dilimiz, dünyayabxışımız da olduqca qədimdir. Lakin sözügedən mənbədə gerçəklərin əks olunduğu səhifələri də izlədik. Bunlar da Qarabağın əsasən coğrafi şəraiti ilə bağlı idi. Və müəllif çox yerdə əsl həqiqəti bildiyindən özündən biixtiyar həqiqəti də yazmaya bilmirdi.

Qədim türk torpağı olan Qarabağ haqqında məlumatlar təkcə yerli deyil, rus və Avropa mənbələrində geniş şəkildə yer almaqdadır. Biz bu mənbələri izləməli, onlardakı məlumatların həqiqətlə səsləşib-səsləşmədiyini diqqət etməliyik.

QAYNAQLAR

1. Cəfərov C. Milli etnik yaddaşın izi ilə. Bakı: Nurlan, 2007, 212 s.

2. Hüseynov Y. Qarabağ tarixi mənbələrdə. Bakı: Şuşa, 2012, 248 s.

3. Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях: произведенное и изданное по высочайшему соизволению. Санкт-Петербург, 1836.

ŞUŞA VƏ ƏTRAFININ ARXEOLOGİYASI

SHUSHA AND IT'S AROUND ARCHAEOLOGY

Şəbnəm ƏLİYEVA

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

XÜLASƏ

Qafqaz arxeologiyasında Şuşa və onun ətraf ərazisinin xüsusi yeri var. Avropa və Rusiyadan olan həvəskar tədqiqatçılar tərəfindən Qarabağda aparılan arxeoloji qazıntıların nəticəsində aşkara çıxarılan abidələr maraq doğurur. Şuşadan tapılan bəzi arxeoloji materiallar Milli Azərbaycan Tarix Muzeyində qorunub saxlanılır.

Sovet dövründə Azərbaycanlı alimlərin iştirak etdiyi xüsusi arxeoloji ekspedisiyalar Qarabağın arxeoloji abidələrinin planlı şəkildə öyrənilməsi sahəsində yeni mərhələyə başladılar. Mil-Qarabağ arxeoloji ekspedisiyası tərəfindən aparılan arxeoloji qazıntıların nəticəsi Şuşanın Qafqaz sivilizasiyanın ən qədim mərkəzlərindən biri olduğunu sübut edir. Şuşa mağarasının YUNESKO-nun Ümumdünya İrs Siyahısına salınmasını zəruri edən amilləri vardır.

Açar sözlər: Qafqaz, Qarabağ, Şuşa, arxeoloji, abidə, YUNESKO

ABSTRACT

Shusha and its environs have a special place in Caucasian archaeology. The monuments discovered due to excavations carried out in Karabakh by amateurs of European and Russian origin are significant. In addition, some archaeological materials in Shusha are still preserved in the National Museum of Azerbaijan History.

Later, a special archaeological expedition with the participation of Azerbaijani scientists began a new stage in the systematic study of the archaeological monuments of Karabakh. The results of archaeological excavations carried out by the Mil-Karabakh archaeological expedition prove that Shusha is one of the oldest centers of Caucasian civilization. Some factors make it necessary to include the Shusha cave in the UNESCO World Heritage List.

Keywords: Caucasus, Karabakh, Shusha, archaeology, monument, UNESCO

Şuşa və onun ətrafı Qafqaz arxeologiyasında xüsusi yer tutur. Çünki həmin ərazilər vaxtilə qədim Midiya dövlətinin, Qafqaz Albaniyasının, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Qarabağ xanlığının ərazisinə aid olub. Buna görə də qədim tarixə malik olan Şuşa və onun ətrafı XIX əsrdən bəri rus və avropalı tədqiqatçıların diqqətini cəlb edirdi. Şuşanın ətraf ərazilərində onun maddi mədəniyyət tarixi ilə maraqlanan həvəskar əcnəbilər tərəfindən qazıntı işləri aparılmışdır.

1871-ci ilin oktyabrında Tiflisdə Qafqaz Arxeologiya Komitəsinin yaradılması Azərbaycanın maddi mədəniyyət tarixi ilə maraqlanan xarici arxeoloqları səfərbər etdi. Qeyd edək ki, Qafqaz arxeologiyası ilə qeyri-peşəkar həvəskarlar da məşğul olub. Berlin Antropologiya, Etnoqrafiya və Qədim Tarix Cəmiyyəti tərəfindən maliyyələşdirilən, Şuşa Realni məktəbinin alman dili müəllimi Emil Resler 1892-1903-cü illər arasında Şuşa ətrafında apardığı arxeoloji qazıntılar zamanı coxlu qəbirlər aşkar etmişdir. Qəbirlər kurqan tipinə məxsus idilər. Onun öyrəndiyi abidələr eneolit, tunc və dəmir dövrlərinə aid edilir. Həqiqən deyə bilərik ki, Emil Reslerin apardığı qazıntılar nəticəsində Qarabağın tunc dövrü tarixinin öyrənilməsi üçün zəngin materiallar toplanmışdır. Təssüflər olsun ki, onun apardığı tədqiqat işlərinin nəticələri bizim arxivlərdə yox, Rusiya Elmlər Akademiyasının Maddi-mədəniyyət Tarixi Institutunun San-Peterburq şöbəsinin arxivindədir. Arxeoloji tapıntılar isə böyük ehtimalla Tiflisdəki Qafqaz Muzeyinə verilmişdir. Qeyd edək ki, Çar Rusiyası dövründə Qafqazın mərkəzi Tiflis şəhəri olub.

Həmçinin qədim abidələrdə aparılan arxeoloji qazıntılardan əldə edilən çox mühüm tapıntılar Moskvadakı Tarix Muzeyinə təhvil verilmiş və qazıntıların nəticələri "Qafqaz arxeologiyasının materialları" adı ilə nəşr edilmişdir.

Azərbaycanlı arxeoloq, etnoqraf və coğrafiyaşünas Davud Şərifovun səyi nəticəsində Azərbaycana məxsus arxeoloji materiallar Qafqaz (Gürcüstan) Muzeyindən Azərbaycan Tarixi Muzeyinə köçürülmüş, Şuşa şəhəri ətrafında aparılan qazıntıların materialları Redkin Lager adı ilə yanlış qeyd edilmişdir.

Ox ucları, xəncər başı, düymələr, boşqab və ya kəmər hissəsi, bilərziklər, çaxmaq daşı, qabıq muncuqları, heyvan dişləri və çürük ağacdan hazırlanmış materiallar Redkin Lager adı ilə Arxeologiya Fondunun inventar kitabına daxil edilmişdir Şuşa ərazisində aparılan arxeoloji qazıntılardan əldə edilən qaşovun dəvəgözüdən sap yerinin olması və ucunun işlənməsi çox maraqlıdır. Yuxarısında sap keçirmək üçün deşik-küp açılmışdır. Küpün dairəsinin bir hissəsi sınmışdır. Uzunluğu 5,5 sm, küpün uzunluğu 3,3 sm-dir. Şuşanın digər dəvəgözüdən hazırlanmış qaşovu üçbucaqşəkilli olub, iki tərəfdən kənarları işlənmişdir. Uzunluğu 3,7 sm, ən enli yerdə eni 2,7 sm-dir. Bu arxeoloji materiallar Son tunc və ilk dəmir dövrünün öyrənilməsi üçün əhəmiyyətlidir.

1900-cü illərin əvvəllərindən Reslerin son qazıntıları dövründən Azərbaycanın tarixdən əvvəlki qədim dövrünün tədqiqi demək olar ki, dayandı. 1920-ci illərdən başlayaraq sovet arxeoloqları tərəfindən qazıntılar yenidən başlandı. XX əsrin sonlarından başlayaraq Şuşada aparılan elmi tədqiqatlar onun arxeologiyasında yeni səhifə açır.

Məmmədəli Hüseynovun rəhbərliyi ilə 1971-1973 və 1975-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun Mil-Qarabağ arxeoloji ekspedisiyası böyük elmi işlər görmüşüdür. Belə ki, 1971-ci ilin iyulunda ekspedisiya Şuşa şəhəri yaxınlığındakı Cıdır düzünün aşağı hissəsində paleolit mədəniyyətinə aid qədim insan düşərgəsini aşkar edib. Düşərgə Şuşa şəhərində yerləşdiyi üçün Şuşa mağarası adlandırılmışdır. Mağara Daşaltı çayının sol sahilində, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, çayın müasir yatağından 80 metr hündürlükdə yerləşir. Abidə mərmər əhəngdaşı qalın təbəqələrinin altında yerləşir. Karst mağarası təbii olaraq milyon il əvvəl əmələ gəlib. Düşərgənin eni 20 metr, uzunluğu 100 metr və hündürlüyü 7 metrdir. Mağaranın mədəni təbəqələrinin xarakterini müəyyən etmək üçün çuxur qazılmışdır. İki metr dərinlikdən iki ədəd kobud alət aşkar edilmişdir. Bu cür alətlərə oxşar tapıntılar Azıx mağarasının Aşel təbəqəsində üzə çıxmışdır.

Şuşa mağarasında ümumilikdə çöküntülərdə beş təbəqə müəyyən edilmişdir. Birinci və ikinci təbəqələrdə aparılan arxeoloji qazıntılar zamanı eneolit, tunc, qədim və orta əsrlərə aid metal və gil qabların fraqmentləri aşkar edilmişdir. Materialların mühüm hissəsi müxtəlif keramika parçalarıdır. Mövcud olan çoxlu sayda müqayisəli materiallara əsaslanaraq onlar asanlıqla xronoloji bölgüyə uyğunlaşdırılıb. Ən qədimi gildə incə doğranmış samanla saxsı parçalarıdır. Onların rənginin səthi açıq qırmızıdır. Oxşar keramika nümunələri Azərbaycanın digər bölgələrində də aşkar edilmişdir. Qeyd edək ki, bu abidələrdə saman keramika ilə yanaşı, qaba dənəli qum qarışığı olan gil qablar da aşkar edilib. Mağaradakı keramika məmulatları arasında xronoloji olaraq tunc dövrünün növbəti mərhələsini əhatə edən artefaktlar aşkar edilmişdir. Onlar qara boyalı qablara aiddir. Səthində çərtmə naxışlar vardır. Bu artefaktlar Orta Tunc dövrü ilə eynidir. Dulusçuluq fraqmentləri arasında təsvir edilənlərlə yanaşı, Tunc və Erkən Dəmir dövrlərinə aid tapıntılar da vardır.

Düşərgənin üçüncü təbəqəsində maddi mədəniyyət nümunələri qeydə alınmayıb. Dördüncü və beşinci təbəqələrdə paleolit dövrünə aid maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İstər YUNESKO-nun Ümumdünya İrs Siyahısına, istərsə də İlkin Siyahıya daxil edilmiş bütün dünya varlıqları nəzərdən keçirildikdə, Aggtelek və Slovak, Ballıca, Skocjan, Altamira, Ellora, Ajanta, Gorham və.s kimi mağaralara rast gəlirik. Ümumdünya İrs Siyahısına daxil edilmiş bütün mağaralar və karst əraziləri demək olar ki, oxşar namizədlik meyarlarına malikdir. Xüsusilə VII və VIII meyarlara malikdirlər. Hamısı dünyanın geoloji və geomorfoloji formalaşması zamanı keçdiyi müxtəlif mərhələlərin şahidi olub. Təkcə mülkün elm üçün əhəmiyyətinin deyil, daha dəqiq desək, yer elmləri tarixi üçün əhəmiyyətinin güclü göstəricisidir. Buna görə də geologiya tarixi üçün vacibdir. Eləcə də Şuşa mağarası bu proseslərə şahid olmuşdur. Karst təzahürlərinin heyranedici silsiləsidir. Karst topoqrafiyası üçün əsas yerdir və karst topoqrafiyasının yaxşı qorunmuş nümunələrini də ortaya qoyur.

Həmçinin Şuşa ətrafındakı qədim yaşayış məskənləri, o cümlədən Cıdır düzündəki məşhur Şuşa mağarası bu yerlərin Azərbaycanın ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir.

Şuşa mağarası bəşər sivilizasiyasının mənşəyinin 200-250 ildən çox əvvəl yoxa çıxmış qədim mərhələsinə görkəmli və bənzərsiz şahidlik edir. Alt Paleolit dövrünün, sonra gələn dövrlərin mükəmməl bədii, simvolik və mənəvi ifadəsinə nail olduqları dövr idi. Bu mağara-qala ağır vaxtlarda Şuşa sakinləri və xanın ailəsi üçün ən etibarlı sığınacaq olmuşdu. Bu sığınacaq onun üzərində ucaldılmış Şuşa qalası ilə əlaqəli idi. Mağaranı aşağıdakı meyarlara malik olmasını görürük:

- Meyar (III) - Paleolit, Eneolit, Tunc və dəmir dövrünün mərhələlərinə şahidlik edir;

- Meyar (VII) - Şuşa mağarası gözəl mağara quruluşuna malikdir;

- Meyar (VIII) - Geoloji proseslərin şahidi olmuşdur.

ƏDƏBİYYAT

1. Xəlilli Fariz. Arxeoloji materiallar Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi. Bakı: Avropa, 2017, 178 səh.

2. Керимова-Коджаева Тамилла, Садыгова Ильхама, Алиев Идрис. Алескер Гаджи Алекперов: жизнь,творчество, судьба ученого. Баку: 2015, 576 стр.

3. Гасанов А.А., Джафаров А.Г. Доклады Академии Наук Азербайджанской СССР. ТОМ XXXII, № 1.1976, 91 стр.

4. Finds of the Khojaly-Gedebey Culture of the Late Bronze and early Iron Ages in Azerbaijan in European museums. Monograph (Azerbaijani with abstracts in English, Russian and German). 2015, Baku: Elm ve tehsil, 300 pp., ISBN 978-3-9811-675-4-2

5. UNESCO World Heritage Convension. World Heritage List. https://whc.unesco.org/en/list/.

"MƏN" KONSEPSİYASI PROBLEMİ VƏ ONUN FORMALAŞMASINDA VƏTƏNPƏRVƏRLİK HİSSİNİN ROLU

ПРОБЛЕМА КОНЦЕПЦИИ «Я» И РОЛЬ ПАТРИОТИЗМА В ЕГО ФОРМИРОВАНИИ

THE PROBLEM OF THE CONCEPT OF "I" AND THE ROLE OF PATRIOTISM IN ITS FORMATION

R.N.Qasımova

ADPU-nun ümumi psixologiya kafedrasının baş müəllimi

XÜLASƏ

Məqalədə "Mən" konsepsiyası problemi, psixoloqların bu məsələyə dair nəzəriyyələri öz əksini tapmışdır. Şəxsiyyətin mənlik şüurunun formalaşmasında mənəvi tərbiyənin, ali hisslərin, vətənpərvərlik hissinin rolu göstərilmişdir.

РЕЗЮМЕ

В статье отражена проблема концепта «Я» и теории психологов по этому вопросу. Показана роль нравственного воспитания, высших чувств, чувства патриотизма в формировании самосознания личности.

ABSTRACT

The problem of the concept of "I" and the theories of psychologists on this issue are reflected in the article. The role of moral education, higher feelings, sense of patriotism in the formation of self-consciousness of the individual is shown.

Açar sözlər: "Mən" konsepsiya, özünüdərk, adekvat, vətənpərvərlik

Ключевые слова: концепция «Я», самосознание, адекватность, патриотизм.

Keywords: "I" concept, self-awareness, adequate, patriotism

Şəxsiyyət, "Mən" konsepsiyası problemi bütün dövrlərdə olduğu kimi, müasir dövrümüzdə də aktuallıq kəsb edir.

"Mən" konsepsiyası problemi çox mühüm fəlsəfi və psixoloji problemlər sırasına daxil olub, müxtəlif məsələlərin öyrənilməsi ilə bağlıdır. Psixoloji ədəbiyyatda "Mən" konsepsiyası probleminə həsr olunmuş tədqiqatlarda müəlliflər müxtəlif anlayışlardan istifadə edirlər. Həmin anlayışlar "Mənlik şüuru", "Mən obrazı" anlayışları ilə yanaşı işlədilir.

Şəxsiyyət, onun daxili aləmi, mənlik şüuru mütəxəssisləri həmişə düşündürmüşdür. Hər bir fərdin "Mən" i fiziki hadisə olmayıb, sosial və psixi bir hadisədir.

Tədqiqatlar göstərir ki, şəxsiyyətin Mən - i bütün zamanlarda bu və ya digər səviyyədə öyrənilmiş, kifayət qədər həm nəzəri, həm də eksperimental nəticələr əldə edilmişdir.

Xarici ölkə psixologiyasında şəxsiyyət və onun mənlik şüuru haqda olan nəzəriyyələr öz müxtəlifliyi ilə fərqlidir.

Özünüdərketmə probleminə həsr olunmuş tədqiqatlar sırasında amerikan filosofu və psixoloqu U.Cems əhəmiyyətli mövqeyə malikdir. Cemsə görə, Mən, insanın öz bədəninin qavranmasından, öz daxili

aktivliyini hiss etməsindən ibarətdir. O, empirik Məni üç tərkib hissəyə bölür: maddi Mən, sosial Mən, Mənəvi Mən.

Cems öz bölgəsində Sosial Mənə daha çox diqqət yetirmiş və onun rolunu qiymətləndirmişdir.

Z. Feydin konsepsiyasında "Mən", şüur, mənlik şüuru eynimənalı hadisələr kimi verilir. Mənlik şüuru şüursuz həvəs və impulsların "xidmətində" olur və onun fəaliyyəti tamamilə bu sferanın mövcudluğu ilə müəyyənləşdirilir. Sosial mühit, cəmiyyətin fərdə tələbləri nə qədər dəyişərsə, daima şüurla və şüursuz sferanın qarşılıqlı əlaqəsində müəyyənləşən "fövqal Mən" də bir o qədər dəyişir. İngilis alimi R.Berns "Mən - konsepsiya" anlayışı altında şəxsiyyətin Özünüdərketməsi, mənlik şüuru problemini tədqiq etmişdir. O, "Mən - konsepsiyasının ierarxik strukturunda quruluşunu vermiş," Mən-konsepsiya" sının əsas tərkib hissələrini şərh etmişdir.

Mənlik şüurunu Y. S. Vıqotski, S. Y. Rubinşteyn, İ. S. Kon, B.B.Stolin, və b. tədqiq etmişlər. "Mən"-konsepsiya, özünüdərk, özünütərbiyə, özünüqiymətləndirmə ilə bağlı Azərbaycan psixoloqlarından Ə. S. Bayramovun, Ə. Ə. Əlizadənin, M. B. Vəliyevin, S. F. Şabanovun, G. B. Tağıyevanın və b. tədqiqatların göstərmək olar.

Tədqiqatlar göstərir ki, mənlik şüuru insanın özünü şəxsiyyət kimi tanıması və dərk etməsi prosesidir. Mənlik şüuru dedikdə, insanın özünün tələbat və qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münasibəti nəzərdə tutur.

Problemlə bağlı aparılan tədqiqat işlərində bu və ya digər dərəcədə mənlik şüuruna toxunulmuş, şəxsiyyətin formalaşmasında onun rolu yüksək qiymətləndirilmişdir.

Müasir dövrdə respublikamızda "Mən" konsepsiyası problemlərinin, "Mən" in xüsusiyyətlərinin araşdırılması xüsusi aktuallıq kəsb edir. "Mən" i tədqiqat etmək, şəxsiyyətin təşəkkülünün əsas istiqamətlərini və onlarda nə kimi inteqral mənəvi-psixoloji keyfiyyətlərin formalaşması imkanlarını, mexanizmlərini müəyyənləşdirməyə imkan verir.

İnsanın özünüdərketməsinin, özünüqiymətləndirməsinin genezisini, müəyyənləşdirmək, onun formalarını, səviyyələrini, əsas istiqamətlərini təyin etmək fərdin bir şəxsiyyət kimi formalaşmasını, hansı inteqral şəxsi keyfiyyətlərə malik olacağını təyin etmək üçün çox böyük əhəmiyyət kəsb edir.

“Mən”in düzgün formalaşdırılması böyüməkdə olan gənc nəslin düzgün tərbiyəsi ilə sıx əlaqəlidir. Bu problem bütün dövrlərdə daim diqqət mərkəzində olmuşdur və bu məsələ eyni zamanda milli xüsusiyyətlərlə də sıx bağlıdır.

Şəxsiyyətin formalaşmasında hər bir xalqın özünəməxsus xüsusiyyətləri, adət və ənənələri başlıca rol oynamışdır.

Şəxsiyyətin formalaşdırılması, “Mən”inin düzgün tərbiyəsi psixoloqlar və filosofların, pedaqoq və sosioloqların diqqətini cəlb etmiş, onların tədqiqat obyektinə çevrilmişdir. Ümumiyyətlə, psixoloqların fikrincə, şəxsiyyətin mənəvi cəhətdən düzgün formalaşdırılması bütövlükdə cəmiyyətin düzgün inkişaf etdirilməsi deməkdir.

Şagird şəxsiyyətinin, yeniyetmə və gənclərin formalaşmasında, mənlik şüurunun adekvat inkişaf etdirilməsində bir çox amillər, eyni zamanda milli xüsusiyyətlər, ailə tərbiyəsi, mənəvi tərbiyə mühüm rola malikdir.

Ali hissləri tərbiyə etmək, Vətəni sevmək, vətənpərvərlik hissinin şagirdlərə, ümumiyyətlə yetişməkdə olan gənc nəslə aşılamaq öhdəmizə düşən ən mühüm məsələlərdən biridir. Məhz şəxsiyyətin formalaşmasında, mənlik şüurunun adekvat inkişaf etdirilməsində vətənpərvərlik hissinin rolu böyükdür.

Vətənpərvərlik bir fərdin ölkəsinə qoyduğu sevgi və bağlılığıdır. Bu anlayış tarixin müəyyən dönəmlərində fərqli mənalarda işlədilir və mənası dövrün şərtlərinə, coğrafiya və cəmiyyətlərinə fəlsəfəsindən olduqca asılıdır, Azərbaycan dövlətinin müasirləşməsi, vətəndaşlıq, konstitusiya kimi müasir siyasi anlayışların gündəmə gəlməsilə, vətənpərvərlik müxtəlif cərəy1anların içərisində özünü göstərdi. Orta əsrlərdə Azərbaycanda yaşamış şairlərin ədəbi yaradıcılıqlarında da vətənpərvərlik anlayışına rast gəlmək mümkündür.

Doğma yurdumuz Azərbaycan bizim ana vətənimizdir. Əcdadlarımızdan əmanət olan bu Vətəni qorumaq hər bir vətəndaşın borcudur. Vətəni qorumaq üçün onu sevmək, vətənpərvər olmaq lazımdır.

Vətənpərvərlik ən dərin, ən müqəddəs, ən ülvi hisslərdən biridir. Hər bir insanın qiyməti onun Vətənə, millətə xidməti ilə, əsl insanlıq ləyaqəti isə vətənpərvərlik hissi ilə ölçülür. Vətənpərvərlik tərbiyəsi ailədə başlayıb, bağçada, məktəbdə davam etməli, cəmiyyətdə formalaşmalıdır.

Hörmətli prezidentimiz İlham Əliyev demişdir: "Mən istəyirəm ki, gənclərimiz vətənpərvər, peşəkar, bilikli, savadlı olsunlar, Vətən sevgisi ilə böyüsünlər".

Şagird şəxsiyyətini, gənc nəsli düzgün yetişdirmək, "Vətən" və "Vətənpərvərlik" kimi müqəddəs anlayışların mənasını onlara aşılamaq ən mühüm məsələlərdən biridir.

Vətəni sevmək Tomris mərdliyini, Cavanşir yenilməzliyini, Dədə Qorqud hikmətini, Nizami poeziyasını, Tusi elmini, Füzuli kədərini, Koroğlu cəngisini, Xətai qılıncını, qələmini, Babək cəsarətini, Nəsimi qətiyyətini, Üzeyir musiqisini, Səməd Vurğun şeiriyyətini sevmək deməkdir.

Vətən hər birimizin müqəddəs səcdəgahı, pənah yeridir. Ən böyük qəhrəmanlıqlar da məhz Vətən naminə edilir. Görkəmli şəxsiyyətlər, qorxmaz sərkərdələr, cəsur igidlərin çiynində yüksəlib bu Vətən! Vətənpərvər, Vətənini, yurdunu sevən, dövlət atributlarına hörmətlə yanaşan, onu qoruyan, hər vaxt üçrəngli bayrağını uca tutan cəsur oğullar millətin qürur mənbəyidir.

Müasir dövrümüzdə özünü dərk edən, bir şəxsiyyət kimi düzgün formalaşan, vətənpərvərlik hissi, Vətən sevgisi olan hər bir Azərbaycan vətəndaşı ölkəmizin suverenliyi, bütövlüyü uğrunda ayağa qalxaraq, bir yumruq olaraq birləşdilər. Doğma Vətənimizin səfalı guşəsi olan Qarabağımızı yadelli işğalçılardan təmizlədilər, qəhrəmanlıq salnaməsini tarixə qızıl hərflərlə yazdılar.

Beləliklə, insanın şəxsiyyət kimi düzgün formalaşmasına, onun mənlik şüurunun adekvat inkişaf etdirilməsinə təsir edən amillərdən ən əsası, ön planda olanı valideyn, müəllim və həmçinin ətraf mühitin təsirinin həlledici olması, məktəblilərin şəxsi keyfiyyətləri, iradi-emosional sferası və xarakteri ilə yanaşı özlərinin təlim fəaliyyətinə münasibətinin və ali hisslərin, vətənpərvərlik hissinin yüksək səviyyədə inkişaf etdirilməsidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri, Bakı, 1998.
2. Bayramov Ə.S. "Etnik psixologiya", Bakı, 2001.
3. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması.
4. U.Cems. Psixologiya (Pod red. J.AP.Petrovskiy), M.Pedaqogika, 1991.
5. Бернс Р., Развитие Я- концепции и воспитании. Пер.с. анг. М., 1986.
6. https://az.m.wikipedia.org/wiki/V%C9%99t%C9%99np%C9%99rv%C9%99rlik

AZƏRBAYCANIN İSTEDADLAR MƏRKƏZİ - ŞUŞA ŞƏHƏRİ

ШУША- КОЛЫБЕЛЬ ТАЛАНТОВ АЗЕРБАЙДЖАНА

SHUSHA IS THE CRADLE OF TALENTS OF AZERBAIJAN

Dr. Prof. Kübra Əliyeva

Əməkdar incəsənət xadimi AMEA-nın Memarlıq və İncəsənət İnstitutu

"Qafqaz Albaniyasının Memarlıq və İncəsənəti" şöbəsinin rəhbəri

Zeynalova Aygün

AMEA-nın Memarlıq və İncəsənət İnstitutu, "Qafqaz Albaniyasının Memarlıq və İncəsənəti" şöbəsinin şöbənin kiçik elmi işçisi

Açar sözlər: Şuşa, Mir Mövsüm Nəvvab, miniatür, divar rəsmləri, kitab tərtibatı, "Üsuli Cədid", "Məclisi Üns"

Məqalə ensklopedik biliyə malik, bütün elmlərdən xəbərdar olan şair, rəssam, musiqişünas, xəttat, Şuşalı Mir Mövsüm Nəvvabın bədii yaradıcılığına həsr edilir.

Mir mövsüm Nəvvab öz dövrünün hər tərəfli inkişaf etmiş şəxsi olmuşdur. Onun dəqiq anadan olma günü məlum deyildir. Oğlu Miriş Ağadan alınan məlumata görə Nəvvab 1829-cu ildə (1. səh.102), bəzi mənbələrdə isə 1933-cü ildə(2.Səh.1). Şuşada anadan olduğu haqqında məlumatlar vardır. O, 1918-ci ildə rəhmətə getmiş və Cıdır dəfn edilmişdir.

Mir Mövsüm Nəvvab 1829-cü ildə Şuşada Hacı Seyid Əhmədin ailəsində anadan olduğunu əsas götürsək bu il onun 193, gələn il isə 194 yaşı olur. Əgər hesablasaq o, 1933- cü ildə anadan olub, bu il onun 189 yaşı, gələn il isə 190 illik yubleyi olur. Mir M,M Nəvvab ilk təhsilini Şuşada Ruhani məktəbində almış, ərəb, fars, türk dillərini mükəmməl öyrənmiş. Sonra Abbas Sarıcəllinin mədrəsəsində oxuyaraq, riyaziyyat, astronomiya, kimya elmlərinə dərindən yiyələnmişdir.

Şəxsən rus dilini də özü öyrənərək, bu dili gözəl bilirmiş. Azərbaycan mədəniyyəti, Azərbaycan musiqisi və rəssamlığı sahəsində əvəssiz əsərlərin müəllifidir. Şuşada uşaqların gənclərin təhsilinə xüsusi əhəmiyyət verən Mir Mövsüm Nəvvab "Üsuli Cədid" adlı məktəblər açmış, kitabxana və qiraətxanalar da təşkil etmişdir. Onun özünün kiçik mətbəəsi var idiki, Şuşada yaşayan şairlərin şeirləri çap edilirdi. O zaman Şuşadan başqa Azərbaycanın heç bir şəhərində mətbəə yox idi. Əvvəlki məktəblərdən fərqli olaraq Nəvvabın açdığı "Üsulu cədid" məktəblərində ədəbiyyat, tarix, coğrafiya kimi fənlər keçirilirdi. Mir Mövsüm Nəvvabın yaratdığı "Məclisi Fəramüşan", yəni "unudulmuşların məclisi" və "musiqiçilər məclisləri" yalnız Şuşada deyil bütün Azərbaycanın mədəni inkişafında əsaslı rol oynamışdır. "Məclisi fəraminüşan" məclisində Abdulla Bəy Asi, Fatma xanım, Məşədi Əyyub Baki, Həsənəli Xan Qarabaği, Abdulla Həsən Şahid, Mirzə Xosrov adlı şairlər var idiki, onlar daim 1872-ci ildə Şuşada yaranmış Xurşudbanu Natavanın "Məclisi Üns" ədəbi məclisinin üzvləri ilə şeir vasitəsi ilə deyişirmişlər.

Mir Mövsüm Nəvvab bir rəssam kimidə Azərbaycan incəsənətində mühüm rol oynamışdır. Mir Mövsüm Nəvvabın yüksək bədii zövqü var idi. O əsasən kitab və əlyazma qrafikası ilə məşğul olub, onların bədii tərtibatı üzərində işləyirmiş, Onun yaradıcılığında naxış və ornamentlər əsas yer tutur. Vaxtı ilə Mir Mövsüm Nəvvab Şuşada işlətiyi məktəbin, mədrəsənin, şəxsi evinin divarlarını, Şuşada olan iki məscidin minarələrini naxışlarını işləmişdir. Hətta Nəvvab iş otağının da naxışlarını özü vurmuşdur. Şuşada bu miralərdəki naxışlar Şuşanın digər minarələrindəki naxışlardan həm forma, bədii tərtibatına görə seçilir. Minarənin naxışlarından əlavə O, özünün iş otağı olan otağın naxışlarını da özü vurmuşdur. Şuşada yuxarı Məscidin həyətində ikinci mərtəbədə olan hər iki pəncərənin açası gözəl güllərlə dolu idi. Otağın nəqqaşlığını da Nəvvab özü işləmişdir. Nəvvabın "quşlar", "güllər", "Teymurun portreti" və digər əsərləridə məşhurdur. Bu əsəsrlərdə rəssamın dərin müşahidə qabiliyyəti özünü göstərmişdir. Nəvvab "Bəhrül-həzan" (1864—65) kitabına da illustrasiyalar çəkmişdir. Burdakı

beş miniatürdə o, müxtəlif döyüş səhnələri əks etdirmişdir ki, bədii cəhətdən rəng çalarlarına görə bu miniatürlər klassik minüatürlərdən daha çox Şəki Xan sarayının frizlərini xatırladır.(3-səh7). Nəvvab hələ gənc yaşlarından bədii tərtibat sənətinə və kitabların illustrasiyasına xüsusi ilə alüdə olmuşdur. 1850-ci illərdə o, Firdovsinin "Şahnamə" əsərinə çəkilən, litoqrafik illustrasiyalar üzərində işləmiş, onların daha əlvan, baxımlı, emosional olmasına cəhd etmişdir.

Nəvvab 326 səhifədən ibarət lakla üzlənmiş iki əsərə yəni, "Atəş dənizi", "əzabların fondu" şeirlərinə bədii tərtibat vermişdir ki, bu əsərlərdə yeddi giriş və üç miniatür işlənmişdir. Bu əsərlərdə mürəkkəb ornamentlər, gül, bülbül, buta rəsmləri yumurta boyaları ilə işlənmişdir ki, bu əsərlər vaxtı ilə Şuşada Mir Mövsüm Nəvvabın ev muzeyində divarları bəzəmişdir.

РЕЗЮМЕ

Ключевые слова: Шуша, Мир Мовсум Навваб, миниатюра, настенная живопись, оформление книг, «Усул-е-Джадид», «Меджлис-е-Унс».

Статья посвящается творчеству выдающегося шушинца- Мир Мовсума Навваба- человека энциклопедических знаний, поэта, художника, музыковеда, каллиграфа.

Мир Мовсум Навваб был одним из образованнейших людей, разносторонних личностей своего времени. Точная дата его рождения неизвестна. По сведениям, полученным от его сына Миришаги, Навваб родился в Шуше в семье Хаджи Сеида Ахмада в 1829 г.(**1,с. 102**), согласно другим источникам в 1833 г. (**2,с.1**). Мир Мовсум Навваб умер в 1918 году и был похоронен на Джыдыр дюзю.

Начальное образование Мир Мовсум Навваб получил в Духовном училище в Шуше, где в совершенстве выучил арабский, персидский и турецкий языки. Затем Мир Мовсум Навваб учился в медресе Сариджалли где изучал математику, астрономию и химию. Известно, также что Мир Мовсум Навваб хорошо владел русским языком, который выучил самостоятельно.

Мир Мовсум Навваб является автором серьезных работ в области азербайджанской культуры, азербайджанской музыки и изобразительного искусства. Мир Мовсум Навваб, уделявший особое внимание образованию детей и молодежи Шуши, открыл в Шуше школу под названием «Усули Джадид», также организовал библиотеки и читальни. У Мир Мовсума Навваба также была своя небольшая типография, где печатались стихи шушинских поэтов. (Отметим, что в то время ни в одном городе Азербайджана, кроме Шуши, типографии не было).

В отличие от прежних школ, в школах «Усули Джадид », открытых М.М. Наввабом, преподавались такие предметы, как литература, история и география. Созданные Миром Мовсумом Наввабом общества « Меджлиси Фарамушан» («Меджлис забытых») и «Меджлис музыкантов», сыграли неоценимую роль в культурном развитии не только Шуши, но и всего Азербайджана. В «Меджлиси Фараминушан» принимали участие поэты Абдулла бек Аси, Фатьма ханум, Мешади Айюб Баки, Гасанали хан Гарабаги, Абдулла Гасан Шахид, Мирза Хосров, которые вели поэтическую переписку с членами литературного общества «Меджлис-е-Унс», возглавляемого Хуршуд Бану Натаван.

Мир Мовсум Навваб сыграл важную роль в азербайджанском искусстве не только как поэт, но также как художник. Обладавший тонким художественным вкусом Мир Мовсум Навваб занимался в основном книжной и рукописной графикой, работая над художественным оформлением книг. Различные узоры и орнаменты также занимают видное место в творчестве Мир Мовсум Навваба.

В свое время Мир Мовсум Навваб работал над орнаментом, украшавшем стены школы, медресе, а также своего дома, принимал участие в художественном оформлении минаретов двух мечетей в Шуше. Узоры этих минаретов отличаются от узоров на других минаретах Шуши как по форме, так и по художественному стилю. Помимо узоров на минаретах, Мир Мовсум Навваб лично декорировал свою рабочую комнату. Нижняя часть обоих окон второго этажа во дворе верхней мечети в Шуше была усыпаны прекрасными цветами. Роспись помещения также

выполнена самим Наввабом. Мир Мовсум Навваб известен своими произведениями «Птицы», «Цветы», «Портрет Теймура» и другими работами, в которых проявилась глубокая наблюдательность художника.

Мир Мовсум Навваб является автором иллюстраций к книге «Бахр-уль-Хазан» (1864-65) В представленных здесь пяти миниатюрах художником изображены различные батальные сцены, которые по художественному колориту больше напоминают фризы ханского дворца в Шеки, чем классические миниатюры (**3,с.7**). Искусством оформления и иллюстрирования книг Навваб начал интересоваться еще в ранней юности. В 1850-х годах Навваб работал над литографическими иллюстрациями к «Шахнаме» Фирдовси, стремясь сделать их более красочными, привлекательными и эмоционально наполненными.

Кроме того, Наввабу принадлежит художественное оформление произведений - стихотворений «Море огня» и « Источник страданий». К этим книгам покрытым лакои и состоящим из 326 страниц были разработаны семь вступлений и нарисованы три миниатюры. В этих работах, красками темпера изображены различные затейливые виды орнамента, цветы, соловьи, картины бута, которые в свое время украшали стены дома-музея Мир Мовсума Навваба в Шуше.

ABSTRACT

Keywords: Shusha, Mir Movsum Navvab, miniature, wall painting, book design, "Usul-e-Jadid", "Majlis-e-Uns".

The article is dedicated to the work of the outstanding Shusha resident - Mir Movsum Navvab - a man of encyclopedic knowledge, poet, artist, musicologist, calligrapher.

Mir Movsum Navvab was one of the most educated, many-sided developed persons of his time. The exact date of his birth is unknown. According to information received from his son Mirish-aga, Navvab was born in Shusha in the family of Haji Seyid Ahmad in 1829 (1, p. 102), according to other sources in 1833 (2, p. 1). Mir Movsum Navvab died in 1918 and was buried at Djidir Duzu.

Mir Movsum Navvab got his primary education at the Theological School in Shusha, where he perfectly learned Arabic, Persian and Turkish. Then Mir Movsum Navvab studied at the Sarijalli Madrasah where he studied mathematics, astronomy and chemistry. It is also known that Mir Movsum Navvab was fluent in Russian, which he learned on his own.

Mir Movsum Navvab is the author of serious works in the sphere of Azerbaijani culture, Azerbaijani music and fine arts. Mir Movsum Navvab, who paid special attention to the education of children and youth in Shushi, opened a school in Shusha called "Usuli Jadid", and also organized libraries and reading rooms. Mir Movsum Navvab also had his own small printing house, where works by Shusha poets were printed. (It should be noted that at that time there was no printing house in any city of Azerbaijan, except for Shusha).

In differ from the previous schools, in the “Usuli Jadid” schools opened by M.M. Navvab subjects such as literature, history and geography were taught. The societies “Mejlisi Faramushan” (“Mejlis of the Forgotten”) and “Mejlis of Musicians” created by Mir Movsum Navvab played an invaluable role in the cultural development both of Shusha and the whole of Azerbaijan.

Poets Abdullah bey Asi, Fatma khanum, Mashadi Ayyub Baki, Hasanali khan Garabagi, Abdullah Hasan Shahid, Mirza Khosrov took part in the "Majlisi Faraminushan" and carried on poetic correspondence with members of the literary society "Majlis-e-Uns", headed by Khurshud Banu Natavan.

Mir Movsum Navvab played an important role in Azerbaijani art not only as a poet, but also as an artist, painter. Mir Movsum Navvab, who had a delicate artistic taste, was mainly engaged in book and manuscript graphics, working on the decoration of books. Various patterns and ornaments also have prominent position in the creativity of Mir Movsum Navvab.

At one time, Mir Movsum Navvab worked on the ornament that adorned the walls of the school, madrasah, as well as his house, took part in the decoration of the minarets of two mosques in Shusha. The patterns of these minarets differ from the patterns on other minarets of Shushi both in form and artistic style.

In addition to the patterns on the minarets, Mir Movsum Navvab personally decorated his workroom. The lower part of both windows of the second floor in the courtyard of the upper mosque in Shusha was filled with beautiful flowers. The room was also painted by Navvab himself. Mir Movsum Navvab is known for his pictures "Birds", "Flowers", "Portrait of Teymur" and other works, which confirm the deep observation of the artist.

Mir Movsum Navvab is the author of illustrations for the book "Bahr-ul-Khazan" (1864-65) In the five miniatures presented here, the artist depicts various battle scenes, which in terms of artistic coloring are more reminiscent of the friezes of the Khan's palace in Sheki than classical miniatures (3, p. .7).

Navvab began to be interested in the art of designing and illustrating books at an early age. In the 1850s, Navvab worked on lithographic illustrations for “Shahnameh” by Firdousi , striving to make them more colorful, attractive and emotionally filled. In addition, Navvab owns the decoration of works - poems "Sea of Fire" and "Source of Suffering". For these books covered with lacquer and consisting of 326 pages, seven introductions were written and three miniatures were drawn. In these works, various unusual types of ornaments, flowers, nightingales, “buta” paintings, which at one time adorned the walls of the house-museum of Mir Movsum Navvab in Shusha, are depicted with tempera paints.

Məqalə ensklopedik biliyə malik, bütün elmlərdən xəbərdar olan şair, rəssam, musiqişünas, xəttat, Şuşalı Mir Mövsüm Nəvvabın bədii yaradıcılığına həsr edilir.

Şuşanın bir yaşayış məntəqəsi kimi yarandığı ilkin dövr haqqında demək olar ki, məlumat yox dərəcəsindədir. Sadəcə tarixçilərin fikrinə görə XVIII əsrdə Pənahəli xan tərəfindən yaradılan Şuşa şəhəri Monqollar tərəfindən dağıdılmış, köhnə Şuşa şəhərinin yerində tikilmişdir[1] (səh 73). Yarandığı gündən başlayaraq Şuşanın şəhər kimi memarlıq planı yəni tək şərq yox Avropa şəhərlərinin memarlıq planları əsasında qurulmuşdur. Şəhərin mərkəzində hündür bir sahədə Mərkəzi meydan yerləşirdi. Məlum olduğu kimi Avropa ölkələrində bu meydanda kilsə və birdə baxış üçün hündür bir qüllə yerləşdirilir və küçələr qarpız kəsiyi kimi bu meydandan başlayır. Şuşa mənim uşaqlıq dövrümdə məhs belə bir şəhər kimi yadımda qalmışdır (2.səh 3-7).

---

[1].Фуад Алиев . Доктор Исторических наук. Профессор. «Карабахская ханство XVIII века» . В. Сб.

Карабах. Баку: Издателство, «Чашыоглу» 2004. 218 с. илл. С. 71-84

Meydanda tətqiqatçıların fikrinə görə 879 usta emalatxanası, 2000 tükan, qonaqların gəlib yerləşməsi üçün bir-birindən daha gözəl və rahat karvansaralar, bazar və bulaq-avdan yerləşirdi. Ümumi şəhərin görünüşünü daha da gözəlləşdirən mərkəzi parklarda, məhs meydanda yerləşirdi. Başdan əyağa daş döşəmə ilə döşənmiş və ilk yaranan məşhur küçələr də daxil olmaqla geniş, rahat on yeddi küçədən aşağıya doğru hərəkət edən yollar salınmışdı. Hər on yeddi məhəllədə şəhərin Qarabağın zəngin insanların rahat və gözəlliyi ilə seçilən daşdan tikilən evlərindən ibarət idi. Şəbəkəli rəngli şüşələrlə bəzədilmiş, asma qapılı küçəyə baxan kiçik balkon, islam memarlıq üslubunu özündə əks etdirən qapalı, bağ-bağçalı, güllü-çiçəkli böyük həyətlər, hər küçədə yaşayan insanlar üçün məscid, hamam və bulaqlar var idi. Təsəvvürünüzə gətirə bilərsiniz ki, bu şəhərdə 2 minə yaxın bina var imiş. On min insan yaşayırmış. XIX əsrin sonu XX əsrin əvvələrində evlərin sayı artmış 2983-ə çatmışdır. Ümumiyyətlə 52 küçə, 116 döngə var idi. Bu şəhər XIX-XX əsrin əvəllərində xanlıqlar dövrünün sonuna doğru da öz əhəmiyyətinin itirməmiş kurort şəhəri rolunu da oynamışdır. Şuşa əsasən burada yaşayan insanların zənginliyi ilə bərabər, ziyalılığı ilə seçilirdi. Şəhərdə 95 şair, 22 musiqişünas, 38 xanəndə, 26 rəssam,

16 memar, 16 həkim və 40 a yaxın müəllim var idi. Şuşanı yarandığı gündən bütün xanlıqlardan fərqləndirən, burada olan təhsil ocaqları, məktəblər idi (3.).

Məqalədə əsasən Şuşada doğulub ən gözəl təhsil almlş, 4 dil bilən musiqişünas, rəssam, şair Mir Mövsüm Nəvvab haqqında məlumat verəciyik.

Mir Mövsüm Nəvvab

Mir Mövsüm Nəvvabın Cıdır düzündəki qəbr üstü abidəsi.

Mir Mövsüm Nəvvab 1833-cü ildə Şuşada Hacı Seyid Əhmədin ailəsində anadan olmuşdur. Mir M, Nəvvab ilk təhsilini Şuşada Ruhani məktəbində almış, ərəb, fars, türk dillərini mükəmməl öyrənmiş. Sonra Abbas Sarıcəllinin mədrəsəsində oxuyaraq, riyaziyyat, astronomiya, kimya elmlərinə dərindən yiyələnmişdir. Şəxsən rus dilini də özü öyrənərək, bu dili gözəl bilirmiş. O, Azərbaycan mədəniyyəti, Azərbaycan musiqisi və rəssamlığı sahəsində əvəssiz əsərlərin müəllifidir. Həyatı boyu çoxşaxəli fəailiyyətlə məşğul olan, M.M.Nəvvabın elmi fikirləri və araşdırmaları 20-dən artıq əsərlərdə öz əksini tapmışdır. Onun yaratdığı "Məclisi Fəramüşan", yəni "unudulmuşların məclisi" və "musiqiçilər məclisləri" yalnız Şuşada deyil, bütüb Azərbaycanın mədəni inkişafında əsaslı rol oynamışdır. Şuşada

uşaqların gənclərin təhsilinə xüsusi əhəmiyyət verən Mir Mövsüm Nəvvab "Üsuli Cədid" adlı məktəblər açmış, kitabxana, qiraətxanalar da təşkil etmişdir. Onun özünün kiçik mətbəəsi var idiki, burada Şuşada yaşayan şairlərin şeirləri çap edilirdi. O zaman Şuşadan başqa Azərbaycanın heç bir şəhərində mətbəə yox idi. Əvvəlki məktəblərdən fərqli olaraq Nəvvabın açdığı "Üsulu cədid" məktəblərində ədəbiyyat, tarix, coğrafiya kimi fənlər keçirilirdi. Məşhur musiqi, teatr xadimi C.Bağırbəyovanın xatirələrindən məlum olur ki, Nəvvab Molla məktəbində oxuduğu illərdə novruz bayramına üç-dört gün qalmış, kənarları şeirlə yazılmış kətə rəsmləri çəkərmiş və onu daş çapında hazırlayıb, Şuşanın bütün məktəblərinə paylayırmış. Mir Mövsüm Nəvvabın yartdığı "Məclisi fəraminüşan" Abdulla Bəy Asi, Fatma xanım, Məşədi Əyyub Baki, Həsənəli Xan Qarabaği, Abdulla Həsən Şahid, Mirzə Xosrov adlı şairlər var idiki, onlar daim 1872-ci ildə Şuşada yaranmış Xurşudbanu Natavanın "Məclisi Üns" ədəbi məclisinin üzvləri ilə şeir vasitəsi ilə deyişirmişlər.

Mir Mövsüm Nəvvab Qarabağın yüzə qədər şair və onların şeirləri barədə məlumat verən "Təskireyi-nəvvab" adlı antalogiyasının yaradıcısıdır. Bu antalogiyada Vaqif, Vidadi, Xurşudbanu Natavan, Zakir və onun müəllimi olan Abbas Sarıcəllinin şeirləri haqqında məlumat yerləşdirilmişdir. Mir Mövsüm Nəvvabın yüksək bədii zövqü var idi. O, kitabların bədii tərtibatında, şəxsi evində, işlədiyi məktəbin, mədrəsənin, divarlarında, Şuşanın böyük məscidinin iki minarəsinin bədii tərtibatını vermişdir.

Mir Mövsüm Nəvvab bir rəssam kimi də Azərbaycan incəsənətində mühüm rol oynamışdır. Mir Mövsüm Nəvvabın yüksək bədii zövqü var idi. O əsasən kitab və əlyazma qrafikası ilə məşğul olub, onların bədii tərtibatı üzərində işləyirmiş, Onun yaradıcılığında naxış və ornamentlər əsas yer tutur. Vaxtı ilə Mir Mövsüm Nəvvab Şuşada işlətiyi məktəbin, mədrəsənin, şəxsi evinin divarlarını, Şuşada olan iki məscidin minarələrinin naxışlarını işləmişdir. Hətta Nəvvab iş otağının da naxışlarını özü vurmuşdur. Şuşada bu minaralərdəki naxışlar Şuşanın digər minarələrindəki naxışlardan həm forma, bədii tərtibatına görə seçilir. Minarənin naxışlarından əlavə O, özünün iş otağı olan otağın naxışlarını da özü vurmuşdur. Şuşada yuxarı Məscidin həyətində ikinci mərtəbədə olan hər iki pəncərənin aşağısı gözəl güllərlə dolu idi. Otağın nəqqaşlığını da Nəvvab özü işləmişdir. Nəvvabın "quşlar", "güllər", "Teymurun portreti" və digər əsərləridə məşhurdur. Bu əsəsrlərdə rəssamın dərin müşahidə qabiliyyəti özünü göstərmişdir. Nəvvab "Bəhrül-həzan" (1864—65) kitabına da illustrasiyalar çəkmişdir. Burdakı beş miniatürdə o, müxtəlif döyüş səhnələri əks etdirmişdir ki, bədii cəhətdən rəng çalarlarına görə bu miniatürlər klassik minüatürlərdən daha çox Şəki Xan sarayının frizlərini xatırladır.(4-səh.52-54). Nəvvab hələ gənc yaşlarından bədii tərtibat sənətinə və kitabların illustrasiyasına xüsusi ilə alüdə olmuşdur. 1850-ci illərdə o, Firdovsinin "Şahnamə" əsərinə çəkilən, litoqrafik illustrasiyalar üzərində işləmiş, onların daha əlvan, baxımlı, emosional olmasına cəhd etmişdir.

Mir Mövsüm Nəvvab. "Güllər". Yumurta boyası. Azərbaycan Milli İncəsənət Muzeyi

Nəvvab 326 səhifədən ibarət lakla üzlənmiş iki əsərə yəni, "Atəş dənizi", "əzabların fondu" şeirlərinə bədii tərtibat vermişdir ki, bu əsərlərdə yeddi giriş və üç miniatür işlənmişdir. Bu əsərlərdə mürəkkəb ornamentlər, gül, bülbül, buta rəsmləri yumurta boyaları ilə işlənmişdir ki, bu əsərlər vaxtı ilə Şuşada Mir Mövsüm Nəvvabın ev muzeyində divarları bəzəmişdir.

Mir Mövsüm Nəvvab. Divar boyakarlığı

Nəvvab çəkdiyi rəmlərdə, əvvəl onun gəzmə xətlərini çəkirdi, sonra isə, onu rəngləyirdi. XIX əsrdə monumental rəngkarlıqla və bədii kitab qrafikası ilə məşqul olan, digər Azərbaycan rəsamlarından fərqli olaraq Mir Mövsüm Nəvvab yaratdığı əsərlərdə öz adını yazıb, imzasını çəkib və tarixini də qeyd edirdi. Nəvvabın öz imzasını qoyduğu əsərlərin əksəriyyəti XIX əsrin 70-80- cı illərinə aitdir. Təkcə çəkdiyi "Teymurun portret" 1902- ci ilə aitdir. Ümumiyyətlə Mir Mövsüm Nəvvab rəngkarlıqla özünün ahıl yaşında məşğul olmağa başlamışdır. Bu baxımdan onun "Quşlar" və "Ağzında böcək tutumuş sağsağan" əsəri tam realstik üslubda olub, rəsmlərin canlılığı ilə gözə çarpır. Quşların rəng tərtibatını verərkən incə çəhrayı, tüstü rəngində keçən çox gözəl qara rəngdən istifadə etmişdir. Hətta budaqda

oturmuş quşların caynaxlarını perspektiv görünüşdə işləmişdir.

Mir Mövsüm Nəvvab "Ağzında böcək tutumuş sağsağan" yumurta boyası.

Azərbaycan Milli İncəsənət Muzeyi.

M. M. Nəvvabın divar rəsmləri də, digər rəssamların işlərindən seçilir. Ümumiyyətlə XVIII, XIX əsrlərdə Azərbaycan rəssamları divar rəsmlərini işləyərkən, divarı başdan əyağa doldururdular. Nəvvab isə onlardan fərqli olaraq divarı başdan əyağa xalça kimi gül rəsmləri ilə örtmürdü. O, bir növ panel kimi bir motivi götürüb, təkrar edərək rəngli kompozisiya yaradırdı. Məsələn Nəvvabın öz evində otaqların divarı həmin o budaqda oturan quşlar təkrar olunur. Bəzi hallarda o, gül budaqlarının ətrafını butalarla bəzəyirdi. Onun ikinci otağının divar rəsmləri süsən gülləri ilə bəzənmişdir. Lakin mərkəzi hissədə isə, kiçik qızıl gül dəstəsinin rəsmini çəkmişdir. Bu kompozisiyada tam açılmış süsən bir növ yelpiyi xatırladır.

Mir Mövsüm Nəvvab. Evinin divar rəsmlərindən bir hissə.Şuşa ev muzeyi.1886

(İ. M. Mikloşevskayanın məqaləsindən götürülmüşdür).

Nəvvab işə başlamazdan əvvəl mütləq usataları dəvət edirdiki, onlar divarı tam başdan əyağa gips ilə, tər-təmiz şüşə kimi işləsinlər. Sonra yumurta sarısına yapışqan əlavə edib, tam divarı güzgü kimi olana qədər işə başlamırdı. Rəngləri Nəvvab özü yumurta sarısından hazırlayırdı. Onun ən sevdiyi rənglər çəhrayı, qırmıza yaxın, yaşıl və onun dündü, sürməyi, sarı rənglər idi. Çox nadir hallarda o, narıncı və qara rəngdən istifadə edirdi. Beləliklə XIX əsr Rus realizm üslubu özünü, Mir Mövsüm Nəvvabın yaradıcılığına ciddi təsir etmişdir, lakin o, bu üslubu xalq sənətinin üslub xüsusiyyətləri ilə çox gözəl bağlaya bilmişdir. Onun miniatür rəsmlərinə gəlincə isə onların rəsmləri böyüdülüb, 35x45 smə çatdığı üçün, daha çox dəzgah rəsminə yaxın idi. O, miniatür rəsmlərində də yumurta boyası və akvareldən istifadə etmişdir. Lakin sonacan Mir Mövsüm Nəvvab realizm üslubunu davam etdirə bilməmiş, ondakı sadəlik onun şaquli formada əks etdirdiyi rəsmlərində özünü bariz göstərir (5. Səh 102)

Mir Mövsüm Nəvvab. “ Teymurun portreti” , suluboya.

Azərbaycan Milli İncəsənət muzeyi.

Akademik Rasim Əfəndiyev öz məqaləsində Mir Mövsüm Nəvvabın yaradıcılığına yekun vuraraq, qeyd edir ki, onun çəkdiyi rəsmlər Azərbaycan tarixinin təsviri incəsənətini öyrənmək üçün böyük əhəmiyyət daşıyır. Məlum olduğu kimi XIX əsrdə Mir Mövsüm Nəvvabın yaradıcılıq üslubu, klassik miniatür sənətinin şərti-dekorativ üslubundan, realistik üsluba keçiş dövrünün, bariz nümunəsi idi. (6. səh 174)

ƏDƏBİYYAT

1. Фуад Алиев . Доктор Исторических наук. Профессор. «Карабахское ханство XVIII века» . В. Сб. «Карабах». Очерки истории и культуры. Баку: Издателство, «Чашыоглу» 2004. 218 с. илл. 71-84стр.

2. Akademik Zemfira Səfərova. M.M Nəvvab. Vüzuhül-ərqam. Bakı: Elm, 1988. 84səh.

3. Bağdadbəyov C. Xatirələr. Azərb. SSR. EA-nın Memarlıq və incəsənət İnstitutunun arxivi, qovluq nömrə149, əlyazma.

4 . Kərim Kərimov. Mir Mövsüm Nəvvabın rəsmləri. Qobustan 1976. Nömrə 3, s 52-54

5 . И.М Миклашевская. Художники XIX века Мирза Кадым Еривани и Мир Мохсум Навваб. Azərbaycan İncəsənəti. IV cild. Azərbaycan SSR elmlər Akademiyasının nəşriyyatı Bakı-1954. C 102-108.

6. Академик Расим Ефендиев « Искусство Карабаха» в сб. Карабах . Очерки истории и культуры. Изд. Баку. “Çaşıoğlu”. 2004. 166-177 Стр.

QARS MÜQAVİLƏSİNİN MAHİYYƏTİ VƏ NAXÇIVAN: SOSİAL-İQTİSADİ YANAŞMA VƏ NƏTİCƏLƏR

ESSENCE OF THE KARS AGREEMENT AND NAKHCHIVAN: SOCIO-ECONOMIC APPROACH AND RESULTS

СУЩНОСТЬ КАРССКОГО СОГЛАШЕНИЯ И НАХЧЫВАН: СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЙ ПОДХОД И РЕЗУЛЬТАТЫ

Mehdi BAĞIROV

İqtisad üzrə elmlər doktoru

Naxçıvan Dövlət Universiteti

XÜLASƏ

Məqalədə ölkəmizin XX ərsin əvvəlindəki tarixininin mühüm hadisələrindən birini əhatə edən, Türkiyə Cümhuriyyətinin Qars vilayətində bağlanmış eyni adlı müqavilə əsas tədqiqat obyekti kimi seçilmişdir. İyirminci əsrin əvvəllərində rus çarizminin ideyalarına əsaslanan ermənilən aktivləşməsi Azərbaycancan torpaqlarına mütəmadi hücumlarla müşayət olunmuşdur. Nəticədə həmvətənlərimizin çoxsaylı fiziki məhvləri müşahidə olunuş, ölkəmizə qarşı ardıcıl ərazi iddiaları biri-birini əvəzləmişdir.

Yaranmış vəziyyət ölkəmizin himayəçisi olan Türkiyə Cümhuriyyətini hərəkətə keçirmişdir. Bu zaman Nuru paşanın, Kazım Karabəkir paşanın və digər hərbi heyətin rəhbərliyi ilə Türkiyə qoşunların ölkəmizə, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvana daxil olaraq yerli əhali ilə birlikdə erməni qəsbkarlarının ərazilərimizdən qovulmasını təmin etmişdir.

Yaranmış vəziyyətdən çıxış yolu kimi Qars Müqaviləsinin bağlanması baş tutur. Bu sənədin bağlanması tərəflərin hüquq və mənafelərini ifadə etməkdə idi ki, müvafiq sırada iqtisadi məsələlər də spesifik cəhətlərlə fərqlənməkdə idi.

Məqalədə tarixi Qars müqaviləsinə iqtisadi və sosial təməl olan hər bir maddəsinə fərdi yanaşma təmin olunmuşdur. Digər tərəfdən, mövcud olan iqtisadi situasiyanın sosial amillərə təsiri halında mümkün ola biləcək addımların atılması da nəzərdən keçirilməkdədir.

İşdə mühüm iqtisadi və sosial məsələlər sırasında əhalinin qeyri-tərəfin ərazisində sərbəst şəkildə yaşaması, hərəkəti, əmlakının qorunması, gömrük məsələləri, insanların özləri ilə yanaşı yanındakı əşyalarının sərbəst daşınmasının təmin edilməsi, insanlara qarşı tərəf ərazilərində maddi yardımlarının göstərilməsi və maliyyə resursları ilə təminatının yaxşılaşdırılması və digər məsələlər öz əksini tapmış-dır.

Araç sözler: Qars müqaviləsi, Naxçıvan regionu, Azərbaycan respublikası, sosial və iqtisadi yanaşmalar və aspektlər, müqavilənin iqtisadi şərtləri

РЕЗЮМЕ

В статье основным объектом исследования выбрано Карсское Соглашение, охватывающее одно из важных событий в истории страны начала двадцатого века и заключенное в одноименной провинции Турецского государства.

В начале двадцатого века активизация армян, основанная на колонистских идеях русского царизма, сопровождалось непекращяющимися нападениями на Азербайджанские земли. В итоге были наблюдены многочисленные физические уничтожения наших соотечественников, одно за другим было повзаимствованы последовательные территориальные претензии против нашей страны.

Сложившаяся ситуация привела в движение оборонителя нашей страны – Турецкое Государство. В это время Турецкие войска во главе Нуру пашой, Казым Карабекир пашой и другим руководящим персоналом прибыли на территории нашей страны, а также Нахчывана и вместе с местным населением обеспечило выгонение армянских захватчиков с наших территорий.

Путем выхода со сложившейся ситуации явилось заключение Карсского Сщглашения. Заключение этого документа повествовало о правах и интересах сторон-участников. В соответствующем строю экономические вопросы выделялись специфичными чертами.

В статье был применен индивидуальный подход к каждой статье Соглашения, обладающей экономическую и социальную базу. С другой же стороны, были рассмотрены проделывание возможных шагов, сложившиеся при влиянии экономической ситуации на социальные факторы. В работе в ряду социальных и экономических вопросов были показаны такие ситуации как, свободное проживание населения на территории сопредельного государства, его передвижение, охрана имущества, таможенные вопросы, обеспечение свободного перемещения вещей, находящихся при людях, оказание материальной помощи ляюдям в сопредельных территориях, улучшение обеспечения материальными ресурсами и другие взаимосязанные вопросы.

Ключевые слова: Карсское соглашение, Нахчыванский регион, Азербайджанская Республика, социальный и экономические подходы и аспекты, экономические условия соглашения.

ABSTRACT

In the article, the main object of research is the Kars Agreement, which covers one of the important events in the history of the country at the beginning of the twentieth century and was concluded in the province of the same name in the Turkish state.

At the beginning of the twentieth century, the activation of the Armenians, based on the colonist ideas of Russian tsarism, was accompanied by incessant attacks on the Azerbaijani lands. As a result, numerous physical destruction of our compatriots was observed, one after another was borrowed successive territorial claims against our country.

The current situation has set in motion the defender of our country - the Turkish State. At this time, Turkish troops led by Nuru Pasha, Kazym Karabekir Pasha and other leading personnel arrived in the territory of our country, as well as Nakhchivan, and together with the local population ensured the expulsion of the Armenian invaders from our territories.

The way out of the current situation was the conclusion of the Kars Agreement. The conclusion of this document told about the rights and interests of the parties involved. In the corresponding order, economic issues were distinguished by specific features. In the article, an individual approach was applied to each article of the Agreement, which has an economic and social basis. On the other hand, they considered the progress of possible steps that have developed under the influence of the economic situation on social factors.

In the work, in a number of social and economic issues, such situations were shown as, free residence of the population on the territory of a neighboring state, its movement, property protection, customs issues, ensuring the free movement of things that are with people, providing material assistance to people in neighboring countries. territories, improving the provision of material resources and other interrelated issues.

Key words: Kars agreement, Nakhchivan region, Azerbaijan Republic, social and economic approaches and aspects, economic conditions of the agreement.

GİRİŞ

Azərbaycan Respublikası özünün keçmə-keçli tarixində müxtəlif proses və situasiyaların formalaşması və bərqərar olmasına, məzmunundan asılı olaraq aradan qaldırılması yaxud inkişafına ev sahibliyi etmişdir. Bu sırada istər regional, istərsə də beynəlxalq müstəvidə özünün nəticələri, təsir və əks-təsirləri

ilə fərqlənən, perspektiv dövr üçün ölkəmizin taleyində əhəmiyyətli rol oynayan Qars Müqaviləsi özünəməxsusluğu ilə fərqlənməkdədir.

Əksər ərazi mübahisəli müqavilələr kimi, bəlli bölgü prinsiplərini gözləyən müvafiq müqavilə özünün iştirakçı tərəflərinin istək, tələb və öhdəliklərini ifadə etməkdədir. Xüsusi maraq obyekti olan Qars Müqaviləsi özünün birinci dərəcəli tərəfləri və onlara zamin duran ölkələrlə seçilməkdədir. Vahid üçlü İttifaqın iştirakçıları olan iki tərəf – Azərbaycan və Ermənistan arasında yanamış ərazi iddialı münaqişə növbəti dəfə ölkəmizin ərazilərinə mənfur qonşumuz tərəfindən iddialarl müşayət olunmaqda idi.

Məzmununda Naxçıvan və Zəngəzur ərazilərinin Azərbaycandan alınması duran və amalı Vətənimizə qarşı düşmənçilik olan erməni daşnakları tərəfindən həyata keçirilən istilaçı fəaliyyət 1918-1920-ci illərin sistemləşdirilmiş işqalçı hərəkətlərini baza kimi qəbul etmişdir. "Böyük Ermənistan" xülyasının yaradılması yolunda ərazi iddialarının növbəti mərhələsini təşkil edən müvafiq dövr öz arxasına "müttəfiq" olaraq Rusiya Federasiyasını alaraq, "güclüyəm - haqlıyam" prinsipini əldə rəhbər tutaraq iddialar "marafonunu" davam etdirmiş və XX əsrin əvvəllərində artıq ikinci münaqişənin (qarışıqlığın) yaranması üçün zəmin formalaşdırmışdır. [1]

Azərbaycan Xalq Cümhuriyyətinin bölşevik rus işğalçılarının təyziqinə tab gətirə bilməməsi və öz hakimiyyətinin süquta məruz qalmasını qəbul etməsi mübarizə "meydanında" vahid gücün RSFSR kimi müəyyənləşməsinə şərait yaratdı. Məhs bunun nəticəsi idi ki, ilkin zaman kəsiyində, daha dəqiq desək isə, 28 oktyabr 1920-ci il tarixdə Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında bağlanmış müqavilə ilə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur və Naxçıvan Ermənistana güzəşt edilmişdi. Lakin yaranmış şərait, xüsusilə də 1 dekabr 1920-ci ildə aktiv fəaliyyətə başlamış Azərbaycan İnqilab Komitəsinin bəyanatı Naxçıvan və Zəngəzur yaşayış məntəqələrində müsəlman əhalinin güclü narazılığına zəmin yaratmış, adı çəkilən ərazilərin ölkəmizdən zorakılıqla qoparılaraq "üzdəniraq ölkə-ciyə" verilməsinə etiraz mühitinin formalaşmasında mühüm rol oynamışdır. Yaranmış situasiyada yerli əhalinin güclu müqavimətinə rast gələn, həmçinin qonşu Türkiyə Cümhuriyyətinin ölkəmizə hərbi-siyasi dayaq duraraq onunla eyni cəbhədən çıxış etməsi o dövrdə Zəngəzurun vəziyyətində dəyişiklik yarada biləməsə də, ermənilər "Naxçıvan" iştahından əl çəkməyə vadar etmişdir. Kazım Qarabəkir paşanın silahlı qüvvələrlə birlikdə Naxçıvan ərazisinə gəlməsi bu regionda yerli əhalinin fiziki məhvinin səviyyəsini azaltdı və erməni işğalçıların region ərazisini tərk etməsini şərtləndirdi. [10]

Burada mənfi hallardan biri kimi irticaçı Rusiyanın Dağlıq Qarabağda erməni əhalisinə "özünü-təyinetmə" oyununun tanınması da yaddan çıxarılmamalıdır.

Mənfur qonşunun Naxçıvanı ilhaq etmə iddialarının davam etməsinə baxmayaraq, 1921-ci ilin yan-varında Naxçıvan regionu üzrə rəy sorğusu keçirilir, əhalisinin həmin dövrdə 90%-nin müsəlman olan Naxçıvanın Azərbaycan Respublikası ərazisində qalmasına qərar verilir. Qeyd olunmalıdır ki, müvafiq siyasi fəaliyyətdə həmin dövrün görkəmli xadimlərindən olan Behbud ağa Şaxtaxtinskinin rolu da danılmazdır.

QARS MÜQAVİLƏSİ SOSİAL VƏ İQTİSADİ ASPEKTLƏRDƏ.

Ölkəmizin XX əsr tarixində istər ümumilikdə, istərsə də fərdi maddələr şəklində Naxçıvan regionunun ölkə aidiyyatının qeyri-müəyyənliyinin aydınlaşdırılması baxımından Azərbaycan diplomatiyasının uğuru hesab olunan, 13 oktyabr 1921-ci il tarixdə imzalanan Qars Müqaviləsi digər istiqamətlərlə yanaşı sosial və iqtisadi təməllərin mövcudluğu ilə də fərqlənməkdədir. Bu baxımdan müqavilə şərtlərinə fərdi qaydada baxışın təmin edilməsi və bu əsasda spesifik düşüncələrin sərgilənməsi zəruridir. İyirmi mad-dənin və dörd əlavənin (dödüncü əlavə - müqavilə obyekti olan ərazinin xəritəsidir) yer tapdığı bu müqavilədə bəzi "boşluqlara" rast gəlinsə də, ümumilikdə ölkəmizin beynəlxalq müstəvidə öz regionlarını qorumasına hüquqi (və deməli, onu tamamlayan digər) imkandan istifadəni mümkün etməkdədir.

Qars müqaviləsinin bizim üçün real şəraitdə üstünlüklərindən hesab edilən müddətsiz olması onun müdafiə, siyasi, ərazi quruluşusu və digər aspektlərdən regiona, o cümlədən ölkəmizə əlavə müsbət şərtlərin azanılmasına səbəb olurdu. Digər tərəfdən, iştirakçı tərəflər Qars Müqaviləsinin 1922-ci ilin

mart-iyun aylarında öz parlamentlərində ratifikasiya etməklə onun hüquqi qüvvəsini bir daha təsdiqləmiş, onun maddələrinə aydınlıq gətirilməsinə köməklik göstərmişlər.

Düzdür, müqavilənin bağlanması və təsdiqlənməsindən sonra da 1929-1931-ci illərdə Ermənistan özünün heç bir beynəlxalq normalara sığmayan işğalçı siyasətini davam etdirərək muxtar respublikanın Şərur, Şahbuz və Ordubad rayonları ərazisindən ümumi ərazisi 657 km^2 olan daha 15-ə yaxın yaşayış məntəqəsini qəsb etmişdir ki, bu da "arxalı köpək qurt basar" prinsipi ilə əlaqələndirilməlidir və müqavilə şərtlərini pozan tərəflərin daxili xislətini bu gün də sərgiləməkdədir.

Üzərində 10 imzanın şahidlik etdiyi və 13 oktyabr 1921-ci il tarixinə təsadüf edən müvafiq müqavilənin ilk görüntüsü inzibati ərazilərin sahiblərinin dəqiqləşdirilməsi olsa da, sənəd çoxlu sayda sosial və iqtisadi məqamlar və izahatlarla müşayət olunmaqdadır.

İlk növbədə aşkar şəkildə bəyan olunur ki, iştirakçı sayı beş olsa da, faktiki olaraq onlar üç cəbhə üzrə birləşmişdir: Azərbaycan və onun qorunmasına zəmanət verən, himayəçi Türkiyə Cümhuriyyəti, Ermənistan və havadarı olan Rusiya İşğalçı Dövləti və müəyyən mənada bitərəf olub, özünün ərazilərini və bununla da müvafiq hüquqlarını qorumağa çalışan Gürcüstan (hərçənd ki, sonrakı dövrlərdə Ölkəmizin bir neçə bölgəsi də o dövrki, SSRİ "hökmdarı" İosif Vissarion oğlu Cuqaşvili tərəfindən Gürcüstana verilmiş, adları dəyişdirilərək Bolnisi, Dmanisi və digər yeni ərazi adları daşımağa başlamışdır.).

Müqavilənin birinci və ikinci maddələrində özünün əhəmiyyəti ilə fərqlənən əsas məqamlardan biri – Türkiyə-Rusiya arasında bağlanmış Moskva müqaviləsi (16 mart 1921) istisna olmaqla Gümrü və digər öncəki müqavilələlərin qüvvəsini itirməsi hesab oluna bilər ki, bunlarda da heç də bütün bəndlər birmənalı izahata malik olmamışdır.

Sonrakı mərhələdə (məsələn, maddə 5) artıq Azərbaycanın xüsusilə də Naxçıvan aspektində olan yerləşim xüsusiyyətləri sərgilənir və təsdiqlənir ki, bu da istər sosial, istərsə də iqtisadi yönlərdə öz əhəmiyyətini ifadə etməkdədir. Belə ki, bir tərəfdən Arpa- çayın, digər tərəfdən isə Araz çayının müqavilədən sərhəd ifadəedici komponentlər kimi göstərilməsi həmin ərazilər boyu əhalinin təhlükəsiz yerləşdirilməsinə şərait yaratmaqla bərabər, bəhs olunan su hövzələrinin içməli və təsərrüfat suyu formasında istifadə imkanlarını qiymətləndirməyə şərait yaradır.

Bəhs olunan hövzə ərailərində dağlıq və aran hissələrinin mövcudluğu həm əkinçilik, həm də heyvandarlıq baxımından məşğuliyyət istiqamətlərinin formalaşması və inkişafını mümkün edir. Qeyd etmək yerinə düşər ki, bildirdiyimiz fikir ilk növbədə muxtar respublikanın sərhədyanı ərazilərini əhatə edir. Bununla bərabər yaddan çıxarmayaq ki, "mənəviyyatı və mövcudluğunun sivil prinsipləri olmayan ölkə" tərəfindən iddia olunan ərazilər cəmi hazırki Naxçıvan Muxtar Respublikasını əhatə etməkdə idi (hətta bizim 2020-ci ildəki 44 günlük qələbə nəticəli Vətən müharibəmiz də ermənilər bu iddialardan daşındırmamışdır).

Müqavilə həmsərhəd ərazilər üzrə məhsulların ticarət, tranzit və sair əməliyyatları üzrə lazımi tələbləri rəsmiləşdirmək məqsədilə yeni (iqtisadi) müqavilənin imzanalasını məqsədəuyğun hesab edir. (maddə 6). Burada diqqət qara qolları ilə yanaşı dəniz limanlarına da çəkilir (xüsusilə də Batumi limanına). Baxmayaraq ki, Naxçıvan Muxtar Respublikanın Gürcüstan Respublikası ilə birbaşa əlaqəsi yoxdur, amma müqavilə məntinə əsasən onun əhatə dairəsinə iştirakçı ölkələrin cəmi ərazilər aid edilir. İqtisadi elementlərlə yanaşı sosial komponentlərə də xüsusi diqqət ayrılır ki, bu da həmin sərhədyanı ərazilərin əhalisi üçün sərhəd məntəqələrindən keçidin asanlaşdırılması, onlar üzrə "fərd (şəxs) - əmtəə" sənədləşdirmələrinin daha təkmil hala salınması və digər bu kimi problemlərdə təzahür etməkdədir. [5; 182-183]

Bu baxımdan atılan sistemli addımlardan biri kimi maddə 9-da aydın şəkildə göstərilir ki: "Boğazların açılması və bütün xalqların ticarət münasibətləri üçün onlardan sərbəst keçidin təmin edilməsindən ötrü Türkiyə və Gürcüstan Qara dənizin və boğazların beynəlxalq statusunun qəti olaraq müəyyənləşdirilməsini sahil ölkələrinin nümayəndələrindən ibarət xüsusi konfransa verməyə razılaşırlar" (İstanbulun (o dövrdə Konstantinopolun) təhlükəsizliyi qorunmaq şərtilə). Maddə tam mənası ilə müqavilədə iştirak edən ölkələrin ticarət fəaliyyətlərin sistemləşdirilməsi, xarici iqtisadi-ticarət əlaqələrinin genişlənsirilməsi, ticarət forma və növlərinin diversifikasiyası, bu yolla beynəlxalq

aləmin iqtisadi-təşkilati, hüquqi və digər maarifləndirmə yönlərinin region əhalisinin xidmətinə verilməsini müəyyən mənada şərtləndirir, onu stimullaşdırır.

İqtisadi mühitin şərhi ilə yanaşı maddələrdə siyasi, hərbi-təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilir, iştirakçı tərəflərlə bağlı ərazi iddialarının mümkünsüzlüyü qənaətinə gəlirlər. Belə ki, müqavilənin 10-cu maddəsində qeyd olunur ki, "Razılıq tərəfləri öz ərazilərində digər ölkənin hökuməti roluna iddia edən təşkilatların və qrupların yaradılmasına və ya yerləşdirilməsinə, eləcə də digər dövlətlə mübarizə məqsədi olan qrupların yerləşməsinə yol verməmək barədə razılığa gəlirlər.". Bu düşüncə həmin tərəflərin ölkələri üzrə inkişafın bəhs olunan irtica yönlərindən deyil, daha çox sosial, iqtisadi, mədəni, sağlam qonşuluq, qarşılıqlı yardım və digər analoji istiqamətlərdən ibarət olmasının daha məqsədyönlü olmasına diqqəti çəkməkdədir.

Müqavilənin sistemliliyinə və kompleksliliyinə dəlalət edən iqtisadi məsələlərdən birini də miras hüququnun tanınması və iş qabiliyyətinin təsbiti əsasında insanların heç bir məhdudiyyət qoyulmadan həqiqi faydalı əmək fəaliyyətinin göstəriləməsinə xüsusi diqqətin ayrılmasıdır. Müqavilədə bəhs olunan istiqamətlərin tənzimlənməsi üçün xüsusi sazişin bağlanması nəzərdə tutulur. Sonralar təsdiqləndiyi kimi də, qəbul olunmuş növbəti hüquqi-normaiv aktlar bəhs olunan istiqamətlərdə əlavə razılaşmaların aparılmasına şərait yaratmış, mövcud sahələrdəki müddəalar beynəlxalq təmallərə uyğunlaşdırılmış, bəhs olunan hüquq və öhdəliklərin mütəmadi təkmilləşdirilməsi zamanın tələblərinə uyğun həyata keçirilmişdir. [13]

Bəhs olunan fikir və düşüncələr razılıq tərəflərinin vətəndaşlarına ən əlverişli yaşam və fəaliyyət tərzi üzrə prinsiplərin tanınmasını təsdiqləyir. Müqavilədə həmçinin hər hansı tərəfin vətəndaşının digər tərəfdə qalması halında onun üçün əlverişli şərait prinsipinin tətbiqi nəzərdə tutulur. Bu isə məhdudiyyətlərə məruz qalmış həyat tərzinin nisbi və tədrici ləğvi ilə yanaşı, vətəndaşlar üçün iş şəraitinin yaradılması, dolanışıq imkanlarının tanınması və digər iqtisadi və sosial aspektdə olan birinci dərəcəli ehtiyac maddələri üzrə fəaliyyətin aparılmasını da şərtləndirirdi. Bəhs olunan məsələlər "sovet" respublikaları vətəndaşlarına bağlı şamil olunurdu. Hərçənd ki, sonradan (1948-ci ildə) biz bu şərtlərin birtərəfli gözlənilməsinə, Ermənistan tərəfindən isə mütəmadi pozulmasına və yeni ilxaqlar üçün zəminin formalaşdırılmasına yol açırdı.

Həm iqtisadi, həm də sosial aspektdə özünün mühümlüyünü qoruyan məsələlərdən biri də tərəflərin suverenliyinin tanındığı ərazilərdə mülkiyyət hüquqqunun Türkiyə tərəfindən tanınması idi. Məsələn, müvafiq Müqavilənin 13 maddəsində deyilir: "1918-ci ilə qədər Rusiyanın bir hissəsini təşkil etmiş və indi Türkiyənin suverenliyi altında olduğu tanınan ərazilərin hər hansı sakini, əgər arzu edərsə, sərbəst şəkildə Türkiyəni tərk etmək, özü ilə əşyalarını, öz əmlakını və ya onun dəyərini götürmək hüququna malikdir." Bəhs olunan fikir Türkiyə Cümhuriyyətinin üzərinə birtərəfli şəkildə öhdəliklər qoymaqla yanaşı, mübahisə obyektini təşkil edən ərazilərdə əhalinin demoqrafik vəziyyətinə (əhalinin mexaniki hərəkəti) də istinad etmiş olur. Digər tərəfdən isə, daimi yaşayış yerini dəyişən vətəndaşlar özləri ilə birlikdə daşınmaz əmlaklarını satmaq hüquqlarını, daşınar əmlakı isə ya satmaq, yaxud da özləri ilə yeni yaşayış məkanına köçürmək hüquqlarını əldə etmiş olurlar. [2; 208]

Yadda saxlamaq lazımdır ki, müqavilənin rəsmiyyətə salınması nəticəsində bəzi maddələrin yeni öhdəliklərin yaranmasına səbəb olması da təsbit edilmişdir. Məsələn, ərazilərdən köçən əhalinin mülkiyyət hüquqlarının qorunması ilə yanaşı onların hərbi mükəlləfiyyətdən möhlət hüququ da yaranmaqdadır. Burada bur tərəfdən iştirakçı sifətilə əmlakı üzərində sahiblik hüququnu itirməyən vətəndaş, digər tərəfdən bir aylıq hərbi mükəlləfiyyət möhlətinə yiyələnməsi onların malik olduqlarının sərbəst şəkildə köçürülməsinə imkan yaratmaqda idi.

Müqavilədə mühüm sosial amillərdən biri kimi qaçqınlar üzrə işlərə diqqət çəkilir. Belə ki, razılaşmanın on dördüncü maddəsinə uyğun olaraq:

- müharibə qaçqınları xüsusi fəaliyyət obyekti kimi qəbul edilir;
- onlar üzrə zaman elementinin əhatə arealı olaraq 1918-1920-ci illər məqbul hesab edilir;
- iştirakçı tərəflərə xüsusi birgə sazişin işlənilməsi və qəbulu məqsədəuyğun hesab edilir.

Yuxarıdakı təsnifat qanunverici-tövsiyyə edici məqamlarla yanaşı eyni zamanda özü ilə iqtisadi məsələlərin məcmusu kimi xarakterizə olunmaqdadır. Belə ki, ölkəmizin apardığı sonuncu müharibədə

də olduğu kimi, həmin dövrün hərbi hadisələrində də ərazilərin ilxaqı digər komponentlərlə yanaşı onlardakı yaşayış-kommunikasiya, qeyri-yaşayış bina və avadanlıqların sıradan çıxarılması, infrastruktur elementlərinin dağıdılması kimi proseslərlə müşayət olunur ki, bu da sosial, hüquqi, psixi-psixoloji və digər əlamətlərlə yanaşı xeyli həcmdə iqtisadi-idarəetmə, maliyyə-təşklatlanma əlamətlərinə ehtyacın duyulduğuna dəlalət edir.

Digər tərədən bəllidir ki, Qars Müqaviləsinin obyektində qaçqınlarla yanaşı hərbi və mülki əsirlər də nəzərə alınmışdır ki, bu da istənilən cəmiyyətin sosial istiqamətini bərpasını diktə etməkdə idi. Məsələnin qoyuluşunda Qafqaz regionunda olan müharibə əməliyyatları zamanı həbs olunan qarşı tərəf nümayəndələrinin dəyişdirilməsi, onların müəyyən qrupu üçün (şərtlər nəzərə alınmaqla) amnistiyanın elan olunması da nəzərdə tutulan birgə tədbirlər sırasında əks etdirilmişdir.

İstənilən cəmiyyətin sağlamlaşdırılmasında yollardan biri kimi həbsdən qayıtmış insanların sistemli reabilitasiya dövrünü keçməsi hesab olunmaqdadır. Bu rada bir tərəf-dən həmin şəxslərin psixoloji tarazlığının təmin edilməsi, onlara aşağı "sinif" nüma-yəndəsi kimi baxılmaması zəruridirsə, digər tərəfdən onların işlə, yaşayış yeri ilə (əgər yosdursa), uzunömürlü ev əşyaları ilə təmin olunması kimi fəaliyyətlər həyata keçirilməlidir. Həmin şəxslərin ümumi əsaslarla dövlətin subsidiya və borc vəsaitlərindən isti-fadə imkanlarına da yer ayrılmalıdır. Bəhs olunan məsələlərə 100 yaşlı razılaşmada birbaşa və ya dolayı şəkildə diqqət çəkilmişdir.

Qars Müqaviləsi Himayədarlarla (Türkiyə Cümhuriyyəti və RSFSR) yanaşı birbaşa iştirakçı ölkələrin (Azərbaycan və Ermənistan) öhdəsinə də bir sıra iqtisadi fəaliyyət istiqamətlərinin həllini qoymuşdur. Bu sırada ilk növbədə müştərək fəaliyyətin təmin olunması nəzərdə tutulurdu. Fəaliyyət sferasında əsas istiqamətlərin dəmir yolu, teleqraf və digər rabitə vasitələrinin seçilməsi də spesifik işgüzarlığın formalaşmasından bəhs edirdi. (tərəflərin bunlardan nə dərəcədə həqiqətdə istifadəsi isə başqa məsələdir) Müqavilədə kommunikasiya əlaqələrinin inkişafını tövsiyyə edirdi. Məzmununda müxtəlif iqtisadi əməliyyatlar üzrə əlaqələrin yaradılması olan bu razılaşmalar bir tərəfdən "qonşu" ticarətinin məqsədəuyğunluğunu, digər tərəfdən isə sərbəst yerdəyişmənin təmin edilməsi ilə yanaşı tranzit əməliyyatların mövcudluğunu da istisna etmirdi. [12]

Qeyd olunanlarla yanaşı, tanınan imkanlar eyni zamanda tərəflərə seçim hüququnu da tanımaqda idi. Belə ki, tövsiyyə olunan əlaqələrin yaradılması, reallaşdırmanın mümkün olması, məhsul və malların müxtəlif marşrutlar üzrə dəmir yolu sistemi ilə daşınması mümkünlüyü reallıqları ilə barışmayan "iştirakçı tərəfin" iqtisadi fəaliyyətdən kənarda qalması ilə yekunlaşmağa doğru hərəkətini şərtləndirməkdə idi. Müqavilədə maraqlı məqamlardn biri də Tiflis şəhərində iqtisadi bazisli komissiya-nın qurulması idi. Həmin kommissiyanın fəaliyyət dairəsinə aid edilmişdir:

- tərəflər üzrə dostluq münasibətlərinin bərqərar edilməsi əsasında ticarət münasibətlərinin formalaşdırılması;
- həmin dövrdə iqtisadi-təşkilati problemlərin aradan qaldırılması əsasında müxtəlif konfiqu-rasiyalı fəaliyyət variantlarının hazırlanması;
- maliyyə vəsaitlərinin və maliyyələşmə əməliyyatlarının qarşılıqlı icrası və s.

Maddələr üzrə yekunlaşdırıcı məqamlardan biri də tərəflərin xarici nümayəndəliklərinin açılması və mütəşəkkil iqtisadi əlaqələrə siyasi təkanın verilməsi idi. Behbud ağa Şaxtaxtinsikinin, Vəli bəyin, Kazım Karabəkir paşanın, Muxtar və Məmduh Şövkət bəylərin imza atdığı Qars Müqaviləsinin əsas maddələri ilə yanaşı ona edilmiş üç əlavə də mühüm əhəmiyyət kəsb edir. Bunlardan ikinci və üçüncü əlavədə Naxçıvan regionunun yerləşmə konturları haqqında dəqiq, yerquruluşu elementləri ifadə edilməklə informasiya yer tapır. [6; 45]

Əsas ağırlığın regiondakı yüksəkliklərə və su hövzələrinə verilməsi Naxçıvan sərhədlərinin daha dəqiq müəyyən edilməsi, bu bünövrədə sonrakı yaşayış imkanlarının təşkili, ortaya çıxan iqtisadi və sosial amillərin sistemləşdirilməsi, müxtəlif situasiyalar üzrə qiymətləndirmə fəaliyyətin hələ həmin dövrdə ümumi işin xeyrinə yönəldilmiş addımlardan hesab olunmaqda idi. Belə ki, müəyyən olunan, dəqiqləşdirilmiş ümumi region ərazisi, yaşayış məkanlarının konturları, əkin və örüş sahələri, formalaşması nəzərdə tutulan istehsal obyektləri və zonalarının kəmiyyət və keyfiyyət ifadələrin müqa-vilənin bağlandığı dövrdən miras qalan reallıqlardır.

Sovet hakimiyyətinin son dövrlərində də bəzi ərazi-işğal əməliyyatlarının (ilk növbədə Kərki, Almalı, İtqıran kəndləri) mümkün olması mənfur qonşuların öz əməllərini tərgitmədiyini göstərmişdir.

Bununla belə müstəqilliyə qədəm qoyulması, ölkəmizin iqtisadi gücü və potensialının ardıcıl və fasiləsiz şəkildə yüksəldilməsi tərəflər aarasında güclər nisbətinin Azərbaycanın xeyrinə dəyişməsinə gətirib çıxarmışdır.

Qars Müqaviləsinin ərazilərini təsdiq etdiyi Naxçıvan Muxtar Respublikası keçmiş dövr və cari zaman müstəvisində xarakterizə olunmalıdır. Bu sırada regionun gəldiyi iqtisadi mərhələ və onun yekunları mühüm əhəmiyyət kəsb etməkdədir.

NƏTİCƏ

Qars Müqaviləsi müasir Azərbaycan Respublikasının tarixində kifayət qədər əhəmiyyət kəsb edən sənəd, mənfur düşmənin sonrakı iddialarını müəyyən qədər tənzimləyən, qarşısını alan maneə, Türkiyə və Azərbaycan dostluğunun XX əsrdəki əyani təcəssüm nümunələrindən biridir. XX əsrin əvvəlində Zəngəzurun itirilməsi kimi faciənin sosial-iqtisadi nəticələri Naxçıvan regionunun formalaşması və inkişafı üçün kifayət qədər əsaslı mənfi amillərdən hesab olunsa da, müstəqillik dövründə həyata keçirilən kompleks işlər muxtar respublikada istehsal təmərküzləşməsi, yaşayış və fəaliyyət mərkəzlərinin yaradılması, ixtisaslaşma və kombinativlik baxımından təkamül mərhələlərinin mənimsənilməsi sahəsində sistemli icraatlara səbəb olmuşdur.

Hər nə qədər Qars Müqaviləsi özündən öncəki Gümrü, Moskva və digər müqavilə və razılaşmaların davamı kimi müxtəlif "tərəflər" vasitəsilə qiymətləndirilsə də, reallıqda bu müqavilə ancaq Moskva müqaviləsini tanıyır, digər müqavilələrin şərtləri isə müvafiq ərazilər üzrə Qars Müqaviləsi bağlandıqdan sonra özünün hüquqi qüvvəsini itirmiş olur.

Sosialist dönəminin bəzi müsbət cəhətlərinə baxmayaraq, 1920-1989-cu illərdə ərazi-iddia məsələlərində ölkəmizə çoxsaylı zərbələrin vurulması və mənfur ermənilərin haqlı çıxarılması qanunauyğun hal almış və iddianın hər dəfəsində Azərbaycanın itkilərini şərtləndirmişdir. 1920-ci ildən başlayaq Zəngəzurun itirilməsi, sonrakı dövrdlərdə İstər Naxçıvan regionundan, istərsə də Zəngilən, Tovuz və digər rayonlarımızdan kəndlərin müxtəlif saylarda ilxaqı mümkün olmuşdur. Dolayısı ilə erməni toplumu bağlanmış beynəlxalq müqavilələrin heç birinin (o cümlədən, Qars müqaviləsinin) şərtlərinə məhəl qomamışdır. Məsələni bu qayda əsasında qoyuluşu özündə digər yönlərlə yanaşı iqtisadi məsələlərin (o cümlədən problemlərin yaranmasına yol açacaq problemlərin) formalaşmasına yol açmış, Azərbaycan Respublikasında mütəşəkkil şəkildə yaradılmış maliyyə vəsaitlərinin erməni işğallarının nəticələrinin aradan qaldırılmasına yönəldilməsini şərtləndirmişdir.

Digər müqavilələr kimi, Qars müqaviləsi - iştirakçı-tərəflərə müəyyən hüquq, mənafe və öhdəliklər tanıyan beynəlxalq hüquqi sənəddir. Bağlanma şərtləri onun obyekti (o cümlədən, ərazi baxımından), birbaşa tərəfləri və hamiləri haqqında təsəvvür formalaşdırmaqadır. Bununla belə siyasi müstəvidə zamanla baş verən dəyişmələr iqtisadi təmelllərə də təsir etmiş olur. Belə ki, mənfur qonşularımızın iddiasına görə iştirakçı-hami tərəflərdən biri olan SSRİ-nin dağılması müqavilənin avtomatik ləğvi mənasının daşımalıdır. Eyni zamanda yaddan çıxarılmamalıdır, Azərbaycan Respublikasının müstəqillik dövründə Qars müqaviləsi "bir cəbhə üzrə" (Azərbaycan – Türkiyə) təzələnmişdir ki, bu da "digər cəbhə" (Ermənistan - Rusiya) tərəfindən narazılıqla qarşılanmaqda və qəbul edilməməkdədir.

Qars müqaviləsinin bağlanmasında birbaşa obyekt olaraq Naxçıvan regionu çıxış etsə də, ümumi məzmun Azərbaycanın cəmi ərazilərinin hüquqi, iqtisadi, sosial və digər yönlərdə müdafiəsinə dəlalət etməkdədir, Türkiyə - Azərbaycan müttəfiqliyinin zamanla sınanması və sonunun heç bir zaman ifadəsi ilə gəlməyəcəyini göstərməkdədir. Bəhs olunan fikir və düşüncələr eyni zamanda müasir dövr üçün də keçirlədir, tarixi varslik və fəaliyyət üçün məqbul sayılmaqdadır. Belə ki, haliyədə Qafqaz kifayət qədər iqtisadi gücü və qüdrəti xarakterizə edən Azərbaycan dövləti 1994-cü ildən başlayaraq həyata keçirdiyi bütün iqtisadi layihələrdə Türkiyə Cümhuriyyəti ilə birgə hərəkət etmiş, görülən işlərdə "qarşılıqlı faydalanma" prinsipinə riayət olunmuşdur.

İSTIFADƏ OLUNAN ƏDƏBIYYAT VƏ MƏNBƏLƏR

1. İsmayıl Hacıyev. Qars müqaviləsi və Naxçıvanın statusu. 29mart 2021ci il. http://science.gov.az/news/open/16456

2. H.Əliyev. Müstəqilliyimiz əbədididir. Bakı: Azərnəşr, 2005, 558s.

3. Gümrü, Moskva və Qars müqavilələri. Azərbaycan, rus, türk və fransız dillərində. Naxçıvan: Əcəmi, 2004, 139s.

4. Qars müqaviləsi. Naxçıvan Ensiklopediyası. Naxçıvan: Əcəmi, 2002, s.259-261

5. İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi, vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bahar, 1996, 328s.

6. Behbud ağa Şaxtaxtinski və Qars müqaviləsi. Konfrans materialları. Naxçıvan: Əcəmi, 2012, 89s.

7. E.Şıxəliyev. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları dünya mətbuatında // Dirçəliş XXI əsr, 2008-2009, №130-131, s.141-146.

8. E.Şıxəliyev. Naxçıvana qarşı iddiaların əsl mahiyyəti və regional siyasətdə bölgənin yeri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri,ictimai və humanitar elmlər seriyası, 2011. Cild : 7, №3, s.37-43

9. E.Şıxəliyev. Türkiyə mənbələrində Behbud ağa Şaxtaxtinskinin fəaliyyətinə dair.// "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. Naxçıvan: 2011, s.127-136.

10. E.Şıxəliyev. Qars müqaviləsi və Naxçıvanın muxtariyyət statusu. // 12 oktyabr 2011-ci ildə AMEA-nın Naxçıvan Bölməsində keçirilmiş konfrans materialları (Behbud ağa Şaxtaxtinskinin 130 illik yubileyinə və Qars müqaviləsinin 90-cı ildənümünə həsr olunmuşdur). Naxçıvan: 2012, s. 53-64

11. E.Şıxəliyev. Kars anlaşması, Nahçıvanla bağlı siyasi məsələlər üzerinə yeni bir deyerlendirme ve ermeni iddiaları. // Çankırı Karatekin Universitesi, Avrasiya Stratejik Uygulama və Araşdırma Merkezi, Uluslararası Avrasiya Strateji Dergisi, Çankırı, 2013, cilt: 2 sayı: 1, s.15-26

12. E.Şıxəliyev. Müstəqillik dövründə Türkiyə-Azərbaycan münasibətlərində Naxçıvanın yeri // Naxçıvan müstəqillik illərində: hədəflər, inkişaf, nəticələr. Naxçıvan 2016, s.170-175

13. E.Şıxəliyev. Azerbaycan Halk Cümhuriyyeti dönemində Nahçıvan´da jeopolitik durum və ingilis-ermeni işbirliyinin bölge üzerinde etkileri (1918-1920). I Uluslararası 20.yüzyılın

ilk yarısında türk-ermeni ilişkileri sempoziumu, 16-18 Ekim. 2019, s.206-217.

"ÇÖVKƏN" OYUNUNUN MƏNŞƏYİ VƏ YAYILMA AREALLARI

(Qarabağ atüstü oyun növü əsasında)

ORIGIN AND DISTRIBUTION AREALS OF GAME "CHOVKEN"

(Based on the type of Karabakh horse riding game)

Atəş ƏHMƏDLİ

AMEA Folklor İnstitutu

fil.ü.f.d., dosent

ÖZƏT

"Çövkən" oyunu Azərbaycanın milli-mənəvi dəyəri kimi 2013-cü ildə UNESCO-nun Reprezentativ (Qeyri-maddi mədəni irs) siyahısına daxil edilmişdir. Əlbəttə, bu nailiyyət asanlıqla əldə olunmadı, həmin ərəfədə bu məsələ ətrafında dünyadakı mövqelər haçalandı, mübahisələr səngimədi, bir sıra ölkələr "halal" haqqımıza "haram" qatmağa təşəbbüs göstərdi. Məsələn, belə fərziyyələr ortaya atıldı ki, guya Çövkən "ümumşərq mənşəli oyundur", yaxud da Hindistanda təşəkkül tapıb, oradan da Orta Şərqə və Avropaya yayılıb. Digər bir fərziyyədə isə İran-fars sosial-mədəni həyatından qaynaqlandığına iddia var idi. Heç şübhəsiz, bütün bu cəhdlərin mahiyyətində bir əsas qayə dayanırdı: necə olursa olsun, çövkən türk mənşəli dəyər kimi dünyaya təqdim olunmasın. Məşhur rus yazıçısı Maksim Qorkinin təbirincə desək, "faktlar yaman tərs şeydir" və bu dəfə də "cənab fakt" bütün uydurulmuş fərziyyələrin qarşısında "sədd kimi" dayandı. Beləliklə, ölkəmiz dünya səviyyəsində öz "müəlliflik hüququ"nun toxunulmazlığına təminat aldı.

Məqalədə "Çövkən" oyununun təşəkkül və formalaşma məsələlərindən geniş danışılır. Daha sonra bu oyunun yayıldığı areallar haqda bilgilər verilir, yayılmanı şərtləndirən səbəblər müfəssəl şərh olunur. Sonda "Çövkən" atüstü komandalarımızın ölkə yarışlarında iştirakına dair göstəriciləri açıqlanmışdır.

Araç sözlər: Çövkən, atüstü oyun, təşəkkül və formalaşma, Qarabağ köhləni, taqım və yarış, milli və mənəvi dəyər

ABSTRACT

The game "Chovken" was included in the UNESCO Representative List (Intangible Cultural Heritage) in 2013 as a national and spiritual value of Azerbaijan. Of course, this achievement was not easy to achieve, on that eve the world's positions on this issue were divided, the disputes did not subside and a number of countries took the initiative to add "haram" (forbidden by Islamic law) to our "halal" (permissible) rights. For example, it has been speculated that Chovken is a "game of oriental origin" or that it originated in India and spread to the Middle East and Europe. Another hypothesis was that it stemmed from Iranian-Persian socio-cultural life. Undoubtedly, at the heart of all these attempts was a basic rock: in any case, the camel should not be presented to the camel as a value of Turkish origin. In the words of the famous Russian writer Maxim Gorky, "facts are the opposite" and this time "Mr. Fact" stood "like a barrier" in the face of all fabricated assumptions, our nation's "copyright" was protected on the world stage! Thus, our country has secured the inviolability of its "copyright" in the world.

The article discusses the issues of formation and formation of the game "Chovken". Then, information is given about the areas where the game is spread, and the reasons for its spread are explained in detail. In the end, the indicators of the participation of our "Chovken" horse riding teams in local competitions were announced.

Keywords: chovken, horse riding game, formation, Karabakh courser, platoon and race, national and moral value

Oyunlar mədəniyyətimizin mühüm, həm də arxaik törəmə sahələrindən hesab olunur. Prof. Ə.Sultanlı milli dramşünaslığa dair əsərində yazırdı ki, "Azərbaycanlılar (əksər hallarda A.Ə.) dram sözünü oyun məfhumu ilə ifadə etmişlər" (1, 29). Qeyddən aydın olur ki, oyunlar təkcə fiziki özünütəşkil funksiyasını yerinə yetirməmiş, həm də xalqımızın mənəvi inkişafına töhfə gətirən mədəni sahələrdən olmuşdur. Bu anlamda "Oyun-tamaşa mədəniyyətinə dair müəyyən məlumatlara IX-XI əsrlərdə yaşamış Kəsrəvinin, Biruninin, M.Kaşğarlının, sonralar isə dahi Nizami Gəncəvinin əsərlərində rast gəlirik" (2, 45-46). Ana kitabımız "Dədə Qorqud" dastanlarında aşıq-aşıq oyunu, güləş, oxatma və atçapma yarışları haqqında fraqmentar şəkildə də olsa məlumatlar vardır (3, 36-115).

Oyun mədəniyyətimizin əhəmiyyətli bir qismi də tarixən atla oynanılan növü üzrə təşəkkül tapmışdır ki, bunlar da ölkəmizdə "atüstü oyunlar" adı ilə tanınmaqdadır. Azərbaycanda atüstü keçirilən oyun qrupuna əsasən aşağıdakı nominasiyalar daxildir: "Çövkən", "Çoban oyunu", "Papaq oyunu", "Dəstmal oyunu", "Sürpapaq", "Baharbənd", "Yaylıq", "Çəyirdək qaçırtdı" və s. Lakin bu oyunların içərisində "Çövkən" daha populyar və mükəmməl qaydalara tabe oyun hesab olunur. Özəlliklə də, bu oyun Azərbaycan xalqının çox qədim mədəniyyətə sahib olduğunu soraqladır.

Çövkən sözünün bir neçə məna açıqlaması vardır. Bu söz türk mənşəli olub, "çovutmaq" və həm də "çövlan" sözlərinə dayanıqlı mənaları üzərində daşıyır. Çovutmaq sözü "əl ağacını yelləyərək vurmaq", yaxud da "boran", "tufan" mənalarında izahını tapa bilir. Yəni, çövkənin hərəkətləri bir növ yaxınlaşmaqda olan boranı, tufanı təqlid edir. Cövlan sözünün izahı isə "atın oynaya-oynaya çapması"nın təqlidinə əsaslanması halı ilə əlaqələndirilir. Beləliklə, hər iki halda söz mahiyyətin açılışını şərtləndirir və oyunla bağlı ümumi dinamikanı səciyyələndirməyə xidmət edir (Başqa etimologiyalar olsa da, yenə də təqdim etdiklərimiz daha məntiqli və ağılabatan hesab olunur).

"Çövkən" sözü bəzi Azərbaycan mənbələrində "ağaccıq" kimi də izah olunmuşdur və bu da oyunda işlədilən alətin adı ilə adlandırılmasına tam uyğun gəlir. Alət isə xüsusi növ ağacdan hazırlanmış olur. Oyunçular çövkəni at belində və bu alətin köməyi ilə oynayırlar (7).

Hər hansı şəkildə mənalandırılsa da, heç şübhəsiz, sözün türk kökənli olması işarələdir ki, bu oyun ilk olaraq Türk xalqları içərisində təşəkkül tapmışdır. Bunu bizə gəlib çatmış və mötəbər hesab olunan bir sıra qaynaqlar da təsdiq etməkdədir. Əslində bu faktı dərindən çək-çevir etməyə elə bir ehtiyac da yoxdur, o anlamda ki, "Çövkən" oyunu atçılıq təsərrüfatının (əslində mədəniyyətinin) üzvi bir hissəsi olaraq meydana gəlmiş, zaman-zaman təkmilləşmiş, nəhayət, mükəmməl səviyyə almışdır. Məsələyə münasibətdə fil.e.d. A. Xəlil yazır ki, "türk xalqları dünya mədəniyyət tarixinə "Atlı mədəniyyəti", "Bozkır mədəniyyəti" kimi xüsusi bir fenomen bəxş ediblər. Türk xalqlarının əski tarixində at üstündə doğulub, böyüyüb, elə at üstündə də ölmək kimi bir həyat tərzi nümunəsi olmuşdur. At türkün həyatında və məişətində onunla tam vəhdət təşkil etmiş, onun ayrılmaz hissəsi, dominant elementi olmuşdur. İbtidai türk mədəniyyətində igid at ilə birlikdə dəfn olunur. Arxaik ritualda at "o dünya"ya keçidi təmin edən vasitə kimi istifadə olunur. Əski epik məlumatda ad və at qoşalaşması müşahidə olunur. Belə ki, dastan qəhrəmanlarının adlarında ən intensiv müşahidə olunan məsələ onların atlarına görə tanınmasıdır. Yəni, at adın epiteti olur və bu sistemli xarakter daşıyır" (4, 32). Açıqlamalar əsaslandırır ki, atlı mədəniyyət çox arxaik dövrə dayanıqlı olmuş və dünyanın qədim hesab olunan avanqard xalqlarının həyatına daxil olmamışdan bu mədəniyyət ilk olaraq türk xalqlarının məişət, təsərrüfat, sosial-mənəvi və s. güzəranının fonunda təmərküzləşmişdir. Atla bağlı olduqca səciyyəvi, həm də qaynağını ilkin təsəvvürlərdən almış ayin və inancların, ən ibtidai adət və gələnəklərin vaxtilə türk xalqları içərisində funksional olması və yazıda digər açıqlanan məqamlar vurğuladır ki, alim problemə konseptual yanaşmışdır (Qeyd edək ki, bu inanc və təsəvvürləri imitasiya edən bəzi rudimentlər hazırda həmin xalqların baxış sistemində saxlanmaqdadır). Bizə gəlincə, bu konsepti dəstəkləyir və bu mövqeyin daha da gücləndirilməsini zəruri hesab edirik. Yanaşmamız "kimlərisə" təəccübləndirə bilər, amma fikrimizcə, açıqlamaların məğzi belə bir formulla ifadə oluna bilər: "Öncə at belində gələn türkdür"!

Oyunu tədqiq edən bir qrup alimlərin qənaətincə "Çövkən"də istifadə olunan əşyaların, məsələn, ağacın, topun arxaik mədəniyyətdə ritual hərəkətləri baxımından mənaları olub, zaman keçdikcə bu səciyyə tədricən öləziyib, sonralar bu oyun təbii şəklində cəmiyyət arasında digər bir funksiyanı yerinə yetirməyə başlayıb. Lakin məlum olur ki, nə qədər mərhələ keçilsə də, bu arxaik fəlsəfə alt qatda dönəmdən-dönəmə daşınmış, daşındıqca da dönəmlərinin baxış və düşüncə sistemlərinə yansıya

bilmişdir. Maraqlıdır ki, bu alt mahiyyət orta əsrlərdən tüğyan etməyə başlamış dini-irfani görüşlərlə də çulğaşa bilmişdir. Bu anlamda bir tədqiqatçı açıqlamasına diqqət çəkək:

"Çövkən bütövlükdə oyunun başlıca elementini təşkil etdiyindən bu alət təsəvvüfdə Haqqın mütləq qüdrətini təmsil edirdi. Deməli, çövkan Allahı rəmzləşdirirdisə, o zaman bu düşüncədə top (kuy) da insanın rəmzi işarəsi kimi qəbul olunurdu. Yəni, təsəvvüfə görə insan Haqqın qarşısında bir oyunçudur, Cənab Haqq da onu sağa, sola, önə, arxaya – istədiyi səmtə yönləndirərək idarə edə bilər. Real həyatdan alınan oyunun həm də türk-irfan ədəbiyyatına təsiri bir daha onu əsaslandırır ki, çövkən tarixən olduqca möhtəşəm bir oyun olmuşdur" (5).

Elçin Aslanov "El-oba oyunu, xalq tamaşası" kitabında yazır: "Çövkən" IX-XVII yüzilliklərdə Azərbaycanda geniş yayılmış, əsasən at üstündə, qismən atsız oynanılan qədim oyun və bu zaman istifadə olunan ucu əyri uzun dəyənəyin adıdır. Musiqinin müşayiəti ilə keçirilən bu oyunda atları rəng etibarı ilə bir-birindən fərqli olan hər dəstədə 6-8, bəzən isə daha çox atlı iştirak edirdi. Oyunda əsas məqsəd dəyənəklə rəqib qapısına top vurmaq idi. Əhalinin müxtəlif təbəqələri arasında geniş şöhrət tapmış, bəzən isə kişilərlə yanaşı, qadınların iştirakı ilə keçirilən bu oyunun əski qaynaqlarda "kuyiçövkən", "çomaq oyunu" və "çövkənbazi" adları ilə qeyd edilən başqa variantları da olmuşdur" (7).

Ümumiyyətlə, türk atlı-savaş oyunlarından ən çox yayılanı və məşhur olanı elə çövkən oyunudur. Düzdür, mənbələrdə bundan əvvəl də belə səciyyəli oyunların türk xalqları arasında mövcud olduğu və hətta bu oyunların atsız icra olunduğundan söz açılır. Lakin atlı mədəniyyətə daxil olduğumuz dönəmdən çövkən qədər çoxsaylı və mürəkkəb mərhələlər keçən və bu mərhələlərdə inkişaf keçirən, müxtəlif səviyyə və tərkiblərdə oynanılan oyun bizə bəlli deyil. Ümumtürk kökənli olması öz yerində, yuxarıda qeyd etdiyimiz kimi, bu oyun Azərbaycan türklərinin də qədim və zəngin mədəniyyətə sahib olduğunu birmənalı şərtləndirir. Bizə bəlli mötəbər mənbələr də əsaslandırır ki, "Çövkən" oyunu oğuz türkləri arasında daha erkən çağlarda yayılmağa başlamışdır. Beyləqan – Örənqala ərazisində aparılmış arxeoloji işlər zamanı aşkarlanan şirli qab bu oyunun Azərbaycan hüdudunda çox qədim dövrlərdən yayıldığını sübut edir. Belə ki, üzərində çövkən oyununun təsvir edildiyi bu qab alimlərin qənaətinə görə IX əsrdə hazırlanıb. Əgər oyun tətbiqi sənətdə IX əsrdə təsvirini tapıbsa, deməli, bu dönəmdən xeyli əvvəl bu hüdudlarda oynanılıb. Məlumdur ki, meydana gəlmə və təkmilləşmə dövrlərini keçirdikdən sonra hər hansı etnoqrafik səciyyə tətbiqi-dekorativ, ədəbi-bədii və sənətin digər sahələrinə yansıya bilir. Bu anlamda "Kitabi-Dədə Qorqud" dastanları bizə maraqlı və olduqca qiymətli bilgilər verir. "Salur Qazanın evinin yağmalandığı boy" belə bir süjetə əsaslanır ki, kafirlər gecə yarısı gizlincə Qazanın düşərgəsinə hücum edib, onun var-dövlətini çalıb-çapır, ailəsini əsir götürürlər. Bundan xəbər tutan Qazan xan ailəsini və var-dövlətini geri almaq üçün kafirlərin üzərinə gedir. Qazana kömək məqsədi ilə Qaraca çoban da onunla getmək istəyir. Qazan əvvəlcə bu işi tək görməkdə israrlı olur, lakin çobanın təkidindən sonra onunla razılaşır. Çobanın Qazan xana qoşulduğundan duyuq düşən kafirlər onu ələ almağa səy göstərirlər. Hər cür hiylə işlədib, vədlər verirlərsə də, çoban razı olmur. Qaraca çoban çox cüssəli olduğundan kafirlər ondan bərk çəkinirdilər. "Kafər aydır: Bərə çoban, irağından-yaqınından bərü gəlgil! Baş endirüb bağır basğıl! Biz kafərə salam vergil, öldürmiyəlim! Şökli Məlikə səni ilətəlüm. Sana bəglig alı verəlim. Çoban aydır:

Altmış qulam göndərini (nizəni) nə ögərsən, murdar kafər?

Qızılcıq dəgənəgimcə gəlməz mana!

Qılıcunı nə ögərsən, mərə kafər?

Əgri başlu çokanımca gəlməz mana! (3, 43).

O da maraqlıdır ki, "çövkən" sözü dastanı tərtib edən alimlərin izahında "qoyunları tutmaq üçün istifadə edilən, bucaqvari ucluğu olan uzun ağac" kimi anladılmışdır. Görünür, oyun mərhələsinə keçirməmişdən öncə oğuzlar bu alətdən döyüşlərdə silah kimi istifadə ediblər. Qaraca çoban da məhz bu alətə arxalanıb, kafirlərə divan tutmaq niyyətində idi. Fil.ü.f.d. Məhəmməd Məmmədovun qənaətincə, orta əsrlərdə vaxtaşırı baş verən müharibələr güclü və məharətli döyüşçülərin hazırlanmasını tələb edirdi ki, çövkən oyunu da bu prosesdə mühüm rol oynayıb (7). Akademik Teymur Bünyadova görə isə çövkən oyununun mahiyyətində gəncləri qəhrəmanlıq ruhunda tərbiyə etmək məqsədi dayanmışdır (7). Qeydlər də əsaslandırır ki, o dönəmlər "çövkən" iki mühüm istiqamətdə funksional

olub: öncə döyüşçü hazırlığı üçün istifadə olunub, sonra isə oyun mədəniyyətinin formalaşmasına xidmət edib. Önəmli o idi ki, bu iki cəhəti qavrayan hər bir türk atlı-savaşçı kimi yetişirdi. Əslində çöl şəraitində keçirilən bütün oyunların mahiyyəti ona dayanıqlı idi ki, insan yığılan enerjisini lazımi səviyyədə paylaşdıra bilsin. Qədim türklər də bu mahiyyəti çox yaxşı mənimsəmişdilər və bu enerjini əksər hallarda oyuna sərf edirdilər ki, döyüşə hazırlığı da təmin etsinlər. Yəni, oyun zamanı oyunçu, savaş zamanı isə savaşçı kimi özlərini toparlaya bilsinlər. Daha önəmli o idi ki, fiziki hərəkətləri icra edən atlı-savaşçı oyun zamanı digər bir mühüm cəhəti də mənimsəməliydi. Bu cəhət isə hər iki funksionallığın məntiqli və təhlükəsiz yerinə yetirilməsinin bir növ qarantı idi. Yəni, bunu oyunçu və döyüşçü davranmalarına nəzarət mexanizmi kimi də qəbul etmək olar. Deməli, oyun daha iki keyfiyyəti atlı-savaşçıya aşılayırdı: o həm fiziki, həm də mənəvi cəhətdən hazırlıqlı olmalı idi. Fizikiyə cəldlik, çeviklik, güclü olmaq kimi keyfiyyətlər aid idisə, mənəvidə cəsurluq, aydın və iti düşüncə, vəziyyətdən ani baş çıxarmaq və s. bu kimi keyfiyyətlər hesaba alınırdı. Bütün bunlar əsaslandırır ki, Çövkən daha yayğın olduğu dönəmlərdə həm də "kompleks təlim və tərbiyə edən oyun" funksiyasında işlək olmuşdur.

Bəzi mənbələr çövkən oyununun nəinki Azərbaycanda, hətta Şərq ölkələri üzrə ilk oynanılan yerinin Qarabağ ərazisi olduğunu bildirir. Bu mənbələrdə artıq oyunun III-V əsrlərdə Qarabağ xanlıqları ərazisində yayıldığından söz açılır (5). Bu dönəmlərdə Çövkənə maraq daha da artır, Şuşa şəhərindəki "Cıdır düzü"ndə, Xankəndi-Xocalı arasındakı ərazidə və Ağdamda bu oyunla yanaşı cıdır yarışları da keçirilirdi. Ümumiyyətlə, bir çox qaynaqlarda Çövkənin ilk dəfə Qarabağ atları üzərində oynanıldığına işarə vardır. Bu da boş yerdən qaynaqlanmamış və çox ciddi əsasa dayanaqlanmışdır. Özəlliklə də, yerli Dilboz atları ilə bu oyunun keçirilməsi binayi-qədimdən Qarabağda bir ənənə olmuşdur. Çünki bu cins həm dözümlüdür, həm də sahibini tez anlayıb asanlıqla ona tabe olur. Tarixən iki cins Qarabağ atı əsasən bu oyunun fəal iştirakçısı olub: qeyd olunduğu kimi, biri "Dilboz"dur, ikincisi isə "Qarabağ" cinsidir. Mütəxəssislərin fikrincə, bu cinslər iki qardaş kimidir, yəni gücləri eynidir və bir-birləri ilə rəqabət apara bilirlər. Boyunun bəstə və ayaqlarının qısa olması isə onlara sürətli manevr etmək vərdişi qazandırmışdı. Belə ki, bu köhlənlər dəqiq və sıçrayışlı hərəkətləri ilə az vaxtda rəqiblərini arxada qoya bilirlər. Önəmlisi odur ki, çövkən oyununun Azərbaycanda mövcud olması və günümüzədək qorunmasını Qarabağ atlarının bu oyunda davamlı iştirakı şərtləndirmişdir. Digər nüanslar da vardır və bunların da ümumiləşməsinə əsaslanıb cəsarətlə söyləmək olar ki, Çövkənin vətəni elə **Azərbaycandır.** Bu minvalla belə bir ümumiləşdirməyə diqqət çəkək. Əvvəla, qeyd edək ki, hazırda bölgələrimizdə bu oyundan çox cüzi fərqlənən **variantları** da oynanılmaqdadır və qanunauyğunluqdur ki, hər hansı etnoqrafik səciyyə meydana gəldiyi sferada şəkillənə bilir. Bu da çox sadə bir formula əsaslanır: **oyun məhz vətənində variantlaşa bilir.** Əgər bu variantları Azərbaycanda olmasaydı, o zaman bu dəyərin başqa xalqlardan mənimsənildiyini fərz etmək olardı. İkincisi (əslində ən önəmlisi), oyunun fəlsəfəsinin və burada istifadə olunan vasitələrinin (ağacın, atın və s.) mənalandırılması da aydınlatdı ki, bu səciyyə və komponentlər kök etibarı ilə **yerli etno-mədəni sferaya bağlı olmuş,** sonradan digər sferaların əlamət və cizgilərini ilə çulğaşmışdır. Üçüncüsü isə artıq "Çövkən" **beynəlxalq səviyyədə Azərbaycan xalqına məxsus** qeyri-maddi mədəni irs kimi tanınmaqdadır. Hər halda, bu ən ali səviyyədir və oradan verilən qərar çox ciddi əsaslar üzrə ölçülüb-biçilir.

Tarixi ardıcıllığı diqqətlə izlədikcə, həqiqətən, çövkən oyununun başqa xalqların həyatına daha sonralar daxil olduğunu təyin edə bilirik. Məsələn, ərəblərin bu oyunla ilk tanışlığına Mahmud Kaşğarlının XI yüzildə yazdığı "Divani-lüğət it-türk" əsəri vasitəçi olmuşdur. Övliya Çələbinin on cildlik "Səyahətnamə"sində Çövkən haqqında danışılması da əslində oyunla bağlı önəmli məlumat hesab edilməlidir. Həmin dönəmlərdə belə nəhəng abidələr digər Şərq ölkələrinə də sirayət etmişdi və çox güman, "çövkən" oyunu ilə bu ölkələrin tanışlığında bu nüans başlıca rol oynamışdır. Bu anlamda Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması əlahiddə dəyərləndirilməlidir. Poemada təsvir olunur ki, hökmdar Məhinbanunun qardaşı qızı Şirin Çövkən meydanında Sasani hökmdarı Xosrov Pərvizdən heç də geri qalmır. Bundan başqa şairin "İsgəndərnamə" poemasında "Çövkən" müfəssəl təsvir olunmuş, onun icra vasitələri bir-bir sadalanmışdır. Hətta poemada bu oyunun 2500 il tarixi olduğuna işarə vardır.

Məlumatların səciyyəsindən və onların bu mənbələrə sızmasından bimək olur ki, Çövkən həm də yüksək təbəqələr içərisində oynanılan oyun olmuşdur. Qədim və Orta əsrlərdə saray (dövlət) əyanlarının iştirakı ilə keçirilən çövkən oyunları haqqındakı məlumatlar əsaslandırır ki, bu oyun həm də dövlət

səviyyəsində qəbul olunmuşdur. Bu da oyunun dövlətin gücünü nümayiş etdirməsi və dövlətçiliyə xidmət etməsi məsələləri ilə ilişkidə izahını tapa bilir. Buna əsaslanaraq bəzi tədqiqatçılar (məs: professor F.Bayat) belə fərz edir ki, Çövkən ilk olaraq yuxarı səviyyələrdə oynanılmış, daha sonralar xalqın müxtəlif təbəqələrinin mənimsədiyi oyuna çevrilmişdir.

Babur şahın dövründə (XVI yüzillikdə) bu oyun Hindistana daşınmışdır. İngilislər Hindistanı işğal etdikləri dönəmdə bu oyunu Baburun varislərindən mənimsəmiş, sonra da öz ölkələrinə aparmışlar. Bu minvalla, Çövkən Avropanın və dünyanın bir çox ölkələrinə "ayaq açmışdır". Yəqin o dönəm ingilislər belə zənn etmişlər ki, oyunun vətəni Hindistandır, Yaxın Şərq ölkələrinə də, eynilə bu ölkədən yayılmışdır..... İlk dəfə (1842-ci ildə) Çövkənlə tanış olan Britaniyalı səyyah M.Braun oyun haqqında fikirlərini belə açıqlamışdı: "Bu, atlarla əsl hokkey oyununa bənzəyir. Çox gözəl oyun növüdür və düşünürəm ki, qərblilər üçün də faydalı olardı" (7). Yəni açıq-aydın anlaşılır ki, bu oyun Avropaya XIX əsrdə aparılmışdır.

Bu məqamda maraqlı, həm də çox önəmli bir faktı xatırlatmaq yerinə düşür. Belə ki, 1973-cü ildə Moskvada keçirilən Ümumdünya Universiadasında ölkəmizi təmsil edəcək idman ictimaiyyətinin tərkibində peşəkar idman jurnalistlərimiz Aqşin Kazımzadə və Aydın Əliyev də oraya ezam olunurlar. Maraqlıdır ki, həmin faktla onlar elə orada qarşılaşırlar. Orada nə baş verdiyini isə qocaman jurnalist A.Əliyev indi belə xatırlayır: Yerləşdiyimiz oteldə yaxın dostum Aqşin Kazımzadə ilə otaqlarımız qonşu idi. Axşam saat on iki radələrində otelin mətbuat zalında onunla yüngül qəlyanaltı edirdik. Və birdən Aqşin mənə bura daxil olan iki şəxsi göstərib dedi: "Sənin çoxdan görüşmək istədiyin adam odur. Beynəlxalq İdman Jurnalistləri Assosiasiyasının prezidenti Frenk Teylor. Yanındakı da tərcüməçisidir. Onunla yaxşı tanışam. Barda bizdən başqa heç kəs yox idi. Dəvət eləyək, dedim, əlbəttə, bundan gözəl fürsət ola bilməz. Deyəsən, keyfi də kökdür. Yaxınlaşıb salamlaşdıq, özümüzü təqdim elədik. Masamıza dəvətimizi qəbul elədi. O hələ içəri daxil olanda Aqşin mənə dedi ki, gərək suallarımız konkret olsun, çünki bu adam mətbuat konfransında düşünülməmiş və sual xatirinə sual verən jurnalistləri kəskin cavabları ilə sancır. Məlumat üçün bildirim ki, Frenk Teylor həm də Avropa İdman Mediası İttifaqının yaradıcısı idi. Böyük Britaniyanın İmperiya ordeni ilə təltif olunan bu görkəmli jurnalistin ölümündən sonra onun adı ilə Frenk Teylor mükafatı da təsis olunub. Azərbaycanlı olduğumuzu bilərək həmin gün mahir güləşçimiz Rafiq Hacıyevin Ümumdünya Univesiadasının çempionu adını qazanmasından, onun final görüşündəki parlaq qələbəsindən, 1966-cı ildə məşhur hakimimiz Tofiq Bəhramovun qətiyyətlə düzgün qərar çıxarmasından söhbət açdı. Tədricən keçdik əsas məsələyə. Dedim, İngiltərədə yaranan futbol Azərbaycanda da oyunların şahı sayılır. Biz futbolun adını həmişə olduğu kimi saxlamışıq. Amma necə olur ki, bəşəriyyətim olimpiya səlnaməsinə düşən "çövkən" oyununun adını hərə öz istədiyi kimi deyir. Misal üçün, ingilislər "hörs-polo", fransızlar "polo-arçeval", almanlar "ferd de polo", ispanlar "polo de kabalios", argentinalılar, hindlilər, pakistanlılar, əfqanlar, nepallar başqa cür səsləndirir. Bu da Comolunqma deyil ki, tələffüzü çətin olsun, zirvəyə ingilis Everestin adını verəsiniz?! Aqşin tərs-tərs mənə baxdı və başa düşdüm ki, fikrimi bir az sərt şəkildə bildirirəm. Frenk Teylorun sifəti dərhal ciddiləşdi. Dedi: Elə bilməyin ki, mən Şərq xalqlarına biganəyəm. Nizaminin Çövkəndən yazması haqda məlumatlıyam. Bilirəm ki, Şərq xalqlarının bu qədim oyununun üç min ildən artıq tarixi var. Amma görün, üstündən qırx əsrə qədər zaman keçir. Bundan sonra bizi maraqlandıran məsələlərlə bağlı suallarımızı müsahibimizə yağdırmağa başladıq. Çövkən üzrə ilk beynəlxalq yarışın hələ XII əsrdə keçirildiyini bildirdim. O zaman İslam dünyasında mədəniyyət mərkəzi sayılan Bağdad şəhərində Şərq ölkələrinin mahir çaparlarının öz ustalıqlarını göstərdiklərini dedim. Beynəlxalq İdman Jurnalistləri Assosiasiyasının prezidenti bu yarışlar haqda da məlumatlı olduğunu söyləyərək, Çövkəni Avropaya XIX əsrdə ingilislərin gətirdiyini, sonradan bu oyunun ABŞ-a, Argentinaya, Boliviyaya, Çiliyə yayılaraq getdikcə məşhurlaşmasından və bu işdə Böyük Britaniyalıların xidmətindən danışdı. Dedim ki, bəs Çövkənin öz adına qaytarılmasına münasibətiniz?! Zarafata salıb, bardakı saatı göstərdi. Gecə ikinin yarısı idi. 1900-cü ildə Polo oyunu olimpiya oyunlarının proqramına daxil ediləndə Azərbaycan adlı məmləkət heç kimə məlum deyildi. Bu sözləri deyib, bizdən uzaqlaşdı. Teylorun bay-bay, oke sözlərindən sonra dostum Aqşin Kazımzadə tərs-tərs mənə baxdı: Hə, bunu eşitmək istəyirdin.....?! Amma mən məyus deyildim, çoxdan ünvanlamaq istədiyim sualı cavablandıracaq şəxslə görüşmək fürsəti tapmışdım..... İndi daha fərəhliyəm, çünki bu oyun artıq rəsmən Azərbaycanın milli brendi kimi dünyada tanınmaqdadır!!! (6).

Haşiyə: Bildiyimiz kimi, işğaldan sonra Ağdam atçılıq zavodu Lənbərana (Bərdəyə) köçürülmüş və bu təsərrüfat orada fəaliyyətini bərpa etmişdir. İlk dəfə 1948-ci ildə yaradılan bu zavodda 2013-cü ildən başlayaraq yenidənqurma işləri aparılmış və müəssisə tam müasir görkəmə gətirilmişdir. Son illərdə isə daha bir atçılıq təsərrüfatı Ağstafa rayonunda fəaliyyətə başlamışdır. Komandaların sayına gəlincə, hazırda 24 Çövkən komandamız ölkə birinciliyi uğrunda mübarizə aparır və bu da ölkəmiz üçün kifayət qədər yüksək göstərici hesab oluna bilər. Çünki buna qədər cəmi üç Azərbaycan bölgəsi Çövkənlə məşğul olmuş və yarışlarda təmsil olunmuşdur. "Çövkən"in 2013-cü ildə UNESCO-nun Reprezentativ (Qeyri-maddi mədəni irs) siyahısına daxil edilməsindən sonra bu sahədə xeyli yüksəliş oldu. Elə həmin il ölkə prezidenti cənab İlham Əliyev Azərbaycan Qarabağ at cinsinin özəyinin qorunması və inkişaf etdirilməsi ilə bağlı sərəncam imzaladı. Tezliklə (2014-ci ildə) bu komandaların sayı 20-yə çatdırıldı. İki il sonra (2016-cı ildə) artıq ölkəmizin 22 şəhər və rayonunu təmsil edən 24 çövkən komandası Prezident kuboku uğrundakı yarışlarda mübarizə aparırdı. Məlumat üçün deyək ki, bu yarışlar ilk dəfə 2006-cı ildə Respublika Atçılıq Turizm Mərkəzinin Şəki şəhərinin Daşüz kəndindəki filialında təşkil olunmuşdur. 2013-cü ildə yaradılan və Qarabağ atları ilə yarışan "Çövkən Köhlən" komandası bu yarışlara dəfələrlə qatılmış və uğurlu nəticələr əldə etmişdir.

ƏDƏBİYYAT

1.Sultanlı Ə. Azərbaycan dramşünaslığının inkişaf tarixindən. Bakı, Azərnəşr, 1964, 302 s.

2.Ələs Qasımov. Azərbaycan xalq oyunları, Bakı Universiteti nəşriyyatı, 2006, 187 s.

3.Kitabi-Dədə Qorqud (tərtib, transkripsiya, müqəddimə F.Zeynalov və S.Əlizadənindir). Bakı, Yazıçı, 1988, 255 s.

4."Ümumtürk Kontekstində Qarabağ Xalq oyunları və Meydan tamaşaları" mövzusunda beynəlxalq elmi konfransın materialları, Tərtər şəhəri, 14 noyabr 2014-cü il. Ağaverdi Xəlil: "Qarabağda atüstü oyunlar və çövkən", səh. 28-47

5. Miras-Çövkən, İTV, sənədli film, 07.07.2019

6. Röyaların köhləni. İdman TV, sənədli film, 06.11.2001

7. https://az.wikipedia.org/wiki/Çövkən

KİMYƏVİ BİLİKLƏRİN MƏNİMSƏNİLMƏSİ ÜÇÜN TƏLİM TEXNOLOGİYALARININ MÜQAYİSƏLİ DƏYƏRLƏNDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ

THE IMPORTANCE OF COMPARATIVE EVALUATION OF TRAINING TECHNOLOGIES FOR ASSIMILATION OF CHEMICAL KNOWLEDGE

Dosent Rəhimə S. Məmmədova

ORCID ID: 0000-0001-5824-1294

Professor Əli Z. Zalov

Baş müəllim Kəmalə O. İsgəndərova

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Müasir dövrdə biliklərin, o cümlədən kimyəvi biliklərin dinamik artması müşahidə edilir. Kimyəvi biliklərin insanın sağlam, təhlükəsiz yaşaması, həmçinin həyat fəaliyyətinin müxtəlif sahələrində tələbatlarının ödənilməsi üçün əhəmiyyətini nəzərə alsaq, onların asan və sürətli mənimsənilməsi sahəsində araşdırmaların aparılmasının aktuallığı aşkar edilər.

Kimyəvi biliklərin mürəkkəbliyi onların mənimsənilməsi prosesinə həssas yanaşmanı, müxtəlif mövzuların öyrənilməsi üçün daha səmərəli təlim texnologiyalarının müəyyənləşdirilməsini labüd edir. Belə ki, mövcud təlim texnologiyalarının - fəal/interaktiv dərsin metod və texnikalarının, STEAM-in, sinergetik təlimin, modelləşmənin, dayanılı inkişaf üçün layihələr metodunun, etnokimyanın, tətbiqi riyziyyatın və s. imkanlarından istifadə edilməsi ilə müxtəlif mövzuların tədrisinin nəticələrinin müqayisəli dəyərləndirilməsi araşdırmanın məqsədinə nailolmanı təmin edir. Bununla yanaşı kimyaçı müəllimin mövcud texnologiyalardan ustalıqla istifadə bacarıqlarının artmasına şərait yaranır. Lakin nəzərə almaq lazımdır ki, yeni təlim texnologiyalarının müəyyənləşdirilməsi və ya mövcud texnologiyaların təkmilləşdirilmiş variantlarının işlənməsi müəllimin müvafiq sahədəki yenilikləri izləməsini və səmərəli şəkildə tətbiq etməsini zərurətə çevirir.

Təlim texnologiyalarının tətbiqi prosesində sinxron olaraq İnformasiya texnologiyalarının mümkün müsbət təsirləri, şagirdlərin öyrənmə imkanlarının və meyllərinin fərqliliyi və digər məsələlərin kompleks dəyərləndirilməsi məqsəduyğundur. Belə yanaşma informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində kimyəvi biliklərin mənimsənilmə sürətinə mümkün müsbət təsir aspektlərinin müəyyənləşdirilməsini təmin edir. Bununla yanaşı şagirdlərin öyrənmə imkanlarının və meyllərinin zamanla dəyişməsinin izlənməsi, bu dəyişkənliyin də məqsədyönlü dəyərləndirilməsinin təhlil komponentlərindən biri kimi nəzərə alınması lazımdır. Hesab edirik ki, kimyəvi biliklərin tədrisinin təşkili prosesinə təsir edən şoxsaylı amillərin kompleks dəyərləndirilməsi mənimsənilmə səviyyəsinin yüksəlməsini təmin edər.

Açar sözlər: kimyəvi biliklər, təlim texnologiyaları, mənimsəmə

Currently, a dynamic increase in the chemical knowledge is observed. The relevance of the research in the field of their easy and rapid assimilation is revealed considering significance of chemical knowledge for human's health, safety, as well as meeting the needs of various areas of life.

The complexity of chemical knowledge necessitates a sensitive approach to the process of their assimilation, the identification of more effective learning technologies for the study of various topics. Thus, comparative evaluation of the reseach of teaching different topics with the use of opportunities of the existing training technologies - methods and techniques of active / interactive lessons, STEAM, synergetic learning, modeling, project method for sustainable development, ethnochemistry, applied mathematics, etc. provides the achievement of the purpose.At the same time, there are opportunities to improve the skills of the chemistry teacher to use existing technologies. However, it should be consedered that the identification of new learning technologies or the development of improved versions

of existing technologies makes it necessary for the teacher to monitor and effectively apply innovations in the relevant field.

In the process of applying learning technologies, it is expedient to simultaneously assess the possible positive effects of information technology, the differences in learning opportunities and tendencies of students and other issues. Such an approach provides for the identification of possible positive aspects of the speed of acquisition of chemical knowledge as a result of the rapid development of information technology. At the same time, it is necessary to conseder monitoring change of students' learning opportunities and tendencies over time, and variability as one of the analytical components of purposeful assessment. We believe that a comprehensive assessment of many factors affecting the process of organizing the teaching of chemical knowledge will increase the level of mastery.

Keywords: chemical knowledge, training technologies, assimilation

MƏHƏMMƏD QARABAĞİNİN ELMİ İRSİ ƏLYAZMALAR XƏZİNƏSİNDƏ

MOHAMMAD GARABAGH'S SCIENTIFIC HERITAGE IS IN THE TREASURY OF MANUSCRIPTS

Şirinova Rübabə Bahadır qızı

Səfərova Təranə Bahadır qızı

Azərbaycan Milli Elmlər Akademiyası

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,

Fəlsəfə üzrə fəlsəfə doktoru,dosent

XÜLASƏ

Orta əsrlərdə yaşamış Azərbaycanlı filosofu, ilahiyyatçısı və mütəfəkkiri olmuş Mövlana Məhiyəddin Məhəmməd Qarabaği, Qanuni Sultan Süleyman xan dövrünün məşhur alimlərindən olub, Qarabağda anadan olmuşdur . İlk təhsilini Qarabağda aldıqdan sonra, təhsilini İranda davam etdirmişdir. Təhsilini İranda tamamladıqdan sonra Dərsəadətə (İstanbula) gedərək, Seyyid Əlizadəyə müavin, sonra isə İzniqdə müdərrisliyə təyin olunmuş və 942/1535-ci ildə elə orada da vəfat etmişdir. O bir çox əsərlər yazmışdır:

"Calib əs-surur va salib əl-ğurur fil-muhadarat" adlı kitabı, Cəlaləddin Dəvvaninin "İsbət əl-vacib" əsərinə "Şərh risalət isbət əl-vacib lil-Dəvvani ", "Təliqat alə əl-Kəşaf va təfsir əl-Beydavi" adlı təliqatı ,"Şərh əl-Viqayə li-Sədr əş-Şəriə" ," Şərh ədəb əl-bəhs" .

Məhəmməd Hənəfi Qarabaği Təbrizi (942/1535) XIV əsrdə yaşamış Ədudəddin əl-İcinin (1281-1355) polemikanın aparılması üsullarına həsr etdiyi "Ədəb əl-bəhs" əsərinə mükəmməl bir şərh yazmış və onu " Şərh ədəb əl-bəhs" adlandırmışdır . Qarabağinin yazdığı " Şərh ədəb əl-bəhs" əsəri bəzi mənbələrdə "əl-Hənəfiyyə" adı ilə də məşhur olmuş və Şərqdə böyük şöhrət qazanmışdır.

Məhyəddin Məhəmməd Qarabağinin "Şərh ədəb əl-Bəhs əl-İci" adlı şərhinə, Mir Əbul-Fəth Ərdəbili haşiyə yazmış və onu "Haşiyə alə şərh ədəb əl-Bəhs əl-İci" adlandırmışdır. Bəzi mənbələrdə əsərin adı "Haşiyə ələ Şərhir-Risalətil-Əduddiyyə fi Adabil-Bəhs" kimi də verilir. AMEA Əlyazmalar İnstitutunda bu əsərin XVI-XIX əsrlərdə köçürülmüş 30-a qədər nüsxəsini aşkarlamışıq . Bu əsərin iki əlyazma nüsxəsi mətnşünas alim Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadənin kolleksiyasında mühafizə olunur. "Şərh ədəb əl-bəhs" əsərəinə haşiyə və təliq yazan alimlərdən:Azərbaycanlı alim Mir Əbi-l-Fəth Ərdəbili Məhəmməd bin Əmin Əl-Səidi Əl-Ərdəbilinin (875/1470) həyatı və əsərləri. "Şərh ədəb əl-bəhs" əsərinə "Haşiyə alə şərh ədəb əl-bəhs" əsəri,onun dünya kitabxanalarında və Azərbaycanda mühafiə olunan nüsxələri haqqında söhbət açılır.Həmçinin Məhəmməd Hənəfi əl-Qarabağinin"Calib əs-surur va salib əl-ğurur fil-muhadarat" adlı əsəri və onun dünya kitabxanalarınd olan nüsxələri haqqında da məlumat verilir.

Açar sözlər: Qarabaği,əlyazmalar, institut,risalə,şərh

ABSTRACT

MevlanaMahiyaddin Mohammad Garabaghi, an Azerbaijani philosopher, theologian and thinker who lived in the Middle Ages, was one of the famous scholars of the time of the legitimate Sultan Suleyman Khan and was born in Karabakh. After receiving his first education in Karabakh, he continued his education in Iran. After completing his education in Iran, he went to Darsaadat (Istanbul), where he was appointed deputy to SayyidAlizadeh, and then a teacher in Iznig, where he died in 942/1535. He wrote many works:

Key words:Garabaghi,Manuscripts,İnstitute,sharh,risala

GİRİŞ

Azərbaycanlı alimlərinin əlyazma kitabları London, Paris, Nyu -York, Kembric, Drezden, Vatikan, Belqrad, Praqa, Moskva, S. Peterburq, Daşkənd, Tbilisi, Düşənbə, Aşqabad, Dəməşq, Bağdad, Tehran, İstanbul, Kəraçi, Kabul, Dehli və onlarla başqa mədəniyyət mərkəzlərinin kitabxana və muzeylərində, eləcə də şəxsi kolleksiyalarda özünə şərəfli yer tutmuş, Avropa, Asiya, Amerika və Afrika qitələrindəki alimlərin tədqiqat obyektinə çevrilmişdir. Aparılan tədqiqatların genişliyinə, ardıcıllığına və mükəmməlliyinə lazımi qiymət verməklə yanaşı etiraf edilməlidir ki, öz elmi və bədii əsərləri ilə klassik mədəniyyətin inkişafında əhəmiyyətli rol oynamış onlarla azərbaycanlı müəlliflərin əsərləri Hindistanda, İranda, Pakistanda, Türkiyədə və ərəb ölkələrində tədqiq və nəşr olunsa da hələ onların əsərləri doğma vətənində çox az öyrənilmiş, yaxud heç öyrənilməmişdir. Onlara misal olaraq Müinəddin Əbu Nəsr Əhməd Tantarani (XI), Əhməd bin Hüseyn Çarpərdi Təbrizi (XIV), Məhəmməd Hənəfi Qarabaği (XV), Cəmaləddin Ərdəbili (XIII), Əsirəddin Əbhəri (XIII), Mahmud Məhəmməd oğlu Şirvani (XVI), Qul Əhməd Ağdaşi (XVI), Məhəmməd Əmin Şirvani (XVI), Mövlanə Hafiz Bərdəi (XVI), Xacə Yusif Həmədani (XI), Əhməd Həmdi Şirvani (XIX) və başqalarını göstərmək olar.

Orta əsrlərdə yaşamış Azərbaycanlı filosofu, ilahiyyatçısı və mütəfəkkiri olmuş Mövlana Məhiyəddin Məhəmməd Qarabaği, Qanuni Sultan Süleyman xan dövrünün məşhur alimlərindən olub, Qarabağda anadan olmuşdur (1,V.s.3621; 2,II.s.236). İlk təhsilini Qarabağda aldıqdan sonra, təhsilini İranda davam etdirmişdir. Təhsilini İranda tamamladıqdan sonra Dərsəadətə (İstanbula) gedərək, Seyyid Əlizadəyə müavin, daha sonra isə İzniqdə müdərrisliyə təyin olunmuş və 942/1535-ci ildə elə orada da vəfat etmişdir. O bir çox əsərlər yazmışdır:

جالب السرور وسالب الغرور في المحاضرات“Calib əs-surur va salib əl-ğurur fil-muhadarat” adlı kitabı, Cəlaləddin Dəvvaninin “İsbət əl-vacib” əsərinə “Şərh risalət isbət əl-vacib lil-Dəvvani ” شرح رسالة إثبات الواجب للدوانى, böyük təfsir alimi Beydavinin “Ənvarut-Tənzil va Əsrarut-Tənvil” adlı əsərinə “Təliqat alə əl-Kəşaf va təfsir əl-Beydavi” adlı təliqatı تعليقات على الكشاف وتفسير البيضاوى, XII əsrdə Buxarada yaşamış fiqh alimi Məhəmməd Hənəfi əl-Marqinanini “əl-Hidayə” əsərinə “ət-Təlvih əl-Hidayə” التلويح الهداية, XIII əsr Hənəfi fiqh alimi Sədr əş-Şəriə əl-Əvvəlin “Viqayə ər-Rivayə fi-məsaili əl-Hidayə” əsərinə “Şərh əl-Viqayə li-Sədr əş-Şəriə” شرح الوقاية لصدر الشريعةadlı şərhi və Ədudəddin Əbdürrəhman bin Əhməd əs-Siddiqi əl-İcinin “Ədəb əl-bəhs” əsərinə, “ Şərh ədəb əl-bəhs” شرح آداب البحث(3,III.s.601;2,II.s.236).

Orta əsrlərdə yaşamış bir sıra alimlərin doğum tarixi məlum olmadığı kimi, Məhəmməd Qarabağinin də anadan olduğu il məlum deyil. Lakin ölüm tarixi ilə əlaqədar müxtəlif ixtilafi fikirlər mövcuddur.

Azərbaycanın görkəmli şərqşünası Mirzə Kazımbəy (4,24), A.B.Xalidov (5, I, 67), K.Brokkelman (6, II, 233), A.A.Semenov (7, III, 87), Ayətullah Mərəşi (8, III, 65), K.Şərifli (9,I,205), Nailə Agayeva (10, 40), Məhəmməd Qarabağinin vəfat tarixini 900 (1494-1495)-cü il, Türkiyə yazmaları toplu kataloqu (11, 34/II,37) 910/1504-cü il, Q.Dobraca (12, II, 243), K.Çələbi (13, I, 41), İsmail Paşa Bağdadi (2, I, 70) və prof. Zakir Məmmədov (14,273) isə 942/1535-cü il kimi vermişlər .

M.T.Bursalı (15, I, 398-399), Ş.Sami (16, V, 3621) və Z.Məmmədov (14, 274) Qarabağinin İzniqdə, lakin N.Ağayeva (10. 41) və Əlyazmalar İnsititunun tərtib etdiyi “Ərəbdilli əlyazmalar kataloqu” kitabı (17, I, 58), filologiya elmləri doktoru,professor K.Şərifli (9.I,261) isə Buxarada vəfat etdiyini yazır.

Qarabağinin yazdığı “ Şərh ədəb əl-bəhs” əsəri bəzi mənbələrdə “əl-Hənəfiyyə” adı ilə də məşhur olmuş və Şərqdə böyük şöhrət qazanmışdır. “ Şərh ədəb əl-bəhs” əsərdən XX yüzilliyin əvvəllərinə qədər mədrəsələrdə ritorikaya dair bir tədris vəsaiti kimi geniş surətdə istifadə olunmuşdur. Məhəmməd Qarabaği Təbrizinin (942/1535) “Şərh ədəb əl-bəhs” əsəri Azərbaycanda da geniş şəkildə yayılmlışdır. Hal-hazırda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Məhəmməd Qarabaği Təbrizinin (942/1535) “Şərh ədəb əl-bəhs” əsərinin 100- dən artıq əlyazma nüsxəsi mühafizə olunur. Həmçinin bu əsərin dünyanın bir çox kitabxana, muzey və əlyazmalar xəzinələrində nüsxələri mühafizə olunur. Şərq əlyazmaları kataloqlarında bu nüsxələr haqqında məlumatlar bəzən geniş, bəzən də qısa şəkildə verilmişdir. Araşdırmamız nəticəsində Türkiyənin "Adana İl Halk Kütübhanasi və muzeyi"ndə əsərin XVI-XVII əsrlərdə köçürülmüş 9, İranın "Mərəşi kitabxanası”nda 4, Yəmənin “əl-Əhqaf” kitabxanasında 3, Özbəkstan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun kitabxanasında XVII

əsrdə köçürülmüş bir, Tiflisidə "Kekelidze" adına əlyazmalar İnstitutuda XVIII-XIX əsrlərdə köçürülmüş 9, Sankt Peterburqda Şərqşünaslıq İnstitututunda XVI-XIX əsrlərdə köçürülmüş 25, Belqradda, Sarayevo Kitabxanasınında XVI-XIX əsrlərdə köçürülmüş 2, Almaniyanın Berlin kitabxanasında XVI-XVIII əsrlərdə köçürülmüş 2 nüsxələri mühafizə olunduğunu müəyyənləşdirmişik (18,30-32). Mərhum professor Zakir Məmmədov "Azərbaycn fəlsəfəsi tarixi" kitabında verdiyi məlumta görə Məhəmməd Qarabağinin bu şərhinin əski çap nüsxəsi 1907-ci ildə Temirxan şurada çapdan çıxmışdır (14,276).

Məhəmməd Qarabağinin bu şərhinə bir sıra Şərq alimləri haşiyələr yazmışlar. Həmin haşiyələrdən biri də Azərbaycan alimi Mir Əbi-l-Fəth Ərdəbili Mir Əbilfəth Məhəmməd bin Əmin Əl-Səidi Əl-Ərdəbiliyə(875/1470) məxsusdur. XV əsrdə yaşamış Mir Əbul-Fəth ƏrdəbiliTürk riyaziyyatçı və astronom Səlahəddin Musa Qazizadə Ruminin tələbəsi olmuşdur. O, bir sıra əsərlərin müəllifidir: "Haşiyə alə Şərhir-Risalətil-Adudiyyə fi Adabil-Bəhs", "Haşiyə alə Şərhil işkalat-Təsis fil-Həndəsə", "Haşiyə alə Kuçək", "Risalə fi Məqulatil-Əşr", "Haşiyə alə Şərhi Təbrizi", "Haşiyə alə Qısmul Məntiq" (3, III, 142; 2, II.s. 207;16,I,82-83).

Muhəmməd əs-Səidi Ərdəbili, Qazizadə Rumi Şəmsəddin Muhəmməd ibn Əşrəf əs-Səmərqəndinin həndəsəyə aid olan "Əşkalu Təsis fil-Həndəsə" adlı əsərinə şərh yazmış, Mir Əbul-Fəth Ərdəbili isə bu şərhə haşiyə yazmışdır. Ərdəbili, Məhyəddin Məhəmməd Qarabağinin "Şərh ədəb əl-Bəhs əl-İci" adlı şərhinə haşiyə yazmış və onu "Haşiyə alə şərh ədəb əl-Bəhs əl-İci" adlandırmışdır. Bəzi mənbələrdə əsərin adı "Haşiyə ələ Şərhir-Risalətil-Ədudiyyə fi Adabil-Bəhs" kimi də verilir (13,I,41;6,II,287;19,I,520). AMEA Əlyazmalar İnstitutunda "Haşiyə ələ Şərhir-Risalətil-Ədudiyyə fi Adabil-Bəhs" əsərinin XVI-XIX əsrlərdə köçürülmüş 30-a qədər nüsxəsini aşkarlamışıq (17,I. 82-89). Bu əsərin iki əlyazma nüsxəsi mətnşünas alim Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadənin kolleksiyasında A-100, B-6713 şifri altında mühafizə olunur (9,I.139-140)."Haşiyə ələ Şərhir-Risalətil-Ədudiyyə fi Adabil-Bəhs" əsərnin bir çox kitabxana, muzey və əlyazmalar xəzinələrində onlarla nüsxələri mövcuddur, xüsusən də Türkiyənin kitabxanalarında.AMEA Əlyazmalar İnstitutunda "Haşiyə ələ Şərhir-Risalətil-Adudiyyə fi Adabil-Bəhs" əsərinin ən qədim nüsxəsi B-8674 şifrili əlyazmasıdır. Əlyazma məcmuənin 97b-121b vərəqlərini əhatə edir. Həmin əsər katib Hidayət bin Məhəmmədcan bin Əhməd tərəfindən 1056/ 1646-cı ildə köçürülmüşdür (17,I,84).

Məhəmməd Qarabağinin digər bir əsəri isə"Calib əs-surur va salib əl-ğurur fil-muhadarat"dır (1,V,9794). O, bu əsəri İbn əl-Ərəbinin "Muhadaratul-əbrar musamarat əl-əxyar"ından bəhrələnərək yazmışdır (20,199)."Calib əs-surur va salib əl-ğurur fil-muhadarat" əsəri 23 məqalədən ibarət olub,fəlsəfə və kə-lama dair müxtəlif məsələlərdən bəhs edilir: Allah-Təalanın varlığı və birliyinin bilinməsi ilə dinə və axirətə aid əməllər, gözəl əxlaq və doğru yoldan uzaqlaşmalarla ixtilaf edənlərin qüsurları; elmlər və elm sahibləri, səltənət, vəzirlik, ədalət, bağışlama, ordu və silah; çalışmaq,zənginlik, fəqirlik və dünyada buna dair xüsuslar: eşq və sevgi; ziyarət, qardaşlıq və birlik-bərabərlik əsərin əsas ideasını təşkil edir. Məhəmməd Qarabağinin bu əsərinin onlarla əlyazma nüsxələri, dünyanın müxtəlif kitabxana,muzey və əlyazmalar xəzinələrində qorunub saxlanır. Onların əksəriyyəti Türkiyədə yayılmışdır.Professor Zakir Məmmədov əsərin ən qədim nüsxəsinin 1571-ci ilə aid olduğunu yazır(14, 275).

XV əsrdə Şamaxı şəhərində anadan olmuş Məhəmməd Dilşad əş-Şirvani Məhəmməd Qarabaginin bu əsərini türk dilinə tərcümə etmişdir (20, 198-204)

المحاضرات "Muhadarat" - ədəbi, dini və mədəni məlumatların çatdırıldığı bir janrdır. Lüğətdə, "bilik və təcrübəni bir toplumun hüzurunda çatdırmaq, onlarla elmi bir müzakirə aparmaq" mənasını verən mühazərə sözünün çoxluğu olan mühazərat, bir termin olaraq başqasının sözlərindən sitatlar gətirmək və bu cür sözləri toplayan ədəbi əsər növünə deyilir. Bu janrın belə adlanmasının səbəbi, aparıcı dövlət adamları və böyük alimlərin iştirakı ilə keçirilən məclislərdə qarşılıqlı sual - cavab şəklində söhbət və müzakirə şəklində başlamasıdır. İki alim arasındakı söhbətlər və mübahisələr müəyyən bir vaxtdan sonra bir kitaba çevrilmiş və bu əsərlərə muhadarat və ya məcalis deyilmişdi ().

"Muhadarat" sahəsində yazılan ilk əsər Əbu Ubeydə Mamər b. Müsənnanın "əl - Muhağarat vəl - muxavərat" adlanır. Əbu Əli ət - Tənuhi "Nişvarül - muhağara və əxbarul - muzakərə", "əl - Mustəcad min failətil - əcvadvə əl - Fərəc badə - əş - şiddə"kitablarının müəllifidir. Əbu Əli ət - Tənuhi birinci əsərində bəzi vəzirlərlə xalqın adət - ənənələrindən, ikincisində isə əmirlər və xəlifələr haqqında, Əhli Beyt və xüsusən də Bərməkilər haqqında məlumatlar verilmişdir. Üçüncü əsərdə isə sıxıntılardan sonra

gələn rahatlıq və xoşbəxtlik haqqında lətifələrdən söhbət açılır. Əbu Hayyan ət - Tohidinin, Büveyhi Vəziri İbn Sədanın qaldırdığı məsələlər ətrafında inkişaf edən və qırx gecə davam edən "əl - İmtal - muannəsə", müəllimi Əmir Süleyman əl - Sicistanın evində təşkil olunan fəlsəfi iclaslrla əlaqədar "əl - Muqabəsati"da bu sahədə yazılan ilk əsərlədən biridir. Şeyxul Əkbər adı ilə məşhur olan Məhyəddin Məhəmməd bin Əli İbn əl - Ərəb (638/1240) muhadarat sahəsində "Muhadarat əl - Əbrar musamarat əl - əxyar fi ədəbiyyat və əl - Nəvadr va əl - Əxbar" adlı bir əsər yazmışdır (21, XXX, 392).

Şərq əlyazmaları kataloqlarından İbn əl - Ərəbinin "Muhadarat..." əsərinin dünyanın bir çox kitabxana və muzeylərində qorunub saxlanan bir neçə əlyazma nüsxələrini aşkarlmışıq. İraqda əsərin iki nüsxəsi, biri h. 995/1586-cı ildə Katib Dərviş bin Məhiyyəddin tərəfindən köçürülüb, o biri nüsxənin köçürülmə tarixi yoxdur . İstanbulda h. 999/1591, h. 1020/1611-ci illərdə köşürülmüş iki Almaniyada beş nüsxəsi: bunlardan üçü h. 1100/1688-ci, ikisi isə 1050/1640,1150/1737-ci illərdə köçürülmüşdür (22, III, 357-358;23)."Muhadarat..." əsərinin bir əski çap nüsxəsini AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitututunda ilkin olaraq aşkarlamışıq . Bu əsər 1906-cı ildə Misirin "Səadət" mətbəəsində nəşr olunmuşdur. Əsər iki hissədən ibarətdir: birinci hissənin əvvəli naqisdir və bir vərəqi düşüb. "Muhadarat..." əsərin 12-ci səhifəsində verilir ki: birinci hissə "Məsamarat əl-Əbrar va muhadarat əl-əxyar" adlanır. Bu hissə aşağıdakı fəsillərdən ibarətdir: "İnsanların onu xatırladıqları", "Kəslərə bağlı sənədlərin qeydi", "Peyğəmbər (s.) nəsəbi", "Peyğəmbər (s.) nəsəbi, anasının nəsəbi, süd anasının nəsəbi, süd tərəfdən valideyn (ata) nəsəbi, süd bacıları nəsəbi". "Rəhbərlərin sayı (12 rəhbər) yaxınları, dostları" və s. "Məsamarat" əsəri, kitabın 12-286-cı səhifələrini əhatə edir. Əsərin birinci hissəsini fehristi 282-286-cı səhifələrdə verilib. İkinci hissə "Kitəb muhadarat əl-Əbrar va məsamarat əl-əxyar fi əl-ədəbiyyat van-nəvadr va-l-əxyar" adlanır. Bu aşağıdakı fəsillərdən ibarətdir: "Həya və səbr", "Peyğəmbər (s.) anası ona hamilə olarkən gördüyü röya", "Yazışmada gözəl tələffüz (bəlağət)", "Gözəl cavab", "Saatın bəndləri" və s. Əsər 2-288-ci səhifələri əhatə edir. İkinci hissənin fehristi 1-4-cü səhifədə verilib (24).

Məhəmməd əl-Qarabaği də İbn əl-Ərəbinin "Muhadarat əl-Əbrar musamarat əl-əxyar fi ədəbiyyat və əl-Nəvadr va əl-Əxbar" əsərindən bəhrələnərək "Calib əs-surur və salib əl-ğurur fi-l-muhadat" adlı əsərini yazmışdır (25,74-79;21,XXX,392). Professor Zakir Məmmədov "Azərbaycan fəlsəfəsi tarixi" ktabında Məhəmməd Qarabağinin "əl-Muhdarat" ("Mühazirələr") əsəri haqqında məlumat verərək: "...Dünyanın müxtəlif kitabxanalarında on beşdən çox əlyazmasının saxlanıldığını və onların əksəriyyətinin Türkiyədə yayıldığını, ən qədim nüsxəsinin isə 1571-ci ildə köçürüldüyünü" yazır (14,275).

Araşdırmalarımız nəticəsində bu əsərin Türkiyə kitabxanalarında saxlanan 13 nüsxəsini aşkar etmişik (25,77).

"əl-Muhdarat" əsəri 23 məqalədən ibarətdir. Burada fəlsəfə və kəlama dair müxtəlif məsələlərdən bəhs edilir: Allah - təalanın varlığı və birliyinin bilinməsi ilə dinə və axirətə aid əməllər; gözəl əxlaq və doğru yoldan uzaqlaşmalarla ixtilaf edənlərin qüsurları; elmlər və elm sahibləri; səltənət, vəzirlik, ədalət, bağışlama, ordu və silah; çalışmaq, zənginlik, fəqirlik və dünyada buna dair xüsuslar: eşq və sevgi; ziyarət, qardaşlıq və birlik - bərabərlik.

Böyük islam alimi Seyyid Əhməd əl - Hüseyin Ayətullah əl - Uzma əl - Mərəşi əl - Nəcəfi "Turasil arabiyyə fi xəzənih maxtutat məktəbət" kitabında (8, IV, 469-470) bu əsərin 1039/1630-cu ildə katib Abdurrəhim bin Məhəmməd bin Mustafi bin Bustan bin Mahmud tərəfindən köçürülmüş bir nüsxəsi haqqında məlumt verir. Əsərin ədəb elminə aid olduğunu və 23 məqalədən: "Birinci məqalə tohid, ikinci məqalə əxlaq, üçüncü məqalə elm və elm əhli haqqında, dördüncü məqalə səltənət və vəzirlik, beşinci məqalə məhkəmələr və hökmlər, altıncı yaxşılığa dəvət və pisliklərdən çəkindirmək, yeddinci hədiyyə bağışlama və ənam, səkkizinci qazanc, zənginlik və fəqirlik, doqquzuncu haram və əhvalın dəyişməsi, onuncu səfər və getdiyin yerdə qalmaq, on birinci qadınlar və övladlar, on ikinci əhval - ruhiyyə, on üçüncü eşq, on dördüncü ziyarət, on beş mədhiyyə və həcv, on altıncı təfaül, şeirdə vəzn, on yeddinci sual və cavab, on səkkizinci Peyğəmbərlər, sultanlar, vəzirlər, on doqquzuncu heyvanlar və zərb məsəllər, iyirminci xəstəlik və dəva, iyirmi bir həyat və qocalıq, iyirmi iki ölüm və miras, iyirmi üçüncü peşmançılıq və tövbə haqqında.

المقالة الاولى: فيما يتعلق بتوحيد الله و معرفته و الدين و عمل الاخرة.

المقالة الثانية: فيما يتعلق بمكارم الاخلاق.

المقالة الثالثة: فيما يتعلق بالعلوم و اهلها وما ينتمي إليها.

المقالة الرابعة: فيما يتعلق بالسلطنة والوزارة.

المقالة الخامسة: في القضاء و الحكومة و ما يتعلق بها.

المقالة السادسة: فيما يتعلق بالامر بالمعروف و النهي عن المنكر.

المقالة السابعة: فيما يتعلق بالهدية و الرشوة و الوعد و الانعام.

المقالة الثامنة: فيما يتعلق بالكسب و الغني و الفقر و الدنيا.

المقالة التاسعة: فيما يتعلق بالحرمان و تبدل الأحوال.

المقالة العاشرة: في السفر و الاقامة و ما يناسبها.

المقالة الحادية عشرة: في لاكر النساء و الاماء و الاولاد.

المقالة الثانية عشرة: فيما يتعلق بالمزاح.

المقالة الثالثة عشرة: فيما يتعلق بالعشق و الموبة.

المقالة الرابعة عشرة: في الزيارة والاخاء و الوحدة.

المقالة الخامسة عشرة: فيما يتعلق بالمدح و التفاخر و الثناء و الهجو.

المقالة السادسة عشرة: فيما يتعلق بالتفاؤل و التطير.

المقالة السابعة عشرة: فيما يتعلق بالسؤال و الجواب.

المقالة الثامنة عشرة: في المكاتيب من الانبياء و الخلفاء و السلاطين و الوزراء.

المقالة التاسعة عشرة: فيما يتعلق بالحيوانات و ضرب الامثال بها.

المقالة العشرون: فيما يتعلق بالا مراض والادواء.

المقالة الحادية و العشرون: فيما يتعلق بالعمر و الشيب.

المقالة الثانية و العشرون: فيما يتعلق بذكر الموت و المراثي.

المقالة الثالثة و العشرون: فيما يتعلق بالتوبة و التحسر.

Osmanlı alimi Məhəmməd Tahr Bursalı “Osmanlı müəllifləri” ktabında yazır ki, XV əsrdə Şamaxı şəhərində anadan olmuş Məhəmməd Dilşad əş-Şirvani Məhəmməd Qarabaginin bu əsərini türk dilinə tərcümə etmişdir (21, XXX, 392). T.e.d. Fərid Ələkbərov “Şərqin minbir sirri” kitabında (26,3-5) və “Məşhur Orta əsr Azərbayçan həkimləri” məqaləsində Dilşad Şirvaninin tibbə dair əsərlərinə toxunaraq qeyd edir ki: “Məhəmməd Dilşad Şirvani XV əsrdə yaşamışdır. Bu Şamaxılı həkim “Kəmalnamə” (“Kamillik haqqında kitab”), “Müxtəsərüt-tibb” (“Müxtəsər tibb”, 1437-1438) kimi kitabların müəllifidir”.

YENLİKLƏR

Məhəmməd Qarabağinin dünya kitabxanalarında olan əsərlərini aşkarlayıb tədqiqata cəlb etmişik.Xüsusən onun “Calib əs -surur va salib əl-ğurur fil-muhadarat” əsəri ilkin olaraq tədqiqata cəlb etmişik.

NƏTİCƏ

Orta əsrlərdə yaşamış azərbaycanlı alim Məhəmməd Hənəfi ət - Təbrizi Qarabaği Azərbaycan elminə dəyərli əsərlər bəxş etmişdir. Təəssüflər ki, onun əsərlərinin əksəriyyəti xarici ölkələrin kitabxana, muzey və əlyazmalar xəzinəsində saxlanır. Məhəmməd Hənəfi ət -Təbrizi Qarabağinin əsərlərini toplayıb nəşr etdirmək Azərbaycan elminə və xalqına dəyərli bir töhfə olar.

ƏDƏBİYYAT

1. Dünya Kütüphanelerinde Mevcut İslam Kültür Tarihi İlə İlgili Eserler Ansiklopedisi/

Hazırlayanlar: Ali Rıza Karabulut - Ahmed Turan Karabulut, I-VI, - Kayseri-Türkiye .

اسماعيل پاشا البغدادى، هداية العارفين، استانبول، ١٩٥١، الجلد الاول، ٨٤٠ص، الجلد الثانى، ١١٦+٥٧٤، ١٩٥٥

عمر رضا كحاله، معجم المولفين ١ـ٤، بيروت، الجزء الثالث، ٩٥٠ص، الجزء الرابع ٥٨١

4.Описание арабских рукописей, принадлежащих библиотеке Императорского Казанского университета. Казань, 1854-1855, 302с.

5.Краткий каталог под редакцией А.Б.Халидова. Академия Наук СССР Ордена Трудового Красного Знамени Институт Востоковедения. Часть 1, Москва, 1986, 526с; часть 2, Москва, 1986, 335с.

6.Brockelmann C. Geschichte der Arabischen litteratur, I-II, 1943-1949, SB-Supplementbande, Leiden – E.J.Brill, I, 1937-1938, III, 1942.

7.Семенова А.А. Собрание восточных рукописей Академии Наук Узбекской ССР, под редакцией и при участии проф.А.А.Семенова. I-XXX, Ташкент, 1952-1967.

السيد احمد الحسينى آية العظمى المرعشى النجفى، التراث العربى فى خزانة مخطوطات مكتبة، ايران – قم، الجزء ا

لسابع ٣٥٢ص، ١٠٨٥، الجزء السادس، ٣٣٥، الجزء الرابع ٣٣٤

9.Şərifli K. Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadə Kitabxanasının Kataloqu. Ic. Bakı, Nurlan, 2009.

10.Агаева Н. Азербайджанские языковеды средневековья.Баку, “Элм”,1990,89с

11.Türkiye Yazmaları Toplu Kataloğu. Ankara, 1984, 203 s.

12.Добраджа К. Каталог арабских, турецких и персидских рукописей. Сараево, 1963, Iт., 607с, 1979, IIт., 1043с., 1991, III т., 518с.

1. حاجى خليفة و بكاتب چلبى كشف الظنون عن اسامى الكتب و الفنون، جلد ١ـ٢، الجلد الاول، ٤٨+٩٣٨، الجلد الثانى، ٢٠٥٦ص. استنبول ١٩٤١ـ١٩٤٣.

14.Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi, Bakı, “İrşad”, 1994.

15.Bursalı M.Tahir. Osmanlı Müellifləri, I- III ciltde, İstanbul, 1333, II.

16.Şəmsəddin Sami. Qamus əl-əlam. V, İstanbul, 1316.

17.Каталог арабских рукописей. Академия Наук Азербайджанской ССР Республиканский рукописный фонд. Том 1. Баку, «Элм», 1984.

18. Şirinova R. “Məhəmməd Qarabaği və onun “Şərh ədəbil-bəhs”əsərinin dünya əlyazmaları xəzinəsində nüsxələri”. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu “Azərbaycan əlyazmaları dünya kitabxanalarında” mövzusunda II Beynəlxalq elmi-nəzəri konfransın materialları 2017-ci il.

19. Rieu, Charles. Catalogue of the Arabic Manuscripts in the British Museum, Reprint, Osnabrück, 1978.

20.Şirinova R.BN ƏL-Ərəbinin əsərlərinin qədim nüsxələri.Dövlət və din ictimai fikir toplusu.İyul-avqust-2010.4(18).

21.Hüseyin Yazıcı / MUHÂDARÂT, TDVİA, - XXX, - İstanbul, - 2005.

22. . فهرس مخطوطات مكتبة كوپريلى، ١ـ٣، استنبول، ١٤٠١.الجلد الاول، ٦٠٩ص، الجلد الثانى، ٦٤٨ص، الجلد الثالث، ٦٣٨ص

23.http://nek.istanbul.edu.tr › ekos › TEZNaci Kazan // “Karabağı ve Calib as - Sururu”, - İstanbul, - 1991, Doktora tezi İstanbul Üniversitesi Sosyal Bilimler Ensistutusi Arap dili ve Edebiyyatı Ana Bilim Dalı.

24. İbn əl-Ərəbi.Muhadaran əl - Əbrar musamarat əl - əxyar fi ədəbiyyat vəl - Nəvadr va əl- əxbar.V-

253, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.

25.Şirinova R. “ Calib əs-Surur sahib əl-ğurur fil-muhadarat” əsəri və onun müəllfi. AMEA Filologiya və Sənətşünaslıq jurnalı №1, 2021.

26.Ələkbərov F. / Şərqin minbir sirri, - Bakı, -Məlhəm, - 2009 .

NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA TOLERANTLIQ

TOLERANCE IN NIZAMI GANJAVI'S CREATIVITY

Mətanət Muradova

AMEA Məhəmməd Füzuli adına

Əlyazmalar İnstitutu, baş mütəxəssis

Qaraqız Vəlizadə

AMEA Mərkəzi Elmi Kitabxana

Açar sözlər: Nizami, Gəncə, mədrəsə, şair, şeir

Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi böyük ədəbi şəxsiyyətlərdən biri olan görkəmli şair və mütəfəkkir Nizami Gəncəvi ölməz əsərləri ilə dünya şöhrəti qazanmışdır.

Nizami Gəncəvinin adı dünya ədəbiyyatının ən görkəmli klassikləri sırasında çəkilir. Şərqdən doğan ədəbiyyat günəşi olan Nizami Gəncəvi (1141-1209) özünün böyük və əbədiyaşar sənəti ilə bütün bəşəriyyətə məxsus qüdrətli ədəbi şəxsiyyətdir.

Nizami Gəncəvi 1141-ci ildə Azərbaycanın qədim Gəncə şəhərində anadan olmuşdur. Tarix boyu Gəncə şəhəri həmişə Azərbaycana aid olmuş, bu şəhərdə azərbaycanlıların ulu babaları olan oğuz tayfaları yaşamışlar. Özünə Nizami Gəncəvi təxəllüsü qəbul etmiş İlyas Yusif oğlu təhsilini Gəncə mədrəsələrində almış, daha sonra şəxsi mütaliyə yolu ilə orta əsrin elmlərini mükəmməl öyrənmiş, xüsusən də Yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına yaxından bələd olmuşdur. Türk dilindən başqa ərəb və fars dillərini də mükəmməl bilən şairin Yunan dili ilə də tanış olduğu, həmçinin qədim yunan tarix və fəlsəfəsini, astronomiya, tibb və həndəsə elmlərini yaxşı mənimsədiyi əsərlərindən aydın görünür. Ömrü boyu Gəncədə yaşamış, saray şairi olmaqdan qətiyyətlə imtina etmiş, halal zəhməti ilə dolanmışdır. Təqribən 1169/1170-ci ildə Dərbənd hökmdarı Seyfəddin Müzəffərin kəniz kimi hədiyyə göndərdiyi qıpçaq qızı Afaq (Appaq) ilə evlənmiş, 1174-cü ildə oğlu Məhəmməd anadan olmuşdur.

Nizami Gəncəvi yaradıcılığa lirik şeirlərlə başlamışdır. Əsərlərindən məlum olur ki, şair böyük divan yaratmış, qəzəl və qəsidələr müəllifi kimi şöhrətlənmişdir. Lakin Şərq təzkirəçilərinin 20 min beyt həcmində olduğunu qeyd etdikləri bu divandakı şerlərin çox az hissəsi dövrümüzədək gəlib çatmışdır. Nizami Gəncəvi bütün yaradıcılığı boyu lirik şerlər yazmış, sonralar poemalarında irəli sürdüyü mütərəqqi ictimai-fəlsəfi fikirlərini ilk dəfə həmin şerlərində ifadə etmişdir.

Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. İrqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edən bu şairin qəhrəmanları içərisində türk, fars, ərəb,çinli, hindli, zənci, yunan, gürcü və s. xalqların nümayəndələrinə rast gəlirik. Hümanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyətinə, dini görüşlərinə qarşı çıxmır. Onun qəhrəmanları ədalət, xalq xöşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparırlar. İnsan şəxsiyyətinə, insan əməyinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır.

ABSTRACT

Prominent poet and thinker Nizami Ganjavi, one of the great literary figures donated to the treasury of human culture by the people of Azerbaijan, has gained world fame with his immortal works.

Nizami Ganjavi is mentioned among the most prominent classics of world literature. Nizami Ganjavi (1141-1209), the sun of literature born in the East, is a powerful literary figure of all mankind with his great and eternal art.

RİYAZİYYAT DƏRSLƏRİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARININ ROLU. İNFORMASİYA CƏMİYYƏTİNƏ KEÇİD

THE ROLE OF INFORMATION TECHNOLOGIES IN MATHEMATICS. TRANSITION TO THE INFORMATION SOCIETY

Abbasova Almarə Əlisa qızı

Azərbaycan Dövlət Pedaqoji Universiteti

ÖZET

İnformasiya və kommunikasiya müasir modeli riyaziyyatla əlaqəli pedaqoji fəaliyyətlərdə bir sıra əsaslı xüsusiyyətlərə malikdir. Qeyd edək ki, hər bir müəllim və şagird öz tədris-tədris fəaliyyətlərində bundan yüksək dərəcədə istifadə etməlidirlər. Bir çox tədqiqatlar göstərmişdir ki, müəllimlərin Permute (çevirmək, dəyişdirmək) pedaqoji bacarıqları, tədris səmərəliliyi, peşə bacarıqları, məzmun bilikləri və tədris bacarıqları, ünsiyyət bacarıqları, riyazi anlayışı, əyləncəli öyrənməni təşviq etmək, tələbələrə riyazi problemlərin həlli ilə məşğul olmağı öyrətməkdə əvzsiz rolu vardır.

İdarəetmə işinin səmərəliliyinin artırılmasının əvəzsiz şərti çevik, mobil və xarici təsirlərə uyğunlaşa bilən optimal informasiya texnologiyasıdır.

İnformasiya texnologiyası informasiya və kompüter texnologiyaları ilə səriştəli işləmək bacarığını nəzərdə tutur.İnformasiya texnologiyası obyektin, prosesin və ya hadisənin vəziyyəti haqqında yeni keyfiyyətli məlumat əldə etmək üçün məlumatların toplanması, işlənməsi və ötürülməsi üçün alətlər və metodlar toplusundan istifadə edən prosesdir. İnformasiya sferasına fərdi kompüterin tətbiqi və telekommunikasiya vasitələrindən istifadə informasiya texnologiyalarının inkişafında yeni mərhələni müəyyənləşdirdi. Məqalədə məqsədi informasiya texnologiyalarının xüsusiyyətlərinin nəzəri araşdırılmasıdır:

Ümummilli Liderin Azərbaycana rəhbərlik etməyə başladıgı 1969-cu ildə bütünlüklə Azərbaycan keçmiş SSRİ-də ,demək olar ki, iqtisadiyyatı ən geridə qalmış respublikalardan biri olmuşdur. XX əsrin 60-cı illərində bütün respublikada oldugu kimi Şamaxının iqtisadiyyatı da geridə qalmışdı. O cümlədən rayonun kənd təsərrüfatı, aqrar sahələri bərbad vəziyyətdə olmuşdu. Rayonun taxılçılıq,heyvandarlıq və üzümçülükə məşgul olan kolxoz və sovxozları müəyyən səbəblərdən ziyanla işləmiş,verilən plan və tapşırıqları yerinə yetirə bilməmişdi. Rayonda həmin illərdə üzüm istehsalı da azalmış,böhran

vəziyyətinə düşmüşdü. Belə vaxtda istehsalın bütün sahələrində gerilik iqtisadiyyatı iflic halına salmışdı. Həmin dövrün arxiv materialları da bunu bir daha təsdiq edir. "Belə ki,1966-1969-cu illərdə təxminən hər hektardan 5-10 sentner dənli bitkilər,50-100 sentner tərəvəz,25-30 sentner üzüm,10-13 sentner meyvə və s. istehsal olunurdu. Şamaxıda üzümçülük və şərabçılıgın inkişafına əlverişli şərait olmasına baxmayaraq bu imkandan səmərəli istifadə olunmurdu.Rayonda həmin illərdə vur-tut 25-30 min ton üzüm istehsal edilirdi. İctimai heyvandarlıqda vəziyyət daha acınacaqlı bir şəkil almışdı."**[** 2,11]

Belə bir vaxtda çökmüş iqtisadiyyatın dirçəldilməsi,təsərrüfat sahələrinin inkişaf etdirilməsinə nail olmaq çox çətin idi. Ölkə iqtisqdiyyatında yaranmış durgunlugu aradan qaldırmaq üçün cəsarətli addımlar atnmaq lazım idi. Bütün bunlara baxmayaraq Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan ,o cümlədən regionlar,onlardan biri kimi Şamaxı da böyük inkişaf yoluna qədəm qoydu. Respublikada təkcə 1970-82-ci illərdə sənaye istehsalı 2,7 dəfə artmış,on üç il ərzində 101,5 milyard manatlıq məhsul istehsal olunmuşdu. Bu əvvəlki 50 ilin istehsalına bərabər idi. " [3].

Ötən əsrin 70-ci illərindən başlayaraq Dahi rəhbərimizin Şamaxıya olan daim diqqət və qaygısının nətəcəsi olaraq iqtisadi,mədəni sahələrdə də irəliləyişlər özünü büruzə vermişdi. Onun şəxsi tapşırıgı və göstərişi ilə 1978-ci il yanvarın 21-də "Şamaxı rayonunun iqtisadiyyatını və mədəniyyətini daha da inkişaf etdirmək tədbirləri haqqında"mühüm dövlət qərarı qəbul edilmişdir.Əslində Şamaxı bu qərardan sonra yenidən tikilib qurulmuş,onun infrastrukturu möhkəmləndirilmiş,iqtisadi və mədəni inkişafı təmin olunmuşdur". Artıq 70-ci illərin əvvəllərində Şamaxının iqtisadi sahədə dirçəlişi nəzərə çarpmaqda idi. Xüsusən də Heydərv Əliyevin təşəbbüsü ilə "Azərbaycan SSR-də üzümçülüyün və şərabçılıgın inkişaf etdirilməsi haqqında 1979-cu ildə qəbul edilən qərardan sonra bütün iqtisadi rayonların ərazisində üzümçülük inkişaf etdirilərək ixtisaslaşdırılmış sahələrdən birinə çevrildi. O cümlədən Şamaxıda da üzümçülükdə,şərabçılıqda istehsal artmışdı. Üzüm plantasiyaları sürətlə genişləndirilməyə ,bagların becərilməsinə qaygının artırılmasına ,rayonda həmin illərdə mövcud kolxozların bazasında 20 ixtisaslaşdırılmış üzümçülük kolxozu yaradılmışdı.

Şamaxı rayonu getsikcə üzümçülük və şərabçılıq sahəsində nəinki respublikada ,eləcə də keçmiş ittifaq səviyyəsində şöhrətlənirdi.1980-cı ildə Şamaxı rayon fəallarının yıgıncagındakı dərin məzmunlu, proqram xarakterli çıxışında Uəu Öndərimiz qeyd etmişdi ki,"Şamaxı həm də üzümçülüyün ən qədim məskənlərindən biridir. Hazırda o respublikada üzümçülüyün inkişafı üzrə mərkəzə çevrilmişdir." Buna görə də1970-82-ci illərdə Şamaxıda 14 yeni şərab emalı zavodu tikilib istifadaəyə verilmişdi. Həmin şərab zavodlarında ildə orta hesabnla 170 min dekalitr şərab,20 min dekalitr konyak istehsal edilirdi. Dəfələrlə də 1980-cı illərdən başlayaraq Şamaxı şərabları dequstasiya sərgisində dəfələrlə qızıl,gümüş medallara və fəxri diplomlara layiq görülmüşdü.

Ümumiyyətlə iqtisadiyyatın ,eləcə də mədəniyyətin bütün sahələirində XX əsrin 70-80-cı illəri böyük yüksəliş və intibah mərhələsi olmuşdur. Keçmiş arxiv materialları və rəqəmləri də bu inkişafı parlaq şəkildə əks etdirir. "Rayon üzrə kapital qoyuluşu 1982-ci ildə 1970-ci ilə nisbətən 14,2 faiz artmışdır. Ümumililkdə Şamaxıda 1982-ci ildə 1970-ci ilə nisbətən taxıl istehsalı 44 faiz,tərəvəz istehsalı 90 faiz,ət istehsalı 19,8 faiz ,süd istehsalı 10,5 faiz ,yun istehsalı 32 faiz,yumurta istehsalı 3,8 faiz çoxalmışdı. Həmin ildə 1969-cu ilə nisbətən Şamaxının üzümçülük təsərrüfatları üzrə məhsul istehsalı dörd dəfədən çox artmışdı. [3]

Ulu Öndərimizin Şamaxı ilə əlaqədar 1978-ci il 21 yanvar tarixli qərarından sonra rayonda 46 təhsil,6 mədəniyyət,8 səhiyyə müəssisələri və yüzlərcə yeni obyektlər tikilib istifadəyə verilmişdir. Həmçinin 70-ci illərdə 80-cı illərin əvvələrində Şamaxıda doqquz mərtəbəli mehmanxana,yag-pendir zavodu, yem zavodu, 5 min yerlik stadion,çörək zavodu, univermaq, avtobaza və s. tikilmişdir.

Ümummilli Liderimizin digər bölgələr kimi Şamaxı rayonu üçün də gördüyü işlər ölçüyə gəlməzdir. Bunlar içərisində Şamaxının Çöl-Göylər kəndinə dəmir yolunun çəkilişinin həyata keçirilməsini də ayrı-ayrı kənd yollarının asvaltlaşdırılması, rayonun işıq, qazla təmin edilməsi işinin yaxşılaşdırılmasını.mədəniyyət ocaqlarının yaradılması,dini abidələrimizin qorunub saxlanması istiqamətində görülən işləri də qeyd etmək olar.

Ulu Öndərimiz bütün bölgələrə,o cümlədən Şamaxıya ,onun iqtisadi və mədəni cəhətdən dirçəldilməsinə təkcə hakimiyyətinin birinci mərhələsində deyil,xalqın təkidli xahişi ilə ikinci dəfə gəlişindən sonra da diqqət və qaygı ilə yanaşmışdı.Onun ikinci dəfə hakimiyyətə qayıdışından əvvəl də ölkəmizdə ,o cümlədən rayonda da mürəkkəb , xaos, özbaşnalıqlar baş alıb gedirdi. Yalnız Ulu Öndərin möhtəşəm qayıdışından sonra ölkənin parçalanmasının qarşısı qətiyyətlı alındı,sabitlik yaradıldı. Yalnız bundan sonra ölkə ,o cümlədən də rayon iqtisadiyyatı nın dirçəldilməsinə, sosial, mədəni inkişafın sürətli tərəqqisinə nail olmaq mümkün oldu. Respublikada həyata keçirilən islahatlar həm də Şamaxıda da ugurla həyata keçirildi. Dahi rəhbərimizin təşəbbüsü ilə həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatı və digər sahələrdə mühüm nəticələr əldə edildi,cəmiyyət həyatının demək olar ki, bütün sahələrində dönüş yarandı.

Ulu Öndərimizin birinci dəfə hakimiyyətdə oldugu dövrdəki kimi, hakimiyyətinin ikinci mərhələsində də mədəniyyətin ,təhsilin inkişafını vacib bir sahə saymış və bu sahədə də nailiyyətlərin Şamaxıda da yüksəlişinə nail olmunmuşdur. Şamaxı rayonunda da məktəblərin ,uşaq bagçalarının,mədəni maarif müəssisələrinin,kitabxanaların tikintisi, bəzilərinin isə bərpa olunması,rayonda həmin vaxt fəaiyyət göstərən texnikumların və yeganə ali təhsil müəssisəsi olan Azərbaycan Müəllimlər İnstitutunun fəaliyyətinin genişləndirilməsi əhəmiyyətə malik olmuşdur.

Əsası Ulu Öndər tərəfindən qoyulan bu sosial-iqtisadi və mədəni inkişaf siyasəti bu gün Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən ugurla davam etdirilir. İqtisadi yüksəliş,sosial tərəqqi, mədəni intibah son illər qədim Şamaxının tarixi reallıqlarıdır.Ümummilli liderimizin davamçısı cənab Prezidentin diqqət və qaygısı nəticəsində artıq Şamaxı rayonu dinamik inkişaf yoluna çıxmışdır.Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında Şamaxı rayonu üzrə nəzərdə tutulmuş bütün tədbirlərin ugurla davam etdirilməsi əsasən təmin edilmişdir.Cənab Prezidentimiz İlham Əliyev qeyd etmişdir ki"Şamaxı dünya miqyasında ən rahat,abad və gözəl təbiətə malik olan şəhərə şevriləcəkdir."[4].Ölkə başçımız İlham Əliyev "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı "nın təsdiq edilməsi haqqında Fərmanlar imzalamaqla,onun həyata keçirilməsi nəticəsində həm də Şamaxıda da iqtisadiyyatın inkişafının davamlılıgının təmin edilməsi, mədəni tərəqqi və sosial xidmətlərin daha da yaxşılaşdırılması istiqamətində işləri ugurla həyata keçirilməkdədir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATLAR

1.Səməd Hüseynoglu."Şamaxının yeniləşən ab-havası".Xalq qəzeti .2mart 2008-ci il,№4.(25814).

2.Heydər Əliyev və Şamaxı.Bakı. Nurlan 2005.(səh 11) 112 səh.

3." Müasir Şamaxı Heydər Əliyev istəklərinin təntənəsidir. "Səs"qəzeti 11 aprel 2008-ci il. №63.(3102).

4.Şamaxı.2003-2013:hədəflər,inkişaf,nəticələr.Bakı2013.

TATARISTAN RESPUBLİKASININ DİL SİYASƏTİ

Arzu Kərimova

Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

Açar sözlər: etno-linqvistika, dil, milli azlıqlar, dövlət dili.

Keywords: ethno-linguistics, language, national minorities, state language.

Tatarıstan Respublikası Rusiya Federasiyasının subyektidir. 2002-ci il Ümumrusiya əhalinin siyahıyaalınmasına əsasən, respublikanın əhalisi 140 milləti birləşdirir. Onun əsas hissəsini tatarlar (52,9%) və ruslar (39,5%) təşkil edir. Respublikada etno-linqvistik vəziyyət rus və tatar dillərinin funksional qarşılıqlı əlaqəsi ilə müəyyən edilir.

Tatarıstan əsrlər boyu müxtəlif millətlərdən olan xalqların birgə yaşayışının, dillərin və mədəniyyətlərin qarşılıqlı əlaqəsinin norma hesab olunduğu çoxmillətli dövlət kimi inkişaf etmişdir. 1990-cı illərin əvvəllərində Tatarıstan Respublikasında linqvistik vəziyyət rus dilinin respublika həyatının bütün sahələrində mütləq üstünlük təşkil etməsi ilə xarakterizə olunurdu. Uşaq bağçalarında tatar dilindən istifadə olunmurdu, məktəblərdə tatar dili dərsləri istəklə bağlı idi və əslində cədvəldə nominal olaraq, yalnız tatar millətindən olan uşaqlar üçün mövcud idi və praktiki olaraq keçirilmirdi. Ali təhsildə tatar dilindən də praktiki olaraq istifadə olunmurdu. Rayonlarda az sayda milli məktəblər var idi, lakin onların məzunları peşə məktəblərinə və ali məktəblərə daxil olmaqda böyük çətinliklərlə üzləşirdilər. Beləliklə, dil islahatları başlayanda tatar dilinin böhranlı durumundan, onun nüfuzdan düşməsindən və respublika tatarlarının milli mənlik şüurunun aşağı səviyyədə olmasından danışmaq olardı. 1990-cı illərin əvvəllərində tatarların yalnız 49,2%-i öz ana dilini yaxşı bilirdi, tatar dilində danışan rusların sayı 1,1 faiz təşkil edirdi ki, onların da əksəriyyəti kənd sakinləri idi. Dil millətin simvoludur. O, etnik qrupun həyatında əsas rol oynayır. Dinamik sosial dəyişikliklərin baş verdiyi müasir şəraitdə milli dilin etnik dəyər və milli dirçəliş simvolu kimi əhəmiyyəti artır. Dilin cəmiyyətdəki mövqeyini, inkişafını dil siyasəti müəyyən edir. Dil siyasəti dövlətin milli siyasətinin aspektlərindən biri olmaqla dilin cəmiyyətdə fəaliyyətinə dövlətin şüurlu təsiridir. Dil siyasəti cəmiyyətin həyatını, dillərin mövcudluğu şərtlərini, istifadə dairəsini həyata keçirir və bununla da dil vəziyyətinə məqsədyönlü təsir göstərir. 1990-cı ildə Tatarıstan Respublikası Dövlət Suverenliyi haqqında Bəyannaməni qəbul etdi, burada ilk dəfə dövlət səviyyəsində dillərin təkmilləşdirilməsi və inkişafı ideyası irəli sürüldü.

1992-ci ilin iyulunda respublikada "Tatarıstan Respublikası xalqlarının dilləri haqqında" Tatarıstan Respublikasının Qanunu qəbul edilmişdir. 1992-ci ilin noyabrında Tatarıstan Respublikasının Konstitusiyası tatar və rus dillərinin dövlət statusunu qanunla təsdiq etdi. Konstitusiyanın dördüncü maddəsində deyilir: Tatarıstan Respublikasında dövlət dilləri tatar və rus dilləri ilə bərabər hüquqlara malikdir.

GİRİŞ

Yuxarıda göstərilən sənədlər əsasında "Tatarıstan Respublikası xalqlarının dillərinin qorunması, öyrənilməsi və inkişafı üzrə Tatarıstan Respublikasının Dövlət Proqramı" hazırlanmış və təsdiq edilmişdir (20 iyul 1994-cü il). Proqramda dillər haqqında qanunun icrasına yönəlmiş bir sıra tədbirlər, onların icrası və nəzarəti üsul və mexanizmləri, icra qaydası və müddətləri, maddi-texniki baza, kadrlar, elmi-tədqiqat bazası ilə təmin olunub.

ARAŞDIRMALAR

1999-cu ildə nəşr olunmuş "Tatarıstan Respublikasının Dil Siyasəti Konsepsiyası"nın layihəsində müəlliflər Tatarıstan Respublikasının dil siyasətinin əsas prinsiplərini, məqsəd və vəzifələrini aydın şəkildə müəyyən etmişlər. Əsas prinsiplər bunlardır:

1.Beynəlxalq hüquq standartlarını, federal dil qanunvericiliyinin normalarını və Tatarıstan Respublikasının dil qanunvericiliyini əhatə edən dil münasibətlərinin hüquqi tənzimlənməsi prinsipləri.

2.Milli-dil münasibətləri sahəsində cəmiyyətin siyasi iradəsini ifadə edən prinsiplər. Bu prinsipə əsasən, respublikanın milli dil siyasəti cəmiyyətin konsolidasiyasını, onun iqtisadi, mədəni və intellektual tərəqqisini təmin etməlidir.

3. Tatarıstan Respublikasında dil vəziyyətinin xüsusiyyətlərini və milli dil siyasətinin davam edən funksiyalarını nəzərə alan sosiolinqvistik prinsiplər.

4. Dil siyasətində xarici təcrübədən uçot və rasional istifadə prinsipləri.

Tatarıstan Respublikasının dil siyasətinin əsas məqsədləri respublikanın dövlət dillərinin qorunub saxlanmasına və inkişafına, orada yaşayan bütün xalqların maraqlarının qorunmasına yönəlmişdir. Dil islahatlarının ilkin başlanğıcında prioritet vəzifələr arasında dil qanunvericiliyinin formalaşdırılması, təhsil sistemində dillərin fəaliyyət göstərməsi üçün hüquqi bazanın işlənib hazırlanması, tatar dilinin ali təhsil sistemində tədris predmeti və təhsil vasitəsi kimi ardıcıl və mərhələli inkişafı üçün tədbirlərin müəyyən edilməsi durur. Ortamüddətli vəzifələrə Tatarıstan Respublikasının şəhərlərinin, rayonlarının, qəsəbələrinin, müəssisələrin, təşkilatların, müəssisələrin sonrakı ikidilli işgüzar işə keçirilməsi üçün sosial-linqvistik sorğu sisteminin maddi-texniki bazasının inkişafı daxildir. [1,121].

Tatarıstan Respublikası xalqlarının milli və dil maraqlarının balansını qorumaq, tatar dilinin tam fəaliyyət göstərməsinə nail olmaq dil siyasətinin uzunmüddətli vəzifələri adlandırılmışdır. Dil islahatlarının optimallaşdırılması üçün Tatarıstan Respublikasının Nazirlər Kabineti yanında "Tatarıstan Respublikası xalqlarının dilləri haqqında" Tatarıstan Respublikası Qanununun həyata keçirilməsi üzrə Komitə yaradılmışdır. Komitənin tərkibinə tanınmış alimlər, yazıçılar, Tatarıstan Respublikası Dövlət Şurasının deputatları, dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ictimai təşkilatların nümayəndələri daxil idi. Dil siyasətinin əsas istiqamətləri üzrə yeddi ictimai komissiya yaradılmışdır:

1) Əhaliyə tatar dilinin tədrisi problemləri üzrə komissiya

2) Tatar dilinin müxtəlif ünsiyyət sahələrində istifadəsini sadələşdirmək komissiyası. Rusiya Federasiyası Ali Sovetinin "Rusiya Federasiyasının xalqlarının dilləri haqqında" Fərmanı (1994) müxtəlif peşə və vəzifələrdə çalışan işçilər üçün dil ixtisası tələblərinin işlənib hazırlanmasını nəzərdə tutur. Bu, Tacikistan Respublikasının dilləri haqqında qanunda da nəzərdə tutulub.

3) Terminoloji komissiya.

4) Tatar dilində xüsusi adların işlənməsinin nizama salınması komissiyası.

5) Kompüterdə dil siyasətinin həyata keçirilməsi komissiyası

texnologiyalar.

6) Rus dilinin və digər milli (tatar istisna olmaqla) dillərin tədrisinin təkmilləşdirilməsi komissiyası.

7) səlahiyyətlərinə xarici dillərin tədrisinin təkmilləşdirilməsi daxil olan Komissiya [1,182].

YENİLİKLƏR

Respublikanın rayonlarının bütün idarə və təhsil şöbələrinin kollektivinə rəislərin xalq təhsili üzrə müavinləri, rusdilli məktəblərdə isə direktor müavinləri təqdim edildi. Şəhər və rayon administrasiyaları yanında respublikanın dövlət dillərinin funksional inkişafı üzrə könüllülük əsasında komissiyalar, bundan əlavə, bir sıra şəhərlərin, o cümlədən paytaxt Kazan şəhərinin idarələri, millətlər, habelə bu şəhərlərin ərazisində yaşayan xalqların dillərinin və mədəniyyətlərinin inkişafı üçün fondlar yaradıldı. "Dillər haqqında" qanuna görə, məktəblərdə tatar və rus dilləri bərabər tədris olunmalıdır. Qanunun

qəbulundan sonra respublikada tatar məktəbləri və tatar dilində tədris olunan gimnaziyalar açılmağa başladı, məktəbəqədər təhsil müəssisələrində tatar qrupları yarandı. Çox inamlı olmasa da, tatar dili ali təhsil sahəsinə daxil edilməyə başladı.

Tatarıstan Respublikasının dil siyasətinin ən mühüm məqsədlərindən biri respublikada sülh və dostluq mühitinin qorunması idi. Hər yerdə başlayan dil islahatlarının rus əhalisi arasında müəyyən qorxular yaratdığını inkar etmək mümkün deyil. M.N. Quboqlo bunu belə izah edirdi: potensial olaraq mümkün olan və ya artıq həyata keçirilmiş titullu millətin dilinə dövlət dili statusunun verilməsi ruslara və ayrı-ayrı, qeyri-titul millətlərin nümayəndələrinə güclü psixoloji təzyiq göstərir [2, 22].

NƏTİCƏ

Lakin Tatarıstan Respublikasının rus və rusdilli əhalisinin qorxularının əsassız olduğu ortaya çıxdı. Əgər əvvəllər istisnasız olaraq bütün tələbələrin rus dili ilə bərabər həcmdə tatar dilini məcburi öyrənmələri ilə bağlı valideynlərin bəzi narazılıqlarına dair nümunələr var idisə, bu, heç bir ciddi etiraz aksiyası ilə nəticələnmədi, bu, əlbəttə ki, Tatarıstan Respublikasının uğurlu dil siyasətidir, çünki onun xalqları arasında dostluq çoxmillətli respublikanın əsas sərvətidir. Respublikada rus dilinin dövlət statusu tam şəkildə həyata keçirilir. Tatarıstanda rus uşaqlarının 100%-i ana dilində təhsil alır, rus etnik-linqvistik komponenti olan 32 gimnaziya var. "Tatarıstanda rus dili" məqsədli proqramı qəbul edilib və həyata keçirilir. Respublikanın dilləri haqqında qanuna əsasən, dövlətin bütün xalqlarının dilləri dövlət dəstəyinə malikdir və inkişaf etmək hüququna malikdir. Tatarıstanın çoxmillətli əhalisinin harmonik dil inkişafına yönəlmiş dil siyasətinin nəticəsidir ki, respublikada 148 çuvaş, 24 mari, 5 mordov, 45 udmurt məktəbi, o cümlədən 11 mari, 15 udmurt məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. [3, 22]. Milli-mədəni muxtariyyətlərin 34 bazar günü məktəbində respublikada yaşayan xalqların digər dilləri də öyrənilir. Tatar uşaqlarına gəlincə, onların yarıdan çoxu məktəbəqədər təhsil müəssisələrində öz ana dilində tərbiyə alır, halbuki islahatların əvvəlində onların 10,6 faizi var idi. Öz etnik ana dilində məktəb təhsili alan tatar uşaqların payı 12 faizdən 51 faizə yüksəlib. 2002-ci ilin siyahıyaalınmasının nəticələrinə görə, tatarların 92,4%-i ana dilində, tatarların 92,9%-i rus dilində danışırdı. Rus- tatar diasporu arasında 73,2% ana dilində danışır. Əgər 1989-cu il siyahıyaalınmasına görə tatar dilində danışan rusların sayı 1,1% idisə, 2002-ci ildə bu rəqəm 4,3% olmuşdur [4, 104].

ƏDƏBİYYAT SİYAHISI

1.Байрамова Л. К. Татарстан: языковая симметрия и асимметрия / Л.К. Байрамова. - Казань: Изд-во Казанского ун-та, 2001. - 267 с.

2. Губогло М. Н. Башкортостан и Татарстан. Параллели этнополитического развития. Очерк I. Плоды суверенизации. / М.Н. Губогло - М., 1994. С. 22.3.

3. Язык и этнос на рубеже веков: Этносоциологические очерки о языковой ситуации в Республике Татарстан. - Казань: Магариф, 2002. -208 с.

4. Сохранение и развитие языков: языковое планирование в Европе и России. Материалы международного семинара. 28-29 сентября 2004 г. Элиста. Республика Калмыкия, Российская Федерация. - Элиста: АПП «Джангар», 2005. - 360 с.

İBRAHİM HAKKI'NIN MARİFETNAMESİ'NDE İLAHÎ SIFATLAR

THE DIVINE ATTRIBUTES IN THE MARIFETNAME OF IBRAHIM HAKKI

Doç. Dr. M. Cüneyt GÖKÇE

Harran Üniversitesi

ORCID ID: https://orcid.org/0000-0002-8382-3787

ÖZET

Allah Teâlâ'ya iman etmek demek, O'nun zatı hakkında vacip olan kemal sıfatlarıyla, caiz sıfatları bilip, öylece inanmak, zatını noksan sıfatlardan uzak tutmaktır. Allah, şanına layık olan bütün kemal sıfatlarla muttasıftır. Allah'ın sıfatlarının hepsi ezeli ve ebedi sıfatlardır. O'nun sıfatlarının başlangıcı da sonu da yoktur. Allah'ın sıfatları diğer varlıkların sıfatlarına benzemez. Her ne kadar isimlendirmede bir benzerlik varsa da, Allah'ın ilmi, iradesi, hayatı ve kelamI; bizim ilim, irade, hayat ve kelamımıza benzemez. Biz Allah'ın zatını ve mahiyetini bilemediğimiz ve idrak edemediğimiz için Allah'ı isim ve sıfatları ile tanırız ve öylece inanırız. Allah Teâlâ Kur'an-ı Kerim'de; "*Gözler O'nu görmez; hâlbuki O gözleri görür; O, eşyayı pek iyi bilen, her şeyden haberdar olandır (*En'am 6/103) buyurmaktadır.

Allah'ın sıfatları akaid ve kelam kitaplarında çeşitli kategorilere ayrılarak incelenmiştir. Biz bu çalışmada İbrahim Hakkı'nın Marifetname'de değindiği sıfatları tespit etmeye çalışacağız.

Anahtar Kelimeler: Marifetname, İbrahim Hakkı, Esma, Sıfat, Akaid.

ABSTRACT

To believe in Allah means to know the perfect attributes and the permissible attributes that are obligatory about His essence, to believe in that way, and to keep His essence away from the attributes that are deficient. Allah is endowed with all the perfect attributes worthy of His glory. All of Allah's attributes are eternal and eternal attributes. His attributes have neither beginning nor end. The attributes of Allah are not like the attributes of other beings. Although there is a similarity in the naming, Allah's knowledge, will, life and word; It is not like our knowledge, will, life and word. Since we do not know or comprehend the essence and nature of Allah, we know Allah with his names and attributes and we believe in that way. Allah Almighty says in the Quran; "Eyes do not see Him; whereas He sees eyes; He is the one who knows things very well and is aware of everything (An'am 6/103).

Attributes of Allah have been studied by dividing into various categories in the books of akaid and kalam. In this study, we will try to identify the adjectives that İbrahim Hakkı mentioned in Marifetname.

Keywords: Marifetname, İbrahim Hakkı, Asma, Adjective, Akaid.

GİRİŞ

İbrahim Hakkı 1703-1798 yılları arasında Erzurum'un Hasankale ilçesinde doğmuş çoğunlukla Siirt (Tillo)'da yaşamış bir İslam âlimidir. O İslam ilmine dair eserler kaleme almış kelam ilminde de eserler vücuda getirmiştir.

İbrahim Hakkı dini ve pozitif ilimlerde saygın bir yer edinmiş büyük bir ilim adamı ve mütefekkirdir. Onun hakkında bugüne dek birçok eser ortaya konulmuştur.

Bizde bu çalışmamızda İbrahim Hakkı'nın Marifetname isimli eseri çerçevesinde ilahî sıfatları ele almaya çalıştık.

A. Allah'ın Varlığı

İman, Hz. Peygamber(sav)'in Allah'tan getirdiği zarurat-ı diniyye'de O'nu tasdik edip, haber verdiği şeyleri tereddütsüz bir şekilde kalben inanmanın adıdır.

İman olmadan İslam'ın derinliği tam manada kavranamaz, anlaşılamaz. İman edilmesi gereken konular; Allah'a, meleklerine, kitaplarına, peygamberlerine, âhiret gününe, kaza ve kadar iman olmak üzere altı başlıktır.

Allah'a iman, iman esaslarının ilki ve en önemlisidir. Bütün ilahi dinlerde Allah'ın varlığı en önemli inanç esasıdır. Çünkü bütün esaslar Allah'a imana ve O'nun birliğine dayanır. Zaten insanların yaratılış gayesi de kendisini yaratan yüce varlığı bilmek ve O'na iman etmektir.

Allah'ın varlığının delili O'nun yaratmış olduğu eserlerle ve peygamberler aracılığıyla bilinebilir. Çünkü Cenab-ı Hak gözlerin göremeyeceği, onun da ötesinde insanların idraklerinden yoksun olduğu, sınırlı akıllarının algısının çok üstünde yüce bir varlıktır. Allah'ı bize yarattığı deliller başta olmak üzere kâinat, insanın varlığı, Kur'an ve Peygamberimiz(sav) haber vermektedir.

Var olan her şeyin bir var edicisi vardır. Bir insan kendini ve kâinatı gözlemlediği zaman pek çok delille yaratanın varlığını anlar ve kabul eder. Hem iç dünyasında hem de dıştaki etkenler sebebiyle sayısız işaret yaratıcısının varlığını fark etmesini sağlar.

Allah c.c âlemi yarattı, içinde melekler, cinler ve şeytanlar gibi görünmeyen varlıkların yanı sıra bitkiler, hayvanlar, insanlar gibi görünen varlıklar yarattı. O mülkün yegane sahibi hükümranı olduğundan, âlemi ve içindekileri niçin yarattığını sorma imkanımız olmadığı gibi, gerçek anlamda bilme imkanımız da yoktur. Dünyevî haller ve şartlar çerçevesinde O'nun âlemi yaratmasına bir sâik, illet veya muharrik aramak da aslında doğru değildir. Âlemi ve unsurlarının görünen kısmının mahiyetleri hakkında gözlem ve tecrübelerimizle bilgi sahibi olabiliriz, ancak duyularımızı aşan teknik imkânlarla dahi görme imkânımız dışında olan unsurlarının mahiyetlerini bilmemiz anca Allah'ın bize bildirmesiyle mümkün olabilir. O'nun bildirdiğine göre yarattığı âlem, görünen ile sınırlı değil, görünmeyen bir yanı vardır. Her şeyin bilgisi, yaratılış hikmeti O'nun katındadır. Bize bildirdiği kadarını bilebiliriz.

Allah'ın varlığına inanmak hem kolay hem de fıtridir. Çünkü bütün insanların içinde yaratılıştan gelen bir yöneliş vardır. Ayrıca kâinattaki düzende Allah'ın varlığının en açık delilidir. Aynı zamanda kâinattaki düzen yaratıcının tek oluşunu da zorunlu kılar aksi halde kâinata kaos hâkim olurdu.

Allah'ın varlığına ve birliğine iman İslam dininin temelidir. Diğer esaslar da bu temel üzerine bina edilir.

İnsanın temel ihtiyaçlarından biri inanmaktır. İnsan güven içinde olmak ister bu duygu da inanmakla kendine vücut bulur. Ayrıca inançlı kişi dünyada kendisini güven ve huzur içinde bulur.

İnsan aklının kâinatın insan kudretiyle kurulması ve işletilmesinin imkânsız olduğunu bunun çok ötesinde ütün bir varlığın kurucu olduğunu idrak eder. Bu kâinatın tesadüfî olarak bir araya gelmediği gibi idamesi de tesadüfî olarak devam edemez buna dair deliller mevcuttur.

Kâinatın bir işleticisi bir devam ettiricisi vardır. O tektir ondan başka bir yaratıcıyı kabul etmez ikilik olması durumunda kâinatta kaos oluşur galebe çalan bir yaratıcı vasfı ise yaratıcıya yakışmayacağı için bunun mümkün olmayışını bunu ispat eder niteliktedir.

İbrahim hakkı bu konuda insanın kendi vücuduna dikkatli bir şekilde baksa yaratıcısının zatını öğreneceğini söyler. Çünkü insan düşünse ki vücudundan eser yokken şu mükemmel yaratılışının esası iki damla meniden oluşmuş ete kemiğe bürünmemiş ancak sonradan şu harika vücuduna beden ve ruh giydirilmiş o zaman bir yaratıcısının olduğunu idrak eder.

Bu yaratıcı ise kâinata ve bütün zerrelere hâkim olan ve onlara dilediği gibi tesir eden Allah'tan başkası değildir. Görünen ve görünmeyen her şeyi bilir. Her vücudun her organın ve her cüz' hep onun kudretiyledir.

İnsan bedeninin mükemmeliyetine ve organlarının yapısının inceliğine işleyişine ve faydalarına dikkatle bakıldığında yaratıcısının kudreti büyüklüğü idrak edilmiş olur. İnsan o zaman anlar ki bütün bu ince yapılı makine duyu organları ve kuvvetleri ilim ve tekniğiyle Cenabı Hakk'ın lütuf ve inayetinin ve rahmetinin eseridir.

İbrahim Hakkı'ya göre bütün bu kâinatı yaratan Cenab-ı Hak bu yüksek eseri üzerinde düşünmeyi amaçlamış, bu âlemi sırf zatının bilinmesine vasıta olsun diye yarattığını belirtmiştir. Gören gözler için bunda hikmetlerin gizli olduğunu ve Cenab-ı Hakk kendi birliğini idrake kullarını teşvik etmiştir.

B. Âlemin Hüdusu

Âlem Allah'tan başka var olanların adıdır; çünkü alamet kökünden gelen âlem, yaratıcısının varlığını gösteren bir belirtidir. Âlem; a'yan ve araz olmak üzere ikiye ayrılır. Aynlar kendi başına yer tutan ve kendilerini taşıyacak bir mahal olmaksızın var olabilen şeylerdir. Arazlar ise ancak başkasına bağlı olarak yer tutan ve kendi varlığını hissettirecek mahalden ayrılması düşünülemeyen şeydir.

Aynlar iki kısımdır. Basit; buna cevher de denir bölünemeyen en küçük parçadan ibarettir. Mürekkep; buna da ne cisim denir en küçük mürekkep iki cevherden meydana gelir.

Cisim iki cevherin birleşmesinden meydana gelir. İki veya daha fazla cevherden teşekkül eden veya bir araya gelen şeydir. Araz lügatte devamlı olmayan şeydir. Başkasına bağlı olarak yer tutabilen ve devamlı olmayan şeydir.

Cisim uzunluk, genişlik ve derinlik olmak üzere üç boyutu bulunan şeydir. Bu sebepledir ki aynların arazlardan ayrı kalması düşünülemez arazlarsa hadistir.(yokken sonradan var olan şey)

Allah tealaya cevher, cisim veya araz denilmesi mümkün değildir. Çünkü bu isimlerin manalarını Allah Teâlâ hakkında varid görmek muhaldir.

Erzurumlu İbrahim Hakkı Marifetname'nin Mukaddime bölümünün başında yaratılışla ilgili Kur'an-ı Kerim'den ayetlere yer vererek konuya başlamakta ve Allah'ın varlığını ve âlemin yaratılışını izah etmektedir.

İbrahim Hakkı'ya göre Cenab-ı Hak hadisi kutside "Gizli bir hazine idi, bilinmeyi istedi ve bütün mahlûkattan önce yokluk âleminden yeşil bir cevher var etti." Cenab-ı Hak kendi nurundan latif bir cevher var edip, bütün kâinatı bu cevherden sırası ile yaratmıştır. Daha sonra bu cevhere muhabbeti ile bakınca, o cevher hayâsından eriyip su gibi akmış; üste çıkan köpükten külli nefsi, sonra meleklerin ruhlarını, peygamberlerin ruhlarını, daha sonra sırasıyla evliya, arif, abid, mü'min, kâfir, cin, şeytan, hayvan, bitki ve tabiattaki ruhları yaratmıştır. Bu ruhlara belli mertebeler tayin etmiş, her ruh kendi cinsini bulup, kendi makamına gitmiş, böylece âlem-i melekût tamamlanmıştır.

Allah'ın bu cevhere tekrar bakmasıyla bu cevher tekrar erimiştir. Eriyen bu cevherin en üst köpüğüyle arş-ı a'zamı yaratmış, alttaki köpüklerden de sırasıyla kürsi, cennet, cehennem, yedi kat gök ve dört unsur(su-ateş-toprak-hava) yaratılmış böylece kâinatın yaratılması tamamlanmıştır.

İbrahim Hakkı, kâinatın varoluşunu bu şekilde izah ettikten sonra, Marifetname'nin başka bir yerinde ise kanlatın varoluşunu sudûr nazariyesiyle açıklamaya çalışmıştır.

Marifetname'de nakledildiğine göre Cenab-ı Hak, önce küllî akıl da denilen ilk aklı yani ilk cevheri yaratmış bu cevhere üç adet bilgi vermiştir. Bu bilgiler; Allah'ı, nefsi ve ihtiyacını bilmektir. Bu üç bilginin her birinden başka şeyler var olmuş birden bir sudûr etmiştir.

Allah'ı bilmekten bir akıl daha var olmuştur buna ikinci akıl denir. Nefis bilgisinden külli nefs, ihtiyaç bilgisinden ise bir cisim var olmuş, ona da Felekler Feleği ya da Atlas Feleği denir. Bu feleğin aklı ikinci akıl, nefsi ise küllî nefistir.

Bundan sonra sırasıyla Burçlar feleği ya da sabit yıldızlar feleği oluşmuştur. Bu feleğin aklı üçüncü akıl, nefsi ise ikinci nefistir.

Daha sonra sırasıyla Zuhal (Satürn) feleği, Müşteri (Jüpiter), Merih (Mars), Güneş, Zühre (Venüs), Utarit (Merkür) felekleri, bundan sonra Ay feleği vardır. Ay feleğinin aklı onuncu akıl da denen faal akıl, nefsi ise mutlak tabiattır. Ay feleğindeki akıl ve nefsin birleşiminden ay altındaki dört unsur olan ateş, hava, su ve toprak var olmuştur. Bu dört unsurda dört keyfiyet vardır. Bunlar: sıcaklık, soğukluk, yaşlık ve kuruluktur.

Bu dört unsurun birleşiminden ise maden, bitki, hayvan var olmuştur. Hayvan türünün en şereflisi olan insanla kâinatın varoluşu son bulmuştur.

İbrahim Hakkı'nın evrenin varoluşuyla ilgili verdiği bilgiler, kendi dönemine ait olan teorileri nakletmekten ibarettir.

C. Allah'ın Sıfatları

Allah insanın idrakinin çok fevkinde bir varlıktır. İnsan O'nu ancak isim ve sıfatlarının tezahürü ve tecellileriyle bilebilir.Allah'ın sıfatlarını Marifetname'de geçen şekliyle Cenab-ı Hak eksik sıfatlardan (sıfat-ı selbiyeden) münezzeh ve sübut sıfatlarla muttasıftır. Âlemin bütün cüzleri kâinatın bütün zerreleri bütün yaratıklar onun kudret ve tedbiriyle idare edilmektedir.

Cenab-ı Hak birdir eşi ve benzeri yoktur. Yaratılmışlara ait olan yeme, içme, uyuma gibi hasletler onda mevcut değildir. Zamandan ve mekândan beridir O'na bir cihet izafe etmek de uygun değildir. Suretten ve şekilden münezzehtir. Varlığının başlangıcı ve sonu yoktur. Varlığı kendisindendir. Bütün eksikliklerden de münezzehtir. Bu kâinat yaratılmadan önce O vardı. Cenab-ı Hak dilerse bu âlemi birden yok eder yine isterse tekrar yaratabilir. Hiçbir şey O'na zor gelmez O her şeye hükmeder. O'nun bir başkasından fayda ve zarar görmesi mümkün değildir. Bütün bunlar sıfatı selbiyedir ve Allah bütün bunlardan münezzehtir.

Allah'ın sıfatları zati ve sübuti olmak üzere ikiye ayrılır. Ancak Marifetname'de sadece sübuti sıfatlar zikredilmektedir. Biz burada önce Allah'ın zati sıfatlarını açıklayıp daha sonra İbrahim Hakkı'nın değindiği sübut sıfatlarını izah edeceğiz.

1. Zati Sıfatlar

Allah'ın bu sıfatları sadece O'na mahsus olup yarattıklarında bulunması mümkün olmayan sıfatlardır. Bunları altı başlık altında ele alabiliriz.

a) Vücud

Allah'ın varlığının kendisinden olmasıdır. Onun için yokluk söz konusu değildir.

Allah'ın ehadiyyetini İbrahim hakkının Marifetname'sine göre ele aldığımızda o bu durumu şöyle izah etmektedir.

b) Kıdem

Cenab-ı Hakk'ın varlığının başlangıcının olmamasıdır. Allah'ın var olmadığı tek bir an bile yoktur. Ne kadar geriye gidilirse gidilsin O vardır.

c) Beka

Allah'ın varlığının sonunun olmayışıdır. Ne kadar ileriye gidilirse gidilsin yine O'nun olmayacağı tek bir an bile yoktur.

d) Muhalefetün li'l- Havadis

Allah'ın sonradan yaratılmış olanlara benzememesidir. O'nun varlığı insanın tahayyülünün çok ötesinde

e) Vahdaniyet

Allah'ın zat, sıfat ve fiillerinde tek oluşudur. Cenab-ı Hakk'ın eşi ve benzerinin bulunmayışıdır.

f) Kıyam bi -Nefsihi

Cenab-ı Hakk'ın varlığının kendisinden olmasıdır. O'nun varlığı zatının gereğidir.

İbrahim Hakkı'nın Allah'ın zati sıfatları konusunda ayrıntılı bilgi bulunmadığı için burada terminolojik bilgi vermekle yetindik.

2. SÜBUTİ SIFATLAR

Allah'ta zorunlu olarak kemal eden sıfatlardır. Sekiz tanedir. Bunlar şu şekilde izah edilmektedir. Bu sıfatlar diğer varlıklarda da vardır ancak Allah'tan farklı ve sınırlı bir düzeyde mümkündür.

a) Hayat

Allah'ın ölümsüz olmasıdır. Allah'ın kendine has bir hayatı vardır. Marifetname' de hayat sıfatı için Allah'ın diri olduğu söylenmiştir.

b) İlim

Cenab-ı Hakk'ın olmuş, olan ve olacak olan her şeyi bilmesidir. Marifetname'de İbrahim Hakkı ilim sıfatını şu şekilde açıklamıştır. Allah bilicidir. Her şeyi bilir. Yerde ve gökte görünen ve görünmeyen, var olan, gelecek ve olacak olan her şeyi bilir. Allah'ın hayat ve ilmi ezelidir, kadimdir, fani değildir.

c) Semi

Allah'ın her şeyi işitmesine denir. İbrahim Hakkı Cenab-ı Hakk'ın Semi sıfatıyla Allah'ın her şeyi işitici olduğunu gizli ve açık her sesi işittiğini belirtir. Allah'ın işitmesi ise ezeli ilmindedir fani değildir.

d) Basar

Allah'ın her şeyi görmesidir. Marifetname'de bu sıfat Allah'ın görücü oluşundan karanlıkta ve ışıkta, açık ve gizli olsun her şeyi ve hepsini göreceğinden bahseder. Allah'ın bu görme sıfatı ve bir alet vasıtasıyla değildir. Allah'ın duyması için kulağa ihtiyacı olmadığı gibi görmesi için de göze ihtiyacı yoktur. Allah bütün bunlardan beridir, arınmıştır.

e) İrade

Allah'ın her şeyi dilediği gibi yapmasını anlatan bir sıfattır. İbrahim Hakkı'ya göre Allah irade sahibidir. Ve dilediğini yapar. Eğer bir şeyi dilemezse o vakitte yapmaz. Kâinatta her ne varsa Allah'ın iradesiyle var olmuştur. Hayır ve şer ne varsa O'nun dilemsiyle olur. O isterse bütün insanlar mümin veya kâfir olur ancak onların mümin yada kâfir olması O'na hiçbir zarar getirmez. Allah'ın neden böyle yaptığı ise onun hikmet nazarıyla bakılması gereken bir konudur. O'nun dilediği olur dilemediği ise vücuda gelmez. Eğer Allah bir şeyin olması ya da olmamasını isterse onda hikmetler vardır bunun sırrını ancak Allah bilir. İnsan ancak Allah'ın bütün fiil ve işlerinde hikmet olduğunu bilir o nazarla hadiselere yaklaşırsa rahat eder. Allah'ın iradesi ezeli ve ebedidir fani değildir.

f) Kudret

Allah'ın güç sahip olmasına denir. Hakkı'ya göre Allah güç sahibidir ve her şeye kadirdir. O mümkün olan her şeyi yaratır. Allah dilerse ölüyü diriltir diriyi öldürür. İsterse yeri ve göğü yok eder isterse tekrardan yaratır. O'nun kudret sıfatı ezelidir fani ve hadis yani geçici değildir.

g) Kelam

Allah'ın kelam sahibi konuşan bir varlık olması anlamına gelen kelam sübut sıfatlarındandır. Allah mütekellimdir. Konuşur ancak bizim bildiğimiz manada değil söyler ancak bizim işiteceğimiz sözlerle değildir.

Hakkı'ya göre Cenab-ı Hakk'ın Tur Dağı'nda Hz. Musa ile konuşması da bu nevi'dendir. Cenabı Hak birçok peygamberiyle Cebrail aracılığıyla konuşmuştur. Ancak Hz. Musa'ya bizzat kendisi hitap etmiştir. Bu sebeple Hz. Musa'ya "kelimullah" yani Allah'ın kelamı denilmektedir. Allah'ın Kuran-ı da O'nun kelamıdır. İnsanlarla onun aracılığıyla konuşmaktadır. Yine Allah'ın Kelam sıfatı da ezeli ve ebedidir. Yaratılmış ve fani değildir.

h) Tekvin

Allah'ın yok olanı yokluktan var etmesi anlamına gelen bu sıfatı İbrahim Hakkı'ya göre Allah'ın her şeyi yoktan var etmesi anlamına gelmektedir. O bütün âlemi yaratmıştır. O'ndan başka da yaratıcı yoktur. Bütün yaratılmışların hareketlerini, durumlarını, aynı zamanda insanın itaat ve isyanını, iman ve küfrünü, hatta bütün hayır ve şerri de o yaratmıştır. Allah kullarına cüzi irade vermiş ve verdiği bu iradeyle bizi sorumlu kılmış. İnsanı istediği gibi davranmakta özgür bırakmış bunun karşılığında her iki âlemde de mükâfat ve cezaya tabi tutmuştur. Bütün yarattıklarının rızkını veren, öldüren ve dirilten de O'dur.

Bu sekiz sıfat, Allah'ın zatıyla var olan ezeli ve ebedi sıfatlarıdır.

SONUÇ

Erzurumlu İbrahim Hakkı'nın esma tasnifi klasik kelam yöntemine uygun olmasa bile tüm sıfatlara işret ettiği bir vakıadır.

KAYNAKÇA

Çelebioğlu, Amil. *Erzurumlu İbrahim Hakkı*. Kültür Bakanlığı Yayınları, Ankara,1989.

Diclehan, Şakir. *Çeşitli Yönleriyle Erzurumlu İbrahim Hakkı*. Er-Tu Matbaası, İstanbul,1980.

Erzurumlu İbrahim Hakkı. *Marifetname*. Elif Ofset Tesisleri, İstanbul, 1980

Kazancı, Ahmed Lütfi. *İslam Akaidi*. Marifet Yayınları, İstanbul, 1997

Önemli, Kadri. Ümmeti Kutuplaştıran İlk İhtilaflar. İstanbul: Nida Yayınları, 2. Basım, 2020.

Öztürk, Mahmut. "Iman-Inkâr Ekseninde Duyu Organlarının İşlev(sizliğ)i". *3. Uluslararasi Gap Sosyal Bilimler Kongresi*. 52-57. İksad Yayınevi, ts.

Sabuncu, Ömer. "Hz. Âişe'nin Hayatı, Şahsiyeti ve İslâm Tarihindeki Yeri". *Cumhuriyet İlahiyat Dergisi* 21/3 (15 Aralık 2017), 2103-2105.

Yüksel, Emrullah. "Erzurumlu İbrahim Hakkı'da Dini ve Pozitif İlimler Birbirini Tamamlar", *AÜİF Dergisi*, sayı: XI, Erzurum, 1993.

PROBLEMS ENCOUNTERED IN THE TRANSLATION OF PHRASEOLOGICAL COMBINATIONS

FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TƏRCÜMƏSİ ZAMANI QARŞIYA ÇIXAN PROBLEMLƏR

Lecturer Leyla RZAYEVA

Odlar Yurdu University,Department of Languages, Baku, Azerbaijan.

ORCID NO: 0000-0002-5136-5996

ABSTRACT

This article is devoted to the comparative study of phraseological combinations in English and Azerbaijani languages. The comparative study of phraseological combinations in English and Azerbaijani languages, as well as the study of ways of their translation is always relevant.

The study of phraseological system of English and Azerbaijani languages, exploring the encountered problems in the translation process of them from English into Azerbaijani and solving these problems is very important.

To define the basic phraseological concepts of modern English and to compare their differences and similarities in the Azerbaijani language, to find ways of translating these combinations and exploring the correct equivalents is one of the important points.

As we know, all word combinations (fixed, as well as free word combinations) are formed from a combination of different words. As well as the words included in the phraseological combinations are interconnected and their components can no longer be considered as free words. For example, ‘’hard nut ‘’ is a free combination, but in some sentences, the expression is also used figuratively in the sense of "difficult, unsolvable problem’’. On the other hand the same combination can be used in some sentences as ’’difficult, insurmountable person."

Some phraseological combinations are word combinations, while others are used in the form of sentences. For example, the combination "deaf nut" when translated as a sentence is "meaningless work" but as a word combination it means "rotten nut’’.

Phraseological combinations have the following characteristics:

1. They are ready in the language
2. They are structurally closed
3. They are semantically complete
4. They cannot be translated literally

Thus, phraseological combinations have the qualities of stability, metaphor, imagery and emotionality. It is necessary to pay attention to the difference of free word combinations and phraseological combinations in both languages. So, there are enough differences between them. Phraseological combinations are inseparable units of semantic and grammatical order and are ready in speech. There is an interaction between the components of phraseological combinations.

Some phraseological combinations in English do not have lexical and phraseological equivalents in the Azerbaijani language, and their translation should be based on the general phraseological meaning or semantics of the main components.

Some phraseological combinations can be translated into Azerbaijani with the help of appropriate expressions. Many English phraseological units also have analogues in the Azerbaijani language.

Key words: phraseological combinations, translation process, comparative study

XÜLASƏ

Bu məqalə İngilis və Azərbaycan dillərində frazeoloji birləşmələrin müqayisəli tədqiqinə həsr olunub. İngilis və Azərbaycan dillərində frazeoloji birləşmələrin müqayisəli tədqiqi,habelə onların tərcüməsi yollarının araşdırılması daim aktuallıq kəsb edir.İngilis və Azərbaycan dillərinin frazeoloji sisteminin öyrənilməsi və İngilis dilindən Azərbaycan dilinə tərcümə zamanı qarşıya çıxan problemlərin aşkar olunub aradan qaldırılması vacib məsələlərdəndir.

Müasir İngilis dilində əsas frazeoloji anlayışları müəyyənləşdirmək və Azərbaycan dilində onların oxşar və fərqli cəhətlərini müqayisə etmək və bu birləşmələrin tərcüməsi yollarını aşkar etmək və onların düzgün ekvivalentlərini araşdırmaq vacib məqamlardan biridir.

Bildiyimiz kimi,bütün söz birləşmələri(istər sabit,istərsə də sərbəst) müxtəlif sözlərin birləşməsindən əmələ gəlir.Eləcə də frazeoloji birləşməyə daxil olan sözlər bir-biri ilə əlaqəyə girir və onların komponenetlərini artıq sərbəst söz hesab etmək olmaz.Məsələn ’’hard nut’’ sərbəst birləşmədir,amma cümlədə işlənərkən məcazlaşaraq ’’çətin,həlledilməz problem’’ kimi anlaşılır.Bəzi cümlələrdə isə həmin ifadə’’ çətin,yolagəlməz adam ’’kimi mənalarda da işlədilir.

Bəzi frazeoloji birləşmələr söz birləşməsi,bəziləri isə cümlə formasında olur.Məsələn ’’deaf nut’’ cümlə kimi istifadə olunarkən ’’mənasız iş’’,söz birləşməsi kimi isə ’’çürük qoz’’ mənasını verir.

Frazeoloji birləşmələrin aşağıdakı səciyyəvi xüsusiyyətləri mövcuddur:

1. dildə hazır şəkildə olurlar

2. struktur cəhətdən qapalıdırlar

3. semantik cəhətdən bütövdürlər

4. sözbəsöz tərcümə oluna bilmirlər

Beləliklə frazeoloji birləşmələr sabitlik,məcazilik,obrazlılıq və emosionallıq keyfiyyətlərinə malikdir. Hər iki dildə frazeoloji birləşmələrin fərqinə diqqət yetirmək lazımdır. Beləki onların arasında kifayət qədər fərqli cəhətlər var.

Frazeoloji birləşmələr semantik və qrammatik cəhətdən bölünməz vahidlərdir və onlar nitqdə hazır şəkildə olur.Frazeoloji birləşmələrin komponentləri arasında qarşılıqlı əlaqə vardır.

İngilis dilində olan bəzi frazeoloji birləşmələrin Azərbaycan dilində leksik və frazeoloji ekvivalentləri olmur,onların tərcüməsi zamanı ümumi frazeoloji məna, yaxud əsas tərkib hissələrinin semantikasına əsaslanmaq lazımdır.

Bəzi frazeoloji birləşmələri Azərbaycan dilinə müvafiq ifadələrin köməyi ilə tərcümə etmək olar.Bir çox İngilis dili frazeoloji birləşmələrinin Azərbaycan dilində analoqları da vardır.

Açar sözlər: frazeoloji birləşmələr, tərcümə prosesi, müqayisəli tədqiq

Frazeoloji birləşmələr hər bir dilin leksik sisteminin xüsusi hissəsini təşkil edir. Bədii ədəbiyyatda frazeoloji birləşmələr ən vacib stilistik vasitə hesab edilir. İngilis dilindən Azərbaycan dilinə frazeoloji birləşmələri tərcümə edərkən,obrazlılıq mütləq qorunub saxlanmalıdır, əks halda tərcümə edilmiş material cansıxıcı olmaqla bərabər, orijinaldan kənar olacaqdır. Bu isə öz növbəsində elə də sadə məsələ deyil. Belə ki, hər bir dilin frazeoloji fondu həmin dilin xüsusiyyətlərini və rəngarəngliyini təyin etdiyi üçün unikaldır.

Frazeoloji birləşmələri İngilis dilindən tərcümə edərkən həmin birləşmənin ana dilinə analoqu və ya ekvivalentini tərcüməçi xüsusi bacarıqla ifadə etməlidir. Məsələn: İngilis dilində olan “to be born with a silver spoon in one’s mouth” frazeoloji birləşməsinin rus dilində qarşılığı- родиться в сорочке, родиться под счаствливой звездой-kimidir. Belə ki, İngilis dilində olan bu ifadə Rus dilindən fərqli olaraq həmişə uğurlu, şanslı, xöşbəxt, varlı ailədə doğulmuş insana aid edilir. Amma əgər mətndə semantik nüans vurğulanarsa, rus dilində verilmiş həmin o iki ifadə uyğun gəlməyə bilər və bu zaman tərcüməçi təsviri tərcüməyə müraciət etməli olur.

Elə frazeoloji birləşmələr var ki, onları İngilis dilindən Azərbaycan dilinə tərcümə edərkən həmin birləşmənin tam deyil, qismən ekvivalentini vermək olur. Qismən ekvivalenti verilmiş ifadə leksik, qrammatik yaxud leksik-qrammatik uyğunsuzluqları olmasına baxmayaraq eyni məna daşıyır. Məsələn: put by for a rainy day-qara günü üçün saxlamaq; don't count your chicken before they are hatched-cücəni payızda sayarlar və s.

İngilis dilində olan bəzi frazeoloji birləşmələrin ana dilində tam ekvivalenti olmaya da bilər. Bu zaman tərcüməçidən ustalıq tələb olunur. Tərcüməçi həmin frazeoloji birləşmənin mənasına uyğun frazeoloji ifadə tapmalı və mənanı ifadə etməlidir. Məsələn: like two peas in the same pot-Rus dilinə - как две капли воды; ana dilində alma almaya bənzər kimi tərcümə edilə bilər. Bundan əlavə qeyd etməliyik ki,elə frazeoloji birləşmələr vardır ki, onları ana dilinə hərfi tərcümə etmək lazım gəlir, yəni kalka yolu ilə. Məsələn: people who live in glass houses should not throw stones – rus dilinə - люди живущие в стеклянных домах, не должны бросаться камнями, Ana dilində isə belə izah etmək olar ki, özün günahkar olduğun halda (təmiz olmadığın halda) başqalarına çamur atma.

Bildiyimiz kimi kalka üsulu ilə tərcümə tərcümə təcrübəsində çox geniş istifadə olunur. Bu cür tərcümə orijinal obrazlılığı qoruyur ki, bu da bədii tərcümədə çox vacib hesab edilir.

Ingilis dilində elə frazeoloji birləşmələr də vardır ki, onların ana dilində nə ekvivalenti, nə analoqu vardır və bu ifadələri həmçinin hərfi tərcümə etmək mümkün deyil. Bu zaman təsviri tərcümədən istifadə olunur. Məsələn: ships that pass in the night- rus dilinə - мимолетные встречи – ana dilinə isə ani görüşlər kimi təsviri tərcümə etmək olar.

Təcrübə göstərir ki, İngilis dilində olan frazeoloji birləşmələrin ana dilinə tərcüməsi zamanı qarşıya çıxan əsas çətinliklər, həmin ifadələrin tərcümə edilən dildə analoqu, ekvivalenti olmaması ilə əlaqədardır. Bəzən isə frazeoloji birləşmə səhvən adi sərbəst söz birləşməsi kimi tərcümə edilə bilər.

Frazeoloji birləşmələri tərcümə edərkən tərcüməçi mütləq frazeoloji birləşmələrin izahlı lüğətindən istifadə etməlidir. Tərcüməçi hər iki dili mükəmməl bilməli, bədii mətni təhlil etmə bacarığına malik olmalıdır. Tərcümədə buraxılan səhvlərin səbəbi əsasən tərcüməçinin orijinal dilin frazeologiyası ilə yaxından tanış olmaması ola bilər.

Tərcümə etdiyi dilin frazeologiyasını yaxşı bilməyən tərcüməçi əlbəttə ki, çətinliklərlə qarşılaşmalı olacaqdır.

2001 yılından bu yana 15 ülke ve AB ile Geri Kabul Anlaşması imzalanmıştır. AB ile Aralık 2013'te imzalanan geri kabul anlaşması, aynı zamanda Türkiye vatandaşlarının AB'ye vizesiz seyahatine imkan tanınmasını amaçlayan Vize Serbestisi Diyalog sürecini de başlatmıştır. (T.C. KALKINMA BAKANLIĞI, 2018, s. 52) Trajik kayıpların yaşanması ve Avrupa Topluluğunun imajının Türkiye halkı içerisinde sarsılması sonucu Avrupa Birliği'ne entegrasyonun önemli adımlarından olan Vize Serbestisi Diyaloğutoplumsal ölçekte bir heyecan yaratmıştır. Bu gelişmelerin yanında geri kabul anlaşması nedeniyle düzensiz göçmenlerin Türkiye üzerinden geçişleri çok azalmış ve neredeyse bitme noktasına gelmiştir. Avrupa ülkeleri bu gündemden dolayı Türkiye'ye sürekli olarak izlediği başarılı politikasından dolayı teşekkürlerini de her platformda iletmiştir. Fakat anlaşmalar nezdinde AB tarafından atılması gereken en önemli adım olan vize serbestliği ile ilgili en ufak bir düzenleme halen gelmiş değildir.

Vize serbestliği ile Schengen vizesinin kaldırılması amaçlanmaktadır.Türkiye Cumhuriyeti vatandaşlarının kimlikleriyle iş, ailevi ya da turistik amaçlı kısa süreli ziyaretlerinde vizesiz seyahat yapabilecek olması önemli bir gelişme olacaktır. Türkiye'nin bulunduğu coğrafi konum gereği Türkiye'nin transit ülke olma durumunun sona erdirilmesi ve krizin sonuçlarından arınma tepkisinin bir sonucu olarak ortaya çıkan geri kabul anlaşması göçmenleri ötekileştirme politikasının dışa vurumu olduğu düşünülmektedir. Avrupa Birliği açısından göçmen akımının kontrolü gereği Türkiye ile işbirliğini önemsetmiş ve vize serbestliği gibi konuların gündeme gelmesine neden olmuştur. Türkiye'nin vize serbestliği verilmemesi noktasında geri kabul anlaşmasını feshetme hakkı bulunmaktadır ve zaman zaman bu konu dış politikada gündeme getirilmektedir.

Türkiye'deki Suriyeli sığınmacı sayısının 2019 yıl sonu verilerine göre Türkiye'de geçici koruma altında bulunan Suriyeli sayısı 3 milyon 576 bin 370'tir. 5 ilde 7 geçici barınma merkezinde kalan Suriyeli sayısı ise toplamda 63 bin 443 iken geçici barınma merkezi dışında bulunan kayıt altına alınmış Suriyeli sayısı 3 milyon 512 bin 927'dir. (Göç İdaresi, 2019). Bu sayısal verilerin AB ülkelerindeki oranları çerçevesinde düşünüldüğünde Türkiye'nin geri kabul anlaşmasını feshetmesi durumunda Avrupa Birliği çok ciddi bir kriz yaşayacağı düşünülmektedir. Sonuç olarak oluşan göç dalgası ve barındırdığı tehditler göz önüne alındığında Türkiye açısından durum tek başına idare edilebilecek düzeyde olmadığı bir çok görüşün ortak noktalarından olmuştur.

SONUÇ

Uluslararası göç akımlarında Türkiye'nin rolünü incelerken 3 temel başlık göze çarpar. 1960'lı yıllarda işçi göçü yaşandığında kaynak ülke olan Türkiye, Çoğunlukla göçmen kaçakçılığı ve kayıt dışı sektörlerde çalışarak ülkelerine dönmeyi amaçlayan kişilerin yer aldığı transit ülke konumunda olmuştur. 1923-1980 yılları arasında farklı dönemin farklı nesnel koşulları gereğigerçekleşen göç dalgası 1980'lerden sonra yerini yabancı kökenli göçmenler tarafından gerçekleşen göçlerle ülkemizi hedef ülke haline getirmiştir.

2011 yılı ile birlikte başlayan komşu ülke Suriye'de gerçekleşen iç savaş ve sonrasında yaşananlarla birlikte ise ülkemiz Cumhuriyet tarihinin en yoğun göç dalgasıyla karşılaşmıştır. İnsani ve vicdani duygularla açık kapı politikasını benimsemiş ve Avrupa topluluklarına örnek olmuştur. Bu politikanın riskli yanları olsa da vicdani açıdan alınan kararın toplumsal ölçekte doğru bir hamle olduğu nettir. Fakat yoğun göç sonucunda gerçekleşen gelişmelerzaman içinde farklılık göstermiştir.2011-2015 yılları arasında tehdidin genel olarak dışarda olduğu vurgusu, 2015 ve sonrası dönemdeyerini biraz daha içeride hissettirecek noktalara taşınmıştır. Ekonomik anlamda daralmanın da nedenleri olarak göçmenlerin hedef tahtasına oturtulmak istendiği bir konuma da getirilmiştir. Güvenlik boyutu açısından da sorgulanacak çapta karşılaşılan dalga farklı noktalarda ele alınacak sonuçlar doğurmuştur. Ülkesindeki savaş koşullarından dolayı ülkemize sığınan göçmenlerin yanında terörist gruplarında ülkemizde gerçekleştirdiği saldırılar iç sınırımızda güvenlik tehdidine evirilse bile ülkemiz konumu gereği kritik bölgede önemli konularda görevler üstlenmiştir. Son gelinen noktayla birlikte göçmenler üzerindeki politikalara aşırı sağ popülist bakış açısı da eklenmiş ve tüm sorunların merkezinde göçmenlerin olduğu fikrinin baskın geldiği gözlenmiştir. Bu son derece tehlikeli bir sonuç doğurmaktadır ve iç huzurumuz açısında sürekli olarak çatışma iklimini beslemektedir. Ülkemizdeki göçmenlerin karşılaştığı sosyal sorunları ile ilgilenme noktasında ihtiyatlı bir politika izleyen Türk hükümetletleri entegrasyon konusunda önemli gelişme kat etmiş göçmenlerle karşılıklı olarak etkileşimde bulunmuştur. AB ile yürütülen müzakereler ve onun sonucunda gerçekleşen düzenlemeler ile kurulan göç idaresi başkanlığıningöçmenlere dönük uyguladığı ulusal eylem planları devreye sokularak yasadışı göçle mücadele de kurullar oluşturulmuştur.

Göç konusunda Türkiye ile AB arasındaki ilişkilere dönük imzalanan geri kabul anlaşması ege denizinde yaşanan ölümlere dönük önemli bir müdahale kanalı açmıştır. Mutabakatın uygulanması Türkiye üzerinde Yunanistan'a geçen düzensiz göçmen sayısını azaltmış ve hayatını kaybeden göçmenlerde düşüşe neden olmuştur.Bu Türkiye için göç konusunda atılan insancıl adımlardan biridir fakat Avrupa Birliği açısında kendi sınırlarına mülteci kabul etmemelerinin resmi kanıtı olmuştur ve Avrupa Birliğinin mültecilere genel bakışında ayrımcı ve ikiyüzlü de denebilecek bir politika izlediği görülmüştür. Geri kabul anlaşmasıyla birlikte eş zamanlı olarak başlatılan Vize serbestisi diyaloğu Türkiye'nin mutabakat nezdinde kendine düşenbir çok maddeyi hayata geçirmesine karşılık AB tarafından hayata geçirilmemiş ve müzakerelerin en önemli gündem maddesi olarak yerini tutmaya devam etmektedir. Görüşmelerde verilen sözlerin yerine getirilmemesi Avrupa Birliğine dönük güvenin zedelenmesine ve topluluğa Türkiye'nin kabul edilemeyeceği görüşünü her geçen gün tazelemiştir.

Sonuç olarak Avrupa Birliği 'ile yapılan geri kabul anlaşması gibi sözleşmelerin samimi olarak gözden geçirilmesi ve samimiyetsizliğin bir sonucu gibi görünen vize serbestliğinin Türkiye için sağlanamadığı noktalarda feshedilmesi gündeme alınmalıdır. Suriye'deki iç karışıklığı bitirecek adımların sadece Türkiye'nin sorumluluğundaymış izleniminin terk edilmesi ve Suriye'nin refah devleti olması ile birlikte tüm Dünya ülkelerinin ortak sorumluluğunda olması gerekmektedir. Bununla birlikte Türkiye'de hali hazırda bulunan sayısı 3,5 milyonun üzerindeki resmi mültecinin tekrar ülkelerine döndürecek politikanın hayata geçmesi gerekmektedir. Türkiye'ye misafir olarak kodlayarak aldığımız ve insani süreçler nezdinde vicdani sorumluluğumuz bünyesinde hayata geçirilen politikaların sorumluluğu her alanda hissedilmektedir, en kritik başlık olarak ekonomik zararların karşılanması ve Türkiye'nin yaşadığı ekonomik sıkıntıların giderilmesi gerekmektedir. Tüm bu olguların sonucunda Suriyeli mültecilerin geri dönüşlerinin sıkıntısız bir şekilde yapılmasının garanti altına alınması gerekmekte ve oluşabilecek farklı insani sıkıntılara yol açmasının bu süreçte önüne geçilmesi gerekmektedir.

KAYNAKÇA

AĞIR, O., & SEZİK, M. (2015). Suriye'den Türkiye'ye Yaşanan Göç. *Birey ve Toplum*.

CANPOLAT, H. (2012). *KÜRESEL GÖÇ VE AVRUPA BİRLİĞİ İLE TÜRKİYENİN GÖÇ POLİTİKALARININ GELİŞİMİ.* ANKARA: ORSAM.

Demirhan, Y., & Aslan, S. (2015). Türkiye'nin Sınır Ötesi Göç Politikaları ve Yönetimi. *Birey ve Toplum*, 23-62.

Deniz, T. (2014). ULUSLAR ARASI GÖÇ SORUNU PERSPEKTİFİNDE TÜRKİYE. *Türkiye Sosyal Araştırmalar Dergisi*, 175-201.

Erdoğan, M. (2020, EYLÜL 09). *https://www.uikpanorama.com*. uikpanorama: https://www.uikpanorama.com/blog/2020/03/09/acik-kapi-politikasindan-acik-sinir-politikasina-turkiyedeki-suriyeliler-murat-erdogan/ adresinden alındı

Erdoğan, M. M. (2020, NİSAN 29). *Panorama*. UIKPanorama: https://www.uikpanorama.com/blog/2020/04/29/onuncu-yilinda-turkiyedeki-suriyeliler/ adresinden alındı

Ertan, K. A., & Ertan, B. (2017). Türkiye'nin Göç Politikası. *CONTEMPORARY RESEARCH IN ECONOMICS AND SOCIAL SCIENCES, VOLUME 1 ISSUE 2*, 7-35.

Geçmişten Günümüze GÖÇ. (2017, ARALIK). SAMSUN, CANİK/SAMSUN: CANİK BELEDİYESİ KÜLTÜR YAYINLARI.

Göçer, i., & Çınar, S. (2015). ARAP BAHARI'NIN NEDENLERİ,ULUSLARARASI İLİŞKİLER BOYUTU VE TÜRKİYE'NİN DIŞ TİCARET VE TURİZM GELİRLERİNE ETKİLERİ . *KAÜ İİBF Dergisi*, 53-62.

I.ULUSLARARASI SOSYAL BİLİMLER SEMPOZYUMU. (2016, EKİM). *TÜRKİYE'NİN SURİYELİ MÜLTECİLERE YÖNELİK İZLEDİĞİ AÇIK KAPI POLİTİKASININ ULUSAL GÜVENLĞİNE VE ULUSLARARASI GÜVENLİĞE ETKİLERİ*. ELAZIĞ, TÜRKİYE: ASOS.

İçduygu, A., Erder, S., & Gençkaya, Ö. F. (2014). *TÜRKİYE'NİN ULUSLARARASI GÖÇ POLİTİKALARI, 1923-2023:Ulus-devlet Oluşumundan Ulus-Ötesi Dönüşümlere.* istanbul: MiReKoç Proje Raporları.

K., Bayır, K., & Aksu, F. (2020). Açık Kapı Politikasından Güvenlik Tehdidine:. *Marmara Üniversitesi Siyasal Bilimler Dergisi*, 1-33.

KALKINMA BAKANLIĞI. (2018). *DIŞ GÖÇ POLİTİKASI ÖZEL İHTİSAS KOMİSYONU RAPORU.* ANKARA.

Karkın, V., & Yazıcı, Ö. (2015). Arap Baharı'nın Suriye'ye Yansıması ve Türkiye'ye Sığınan Mülteciler (Gaziantep Örneği). *21. Yüzyılda Eğitim Ve Toplum Eğitim Bilimleri Ve Sosyal Araştırmalar Dergisi*.

Mercan, M. (2014). Ekonomik Büyümenin Belirleyicileri ve 2008 Krizi:Orta Asya Ülkeleri ve Türkiye Ekonomisi İçin PanelVeri Analizi. *Hakkari Üniversitesi, İ.İ.B.F.*, 125-140.

T.C. Avrupa Birliği Başkanlığı. (tarih yok). *AB.* ab.gov.tr: https://www.ab.gov.tr/p.php?e=51819 adresinden alındı

T.C. BAŞBAKANLIK Afet ve Acil Durum Yönetimi. (2017). Türkiye'deki Suriyelilerin Demografik Görünümü,Yaşam Koşulları ve Gelecek Beklentilerine Yönelik Saha Araştırması.

T.C. İçişleri Bakanlığı Göç İdaresi Başkanlığı. (2022). https://www.goc.gov.tr/kitlesel-akinlar adresinden alındı

T.C. KALKINMA BAKANLIĞI. (2018). *ON BİRİNCİ KALKINMA PLANI DIŞ GÖÇ POLİTİKASI.* ANKARA: ÖZEL İHTİSAS KOMİSYONU.

TEPEALTI, F. (2020). *AVRUPA BİRLİĞİ'NİN GÖÇ POLİTİKALARI VE TÜRKİYE.* İSTANBUL.

YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİNİN "QAN İÇİNDƏ" ROMANINDA M,P.VAQİF SURƏTİ

COPU OF M.PANAH VAGIF IN YUSIF VAZIR CHAZAMINLI" S NOVEL " IN BLOOD"

Məhərrəmova Elmira

ADPU-nun ETM-nin Tətbiqi Tədqiqatlar

Mərkəzinin əməkdaşı

XÜLASƏ

Yusif Mirbaba oğlu Vəzirov Şuşa bəylərindən olan bir ailədə doğulmuşdu. Atasının bəyliyi 1873-cü ildəidarəsi tərəfindən təsdiq edilmişdi. Vəzirov soyadı isə XVIII əsr Qarabağ hökmdarı İbrahimxəlil xanın yüksək savada, biliyə malik nüfuzlu, adlı-sanlı vəzirlərindən olan Mirzə Əliməmmədağanın tutduğu vəzifə titulu ilə bağlı olaraq nəsildən-nəslə keçmişdi.

Belə bir nəslə mənsub olan Yusifə hərtərəfli istedadı da irsən keçmişdi. Atası Məşədi Mirbaba bir çox ölkəni gəzmiş, İranda, Orta Asiyada, Türkiyədə olmuş, fars və türk dillərini mükəmməl öyrənmişdi. Ədəbiyyata böyük maraq göstərmiş, Füzulini, Firdovsini çox sevərmiş, xanəndələrə muğamatdan dərs deyərmiş. Cavan vaxtlarında yaxşı dolanışığı, var-dövləti olan Məşədi Mirbaba xeyli keçəndən sonra kasıbçılıqla üzləşmişdi. Ağdamda əttar (dərman və ədviyyat satan) dükanı açmış və bu dükan sayəsində ailəsini dolandırmışdı.

Yusif Vəzir əvvəlcə Şuşada "Kor Xəlifə" ləqəbi ilə tanınan Molla Mehdinin məktəbində oxuyur. Lakin burada təhsilin səviyyəsinin aşağı olduğunu görən atası Yusifi Ağdama gətirir. Ona türk və fars dillərini öyrədir. Lakin ata oğlunun həm də rus dilini bilməsini arzulayırdı. Buna görə Yusif Muradbəylidə oxumaq məcburiyyətində qalır. Bir il rus məktəbində təhsil aldıqdan sonra realnı məktəbə hazırlaşmaq üçün 1896-cı ildə yenidən Şuşaya qayıdır.

O dövrdə Şuşa realnı məktəbi tədris və təchizat baxımından bütün Qafqazın orta məktəbləri sırasında birinci yeri tuturdu. Yusif bu məktəbə daxil olsa da, çox yüksək nəticələr qazana bilmir. Yusif əvvəlcə qardaşını, 19 yaşında olanda isə atasını itirir.

1905-1907-ci illərdə Şuşada baş verən milli ədavət, erməni daşnaklarının təbliğatı ilə törədilən qırğınlar Vəzirovlar ailəsini də ata-baba yurdundan didərgin düşməyə vadar edir. Onlar Aşqabada köçürlər.

Mübahisələr, keşməkeşli hadisələr, çətinliklər, bəzən hətta şər və böhtanlar gənc yaşlarından Yusifin yaradıcılığını da addım-addım, qarabaqara izləmişdir. 1907-ci ildə o, "Şahqulunun xeyir işi" adlı hekayəsini yazır. Bundan sonra 20 yaşlı müəllif "Molla Nəsrəddin" jurnalında Qarabağın pir və ocaqlarını kəskin tənqid edən "Müridi-möhtəşəm" sərlövhəli məqalə ilə çıxış edir. Bu, böyük bir qalmaqala səbəb olur.

Yeniyetməlik dövründən taleyi Yusif Vəziri şəhərdən-şəhərə atırdı. Bakıda realnı məktəbdə oxumağa ona Hacı Zeynalabdin Tağıyev kömək edir. O, 1909-cu ildə buranı bitirib Sankt-Peterburqa gedir, sənədlərini Mülki Mühəndislər İnstitutuna verir. Bir aydan sonra fikrini dəyişib Daşkəndə üz tutur. Nəhayət, 1910-cu ildə Kiyevə gəlib Müqəddəs Vladimir adına İmperator Universitetinin Hüquq fakültəsinə qəbul olunur.

Azərbaycanda Yusif Vəzir yazıçı, hüquqşünas və müəllim kimi fəaliyyət göstərir. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq və pedaqoji fakültələrində, daha sonra isə pedaqoji, tibb və neft institutlarında Azərbaycan və rus dillərini tədris edir. Qeyd edək ki, Yusif Vəzir 10-a yaxın Şərq və Avropa dillərini mükəmməl bilirdi.

Ümumiyyətlə, 1930-1935-ci illər yazıçının yaradıcılığının qızğın dövrü sayılırdı. O, "Studentlər", "1917-ci il" və s. romanlarını nəşr etdirir. 1935-ci ildə "Həzrəti-Şəhriyar" adlı komediyasını yazıb

bitirir. L.Tolstoyun, Turgenevin, Neverovun, Qoqolun, Lavrenevin, Seyfulinanın, Hüqonun əsərlərini rus dilindən azərbaycancaya tərcümə edir.

Açar sözlər: Yazıçı, müəllim, şərqşunas,hüquq, tibb

ABSTRACT

Yusif Mirbaba oglu Vazirov was born in a family of Shusha beys. His father's principality was confirmed by his administration in 1873. The surname Vazirov was passed down from generation to generation in connection with the title of Mirza Alimammadaga, one of the highly educated, influential and well-known ministers of the 18th century Karabakh ruler Ibrahimkhalil khan.Joseph, who belonged to such a generation, had inherited a wide range of talents. His father Mashadi Mirbaba traveled to many countries, visited Iran, Central Asia and Turkey, and learned Persian and Turkish perfectly.

He showed great interest in literature, loved Fuzuli and Firdovsi, and taught mugam to singers. In his youth, Mashadi Mirbaba, who had a good life and wealth, faced poverty after a long time. He opened a perfume shop in Aghdam (selling medicines and spYusif Vazir first studied at the school of Mullah Mahdi, known in Shusha as "Blind Khalifa". However, seeing that the level of education here was low, his father brought Yusif to Agdam. He teaches him Turkish and Persian. But the father also wanted his son to know Russian. Therefore, Yusif has to study in Muradbeyli. After studying at a Russian school for a year, he returned to Shusha in 1896 to prepare for the real school.ices) and supported his family through this shop.

The national hatred that took place in Shusha in 1905-1907 and the massacres committed by the propaganda of the Armenian Dashnaks forced the Vazirov family to be expelled from their ancestral homeland. They move to Ashgabat.

Arguments, incidents, difficulties, and sometimes even evil and slander followed Joseph's work step by step from a young age. In 1907, he wrote a story called "Shahgulu's good deeds". After that, the 20-year-old author published an article in the magazine "Molla Nasreddin" entitled "Muridi-magnificent", which sharply criticized the shrines and hearths of Karabakh. This causes a big scandal.

He is leaving for Tashkent. Finally, in 1910, he came to Kiev and was admitted to the Faculty of Law of the Imperial University named after St. Vladimir.

Yusif Vazir works as a writer, lawyer and teacher in Azerbaijan. He teaches Azerbaijani and Russian languages at the faculties of Oriental Studies and Pedagogy of the Azerbaijan State University, and later at the pedagogical, medical and oil institutes. It should be noted that Yusif Vazir was fluent in about 10 Eastern and European languages.

In general, the years 1930-1935 were considered the heyday of the writer's work. He wrote "Students", "1917" and others. publishes novels. In 1935, he wrote and finished his comedy "Hazrat-Shahriyar". Translates works of L. Tolstoy, Turgenev, Neverov, Gogol, Lavrenev, Seyfulina, Hugo from Russian into Azerbaijani

Keywords: Writer, teacher, orientalist, law, medicine

Çəmənzəminlinin iki romanı - “Qızlar bulağı” (1934) və “Qan içində” (əsl adı “İki od arasında”, 1936-1937) əsərləri Azərbaycan ədəbiyyatının roman tarixində öz orijinallığı ilə fərqlənir. Ona görə də ədəbiyyatşünaslar, tədqiqatçılar Yusif Vəzir haqqında söz deyəndə, ilk növbədə, ədibin roman janrının təşəkkülü və inkişafındakı xidmətlərini yüksək qiymətləndirirlər.

Yüksək səviyyədə oxunan, tarixi romanları ilə tanınan, rəğbətlə qarşılanan Yusif Vəzirə münasibət 30-cu illərin ortalarında qəflətən pisləşir. Onu sıxışdırmağa başlayırlar. O dövrdə Stalin repressiyası, “xalq düşmənləri”nin aşkarlanması prosesi bütün Azərbaycan ərazisində həyata keçirilirdi. Yaradıcılıq təşkilatlarında da eyni ab-hava davam edir, ittifaq üzvləri bir-birinə qarşı qaldırılır, iclas və yığıncaqlarda yaradıcılıq işlərindən çox siyasi mövqe ortaya qoyulurdu.

1937-ci ilin martında Yazıçılar İttifaqının plenumu keçirilir. Burada dörd məsələ müzakirəyə qoyulur: H.Cavidin, M.Müşfiqin, Ə.Cavadın, Y.Vəzirin məsələsi. Üç gün davam edən plenumda Yusif Vəzirin "Studentlər" romanı "kontrrevolyusion" mahiyyətli əsər hesab edilir. Bir müddətdən sonra o, işdən çıxarılır. Eyni zamanda dərs dediyi ali təhsil ocaqlarından uzaqlaşdırılır. Yazıçılar İttifaqının üzvlüyündən azad olunur. Yusif Vəzir 1937-ci ilin aprelində tamamladığı "İki od arasında" romanını işdən çıxarıldığı üçün çap etdirə bilmir.

1938-ci ildə "Kommunist" qəzetində çıxan bir elan Y.Vəzirin diqqətini cəlb edir. Orada bildirilirdi ki, Özbəkistan SSR-in Urgənc şəhərindəki Xarəzm Vilayət Pedaqoji İnstitutunda rus dilindən dərs deməyə müəllim yeri tutmaq üçün müsabiqə elan olunur. Yusif Vəzir sənədlərini toplayıb Urgənc şəhərinə göndərir. Müsabiqədən keçib rektorluqdan dəvət alır. 1938-ci ilin avqustunda Urgəncə yola düşür. O, Pedaqoji İnstituta baş müəllim və eyni zamanda təhsil ocağının kitabxanasına müdir təyin olunur.

Bir müddət ona dəymirlər. 1940-cı ildə Çəmənzəminli yenidən yada düşür.

Üstəlik də 1937-1938-ci illərdə Azərbaycanın repressiyaya məruz qalmış bir sıra elm və mədəniyyət xadimlərinin verdikləri ifadələrdə Yusif Vəzirin adı çəkilir. 1940-cı il yanvarın 25-də bu ifadələr əsasında Vəzirov Yusif Mirbaba oğlunun həbs olunması haqqında qərar çıxarılır. Yanvarın 27-də onu Urgəncdə tutub Bakıya gətirirlər. Fevralın 13-də Vəzirovun istintaqına başlanır.

1940-cı il aprelin 16-da ittiham qərarı çıxarılır. İyun ayının 11-də xüsusi müşavirə Vəzirovu antisovet fəaliyyətinə görə 8 il müddətinə islah-əmək düşərgəsində həbs cəzasına məhkum edir.

Görkəmli yazıçının, azadlıq mücahidinin ən böyük nigarançılığı övladlarından və həyat yoldaşı Bilqeyis xanımdan idi. Bir də əsərlərinin, əlyazmalarının itib-batacağından, məhv ediləcəyindən qorxurdu. "Bəraət almış yazıçı" adlı əsərini Özbəkistanda tələbəsi ilə birgə yazmışdı. Həmin əsər Azərbaycana gəlib çatır, sonra isə yoxa çıxır. "İki od arasında" romanını və başqa əlyazmalarını qayınanası Kiçikxanım qoruyub saxlayır.

Y.V.Çəmənzəminli 1943-cü il yanvarın 3-də 55 yaşında Nijni-Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsində vəfat edir. Ölümündən 13 il sonra 1956-cı ilin fevralında ona bəraət verilir.

Xalqını ürəkdən sevən, onun üçün çalışan, yazıb-yaradan görkəmli Azərbaycan ziyalıları sırasında Y.V.Çəmənzəminlinin xüsusi yeri var. Çox təəssüflər olsun ki, zəmanəsinin bir çox şəxsiyyəti kimi, o da nəinki layiqli qiymətini almamış, hətta sürgünə göndərilmiş, əslində, məhv edilmişdir.

Azərbaycan ədəbiyyatı tarixində görkəmli yer tutan sənətkarlardan biri Y.V.Çəmənzəminlidir. Onun hekayə, povest və romanları özünün üslub yetkinliyi, dilinin səlisliyi və şirinliyi ilə diqqəti cəlb edən qiymətli sənət nümunələridir.

Y.V.Çəmənzəminli bədii yaradıcılığa çox gənc yaşlarından başlamışdır. Mətbuatda çap olunmuş ilk yazısı 1907-ci ildə «Molla Nəsrəddin» jurnalında dərc olunan «Müdiri-möhtərəm!» sərlövhəli məktubudur. Ilk bədii əsərini isə Yusif Vəzir 20 yaşında yazmışdır. «Şalıqulunun xeyir işi» adlı bu hekayəni o, təcrübəli ədib Ə.Haqverdiyevə təqdim etmiş və ondan xeyir-dua almışdır.

Y.V.Çəmənzəminlinin üç məşhur romanı vardır. Bunların içərisində «Qan içində» romanı xüsusi yer tutur. XVIII əsrin görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin həyat və fəaliyyətinə həsr etdiyi və 1937-ci ildə yazıb bitirdiyi bu romana Yusif Vəzirin özünün verdiyi əsl ad «İki od arasında» olmuşdur. Sonralar əsəri nəşrə hazırlayan professor Əkbər Ağayev senzura maneələrini nəzərə alaraq onu «Qan içində» adı altında buraxdırmışdır.

Romanın əvvəlində müəllif iki tarixi əsərdən epiqraf gətirmişdir. Bunlardan biri Mirzə Adıgözəl bəyin «Qarabağnamə»si, digəri isə Mirzə Camal Cavanşirin «Qarabağ tarixi» əsəridir. «Qan içində» romanının yazılmasında Y.V.Çəmənzəminli 25 elmi və tarixi mənbədən istifadə etmişdir. Lakin ədib bu mənbələrə yaradıcı şəkildə yanaşmış, orijinal bir əsər yaratmış, onu həyati epizod və surətlərlə zənginləşdirmişdir.
«Qan içində» romanının əsas qəhrəmanı Vaqifdir. Vaqif ağıllı və tədbirli dövlət adamı, incə ruhlu görkəmli şairdir. Romanın ilk səhifələrindən məlum olur ki, Vaqifin ilk ailə həyatı uğursuz olmuş, arvadı vaxtsız dünyadan köçərək yeganə övladları olan Qasımı özündən yadigar qoymuşdur. Şair sonralar bir

qədər yaşlı vaxtında Qızxanım adlı qadınla evlənmiş, lakin bu izdivac ona heç bir xoş ovqat gətirməmiş, daim soyuq münasibətlə müşayiət olunmuşdur.
Qarabağ hakimi İbrahimxəlil xan Vaqifin ağlını, hazırcavablığını, savadını görərək onu özünə mirzəliyə qəbul edir və beləliklə, şairin diplomat, dövlət xadimi kimi fəaliyyətinin bünövrəsi qoyulur. Çox keçmir ki, İbrahimxəlil xan Vaqifi vəzir təyin edir və artıq o bir sıra, ciddi diplomatik, siyasi, hərbi problemlərin həllində iştirak edir, hətta ehtiyac olduqda ordu ilə birlikdə hərbi səfərlərə çıxır.
Vaqifin sarayda yaşayışı yüksək mövqe tutsa da, qəlbi həmişə humanist duyğularla döyünür. O, müharibə meydanında qana bulaşmış insan meyitlərini görəndə ürəyi ağrıyır, saray mühitində rast gəldiyi iyrəncliklərə biganə qala bilmir. Vaqif cürbəcür vasitələrə əl ataraq sarayda xanın qəzəbini boğmağa, onun insan taleləri ilə bağlı sərt hökmlərini yumşaltmağa çalışır.
Vaqif saray adamlarının riyakarlığını və ikiüzlülüyünü, onların mənsəb uğrunda apardığı iyrənc mübarizəni gördükcə saray həyatına nifrət edir, bu barədə fikirlərini deməkdən çəkinmir. Həmsöhbətlərindən biri ilə söhbətində o deyir. «Azərbaycan xanları bir-birilə vuruşur, hakimiyyət üstündə ata oğulu, qardaş qardaşı öldürür. Bir-birinin gözlərini çıxarır, elimiz-obamız xanların kefi üçün qırılıb gedir, amma bu fəlakətlərin qarşısını ala bilmirik».
Vaqifin ən yaxın dostu, ən yaxın həmdəmi Vidadidir. Onların dostluğu qəlb yaxınlığına, ürək birliyinə əsaslanır. Lakin Vidadinin kədər fəlsəfəsinə qarşı çıxan Vaqif həyatdan zövq almagı bacaran, gözəli və gözəlliyi sevən, bu gözəlliyi tərənnüm etməkdən doymayan zərif təbiətli bir insan, incə ruhlu bir şairdir. Bunu onun Vidadiyə dediyi sözlər də təsdiq edir. Vaqif dünyanın son ucunun ölümlü olduğunu bildirib axirət fəlsəfəsinə üstünlük verən Vidadiyə deyir: «Ay Molla Vəli, axı ölümü də Tanrı yaradıb, eşqi də, nəşəni də, gözəli də. Tanrı axirətdə mənə deməzmi: «Ay yasar, sənə ürək verdim sevmədin, dodaq verdim öpmədin, göz verdim o yaşılbaş sonalara doyunca tamaşa etmədin» Onda mən tanrıya nə cavab verərəm?»
Vaqifin təbiətindəki humanizm və həyatsevərliklə saray mühitinin əksliyi onu faciələrə aparır. incə zövq sahibi olan Vaqif əvvəlcə müstəbid iran hökmdarı Qacarın, sonra isə hakimiyyəti xəyanət yolu ilə ələ keçirmiş Məmməd bəyin daş zindanlarına atılır, şərəfsizlərin təhqirlərinə məruz qalır. İbrahimxəlil xanın yaxın adamı olan Vaqifin böyük nüfuzundan ehtiyat edən Məmməd bəy şairi oğlu Qasım ağa ilə birlikdə Xəzinə qayasından atdıraraq qətlə yetirir.
«Qan içində» romanı bizi xalqımızın keçmiş şərəfli tarixi ilə tanış edən bir əsər kimi bu gün də aktual bir mövqedə dayanır və bu gün də oxucu kütləsinin diqqət mərkəzində olaraq sevilə-sevilə oxunur.

. Vətəni dərin məhəbbətlə sevən Y.V.Çəmənzəminli Qarabağ xanlığının tarixindən bəhs edən əsərini təsadüfən «iki od arasında» adlandırmamışdır, Bununla o, xalqının iki böyük qonşu dövlətin - Rusiya ilə iranın məngənəsində qaldığına, bundan ciddi ziyan çəkdiyinə işarə etmişdir.

Romanın əsas qəhrəmanlanndan biri böyük söz ustadı M.P.Vaqifdir. Lakin müəllif M.P.Vaqifi yalnız gözəllikdən ilham alan şair kimi səciyyələndirməmiş, həm də onun eşikağası vəzifəsində xanlıqda mühüm mövqe tutan mahir bir siyasətçi, diplomat obrazını yaratmışdır.

M.P.Vaqifin şair təbiəti ilə eşikağası vəzifəsində fəaliyyəti bir-birini tamamlayır. O, şeir, sənət adamı kimi nə qədər xəlqidirsə, gözəlliyə, xeyirxahlığa nə qədər həssasdırsa, xanlıqdakı vəzifəsində də bir o qədər məsuliyyətli, tədbirli və təəssübkeşdir. Hətta o, bəzən diplomat kimi fəaliyyətində də şairliyindən bəhrələnir və bu ona təkcə Qarabağ xanlığında deyil, qonşu əyalətlərdə də böyük hörmət qazandınr. Heç təsadüfi deyildir ki, M.P.Vaqif Qarabağ xanlığının nümayəndəsi kimi İrakli xanın sarayında təşkil olunan rəsmi tədbirlərdə iştirak etmək üçün Tiflisə təşrif gətirəndə qonşu xanlıqlann nümayəndələri müxtəlif məsələlərə dair məsləhət almaq üçün onunla görüşə can atırlar. Bu cəhətdən Axalsıq paşası Süleymanın nümayəndəsinin qoltuqçu qiyafəsində onun yanına gəlməsi səciyyəvidir. İşin mahiyyəti isə rusların Terek çayına körpü salmaları, dağlardan yollar açıb Tiflisə gəlmələri ilə əlaqədar idi. Ümumi düşmən qarşısında xanlıqların qüvvələrini biriəşdirmələrinin zəruriliyini yaxşı başa düşən M.P.Vaqif eyni zamanda tədbirli olmağı da yaddan çıxarmır, Süleyman paşanın nümayəndəsi ilə diplomatik tərzdə söhbət aparır.

M.P.Vaqifin çox ehtiyatlı, hər şeyi ölçüb-biçən bir siyasətçi olduğu onun İrakli xanın sarayında keçirilən tədbirdə oxuduğu şeirdə daha aydın nəzərə çarpır. Burada Vaqif Rusiya himayəsinə girmiş müstəqil padşah olan Irakliyə yenə vali kimi müraciət edir. Əlbəttə, Vaqif «vali» yerinə «padşah» deyə bilərdi, lakin o, «padşah» sözü ilə Irana qarşı olan münasibəti pozmuş olardı. Bu isə Qarabağ xanlığının xeyrinə deyildi. Beləliklə, Rusiya çarın nümayəndəsi Burnasov şərq diplomatının ehtiyatkarlığına heyran qalır.

M.P.Vaqif təmsil etdiyi Qarabağ xanlığının eşikağası kimi vəzifəsini xanlığın müstəqilliyinə nail olmaqda, qonşularla əlaqələri genişləndirməkdə, doğma diyarın inkişafını mütərəqqi istiqamətə yönəltməkdə görür. O, mühafizəkar Iranla müqayisədə Rusiyanı daha etibarlı himayədar hesab edir. Lakin Vaqif Rusiyanın himayəsinə keçməklə Qarabağ xanlığının müstəqilliyinin məhdudlaşdırılması ilə də barışa bilməzdi. Rusiya çariçasının camaatın güzəranına biganə yanaşması, Gürcüstanla müqayisədə Qarabağ xanlığına fərqli münasibət bəsləməsi Vaqifi bərk narahat edir. Buna görə də o, Tiflisdə Rusiyanın təmsilçisi Burnasovla söhbətində mövqeyini birmənalı şəkildə, lakin çox ehtiyatla ifadə edir.

Əsərdə Vaqifin şair təbiətini, xalqa yaxınlığını, uzaqgörən diplomat olmasını səciyyələndirən belə bədii səhnələr çoxdur. Bütün bunlan ümumiləşdirib aşağıdakı qənaətə gəlmək mümkündür: Y.V.Çəmənzəminli böyük şair Vaqifi sarayda xalqın təmsilçisi kimi xarakterizə etmək istəmişdir. M.P.Vaqif xalq müdrikliyinin təcəssümüdür.

Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığında, o cümlədən "İki od arasında" əsərində tarixilik güclü olmaqla yanaşı, konkret tarixi dövrlə bağlı da maraqlı məlumatlar var. Heç şübhəsiz ki, Yusif Vəzir Çəmənzəminlinin buna nail olmasının səbəbləri olmuşdur. Həmin səbəblər sırasında onun tarixi mənbələri oxuması, bilməsi heç də az rol oynamamışdır. Odur ki, Yusif Vəzir Çəmənzəminlinin tariximizə dərindən bələdçiliyini onun yaradıcılığında hiss etməmək, duymamaq mümkün deyildir.

Y.V.Çəmənzəminlinin "İki od arasında" əsərində xanla Molla Pənah Vaqif arasında olan bir söhbət də maraqlıdır. Belə ki, Molla Pənah Vaqif xana bu gün əlinə qəribə bir kitab düşdüyünü deyir. Onu da deyir ki, həmin kitabda bu ölkənin (yəni Azərbaycanın) tarixi ilə bağlı əhvalat və hadisələr yazılmışdır. Molla Pənah Vaqif həmin əhvalat və hadisələrin bəzilərini danışmağa başlayır. Qeyd edir ki, Məhəmmədin Məkkədən Mədinəyə köçməsindən min il qabaq Qarabağda zərdüştlər yaşamış, Turan elləri Dərbənddən, İskəndər səddindən keçərək buraları yağma etmişlər. Onu da xana nağıl etmişdir ki, "Şahnamə"də rəvayət olunan İran Turan davası Kür çayı ilə Araz çayı arasında baş vermişdir. Söhbətin bu məqamında Ağası bəy müdaxilə edərək deyir ki, Pənah xan Əfşar Fətəli xanın üstünə gedərkən o, yaralanıb Ərdəbildə yatır. Orada qoca bir şeyx onun yarasını sağaldır, həm də Ağası bəyə deyir ki, Aran böyük bir ölkə olmuş, mərkəzi isə Gəncədə yerləşmişdir. Elə bu an İbrahim xan Vaqifdən həmin vaxt ermənilərin harada olmasını soruşmuşdur. İbrahim xanın sorğusu belə olmuşdur:

"- Bəs bu ermənilər harada imiş?

Vaqif sakit səslə:

- Ermənilər buralara çox sonralar gəlmişlər; bunlar Çingiz və Teymurləngin zülmündən qaçıb, bu dağlara sığınmışlar. Görmürsənmi, erməni yaşayan yerlərə "sığınaq" deyirlər... ermənilər başı bəlalı tayfa olublar".

İbrahim xanın Aran dövründə ermənilərin harada olmasını soruşması, Molla Pənah Vaqifin ermənilərin buralara sonralar gəlməsini deməsi istər-istəməz sual doğurur. İbrahim xan niyə ermənilərin harada olmasını (Aran dövründə) soruşur? Niyə Molla Pənah Vaqif bu suala cavab verir? Həm də ermənilərin buralara sonralar gəldiyini xanın nəzərinə çatdırır. Görünür ki, İbrahim xanın dövründə də buralarda, o cümlədən Qarabağda sığınacaq tapmış ermənilər rahat dayanmayıb, minbir oyundan çıxıblar. Doğrudan da Qarabağ xanlığı dövründə erməni məlikləri və keşişləri rus sarayı ilə əlaqələrini davam etdirmiş, Qarabağın hərbi əhəmiyyəti olan bütün sirlərini onlara çatdırmışlar. Hətta rus sarayının buraya olan diqqətini artırmaq üçün onlara vədlər vermiş, bu ərazilərin zənginliyindən danışmış, qızıl və gümüş mədənlərinin olduğunu söyləmişlər. Cümşüd qorxu içində gəldi. Xan Ağası bəylə oturub, düşüncəyə dalmışdı. Cümşüd salam verdi. Xan onun salamını almadı. Bir az ayaq üstə qaldıqdan sonra xan onu qəzəblə süzüb:– Otur! – dedi və həyəcanla danışmağa başladı:

– Balam, sən erməni, mən müsəlman – heç məndən əziyyət görmüsən?

Cümşüd itaətli bir halda:

–Allah eləməsin, xan, – dedi, həmişə hörmət görmüşük!

–Bacın neçə ildir ki, mənim əyalımdır, məndən güldən ağır bir şey eşidib?

–Allah eləməsin!

–Atan məndən, ya rəhmətlik atamdan heç incimişdi?

–Allah rəhmət eləsin, nə rəhmətlik Pənah xandan, nə də səndən bir tikə də inciməyib.

–Yaxşı, bəs bu məliklər məndən nə istəyir? Deyirlər ki, Dızaq məliyi İsa ruslara bel bağlayıb, alt-üst danışır. Bilmir ki, bir İsanı, on İsanı, yüz İsanı, – burada xanın səsi yüksəldi, – yox eləmək mənim əlimdə bir qurtum su içmək kimi bir şeydir!..

Molla Pənah Vaqif xana bu gün əlinə qəribə bir kitab düşdüyünü deyir. Onu da deyir ki, həmin kitabda bu ölkənin (yəni Azərbaycanın) tarixi ilə bağlı əhvalat və hadisələr yazılmışdır. Molla Pənah Vaqif həmin əhvalat və hadisələrin bəzilərini danışmağa başlayır. Qeyd edir ki, Məhəmmədin Məkkədən Mədinəyə köçməsindən min il qabaq Qarabağda zərdüştlər yaşamış, Turan elləri Dərbənddən, İskəndər səddindən keçərək buraları yağma etmişlər. Onu da xana nağıl etmişdir ki, "Şahnamə"də rəvayət olunan İran Turan davası Kür çayı ilə Araz çayı arasında baş vermişdir. Söhbətin bu məqamında Ağası bəy müdaxilə edərək deyir ki, Pənah xan Əfşar Fətəli xanın üstünə gedərkən o, yaralanıb Ərdəbildə yatır. Orada qoca bir şeyx onun yarasını sağaldır, həm də Ağası bəyə deyir ki, Aran böyük bir ölkə olmuş, mərkəzi isə Gəncədə yerləşmişdir. Elə bu an İbrahim xan Vaqifdən həmin vaxt ermənilərin harada olmasını soruşmuşdur. İbrahim xanın sorğusu belə olmuşdur: "- Bəs bu ermənilər harada imiş? Vaqif sakit səslə: - Ermənilər buralara çox sonralar gəlmişlər; bunlar Çingiz və Teymurləngin zülmündən qaçıb, bu dağlara sığınmışlar. Görmürsənmi, erməni yaşayan yerlərə "sığınaq" deyirlər... ermənilər başı bəlalı tayfa olublar". İbrahim xanın Aran dövründə ermənilərin harada olmasını soruşması, Molla Pənah Vaqifin ermənilərin buralara sonralar gəlməsini deməsi istər-istəməz sual doğurur. İbrahim xan niyə ermənilərin harada olmasını (Aran dövründə) soruşur? Niyə Molla Pənah Vaqif bu suala cavab verir? Həm də ermənilərin buralara sonralar gəldiyini xanın nəzərinə çatdırır. Görünür ki, İbrahim xanın dövründə də buralarda, o cümlədən Qarabağda sığınacaq tapmış ermənilər rahat dayanmayıb, minbir oyundan çıxıblar. Doğrudan da Qarabağ xanlığı dövründə erməni məlikləri və keşişləri rus sarayı ilə əlaqələrini davam etdirmiş, Qarabağın hərbi əhəmiyyəti olan bütün sirlərini onlara çatdırmışlar.

Açar sözlər: Qarabag, Xan, Rusiya, İran, Vaqif.

ƏDƏBİYYAT

1.K.Talıbzadə "Yusif Vəzir Çəmənzəminli" Bakı, 1981ci il

2.K.Məmmədov "Ömrün izləri" "Azərbaycan qəzeti" Bakı,1981

3.O.Vəzirov "Atam Yusif Vəzir Çəmənzəminli" Azərnəşr,1997

DƏDƏ ÖMƏR RÖVŞƏNI YARADICILIĞINDA EŞQ MOTİVİ

Muradova Şəfa Qüdrət qızı

ADPU

AMEA-nın Məhəmməd Füzuli adına

Əlyazmalar İnstitutunun dissertantı

XV əsrin təsəvvüf şairi Dədə Ömər Rövşəni (1407-1487) yaradıcılığından bizə onun məsnəviləri, qəsidələri, qəzəlləri, tərcibəndləri, qitələri, tuyuğları, lüğazları, tərkibbəndi, müxəmməsi, müfrədatı və silsilənaməsi məlumdur. Əlimizdə olan divanı Rövşəninin kamil şair – filosof, böyük mütəfəkkir olduğunu deməyə əsas verir. Şairin divanında üç məsnəvi vardır. "Miskinlik kitabı", "Çobannamə", "Neynamə". Şairin məsnəviləri onun dünyagörüşünü müxtəlif baxımdan əsk etdirən ümumi nəzəri hissədən və vahid süjet xətti olan nəsihətamiz hekayələrdən ibarətdir. Bu baxımdan prof. A. Musayeva onun məsnəvilərini nəzəri hissə və nəzəri hissənin faktlarlarla əsaslandırılması olmaqla şərti olaraq iki hissəyə ayırır.

Rövşəni də mürşidi Seyid Yəhya kimi elmə böyük dəyər vermişdir. Əgər Bakuvi Həzrət Əlinin (ə) "elmi insan olmayana öyrədən elmə zülm edər" hədisindən çıxış edərək, "alim zəlil olsa, aləm də zəlil olur"deyirdisə, Rövşənidə bu fikir aşağıdakı formada təzahür edir:

Əməl eyləməsə elm ilə alim,

Olur cahil olub nəfsinə zalim.(157, 34a)

Elə burada qeyd etməyi lazım bilirik ki, sələfdən xələfə ötürülən bu münasibətin Rövşəni xələfi Gülşəni yaradıcılığında daha poetik ifadəsinə rast gəlinir:

Elmə görə qıldı mələyik sücud,

Adəmə əmr etügi dəmdə Xuda. (33.10)

Allahın mələkləri Adəmə səcdə etdirməsinə səbəb kimi elmi göstərən şair bu elmin eşq olduğunu deyir:

Eşq bil Adəm məhəbbət məzhəri məzhər nəmud

Kim, mələyik ana nisbət əmr ilə qılmış sücud. (33.47)

Elimin asanun oxu, bil nədür

Adəm isən daniş edip rəhnüma. (33.10)

Şairin sirr saxlamaq haqqında fikirləri də maraqlıdır. "Dər nəsihəti – kətma – ni – sirr quyəd" bölməsində sirr saxlamağı yerin toxumu daxilində gizləyib ondan bol məhsul əmələ gətirməsi ilə müqayisə edərək "başını ver, sirrini vermə, çünki sirri vermək divanəlik, saxlamaq mərdanəlikdir. Cami – həqq içənlər sirri bilib gizləyərək allahın döğru yolunu izləyirlər. Haqq yoluna rəhbərlik edənlər özündən keçməyə ərlik demişlər. Peyğəmbər dedi ki, hər kim ki sirr gizlər, o məqsədinə çatar " kimi fikirləri nəzm yolu ilə ifadə etmişdir.

Şair Allahı sevən insanları üç bölüyə aid edir. Binici bölüyə aid edilənlər bir camdan sərxoş olaraq Allah eşqindən vəcdə gələnlərdir ki, buraya Yəhya bin Məaz Racini aid edir.

İkinci bölükdə camdan doymayaraq dillərindən "hu-hu" kəlməsi düşməyənlərdən söz açır və Mollayi Rumini anır.

Üçüncü bölüyə daxil olanları "Allahın sevmədikləri" adlandırır. Buraya çox yatıb, çox yeyənləri aid edir və növbəti hissədə "bu gün qiblə edinsən mətbəxi sən, Yarın yer edinsən duzəxi sən" deyə az yeyib, az danışıb, az yatmağı təbliğ edir.

Şair səbr, nəfsin tərki, həqarət, heyrət, özündən razılıq kimi xüsusiyyətlərdən bəhs edərək sadalananların hər biri barədə fikirlərini bu əsərdə əks etdirmişdir.

Şairin məsnəviləri sırasında olan "Çobannamə" və "Neynamə"məsnəviləri Cəlaləddin Ruminin "Məsnəviyi – mənəvi" əsərindən tərcümədir. "Çobannamə" məsnəvisi şairin öz qeydinə görə h.880 (m. 1475) ci ildə bitmişdir. Bu əsərdə çobanla bağlı konkret sujetdən əlavə iki hekayə, dörd münacat, altı nəsihət, iki təmsil vardır (75,41)

Əsər münacatla deyil, Ruminin tərifi ilə başlayır. Şair onu ` Allahın aşiqi, özü kimi sözü də allahın dostu olan adlandırır. Mövlanənin mədhindən sonra əsər Musanın (ə) tura gəlməsi ilə başlayır. Əsərin qısa məzmunu belədir. Musa (ə) bir çobanın dilindən belə bir münacat eşidir: Ey Allahım! Bu qədər vaxtdır ki, sənin aşiqinəm. Mənə harada olduğunu de, sənin çarığını tikim, önünə süd, çörək gətirim. Xirqəni yamayım, saçını darayım, təlxəklik edib səni güldürüm, öpə - öpə ayağını ovum. Sənə yaman söz deyəni öldürüm, hər nə işin olsa mənə buyur, sənə canla xidmət edim. Mən ki, sənin aşiqin olmuşam, bu sürü ilə qoyunum sənə qurbandır. Kaş ki, mənə sənin yerini desinlər.

Musa çobandan süd sağıb verdiyin kimdir? – deyə soruşanda, çoban "Allahdan başqa kimim var? " cavabını verir. Musa çobana "sənin danışdıqların küfrdür" söyləyir. Çoban peyğəmbərin bu sözlərini eşidib özundən gedir. Ayılanda "ona bu sözləri münacat deyə zövq ilə söyləyirdim, mən indi neyləyim?" deyir.

Uca və cəlallı Tanrı həzərətləri Musaya iki dəfə xitab edərək "bəndəni məndən niyə döndərdin" deyə məzəmmət edir. Bundan sonra "Dər bəyani sifəti – şəban" bölməsi gəlir ki, burada çobanın xüsusuiyyətlərindən bəhs olunur. Onun baxışı ilə ürək dağlayan, söz söyləməkdən çəkinən, qulluq edib haqqı verilməyən, geyimi çirkli, qərəzsiz danışan, sözü düz, ağzı pak, sadə dil olduğöu söylənilir. Tanrının qəzəb və məzəmmətindən sonra Musa peyğəmbər çobanı axtarmağa başlayır. Tapdıqdan sonra ona danışdıqlarının küfr olsa da haqq qatında iman kimi qiymətləndirildiyini deyir. Bu sözləri eşidən çoban öz halından xəbərdar edərək onu qınayır. Musa (ə) isə çobanı tərifləyərək ona Allahı tanimaqda mənim mürşidim oldun deyir. Bu hekayədən sonra "Nəsihət" başlıqlı parçada şair çobanın əhvalatından çıxış edərək nəsihətamiz fikirlər söyləyir. O hekayədən ibrət götürənlər gərək heç kimi təhqir etməyə, kimsəyə alçaq nəzərlərlə baxmaya, başqasını dövlətli (zəngin), özünü yoxsul (fəqir) bilə, ürəyi açıq olub kimsəyə qarşı kin saxlamaya. Pis xasiyyətli deyil, xoşrəftar ola, öz işini özgəyə gördürməyə, birbaşa soz deməkdən çəkinə – deyə nəsihətini "bu deyilənlər adam olan üçün bəsdir" kəlməsi ilə bitirir.

"Neynamə" məsnəvisinin "Dər pərvəriş yaftəne – ney əz eşq və sualü cəvab əz yekdigər" hissəsində Eşqlə Neyin maraqlı və fəlsəfi mənalı sual – cavabı verilir. Məzmunu belədir: Ney eşqdən soruşur ki, adın nədir? Eşq xoş nitqlə sözə başlayaraq adının Eşq olduğunu deyir. Hamının - yarın da, əğyarın da onu Eşq adlandırdığını deyir. Mənim işim hər zaman aşüftəlik, məstlik olar. Sonra Eşq Neydən adını soruşur. Ney cavab verir: Ey xoşbəxt mən Neyəm. Eşq bunu eşidib Neyə belə deyir. Niyə mənəmliklə "mən" deyirsən? Necə Neysən, səndə ah fəqan hanı? Niyə sərv kimi dikbaşsan, eşq şərabını görməz olursan? Sən özünü mənə təslim et, mən səni ney edərəm. Beləliklə, Eşq Neyi özünə aşiq edir. Bu hissəyə ikinci bir hekayə də daxil edilir ki, bu da yarpaqla Allahın söhbəti misalında verilərək "Hər şeyə qadir Odur" fikrini tərənnüm etmək üçün vasitə kimi işlənilmişdir.

Neyin xüsusiyyətlərindən bəhs edən başqa bir parçada şair Neyin daim "hu" deməyinin sirrini belə nəql edir: İmam Əli (ə) eşq şərabından daddıqdan sonra bir çöx sirrləri faş etmək istədi. Həzrəti Məhəmməd (ə) ona qarşı çıxdıqda Əli danışmadan dayana bilməciyini söylədi. Bu zaman peyğəmbər ona belə olan halda sirrini quyuya deməyi məsləhət gördü. Əli (ə) bir quyuya "hu" kəlməsini söylədi. Lakin o bir kəlmə quyuya qovğa saldı. O quyuda bir qamış bitdi ki, təsirindən quyunun suyu qana döndü. Neyin "hu" deməyinin sirri elə o kəlmədən yaranmasındadır.

Daha bir hekayə: Bir adam qamışdan tütək düzəldib çalmağa başlayır. Eşidənlər onu zövqlə dinləyir. Həzrəti Əli (ə) bunu görüb yaxınlaşır. Yığışanlardan Neyin nəğməsini başa düşüb – düşmədiklərini soruşur. Cavabında ona deyirlər: "ya Əli, Ney dilini anlamaz "illa vəli". Əli (ə) onlara neyin sirrli nəğməsini izah edərək deyir: Ney mənə, ey Əli, mən sənin vasitənlə məqsədimə yetmişəm. Buna görə əvvəldən axıra sənin bəndənəm. Sənin pünhan sirrlərin məndə gizlənir.

"Hu"derəm gəh, "Həq" derəm gəh, "Ney" derəm,

Sən bəni ney sanma kim, bən "Heydər"əm.(75,289)

Bu sözləri eşidən Həzrəti Əli (ə) Neyi mədh etməyə başlayaraq onu əhli -eşqin həmdəmi, qaranlıq ürəklərin işıqlandırıcısı, zikri - həqq edən adlandırır.

Əsərin "Dər bəyani – an ke məqsud əz ney abdali həqqəst " adlı bölməsində şair neyi Allahın abdalı adlandırır. Abdalsız təriqət əhli olmağın namümkün olduğunu vurğulayaraq, Xudanın yolu ilə getməyin və ilahi eşqə çatmağın yolunun mümkünlüyünün abdal vasitəsi ilə olduğunu deyir.

Dədə Ömər Rövşəninin qəzəllərində sufi görüşlərini izlədikdə, onun təsəvvüf haqqında müxtəlif fikirlərinin nəzmə çəkildiyinin şahidi oluruq.

Aşiq olub ol sagü səlamət qamu dəmdə

Bieşq olan xəstə olur, heç sağ olmaz (157.113b)

Rövşəninin fikrincə, aşiq olan şəxs sağ-salamat, eşqə düşməyənlər isə hər zaman xəstə olar. Çünki aşiq olanları Allah sevir, sevdiklərini isə qoruyur. Ona görə də aşiq olanlar heç nədən qorxmamalıdır. Şairin başqa bir qəzəlində bu fikir aşağıdakı kimi ifadə olunur:

Aşiq ola gər ta ki gedə qalmiyə qorqu,

Qurtulmaq olur eşq olucaq xövfü xətərdən. (157.119b)

Xəlvətiyyə təriqətinin nümayəndəsi olan Dədə Ömər Rövşəni yaradıcılığında təsəvvüf ideyalarının təbliği, dini motivlərin tərənnümü və Xəlvətiyyə təriqətinin mahiyyətini açan ilahi eşq geniş şəkildə əks olunmuşdur.